# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## İYİRMİ DÖRDÜNCÜ KİTAB

## APREL 2007 - İYUN 2007

AZƏRNƏŞR
BAKI - 2015

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR ✸ NİTQLƏR

BƏYANATLAR ✸ MÜSAHİBƏLƏR

MƏKTUBLAR ✸ MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2015

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2015, 408 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «İnkişaf – məqsədimizdir» çoxcildlik əsərlərinin bu cildində Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzuna, iqtisadi potensialının möhkəmlənməsinə, regionların sosial inkişaf proqramının həyata keçirilməsi ilə əlaqədar Qazax, Tovuz rayonlarına, Gəncə şəhərinə səfərləri, bu rayonların sosial, iqtisadi və mədəni cəhətdən inkişafına həsr olunmuş çıxışları, nitqləri, tövsiyələri öz əksini tapmışdır.

Kitabda prezident İlham Əliyevin Misirə, Moskvaya, Polşaya, Gürcüstana səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə görüşləri, danışıqları, ölkələr arasında ikitərəfli əlaqələrin, beynəlxalq əməkdaşlığın daha da möhkəmlənməsi və genişlənməsinə eyni zamanda, Bakıya rəsmi səfərə gəlmiş Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko, onların başçılıq etdiyi nümayəndə heyətləri ilə keçirdiyi görüşlərə, danışıqlara dair materiallar toplanmışdır.

Burada həmçinin, Azərbaycana gəlmiş çoxsaylı xarici nümayəndə heyətləri ilə görüşləri, bəyanatları, MENA agentliyinə və Fransanın «La Lettre diplomatigue» jurnalına müsahibəsi, 28 May Respublika günü münasibəti ilə rəsmi qəbullar və Bakıda «Xəzər Neft-Qaz neftayırma və Neft Kimyası – 2007» XIV Beynəlxalq konfransda çıxışları və bir çox digər materiallar dərc olunmuşdur.

**İSBN 978-9952-8100-7-3**

Ə **0801000000** / **M – 651(07) – 2015**

**BBK - 32**

© Azərnəşr, 2015

## İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.*

*Bakıda «Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu» mövzusunda beynəlxalq konfransda iştirak edən Ekmələddin İhsanoğlu bu tədbirin ölkəmizdə keçirilməsinin əhəmiyyətini vurğuladı və onun yüksək səviyyədə təşkil olunduğunu söylədi. Qonaq Azərbaycan prezidentinin Koreya Respublikasına uğurla həyata keçirilmiş dövlət səfərini maraqla izlədiyini bildirdi. Ekmələddin İhsanoğlu İslam Konfransı Təşkilatı ilə Azərbaycan arasında əlaqələrin daim genişləndiyini və müvəffəqiyyətlə inkişaf etdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə İslam Konfransı Təşkilatı arasında əməkdaşlığın uğurla davam etdirilməsindən məmnunluğunu ifadə etdi, ölkəmizin bu qurumla əlaqələrinin bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYJRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveyjrini qəbul etmişdir.*

*Azərbaycana yenidən səfərə gəlməsindən məmnunluğunu ifadə edən Əbdüləziz bin Osman əl-Tüveyjri rəhbərlik etdiyi təşkilatın son aylar ərzindəki fəaliyyəti haqqında prezident İlham Əliyevə məlumat verdi və bildirdi ki, İSESKO Azərbaycanla əlaqələrinə xüsusi önəm verir. Qonaq məmnunluqla vurğuladı ki, İSESKO-nun Heydər Əliyev Fondu ilə əlaqələri də yüksək səviyyədədir.*

*Ölkəmizlə İSESKO arasında münasibətləri yüksək qiymətləndirən dövlətimizin başçısı bu təşkilatın fəaliyyətinin islam dünyası üçün xüsusi önəmi olduğunu vurğuladı. Prezident İlham Əliyev cənab Əbdüləziz bin Osman əl-Tüveyjrinin qısa dövr ərzində İSESKO-nun dünyada rolunun artırılmasına və təşkilatın gücləndirilməsinə nail olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Əbdüləziz bin Osman əl-Tüveyjrini Azərbaycanın yüksək mükafatı – «Şöhrət» ordeni ilə təltif etdi.*

*İSESKO-nun Baş direktoru onun fəaliyyətinə verilən yüksək qiymətə görə prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi.*

## BMT-nin FİKİR VƏ SÖZ AZADLIĞI HÜQUQUNUN TƏŞVİQİ VƏ QORUNMASI ÜZRƏ XÜSUSİ MƏRUZƏÇİSİ AMBEYİ LİQABON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında BMT-nin fikir və söz azadlığı hüququnun təşviqi və qorunması üzrə xüsusi məruzəçisi Ambeyi Liqabonu qəbul etmişdir.*

*Ambeyi Liqabon Bakıda keçirilən «Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu» mövzusunda beynəlxalq konfransa dəvət aldığına görə minnətdarlığını bildirdi və tədbirin əhəmiyyətini vurğuladı.*

*Görüşdə Azərbaycanda fikir və söz azadlığının təmin edilməsi sahəsində görülən tədbirlər, bu sahədə Azərbaycan ilə BMT arasındakı əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ PARLAMENTİNİN KEÇMİŞ SƏDRİ HİKMƏT ÇƏTİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında Türkiyə parlamentinin keçmiş sədri Hikmət Çətini qəbul etmişdir.*

*«Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu» mövzusunda beynəlxalq konfransın Bakıda yüksək səviyyədə təşkil olunduğunu vurğulayan Hikmət Çətin belə mötəbər tədbirlərin Azərbaycanda keçirilməsini ölkəmizin beynəlxalq aləmdə qazandığı uğurların təzahürü kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev ölkəmizdə bu səpkidə beynəlxalq konfransların müntəzəm olaraq keçirilməsinin böyük əhəmiyyət daşıdığını və Azərbaycanın dünyada mövqelərinin möhkəmlənməsində mühüm rolunu vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ

*26 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Rusiya Federasiyasının ölkəmizdəki səfirliyində olmuşdur.*

*Dövlətimizin başçısı Rusiya Federasiyasının birinci prezidenti Boris Nikolayeviç Yeltsinin vəfatı ilə əlaqədar başsağlığı vermiş, «Xatirə kitabı»na ürək sözlərini yazmışdır.*

## ATƏT-in MƏTBUAT AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ MİKLOŞ HARAŞTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Prezident sarayında ATƏT-in mətbuat azadlığı üzrə nümayəndəsi Mikloş Haraştini qəbul etmişdir.*

*Mikloş Haraşti Azərbaycanda «Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu» mövzusunda beynəlxalq konfrans kimi mötəbər tədbirlərin keçirilməsinin mühüm əhəmiyyət daşıdığını vurğuladı.*

*Prezident İlham Əliyev bu səpkidə beynəlxalq əhəmiyyətli konfransların keçirilməsi üçün Azərbaycanda lazımi şəraitin mövcud olduğunu bildirdi.*

*Görüşdə Azərbaycanda kütləvi informasiya vasitələrinin fəaliyyəti, söz və mətbuat azadlığının təmin edilməsi sahəsində görülən işlər barədə fikir mübadiləsi aparıldı.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEX KAÇİNSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ölkələrimiz arasındakı münasibətlərin hazırkı səviyyəsi böyük məmnunluq doğurur. Azərbaycan və Polşa bu gün həm ikitərəfli qaydada, həm də beynəlxalq qurumlar çərçivəsində uğurla əməkdaşlıq edirlər.

Əminəm ki, bu yaxınlarda ölkəmizə səfəriniz, apardığımız geniş fikir mübadiləsi və müzakirələr imzaladıgımız birgə bəyannamədə öz əksini tapmış niyyət və məramımızın həyata keçirilməsinə, dostluq və əməkdaşlığımızın hərtərəfli inkişafına yeni təkan verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Polşa xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 aprel 2007-ci il*

## XANIM QALİNA VİŞNEVSKAYAYA

Hörmətli Qalina Pavlovna!

Həyat yoldaşınız, həmyerlimiz, dünya musiqi mədəniyyətinin görkəmli xadimi Mstislav Leopoldoviç Rostropoviçin vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, Mstislav Rostropoviçin bütün doğmalarına və yaxınlarına ən dərin hünzlə başsağlığı verir və dərdinizə şərik çıxıram.

Dünya şöhrətli musiqiçi-ifaçı, Tanrı vergisi olan violonçelçalan, dirijor, planetin ən yaxşı simfonik orkestrləri ilə misilsiz uğurla çıxış etmiş Mstislav Rostropoviçin adı dünya musiqi sənətinin xəzinəsinə əbədi daxil olmuşdur.

Mstislav Rostropoviç həqiqətən, dünya vətəndaşı, görkəmli ictimai xadim, humanizmin və ümumbəşəri dəyərlərin ülvi amallarını həmişə və hər yerdə qoruyan ən yüksək mənəviyyata malik insan olmuşdur. O bizim xatirəmizdə həmişə parlaq, qeyri-adi şəxsiyyət, gözəl, son dərəcə cəzbedici və xariqüladə bir insan kimi qalacaqdır.

Bizim hamımıza ağır, əvəzsiz itki üz vermişdir. Mən və Mehriban xanım bu dərdi Sizinlə bölüşür, dərindən kədərlənir və Sizə səmimiyyətlə başsağlığı veririk.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 aprel 2007-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN DÜNYA ŞÖHRƏTLİ MUSİQİÇİ VƏ DİRİJOR MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA SƏFƏRİ

*28 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya şöhrətli musiqiçi və dirijor maestro Mstislav Rostropoviçin dəfn mərasimində iştirak etmək üçün aprelin 28-də Moskvaya yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 28-də Moskvaya gəlmişdir.*

*Azərbaycan dövlətinin başçısını və xanımı Mehriban Əliyevanı «Vnukovo-2» hava limanında Rusiya Xarici İşlər Nazirliyinin yüksək vəzifəli şəxsləri, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu qarşıladılar.*

* * *

*Azərbaycan dövlətinin başçısı və xanımı Mehriban Əliyeva aprelin 29-da böyük musiqiçinin ruhuna dua oxunması mərasiminin keçirildiyi Xilaskar İsa Məsih kilsəsinə gəldilər. Prezident İlham Əliyev və xanımı Mstislav Rostropoviçin həyat yoldaşı Qalina Vişnevskayaya, mərhumun doğmaları və*

*yaxınlarına dərin hüznlə başsağlığı verdilər, onların kədərinə şərik olduqlarını bildirdilər.*

*Dövlətimizin başçısı və xanımı mərhumun tabutu yanında dayanaraq, görkəmli həmyerlimizə son borclarını verdilər.*

*Böyük musiqiçinin xatirəsini yad etməyə gələn insan axınının ardı-arası kəsilmirdi. Xilaskar İsa Məsih kilsəsinə dua mərasiminə gələnlər arasında İspaniya kraliçası Sofiya, tanınmış incəsənət, siyasət, elm xadimləri vardı. Dünya musiqi tarixində silinməz iz qoymuş Mstislav Rostropoviç parlaq, hərtərəfli şəxsiyyət, əsl dünya miqyaslı insan idi. Onun uçurulmuş Berlin divarı yanında violonçeldə ifası, habelə 1991-ci ilin avqustunda «QKÇP»-yə qarşı etirazı məşhur musiqiçinin humanist mövqeyinin, onun despotizmlə barışmazlığının sübutudur.*

*Bakılı Mstislav Rostropoviç azərbaycanlıların yaddaşında dost kimi qalmışdır. Azərbaycanın yaradıcı gənclərinə daim kömək etmiş, geniş xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmuş, uşaqların sağlamlığının qorunmasına yönəlmiş humanitar proqramları dəstəkləyən insanı ölkəmizdə məhz belə adlandırırlar. Prezident İlham Əliyevin Qalina Vişnevskayaya ünvanladığı başsağlığı teleqramında deyilir: «Mstislav Rostropoviç həqiqətən, dünya vətəndaşı, görkəmli ictimai xadim, humanizmin və ümumbəşəri dəyərlərin ülvi amallarını həmişə və hər yerdə qoruyan ən yüksək mənəviyyata malik insan olmuşdur. O bizim xatirəmizdə həmişə parlaq, qeyri-adi şəxsiyyət, gözəl, son dərəcə cəzbedici və xariqüladə bir insan kimi qalacaqdır. Bizim hamımıza ağır, əvəzsiz itki üz vermişdir».*

*Azərbaycan dövlətinin başçısı və xanımı həmin gün Mstislav Rostropoviçin Novodeviçya qəbiristanlığında dəfn mərasimində iştirak etdilər. Onlar böyük musiqiçini son mənzilə yola salaraq məzarına torpaq tökdülər, Qalina Vişnevskayaya bir daha başsağlığı verdilər.*

* * *

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sonra Rusiyanın birinci prezidenti Boris Yeltsinin məzarını ziyarət*

*edərək gül qoydular, görkəmli siyasi və dövlət xadiminin maestro Mstislav Rostropoviçin dəfn mərasimində iştirak edən xanımı Naina Yeltsinaya da başsağlığı verdilər.*

*Azərbaycan dövlətinin başçısı Rusiyanın tanınmış jurnalisti, təyyarə qəzasında həlak olmuş Artyom Borovikin də məzarını ziyarət edərək gül qoydu.*

* * *

*Zəmanəmizin görkəmli musiqiçisi maestro Mstislav Rostropoviçin dəfn mərasimində iştirak etmək üçün Moskvada səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev aprelin 29-da Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

# RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MUXU ƏLİYEVİN AZƏRBAYCANA SƏFƏRİ

*30 aprel 2007-ci il*

*Aprelin 30-da Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu Əliyev Azərbaycana birgünlük səfərə gəlmişdir.*

*Heydər Əliyev adına Beynəlxalq Hava Limanında hörmətli qonağı Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Dağıstanın ölkəmizdəki daimi nümayəndəliyinin rəhbəri Məhəmməd Qurbanov və digər rəsmi şəxslər qarşıladılar.*

## Ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət

*Dağıstan Respublikasının Prezidenti Muxu Əliyev və onun rəhbərlik etdiyi nümayəndə heyətinin üzvləri aprelin 30-da Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla andılar və məzarı önünə əklil qoydular.*

*Qonaqlar 1942–48-ci illərdə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi işləmiş görkəmli dövlət xadimi Əziz Əliyevin və oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini yad etdilər və məzarları önünə əklillər, tər gül dəstələri düzdülər.*

* * *

*Sonra Şəhidlər xiyabanına gələn dağıstanlı qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həlak olmuş Vətən övladlarının xatirəsini andılar, «Əbədi məşəl» abidəsi önünə əklil qoydular.*

## Heydər Əliyev Fondu ilə tanışlıq

*Dağıstan Respublikasının Prezidenti Muxu Əliyev aprelin 30-da Heydər Əliyev Fondunda olmuşdur.*

*Fondun icraçı direktoru Anar Ələkbərov hörmətli qonağa ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış fondun məqsədləri barədə məlumat verdi.*

*Fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlarla, Moskvada keçmiş SSRİ-nin rəhbərlərindən biri olarkən genişmiqyaslı fəaliyyətini əks etdirən fotosənədlərlə tanış olan Muxu Əliyev ümummilli liderin ailə albomundan götürülmüş şəkillərə, ötən əsrin nəhəng tikintilərindən olan Baykal–Amur dəmir yolu magistralının (BAM) çəkilişinə uğurla rəhbərlik etdiyinə görə ona verilmiş xatirə medalına, BAM-ın 1 nömrəli sərnişini vəsiqəsinə, ulu öndərin layiq görüldüyü yüksək orden və mükafatlara, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin keçdiyi ərazilərin maketinə xüsusi maraq göstərdi.*

*Dağıstanlı qonaq görkəmli dövlət xadimi Heydər Əliyevin xatirəsinin bütün keçmiş İttifaq məkanında, xüsusilə qonşu Dağıstanda həmişə hörmətlə anıldığını, onun bütün Qafqazın müdrik ağsaqqalı kimi tanındığını bildirdi.*

*Muxu Əliyevə məlumat verildi ki, fondun əsas məqsədləri görkəmli siyasi xadim Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, xarici qonaqlarda əyani təsəvvür yaratmaqdan, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir. Fond həm də genişmiqyaslı layihələr həyata keçirir, görkəmli siyasi xadimin arzularının reallaşmasına öz töhfəsini verir.*

*Muxu Əliyev Xatirə kitabına ürək sözlərini yazdı, görkəmli şəxsiyyətin şərəfli adını daşıyan fondla tanışlıqdan zəngin təəssürat aldığını ifadə etdi.*

*Anar Ələkbərov fondun prezidenti Mehriban xanım Əliyevanın adından Dağıstan Respublikasının prezidentinə «Qarabağ xanəndələri» musiqi albomunu hədiyyə etdi.*

*Dağıstan Respublikasının Prezidenti M.Əliyev xatirə olaraq fonda hədiyyə təqdim etdi.*

## Dağıstan Azərbaycan sərmayələrinə böyük maraq göstərir

*Aprelin 30-da Azərbaycanın Baş naziri Artur Rasizadə Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.*

*Prezident Muxu Əliyev Rusiya Federasiyasının mühüm subyektlərindən biri olan Dağıstan ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayaraq bildirdi ki, bu qarşılıqlı münasibətlərin çoxəsrlik tarixi var. O, iqtisadi münasibətlərin inkişafından danışaraq dedi ki, Çeçenistan Respublikasında vəziyyət sabitləşdikdən sonra Dağıstan özünün müxtəlif sahələrinə sərmayələr cəlb etməyə başlayacaqdır. Əvvəllər respublikanın hüdudlarından kənarda sərmayə yatıran Dağıstan biznesmenləri indi öz diyarının iqtisadiyyatına da vəsait qoyurlar. Azərbaycanın regionda həqiqətən lider dövlətə çevrildiyini vurğulayan qonaq bildirdi ki, onun respublikası Azərbaycan sərmayələrinə də maraq göstərir.*

*Azərbaycan–Dağıstan münasibətlərinin kifayət qədər yüksək səviyyədə olduğunu vurğulayan Baş nazir Artur Rasizadə iqtisadi əlaqələri genişləndirməyin zəruriliyini bildirdi. O dedi ki, Azərbaycan yaxşı perspektivləri olan qarşılıqlı surətdə faydalı əməkdaşlığın dərinləşməsinə yönəldilən layihələri dəstəkləyəcəkdir. Hökumət başçısı nümayəndə heyətinin üzvlərinə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun dincliklə həlli üçün ölkə rəhbərliyinin gördüyü tədbirlər barədə ətraflı məlumat verdi. Artur Rasizadə bildirdi ki, Er-*

*mənistanın təcavüzkar separatizmi və qəsbkarlıq siyasətinin bütün region üçün ağır nəticələri olmuşdur.*

**İçərişəhərlə tanışlıq**

*Dağıstan Respublikasının Prezidenti Muxu Əliyev və onu müşayiət edən şəxslər aprelin 30-da qədim İçərişəhəri gəzmişlər.*

*Xalq rəssamı Kamil Əliyevin şəxsi yaradıcılıq Xalça muzeyindən başlayan gəzinti Karvansara və bazar meydanı ilə tanışlıqla davam etdirildi.*

*Müxtəlif çeşidli xalçalara maraqla tamaşa edən qonaqlar burada gördüklərindən məmnun qaldılar. Onlara Azərbaycan xalqının qədim el sənətlərindən biri olan xalçaçılıq haqqında məlumat verildi. Kamil Əliyevin şəxsi yaradıcılıq Xalça muzeyində Heydər Əliyev, Atatürk, Nizami, Füzuli, Nəsimi, Aleksandr Puşkin və başqa görkəmli şəxsiyyətlərin portretləri toxunmuş xalçalar qonaqlarda xüsusi maraq doğurdu. Dağıstan prezidentinə Kamil Əliyevin xalça sənəti kitabı hədiyyə edildi.*

*Nazirlər Kabineti yanında İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Kamran İmanov Azərbaycan prezidentinin fərmanı ilə yaradılan idarə haqqında qonaqlara məlumat verdi, ötən əsrlərin yadigarı olan abidələrin qorunması və bərpasına göstərilən dövlət qayğısından danışdı.*

*Dağıstan Respublikasının Prezidenti Muxu Əliyev və nümayəndə heyətinin üzvləri Karvansarada çay süfrəsinə dəvət olundular.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MUXU ƏLİYEV İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*30 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Prezident sarayında Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının ayrı-ayrı subyektləri, o cümlədən Dağıstan Respublikası arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Qeyd olundu ki, bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsi vacib və zəruridir.*

## DAĞISTAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Prezident sarayında Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Muxu Gimbatoviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram, xoş gəlmisiniz! Əminəm ki, ölkəmizə səfəriniz xalqlarımız arasında daha sıx münasibətlər olmasına xidmət edəcəkdir.

Biz Muxu Gimbatoviçlə çox dərin tarixi kökləri olan əməkdaşlığımızın bütün məsələləri barədə ətraflı fikir mübadiləsi apardıq. Bu gün xalqlarımızın inkişafının indiki mərhələsində iqtisadi sahədə, təhlükəsizliyin möhkəmlənməsi məsələlərində, humanitar sahədə bu əməkdaşlıq bizə gərəkdir. Bütün istiqamətlərdə mövqelərimiz eynidir və bu çox vacibdir.

Biz Dağıstanla dərin tarixi, çoxəsrlik ənənələri olan qardaşlığımıza sadiqik. Müstəqil dövlət kimi, indi Azərbaycan Rusiya ilə mehriban qonşuluğa və dostluğa əsaslanan münasibətlərini çox səmərəli şəkildə qurur. Rusiyanın bir hissəsi olan Dağıstanın bizim qəlbimizdə xüsusi yeri var. Ona görə də bu gün qardaş Dağıstanın mötəbər nümayəndə heyətini, onun bütün rəhbərliyini görməyimə çox şadam və əminəm ki, ölkəmizə səfəriniz çox uğurlu olacaq, əməkdaşlığımız bundan sonra da fəal surətdə davam edəcəkdir.

**M u x u  Ə l i y e v:** Azərbaycana dəvətinizə görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Biz çox böyük məmnunluqla buraya gəldik.

İlk növbədə, demək istəyirəm ki, Dağıstanda Əliyevlər ailəsinə xüsusi münasibət bəsləyirlər. Böyük Vətən müharibəsinin getdiyi ən ağır və keşməkeşli dövrdə, 1942-ci ildə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi seçilən və 1948-ci ilədək həmin vəzifədə işləyən Əziz Əliyevi Dağıstanda xüsusən yaşlı nəsil indiyədək xatırlayır. Demək lazımdır ki, o, heyrətamiz şəxsiyyət idi. Müharibə illərinin çox ağır dövrünə, Qafqazın işğal edilməsi üçün böyük təhlükə olmasına baxmayaraq, ölkə rəhbərliyinin qərarı ölçülüb-biçilmiş qərar idi. Vurğulamaq istəyirəm ki, o vaxtlar Dağıstanda fəal mədəni quruculuq işləri gedirdi – ilk teatrlar, elmi mərkəzlər yaradılmışdı və bir çox digər işlər görülmüşdü. Bütün bunlar Əziz Əliyevin adı ilə bağlıdır. O, bizim məşhur mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri ilə dostluq edirdi.

Bu il Əziz Əliyevin anadan olmasının 110 ili tamam olur və mən münasibətlərimizdə xoş iz qoymuş belə gözəl övlad yetirən Azərbaycan xalqına təşəkkür etmək istəyirəm.

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında əməkdaşlığın bütün spektri barədə ətraflı fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MUXU ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*«Ulduz» sarayı*

*30 aprel 2007-ci il*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Əziz Muxu Gimbatoviç!

Əziz qonaqlar!

Sizi Azərbaycanda, Sizin üçün doğma dövlətdə ürəkdən salamlamağıma və Sizə, bütün qardaş Dağıstan xalqına böyük uğurlar, firavanlıq, xoşbəxtlik, inkişaf arzulamağıma şadam. Bu gün biz birlikdə çox yaxşı vaxt keçirdik, bizi birləşdirən bütün məsələləri – tarixi, siyasi, iqtisadi, ictimai-humanitar məsələləri müzakirə etdik. Bütün istiqamətlərdə yanaşmamız eynidir ki, bu da münasibətlərimizin inkişafı, daha sıx inteqrasiya, qarşılıqlı surətdə faydalı əməkdaşlıq və qarşılıqlı fəaliyyət üçün zəmin yaradır. Bütün bunlar xalqlarımızın qardaşlığının möhkəm bünövrəsinə, ümumi tarix və mədəniyyətə, ənənələrə əsaslanır və əlbəttə ki, əməkdaşlığımız üçün əlavə şərait yaradır. Sirr deyil ki, Rusiyanın bütün respublikaları və regionları arasında bizə ən yaxını, bizim üçün ən əzizi, ən sevimlisi Dağıstan Respublikasıdır. Biz onun uğurlarını gördükdə, quruculuq işləri getdiyini, vəziyyətin normallaşdığını, sabit vəziyyət yarandığını və insanların daha yaxşı yaşamağa başladığını gördükdə çox

sevinirik. Bax, biz belə hisslərlə yaşayırıq. Yəqin ki, Siz və bütün nümayəndə heyətiniz də Azərbaycanda olduğunuz vaxtda bunu hiss etdiniz. Eyni halı dağıstanlıların bizə münasibətində də görürük və əlbəttə, bu da bizi sevindirir. Mən bu badəni Sizin sağlığınıza qaldırmaq, Sizə öhdəsindən çox uğurla gəldiyiniz – biz bunu görürük, bunu Rusiya rəhbərliyi də görür – çətin işdə böyük nailiyyətlər arzulamaq, bütün Dağıstan xalqına tərəqqi və firavanlıq diləmək istəyirəm. Sizin sağlığınıza!

## Dağıstan prezidenti Muxu Əliyevin çıxışı

Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Mən ilk növbədə, Azərbaycana dəvətimə görə Sizə bir daha ürəkdən təşəkkür etmək istəyirəm. Biz öz fəaliyyətimizlə əlaqədar müxtəlif regionlarda və müxtəlif ölkələrdə oluruq. İnanın ki, belə qardaşcasına qarşılanmanı və bütün gün ərzində hiss etdiyimiz belə diqqəti heç vaxt heç yerdə görməmişik. Biz gözəl başa düşürük ki, bu Sizdən, rəhbərdən, prezidentdən gəlir. Mən bir daha demək istəyirəm ki, bu Sizin sələflərinizdən gəlir. Dağıstana bu işıqlı və səmimi münasibət atanızdan, babanız Əziz Əliyevdən gəlir. Ona görə də dağıstanlılar bunu çox yüksək qiymətləndirirlər, Dağıstanlılar Azərbaycanda baş verən müsbət dəyişiklikləri görməkdən çox şaddırlar. Mən bu badəni Azərbaycan xalqının, çox yaxşı, çox gözəl xalqın şərəfinə qaldırmaq istəyirəm. Mən bu badəni Azərbaycanın şərəfinə, ayaq üstə möhkəm dayanan suveren, müstəqil dövlətin şərəfinə qaldırmaq istəyirəm. Mən bu badəni şəxsən Sizin şərəfinizə qaldırmaq istəyirəm. Sizə, ölkənizə, xalqınıza uğurlar, xoşbəxtlik arzulamaq istəyirəm. Dağıstanlılar həmişə sizinlə olacaqlar. Sizə ən xoş diləklərimizi bildirirəm. Çox sağ olun!

* * *

*Aprelin 30-da Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin Azərbaycana səfəri başa çatmışdır.*

*Heydər Əliyev adına Beynəlxalq Hava Limanında hörmətli qonağı Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Dağıstanın ölkəmizdəki Daimi nümayəndəliyinin rəhbəri Məhəmməd Qurbanov, Rusiyanın Bakıdakı səfiri Vasili İstratov və digər rəsmi şəxslər ehtiramla yola saldılar.*

## GÜRCÜSTANIN BAŞ PROKURORU ZURAB ADEİŞVİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Prezident sarayında Gürcüstanın Baş prokuroru Zurab Adeişvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan–Gürcüstan münasibətlərinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini bildirdi və hər iki ölkənin hüquq-mühafizə orqanları arasında əməkdaşlığın əlaqələrimizin daha da möhkəmlənməsində əhəmiyyətini vurğuladı.*

*Ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin sürətlə inkişaf etdiyini deyən Zurab Adeişvili Gürcüstanla Azərbaycanın prokurorluq orqanları arasında əməkdaşlığın genişlənməsinin iki ölkənin əlaqələrinin möhkəmlənməsi işinə xidmət etdiyini bildirdi.*

## AVRASİYA ÖLKƏLƏRİ X İQTİSADİ ZİRVƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Avrasiya ölkələri İqtisadi zirvə görüşünün iştirakçılarını ürəkdən salamlayır və toplantının işinə uğurlar diləyirəm.

1998-ci ildən müntəzəm olaraq Mərmərə qrupunun təşəbbüsü və Türkiyə hökumətinin dəstəyi ilə İstanbulda keçirilən Avrasiya iqtisadi zirvə görüşləri region dövlətləri və xalqları arasında iqtisadi, humanitar və mədəni əlaqələrin inkişafında mühüm hadisəyə çevrilmişdir. Zirvə görüşlərində Avropa və Asiya dövlətlərinin tanınmış siyasi və dövlət xadimlərinin, nüfuzlu araşdırma mərkəzlərinin, ictimai təşkilat və media təmsilçilərinin iştirakı, müzakirəyə çıxarılan məsələlərin müxtəlifliyi və əhatəliliyi tədbirin əhəmiyyətinin və ona olan marağın əyani göstəricisidir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyev Avrasiya ölkələri, xüsusilə Xəzər və Qara dəniz hövzəsi dövlətləri arasındakı əlaqələrə, ikitərəfli regional əməkdaşlığa mühüm əhəmiyyət verir, bu istiqamətdə həyata keçirilən təşəbbüsləri dəstəkləyirdi. Onun müəllifi olduğu regional və beynəlxalq əməkdaşlıq strategiyası bu gün də Azərbaycan rəhbərliyi tərəfindən davam etdirilir, dövlətlərarası əlaqələrin inkişafı üçün yeni imkanlar araşdırılır, bölgədə sülhün və təhlükəsizliyin təmin olunması üçün tədbirlər görülür.

Müasir dünyada dövlətlərin və xalqların öz aralarında sıx siyasi, iqtisadi, humanitar və mədəni əlaqələr qurması, sülhün və təhlükəsizliyin birgə səylərlə qorunması dövrümüzün aktual problemlərindəndir. Xalqlara, dövlətlərə və bütün bəşəriyyətə təhlükələr yaradan terrorun, təcavüzkar separa-

tizmin, müharibələrin qarşısı yalnız birgə səylərlə və çoxtərəfli əməkdaşlıq vasitəsilə alına bilər.

Azərbaycan regional və qlobal enerji təhlükəsizliyi sisteminin yaradılması prosesinin fəal iştirakçılarından və təşəbbüsçülərindən biridir. Əsrin ən böyük layihələrindən olan Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq iki ildir ki, fəaliyyət göstərir və öz əhəmiyyətini getdikcə daha çox sübut edir. Azərbaycan qazını Türkiyəyə və Avropa bazarlarına çatdıracaq Bakı–Tbilisi–Ərzurum kəməri istismara hazırdır. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji təhlükəsizliyi sahəsində strateji tərəfdaşlıq haqqında Memorandum imzalanmışdır. Bir zamanlar xalqları iqtisadi, ticarət və mədəniyyət baxımından birləşdirən tarixi İpək Yolu yeni şəraitdə uğurla bərpa edilir, daha zəngin forma və məzmun qazanır. Qərbi Avropadan başlamış Uzaq Şərqə qədər bir sıra ölkələri vahid nəqliyyat sistemində birləşdirməyə xidmət edəcək Bakı–Tbilisi–Qars dəmir yolunun çəkilməsi haqqında Azərbaycan, Gürcüstan və Türkiyə arasında saziş bağlanmışdır və onun inşası yaxın aylarda başlanacaqdır. Bütün bu layihələr region xalqlarının və beynəlxalq birliyin rifahına, təhlükəsizliyə və inteqrasiyaya xidmət edəcəkdir.

Əminəm ki, tarixən Avropa və Asiya arasında «qızıl körpü», mədəniyyətlər və sivilizasiyalararası mərkəz rolunu oynayan İstanbulda toplanan X İqtisadi zirvə görüşü böyük iqtisadi, enerji, insan resurslarına və intellektual potensiala malik region ölkələri arasında əməkdaşlığın hazırkı vəziyyətini təhlil edəcək, əlaqələrin və inteqrasiyanın gələcək perspektivlərinin müəyyənləşdirilməsi üçün dəyərli ideyalar verəcəkdir.

Bir daha toplantının işinə uğurlar, hamınıza sülh, sağlamlıq və rifah, Avrasiya İqtisadi zirvə görüşünün əsas təşkilatçısı olan Mərmərə qrupuna gələcək fəaliyyətində müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 may 2007-ci il*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*1 may 2007-ci il*

*Mayın 1-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycana rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Belarusun Dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Belarus dövlətinin başçısını təyyarənin pilləkəni yanında Azərbaycanın Baş naziri Artur Rasizadə, Xarici İşlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli uşaqlar Belarus prezidentinə gül dəstəsi təqdim etdilər.*

*Azərbaycan və Belarusun dövlət başçılarının aparacaqları danışıqlarda müxtəlif sahələrdə qarşılıqlı əlaqələrin genişləndirilməsi məsələləri diqqət mərkəzində olacaqdır. Bakıda keçiriləcək görüşlərdə Azərbaycan–Belarus ticarət-iqtisadi əməkdaşlığının gücləndirilməsi və birgə layihələrin gerçəkləşdirilməsi istiqamətində konkret tədbirlər müəyyən ediləcəkdir.*

*Belarus nümayəndə heyətinə respublikanın aparıcı müəssisələrinin, nazirlik və baş idarələrinin rəhbərləri daxildir. Danışıqların yekunlarına əsasən bir sıra sazişlər imzalanacaqdır.*

* * *

*Mayın 2-də Prezident sarayında Belarus prezidenti Aleksandr Lukaşenkonun rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın qarşısındakı rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Belarus prezidenti Aleksandr Lukaşenkonu səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Belarus prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Belarusun və Azərbaycanın Dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Belarus prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan dövləti və hökumətinin rəsmi şəxsləri Belarus prezidenti Aleksandr Likaşenkoya, Belarus nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim edildi.*

*Dövlət başçıları Prezident sarayında xatirə şəkli çəkdirdilər.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 may 2007-ci il*

*Mayın 2-də Prezident sarayında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü oldu.*

*Görüşdə Azərbaycan–Belarus əlaqələrinin bütün sahələrdə – siyasi, iqtisadi və mədəni sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Bildirildi ki, Belarus rəhbərinin ölkəmizə indiki səfəri bu münasibətlərin daha da genişlənməsinə təkan verəcəkdir.*

*Dövlət başçıları Azərbaycan–Belarus əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əmin olduqlarını bildirdilər.*

## AZƏRBAYCAN VƏ BELARUS PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*2 may 2007-ci il*

*Mayın 2-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Belarus prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olmuşdur.*

**İlham Əliyev:** Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda ürəkdən salamlamaq istəyirəm. Ölkəmizə xoş gəlmisiniz! Sizin səfərinizi səbirsizliklə gözləyirdik və bu səfəri ikitərəfli dostluq münasibətlərimizin inkişafının çox mühüm amili kimi qiymətləndiririk. Münasibətlərimiz xüsusən son vaxtlar çox dinamik inkişaf edir. Biz çox qısa bir müddətdə iqtisadi əməkdaşlığa, qarşılıqlı əlaqələrimizə dair mühüm layihələri müəyyən edə və artıq həyata keçirə bilmişik və indi sıx inteqrasiya yolu ilə inamla irəliləyirik.

Mən ölkənizə səfərimi və orada olduğum günləri böyük səmimiyyətlə xatırlayıram. İmzalanmış sənədlər, aparılmış danışıqlar münasibətlərimizə güclü təkan vermişdir. Ölkəmizə bugünkü səfəriniz, eləcə də Sizin ölkənizə mənim səfərim ikitərəfli münasibətlərimizin tarixində ilk səfərlərdir. Sevindirici haldır ki, Siz Azərbaycana böyük nümayəndə heyəti ilə gəlmisiniz. Nümayəndə heyətinizin üzvlərinin mövcud məsələləri bizim nümayəndə heyətimizin üzvləri ilə öz səviyyələrində müzakirə etmək, qarşılıqlı əlaqələrin gələcək yollarını müəyyənləşdirmək imkanı olacaqdır.

Əməkdaşlığımızın gündəliyi çox genişdir. Gündəliyə siyasi qarşılıqlı əlaqələr, beynəlxalq təşkilatlarda birgə iştirak, çoxşaxəli və qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlıq məsələləri daxildir. Bu gün biz Sizinlə ikitərəfli münasibətlərlə bağlı məsələləri müzakirə edərkən yekdil fikirdə olduq ki, ölkələrimiz və iqtisadiyyatımız bir-birini tamamlayır. Bu, ciddi tərəfdaşlıq münasibətlərinin inkişafı üçün çox yaxşı bazadır. Biz buna hazırıq, bunu istəyirik və bütün istiqamətlərdə gələcək əməkdaşlığa ümid bəsləyirik. Ümidvaram ki, mənim Belarusa səfərim kimi, Sizin də Azərbaycana səfəriniz uğurlu olacaq və ikitərəfli münasibətlərimizin inkişafında mühüm mərhələyə çevriləcəkdir.

Bir daha xoş gəlmisiniz deyirəm.

**Aleksandr Lukaşenko:** Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Mən ilk növbədə, mehribancasına qəbula görə, nümayəndə heyətimizə göstərilmiş diqqətə görə Sizə ürəkdən təşəkkür etmək istəyirəm. İlham Heydər oğlunun ölkəmizə rəsmi səfərindən ötən müddət ərzində biz çox işlər görmüşük. Bir çox mütəxəssislərimiz burada və sizin nümayəndə heyətiniz də Belarusda olmuşlar. Onlar bədxahlarımızın piar kimi qiymətləndirdiyi bir çox layihələri gerçəkləşdirməyə başlamışlar. Lakin indi bu, piar deyil, çox qısa zaman kəsiyində təşkil edilmiş real istehsaldır.

Biz nəinki iki ölkənin prezidentləri arasında ən səmimi münasibətlər yaratmışıq, artıq bilirəm ki, nazirlər də, iri şirkətlərin, müəssisələrin rəhbərləri də dostlaşmışlar. Yəni, bütün səviyyələrdə yaxşı şəxsi münasibətlər yaranmışdır ki, bu da nəinki bir-birini başa düşməyə, həm də yaxşı irəliləyişə kömək edir. Bir az əvvəl İlham Heydər oğlu ilə vurğuladıq ki, nə mənim, nə onun, nə də ölkələrimizin başqa heç bir ölkə ilə belə səmərəli, belə intensiv münasibətləri olmayıbdır.

Bir daha təsdiqləmək istəyirəm ki, əməkdaşlığımızın belə sürətini və ayrı-ayrı istiqamətlərini öz bildikləri kimi, bəzən

də narazılıqla qarşılayan bədxahlarımız var. Beləları var və biz onları tanıyırıq. Lakin biz Belarusda da, Azərbaycanda da bu dövrü çox dəyanətlə keçdik. Biz kiminsə ziddinə, zərərinə olaraq əməkdaşlıq etmirik, biz xalqlarımızın rifahı naminə əməkdaşlıq edirik, çünki təmas nöqtələrini və öz marağımızı tapmışıq. Marağımız heç də təkcə onda deyil ki, Azərbaycan özünün tərəqqisinə doğru gedən çox dinamik inkişaf edən ölkədir. Bu, sadəcə, gurultulu sözlər deyil, bunu hamı deyir. Sizin ölkəniz ümumi daxili məhsulun artımına görə keçən il dünyada birinci yeri tutmuşdur. Dünyada heç bir ölkədə belə artım yoxdur. Firavan ölkəyə çevrilmək üçün sizin hər şeyiniz var, biz bunu bilirik. Lakin məsələ təkcə bunda deyildir.

İndi xalqlarımız arasında yaxşı münasibətlər yaranmışdır. Belarusda yaşayan heç bir azərbaycanlı deməz ki, onun vəziyyəti pisdir. Heç biri. Bu yaxınlarda biz kütləvi informasiya vasitələrində Azərbaycan həftəsi keçirdik. Televiziyada, radioda çoxlu verilişlər oldu, burada yaşayan azərbaycanlılar da, Belarusdakı azərbaycanlılar da danışdılar və heç biri demədi ki, ölkəmizdə onların vəziyyəti pisdir. Sizə burada da deməzlər ki, orada vəziyyətləri pisdir. Xüsusi ab-hava yaranmışdır, lakin, əlbəttə, şəxsi əlaqələrin də əhəmiyyəti var. İlham Heydər oğlunun səfərindən sonra bütün səviyyələrdə yaxşı münasibətlərimiz yaranmışdır. Bu, əlaqələrimizin inkişafına kömək edir.

Bir daha vurğulayıram ki, biz kiminsə əleyhinə dostluq etmək niyyətində deyilik. Biz başqalarının da məmnun qalması və sevinməsi üçün dostluq edirik. Əgər bu mümkündürsə, biz başqalarının da layihələrimizə qoşulmasına hazırıq. Ona görə də bu səfər, həqiqətən, irəliyə doğru getməkdir. Bu gün imzalayacağımız əsas sənəd – dostluq haqqında müqavilə irəliyə doğru mühüm addım olacaqdır. Mən etimada və öhdəliklərin yerinə yetirilməsinə görə hamıya, ilk növbədə Azərbaycan prezidentinə çox minnətdaram.

* * *

*Mayın 2-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Belarus prezidenti Aleksandr Lukaşenkonun geniş tərkibdə görüşündən sonra Azərbaycan–Belarus sənədlərinin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası və Belarus Respublikası arasında Dostluq və əməkdaşlıq haqqında müqaviləni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko imzaladılar.*

*Azərbaycan Milli Elmlər Akademiyasının və Belarus Respublikası Milli Elmlər Akademiyasının 2007–10-cu illər üçün Əməkdaşlıq proqramını Azərbaycan tərəfdən Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Belarus tərəfdən Milli Elmlər Akademiyası Rəyasət Heyətinin sədri Mixail Myasnikoviç imzaladılar.*

*Azərbaycan Respublikasının Milli Bankı və Belarus Respublikasının Milli Bankı arasında Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Milli Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, Belarus tərəfdən Milli Bankın İdarə Heyətinin sədri Pyotr Prokopoviç imzaladılar.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Maliyyə Nazirliyi arasında Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Prezidentin yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Gündüz Məmmədov, Belarus tərəfdən Xarici İşlər naziri Sergey Martınov imzaladılar.*

*Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Olunması üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Dövlət Əmlak Komitəsi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirmə sahəsində Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Dövlət Əmlakının İdarə Olunması üzrə Dövlət Komitəsinin sədri Kərəm Həsənov, Belarus tərəfdən Xarici İşlər naziri Sergey Martınov imzaladılar.*

*Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və Belarus Respublikasının*

*Dövlət Standartlaşdırma Komitəsi arasında standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahəsində Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Baş direktoru Ramiz Həsənov, Belarus tərəfdən Xarici İşlər naziri Sergey Martınov imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Kənd Təsərrüfatı naziri İsmət Abasov, Belarus tərəfdən Kənd Təsərrüfatı və Ərzaq naziri Leonid Rusak imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini mühafizəsi sahəsində Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Kənd Təsərrüfatı naziri İsmət Abasov, Belarus tərəfdən Kənd Təsərrüfatı və Ərzaq naziri Leonid Rusak imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Məxfi məlumatların qarşılıqlı qorunması haqqında sazişi Azərbaycan tərəfdən Milli Təhlükəsizlik naziri Eldar Mahmudov, Belarus tərəfdən Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini Nikolay Svorob imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikasının ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının Əmək fəaliyyəti və sosial müdafiəsi haqqında sazişi Azərbaycan tərəfdən Daxili İşlər naziri Ramil Usubov, Belarus tərəfdən Daxili İşlər naziri Vladimir Naumov imzaladılar.*

## AZƏRBAYCAN VƏ BELARUS PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLA ÇIXIŞLARI

*Prezident sarayı*

*2 may 2007-ci il*

### Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Aleksandr Qriqoryeviç!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Prezident başda olmaqla, Azərbaycana rəsmi səfər edən Belarus Respublikasının nümayəndə heyətini bir daha ürəkdən salamlamaq istəyirəm. Bu gün biz bir çox sənədlər imzaladıq. Onlar əməkdaşlığımızın inkişafı üçün yaxşı əsasdır. Əminəm ki, bu sənədlərdə nəzərdə tutulanların praktik həyatda yerinə yetirilməsi ölkələrimiz arasında çox fəal, qarşılıqlı surətdə faydalı əməkdaşlığa gətirib çıxaracaqdır.

Bu gün biz keçən ilin payızında mənim Belarusa rəsmi səfərim zamanı prezidentlər səviyyəsində nəzərdə tutduğumuz real, praktik işlərin ilk konturlarını görürük. O vaxt biz əməkdaşlığın əsas istiqamətlərini müəyyən etdik və fərəhli haldır ki, qısa müddətdə, yarım ildən bir qədər çox vaxt keçəndən sonra biz artıq əldə edilmiş razılaşmaların konkret nəticələrini görürük.

Artıq bu gün Azərbaycanda Belarus müəssisələrinin məhsulu istehsal olunur. Energetika, neft-qaz əməliyyatları, maşınqayırma, müdafiə sənayesi sahəsində fəal əməkdaşlığın konturları müəyyən edilir. Humanitar sahədə, hərbi-texniki sahədə əməkdaşlıq fəal gedir. Yəni, prezidentlərin müəyyən

etdikləri çox qısa müddətdə yerinə yetirilir və bu, ölkələrimizin ikitərəfli əlaqələrə olduqca ciddi yanaşdığına sübutdur.

Biz bu əlaqələri tərəfdaşlığımız üçün çox mühüm hesab edirik. Belarus prezidentinin və belə geniş tərkibli nümayəndə heyətinin Azərbaycana səfəri bu məsələlərə ölkələrimizin və rəhbərliyin necə əhəmiyyət verdiyini göstərir.

Bu gün biz ikitərəfli əməkdaşlıqla, siyasi qarşılıqlı münasibətlərlə, regional əməkdaşlıqla, iqtisadi əlaqələrlə bağlı məsələlərin çox geniş dairəsini müzakirə etdik. Əminik ki, müəyyən edəcəyimiz və nəzərdə tutacağımız məsələlərin hamısı yerinə yetiriləcəkdir. Qısa bir müddətdə Belarusun Azərbaycanda, Azərbaycanın Belarusda səfirlikləri fəaliyyətə başlamışdır. Biz Minsk ilə Bakı arasında aviareyslər açılması haqqında razılığa gəldik və bu reyslər artıq həyata keçirilir. Az vaxtda Gəncə şəhərində traktorların və yük avtomobillərinin istehsalı təşkil edilmişdir. Bütün bunlar göstərir ki, götürdüyümüz sürət, həqiqətən tarixi sürətdir. Heç bir ölkə ilə bizim qəbul etdiyimiz qərarların belə tez yerinə yetirilməsi müşahidə olunmayıbdır. Yenə də demək istəyirəm ki, bu, bir tərəfdən, qəbul olunmuş qərarlara ciddi yanaşdığımızı, digər tərəfdən, qarşılıqlı surətdə faydalı əməkdaşlığa böyük maraq göstərildiyini sübut edir. Əminəm ki, bu səfər və imzalanmış sazişlərdə nəzərdə tutulanların yerinə yetirilməsi nəticəsində ölkələrimizin qarşılıqlı əlaqələri daha sıx olacaqdır. İqtisadiyyatlarımız bir-birini tamamlayır. Biz ciddi tərəfdaşlıq səviyyəsinə çıxırıq və buna çox şadıq.

Bir daha bütün nümayəndə heyətini salamlamaq, dəvətimi qəbul edib Azərbaycana gəldiyinə görə Belarus prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkoya təşəkkür etmək istərdim. Gələcəkdə də fəal əməkdaşlığa ümid bəsləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

## Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun bəyanatı

Sağ olun, hörmətli İlham Heydər oğlu!

Mən hələ gəncliyimdə Bakıya gəlməyi arzulayırdım, amma iş elə gətirmişdi ki, bir dəfə də burada olmamışdım. Bu şəhəri gördükdə ona heyran qaldım. Təsəvvür etməzdim ki, o belədir, bura nəinki dərə-təpəli yerdir, həm də dağlıqdır. Dağ ətəklərində, təpələrin üstündə yerləşən şəhərləri çox sevirəm. Düzənlikdə böyümüş adam kimi, bu gün müşahidə etdiyimiz mənzərəni görmək mənə çox xoşdur. Dostum İlham Heydər oğluna dedim ki, bu çox perspektivli şəhərdir, bənzərsiz gözəlliyi olan şəhərdir. Əgər sahil parkı ilə bağlı və haqqında mənə şəhər merinin və ölkə prezidentinin danışdıqları layihələr həyata keçirilsə, bura Şərqdə, Cənubi Qafqazda insanların həyatı üçün çiçəklənən gözəl bir yer olacaqdır. Bu şəhər bizim üçün kəşf oldu.

Burada olmaq, sizin səmimiliyinizi duymaq bizə çox xoşdur. Bunlar protokol sözləri deyildir. Dövlət başçısının səfərini hazırlayan şəxslər mənə məlumat verdilər: heç bir problem olmadı, bütün istiqamətlərdə adamlar köməyə gəlir və təklif edirdilər ki, buraya baxın, orada olun. Bizi gözəl ölkənizlə tanış etməyə çalışırdılar. Biz də sizə eynilə bu cür yanaşırıq. Bu da ondan irəli gəlir ki, bu yaxınlaradək bir ölkədə yaşamış qardaş xalqlarımız arasında ənənəvi olaraq xoş münasibətlər yaranmışdır.

Belarusda on minlərlə azərbaycanlı yaşayır, onlardan heç biri deməz ki, ikinci vətənində vəziyyəti pisdir. Onlar bizim azərbaycanlılarımızdır, özlərini çox yaxşı və rahat hiss edirlər. Ona əsas var – bu, xalqlarımız arasındakı qarşılıqlı münasibətlərdir. Bunu hökumətlərimizin üzvlərinin – mən hələ prezidentləri demirəm – yaxşı şəxsi münasibətləri də tamamlayır.

Sizin prezidentinizlə biz özümüzü istənilən səviyyədə – beynəlxalq konfranslarda, simpoziumlarda, danışıqlarda, MDB-də tamamilə rahat hiss edirik. Biz, sadəcə olaraq

dostuq. Bizim müzakirə üçün qapalı mövzularımız yoxdur. Bir-birimizə tam etibar edirik. Bilirəm ki, Azərbaycan prezidenti heç vaxt sözünə xilaf çıxmaz, heç vaxt arxanca pis söz deməz. Heç vaxt belə şey olmayıb. Çox şadam ki, bu insan mənim yaxın dostum olan Heydər Əliyevin ən yaxşı keyfiyyətlərini irsən özündə təcəssüm etdirir. Yaş fərqinə baxmayaraq, Heydər Əliyevlə çox dost idik, o, gənclik illərimdən mənim üçün həm hami-tərbiyəçi, həm də örnək idi. Bu, xüsusi hisslərdir, onlar məndə artıq çoxdan, həyatımın hələ prezidentlikdən əvvəlki dövründən yaşayır. Bu, şəxsi məqamdır, lakin o, indiki vaxtda dövlətlərimiz arasında yaxşı münasibətlərin olmasına kömək edir.

Biz – Azərbaycan və Belarus prezidentləri danışıqlar zamanı belə bir fikirlə razılaşdıq ki, münasibətlərimizin inkişaf sürəti, dinamikası əsasən bundan irəli gəlir və mən artıq rəsmi nümayəndə heyətlərinin görüşündə dedim ki, Azərbaycanla əməkdaşlıqda bizim qapalı mövzularımız yoxdur. Əgər söz vermişiksə, vədimizə əməl edəcəyik. Bir ölkənin tərkibində yaşadığımız dövrlərdən bizdə yaxşı hisslər qalmışdır və bu, artıq təsdiq edilmişdir. Ona görə də, inanın ki, Siz Avropanın mərkəzində yaxşı dayaq, yaxşı etibarlı dostlar tapmısınız. Biz isə əminik ki, iqtisadi, siyasi, diplomatik baxımdan burada, Cənubi Qafqazda çox yaxşı dayaq tapmışıq. Bu da əhəmiyyətlidir ki, bizim münasibətlərimiz hər cür vicdansız siyasətdən uzaqdır. Biz tamamilə əminik ki, əgər əməkdaşlıq ediriksə – istər qaz üzrə, istər neft üzrə, istərsə də sənayedə, digər sahələrdə olsun, fərqi yoxdur – bu, digər dövlətlərlə əməkdaşlıqda tez-tez olduğu kimi, heç bir siyasi təzyiqə, siyasi nəticələrə gətirib çıxarmayacaqdır. Bu da çox qiymətlidir.

Odur ki, irəliyə doğru getmək üçün bizim bütün əsaslarımız var və bunu etmək əzmindəyik. Mən iki ölkənin hökumət üzvlərinə baxıram, çox cavan, perspektivli, amma təcrübəli adamlardır. İndi regionlarda, ilk növbədə dövlətlərimiz arasında mövcud olan problemləri başqaları yox, məhz

biz həll etməliyik. Belarus tərəfi buna hazırdır. Səmimiyyətə görə, xeyirxahlığa görə çox sağ olun. Digər göstəricilər bunu daha da artıracaqdır.

* * *

*Dövlət başçıları bəyanatlarla çıxışlardan sonra jurnalistlərin suallarına cavab verdilər.*

**M ü x b i r: Hörmətli İlham Heydər oğlu, lütfən söyləyin, yanacaq-energetika kompleksində əməkdaşlığa dair Belarus prezidenti ilə razılaşmanız oldumu? Əgər oldusa, onda bu istiqamətdə hansı perspektivlər var?**

**İ l h a m Ə l i y e v:** Bu istiqamətdə müvafiq qurumlarımız fəal işləyirlər. Ötən ilin oktyabrında mənim Belarusa səfərim zamanı onlara tapşırıqlar verilmişdi və o vaxtdan bəri bu mövzuda bir neçə mərhələdə məsləhətləşmələr aparılmışdır. Bizim tərəfimizdən və Belarus rəhbərliyi tərəfindən bu məsələyə ümumi yanaşma var. Biz bu istiqamətdə səmərəli əməkdaşlıq etmək istəyirik. Azərbaycan iri neft və qaz hasilatçısı olan ölkəyə çevrilir. Bu il neft hasilatının həcmi 43 milyon ton, gələn il 50 milyondan çox olacaqdır. Qaz hasilatı da yüksək sürətlə gedir və dediyim kimi, yaxın vaxtlarda Azərbaycan iri karbohidrogen ixracçısına çevriləcəkdir. Ona görə də biz nəqlin şaxələndirilməsi sahəsində əməkdaşlığa həmişə təbii ehtiyatlarımızdan daha səmərəli istifadə imkanları kimi baxmışıq.

Hazırda Azərbaycan nefti Avropa və dünya bazarlarına üç boru kəməri ilə daşınır. Neftin Avropaya Odessa–Brodi marşrutu ilə nəqlinin perspektivləri müzakirə olunur. Bildiyiniz kimi, biz bu layihəni siyasi baxımdan dəstəkləmişik və hazırda kommersiya xarakterli məsələlərin müzakirəsi gedir.

Ölkələrimiz arasında energetika sahəsində, yəni neft-qaz əməliyyatları sahəsində əməkdaşlıq haqqında Azərbaycanda siyasi qərarlar qəbul edilmişdir. Hazırda söz müvafiq qurumların mütəxəssislərinindir, onlar iqtisadi göstəriciləri, mümkün layihələrin kommersiya tərəfini hesablamalıdırlar.

Əgər bu, iqtisadi baxımdan qarşılıqlı surətdə faydalı olsa, şübhəsiz ki, biz bu istiqamətdə fəal işə başlayacağıq.

Onu da bilirik ki, Belarus şirkətləri Azərbaycanın neft yataqlarına maraq göstərir. Biz onların marağını alqışlayırıq. Bilirəm ki, hazırda Belarus şirkətlərinin Azərbaycanın neft layihələrində iştirakı ilə bağlı müvafiq qurumlarımız səviyyəsində məsləhətləşmələr aparılır. Biz öz tərəfimizdən bu məsələni tamamilə dəstəkləyirik və əminəm ki, bu, danışıqlar çərçivəsində öz həllini tapa bilər.

Fürsətdən istifadə edib demək istəyirəm ki, artıq iqtisadiyyatın bir neçə sektorunu əhatə edən əməkdaşlığımıza olduqca hərtərəfli, çoxplanlı əməkdaşlıq kimi baxırıq. Yəqin ki, iqtisadiyyatın hələlik maraq dairəmizə düşməyən sektorları da gələcəkdə əhatə olunacaqdır. Buna ölkələrimizin rəhbərliklərinin böyük marağı, siyasi iradəsi və müvafiq qurumların birgə işləmək arzusu var. Ona görə də əminəm ki, iqtisadiyyat və energetika istiqamətlərində əməkdaşlığımız çox fəal və qarşılıqlı surətdə faydalı olacaqdır.

**M ü x b i r: Mənim sualım Belarus Respublikasının prezidentinədir. Cənab Prezident, Sizin dediyiniz kimi, ölkələrimiz arasında münasibətlər müxtəlif istiqamətlərdə, xüsusilə iqtisadi sahədə uğurla inkişaf edir. Ölkələrimiz arasında humanitar və mədəni əlaqələrin bundan sonra da genişləndirilməsi üçün hansı addımlar atıla bilər?**

**A l e k s a n d r   L u k a ş e n k o:** Zənnimcə əməkdaşlığın bu sahəsində, ümumiyyətlə, heç bir problemimiz yoxdur. Mədəni mübadilələrə, dövlətlər arasında mədəniyyət sahəsində ənənəvi əməkdaşlığa gəldikdə isə münasibətlərimizi heç zaman kəsməmişik. Əgər kütləvi informasiya vasitələrimiz burada və Belarusda xalqlarımız haqqında – mənim Azərbaycana səfərim çərçivəsində olduğu kimi – lazımınca söhbət açsalar, onda, ümumiyyətlə, heç bir problem olmayacaqdır. Zənnimcə belaruslar səfərim ərəfəsindəki son həftədə kütləvi informasiya vasitələrindən Azərbaycan haqqında bütün əvvəlki illərlə müqayisədə daha çox məlumat almışlar.

Bu yəqin ki, jurnalistlərimizi – televiziya şirkətlərini, yazarları dövlət səviyyəsində qəbul etməyiniz sayəsində mümkün olmuşdur və onlar da sizin haqqınızda çox geniş məlumat vermişlər. Adamlarımız hiss etmişlər ki, xalqlarımız arasında əlaqə heç vaxt qırılmamışdır və bizi burada gözləyirlər. Bu isə əsas məsələdir və çox vacibdir. Zənnimcə Azərbaycanda da münasibətlərimizi elə belə başa düşürlər.

Mədəniyyət sahəsinə gəldikdə isə burada heç bir problem yoxdur. Humanitar əməkdaşlığın digər istiqamətlərində – elm, səhiyyə, təhsil sahələrində də problemlər yoxdur. Bir daha vurğulayıram ki, zəngin olduğumuz, fəxr edə bildiyimiz, sərvətimiz hesab etdiyimiz nə varsa, hamısını həm də Azərbaycanın sərvəti saya bilərsiniz. Yəqin ki, mədəni-humanitar sahə əməkdaşlığın ən asan sahəsidir. Biz həmişə düşünmüşük ki, iqtisadi əməkdaşlıq daha çətin olacaq və əslində də belədir. Lakin burada da yolu çox sürətlə qət etdik. Ona görə də mədəni və humanitar sahədə problem olmayacaq, üstəlik sabah Heydər Əliyev Fonduna gedəndə və Azərbaycanda Belarus sərgisinin açılışında da bu barədə danışacağıq. Qoy bu, əməkdaşlığımızın davamı olsun.

* * *

*Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 2-də Fəxri xiyabana gəlmişdir.*

*Burada ali qonağı və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər qarşıladılar.*

*Belarusun dövlət başçısı türk dünyasının görkəmli oğlu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anaraq məzarı önünə əklil qoydu.*

*Belarus prezidenti görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də gül dəstəsi qoydu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Fəxri xiyabanın tarixi barədə məlumat verdi.*

* * *

*Belarus prezidenti Aleksandr Lukaşenko mayın 2-də Şəhidlər xiyabanını ziyarət etmişdir.*

*Belarusun dövlət başçısını və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər qarşıladılar. Burada ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Belarus prezidenti Aleksandr Lukaşenko və nümayəndə heyətinin üzvləri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman övladlarımızın məzarları üstünə gül-çiçək düzdülər.*

*Belarus dövlət başçısı «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Belarusun və Azərbaycanın Dövlət himnləri səsləndi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

*Prezident Aleksandr Lukaşenko Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr etdi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*2 may 2007-ci il*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar!

İcazə verin, sizi Azərbaycan torpağında bir daha səmimi-qəlbdən salamlayım və aparılmış danışıqlardan dərin məmnunluğumu bildirim. Aleksandr Qriqoryeviçlə görüşümüzdə bizi maraqlandıran bütün məsələlər – siyasi, qarşılıqlı əlaqələr, iqtisadi əməkdaşlıq, energetika, neft-qaz əməliyyatları sahəsində əməkdaşlıq, humanitar, hərbi-texniki əməkdaşlıq, yəni son vaxtlar aşkar tərəqqi olan bütün istiqamətlər barədə çox geniş fikir mübadiləsi aparıldı. Çox qısa müddətdə münasibətlərimizin tamamilə yeni səviyyəyə çıxması bizi olduqca sevindirir. Bu çox etibarlı, çox güclü qarşılıqlı əlaqələr, tərəfdaşlıq, əməkdaşlıq səviyyəsidir. Biz belə əməkdaşlıq üçün zəruri olan hər şeyi qısa müddətdə təmin etdik. Bu gün biz bu barədə danışdıq, çox az vaxt ərzində Azərbaycanın Belarusda və Belarusun Azərbaycanda səfirlikləri açıldı. Ötən ilin oktyabrında biz Minskdə razılığa gəldik və demək olar, dərhal sonra Bakı–Minsk aviareysi açıldı. Artıq bunun özü də fəal iqtisadi əməkdaşlığın mühüm elementidir. Razılaşmalardan ya-

rım il sonra Azərbaycanda, Azərbaycan müəssisələrində Belarus zavodlarının məhsulu buraxılır, əmtəə dövriyyəsinin artırılmasına dair çox fəal dialoq gedir. Bütün bunlar praktik işlərin, ölkələrimizin rəhbərliyinin siyasi iradəsinin və əlbəttə ki, bu layihələrin tapşırıq verilmiş əlaqədar qurumlar, təşkilatlar tərəfindən fəal həyata keçirilməsinin nəticəsidir.

Belarus prezidentinin Azərbaycana bugünkü səfəri də münasibətlərimizin inkişafında mühüm mərhələdir. Müstəqillik illəri ərzində ölkələrimiz dövlətin inkişafı, müstəqilliyin möhkəmlənməsi, iqtisadi potensialın möhkəmlənməsi üçün çox böyük yol keçmişdir. Müstəqil ölkələr kimi, Belarus və Azərbaycan bu gün də tərəqqi və inkişaf yolu ilə inamla irəliləyir. Biz sizin uğurlarınıza, nailiyyətlərinizə, ölkənizin dönmədən inkişafını və əhalinin firavanlığını təmin edən hər şeyə sevinirik. Eyni hal Azərbaycanda da baş verir. 90-cı illərin ortalarının çox ağır böhranından çıxan iqtisadiyyatımız indi olduqca dinamik inkişaf edir. Son üç ildə iqtisadiyyatın artım sürətinə görə Azərbaycan dünyada inamla birinci yerdə gedir. İqtisadi artımımız 2005-ci ildə 26 faiz, 2006-cı ildə 35 faiz, 2007-ci ilin birinci rübündə isə 40 faiz olmuşdur. Bütün bunlar Azərbaycanın potensialının artdığını, iri regional layihələri, sərmayə layihələrini həyata keçirmək imkanlarını göstərir. Biz eyni halı Belarusda da müşahidə edirik.

Keçən ilin oktyabrında ölkənizə ilk rəsmi səfərim zamanı dövlətinizin inkişafını özüm əyani surətdə yəqin etdim. Mən sənaye müəssisələrinə də getdim, şəhərlə tanış oldum və hər yerdə qayda-qanun, təmizlik, qaydaya salınmış istehsal, sahmanlı məişət və yüksək mədəniyyət gördüm.

Odur ki, əgər nailiyyətlərdən danışsaq, onda haqlı olaraq fəxr edə bilərik ki, Azərbaycan və Belarus müstəqil dövlətlər kimi formalaşmışlar. Qarşıda hələ çox problemlər var. Biz bir çox sosial problemləri – insanların həyat şəraitinin yaxşılaşması, rifahının yüksəlməsi ilə bağlı problemləri həll etməliyik. Lakin artıq bugünkü nailiyyətlər inamla de-

məyə imkan verir ki, biz qarşımızda duran bütün problemləri həll edəcəyik.

Azərbaycan böyük həcmdə neft və qaz hasil edən ölkəyə çevrilir, neft hasilatının səviyyəsi sürətlə artır. Neft hasilatı bu il 43 milyon tona çatacaq, gələcəkdə 50–60 milyon tonadək artıracağıq, qaz hasilatını da artıracağıq. Bizim çox böyük yataqlarımız var, indi onların işlənilməsinə başlamışıq. Bu yataqlar Azərbaycanın, dostlarımızın və tərəfdaşlarımızın enerji təhlükəsizliyini azı yüz il təmin edəcəkdir. Ona görə də əməkdaşlığın mümkün istiqamətlərini təhlil edərək, belə qənaətə gəlmişik ki, iqtisadiyyatın diqqətimizin mərkəzində olan, əslində bütün istiqamətləri və sektorları ikitərəfli əlaqələr, ikitərəfli əməkdaşlıq üçün hazır və açıqdır.

Ölkəmizdə fəal iqtisadi islahatlarla yanaşı, güclü sosial siyasət də aparılır. Bununla da biz keçid dövrü islahatlarının ağırlığını azaltmağa çalışırıq və xalqın həyat və rifah səviyyəsinin yüksəlməsi üçün gələcəkdə bütün tədbirləri görəcəyik.

Nailiyyətlərlə yanaşı, problemlərimiz də var və onlardan ən başlıcası erməni silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin bir hissəsinin işğalının davam etməsidir. Dağlıq Qarabağda başlanmış separatizm Ermənistanın Azərbaycana qarşı təcavüzünə gətirib çıxardı, etnik təmizləmə siyasəti aparıldı, bu siyasət nəticəsində bir milyon azərbaycanlı öz torpağında qaçqın və məcburi köçkünə çevrildi. Ərazimizin 20 faizi bu gün də işğal altındadır. Bu, ölkəmiz üçün, regionumuz üçün ən böyük problemdir və ümumən, regionun gələcək sabit inkişafı üçün ən böyük təhlükədir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə, digər çox nüfuzlu beynəlxalq təşkilatların müvafiq qətnamələr qəbul etməsinə baxmayaraq, münaqişə indiyədək həll olunmayıbdır. Bizim mövqeyimiz son dərəcə sadə və ədalətlidir, beynəlxalq hüququn prinsip və normalarına əsaslanır. Hər bir münaqişə kimlərinsə istəklərinin, arzularının və xam xəyallarının baş tutması üçün deyil, məhz mövcud hüquq

normaları çərçivəsində həll edilməlidir. Beləliklə, hazırda erməni silahlı qüvvələrinin işğalı altında olan bütün yeddi rayon azad edilməli, qaçqınlar və məcburi köçkünlər öz tarixi yaşayış yerlərinə qayıtmalıdırlar. Eyni zamanda, Dağlıq Qarabağın inzibati sərhədi daxilində yaşamış on minlərlə azərbaycanlı öz tarixi torpağına –Dağlıq Qarabağa qayıtmalıdır. Bundan sonra Azərbaycanın tərkibində Dağlıq Qarabağın statusu danışıqlar yolu ilə müəyyən edilə bilər. Azərbaycanın ərazi bütövlüyünü bütün dünya, beynəlxalq təşkilatlar, BMT tanımışdır və buna görə də münaqişənin istənilən həlli yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür.

Azərbaycan ya bu gün, ya sabah və ya 10 ildən sonra, yaxud da 100 ildən sonra Dağlıq Qarabağın Azərbaycandan ayrılmasını nəzərdə tutan həll variantı ilə heç zaman razılaşmayacaqdır. Bizim mövqeyimiz bu münaqişənin həlli ilə məşğul olan beynəlxalq qurumlara, təşkilatlara yaxşı məlumdur və onlar tərəfindən dəstəklənir.

Mən bu barədə ona görə danışıram ki, baş verənləri sizə aydın izah edim, çünki təəssüflər olsun, bəzən siyasi maraqların, xaricdə müəyyən lobbi təşkilatlarının fəaliyyətinin xeyrinə tarix təhrif olunur. Lakin tarix olduğu kimi qalır. O, aydın şəkildə göstərir ki, indiki halda biz təcavüzə məruz qalmışıq və işğalçı qüvvələrin ərazimizdən dərhal çıxarılmasını tələb etməyə tam haqqımız var. İndi seçimi Ermənistan etməlidir: o ya getdikcə qüdrətlənən Azərbaycan tərəfindən ədalətli qisas qorxusu altında yaşamalı, yaxud da regionda öz qonşuları ilə sülh şəraitində yaşamalıdır.

Əziz dostlar, mən bu gün bir daha sizi salamlamaq istəyirəm. Biz Aleksandr Qriqoryeviçin ölkəmizə səfərinə çox böyük əhəmiyyət veririk. Bizim çox mehriban şəxsi münasibətlərimiz var ki, bu da dövlətlər arasında münasibətlər üçün çox vacibdir. Aleksandr Qriqoryeviç, bu gün Siz Azərbaycana çox böyük nümayəndə heyəti ilə gəlmisiniz. Bunun özü də ikitərəfli münasibətlərimizə Sizin necə böyük əhəmiyyət verdiyinizi göstərir. Mən əminəm ki, bu gün hər iki tərəfdən

danışıqlarda iştirak edən nümayəndə heyətinin üzvləri də öz səviyyələrində bizdən nümunə götürəcək və bizim kimi, onlar da dostluq və əməkdaşlıq edəcəklər.

Mən bu badəni Belarus prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun sağlığına və bütün Belarus xalqının tərəqqisi şərəfinə qaldırmaq istəyirəm.

**Belarus Respublikasının Prezidenti**
**Aleksandr Lukaşenkonun nitqi**

Hörmətli cənab Prezident!
Hörmətli Mehriban xanım!
Hörmətli dostlar!

İcazə verin, bu gün hər yerdə qarşılaşdığımız səmimiyyətə, əsl dostluq ab-havasına görə İlham Heydər oğluna ürəkdən təşəkkürümü bildirim.

Dövlətlərimizin coğrafi cəhətdən uzaqlığına baxmayaraq, xalqlarımız onilliklər boyu sıx dostluq telləri ilə bağlıdırlar. Biz sizin gözəl ölkənizə çox böyük hörmət bəsləyirik. O bu gün şəxsən mənim üçün daha gözəl oldu, çünki mən Azərbaycanı və onun paytaxtını öz gözlərimlə gördüm.

Təəssüf ki, müstəqilliyimizin birinci mərhələsində dövlətlərimiz tarixin ağır illərini yaşamalı oldular. Belarusda bu sizdə baş vermiş qarşıdurmaya çevrilmədi. İlham Heydər oğlu, mən istərdim ki, Siz bunu biləsiniz, Siz isə Belarus xalqının qəlbinə bələdsiniz: bu hadisələrin bizim doğma Belarusdan min kilometrlərlə uzaqda baş verməsinə baxmayaraq, biz burada Sovet İttifaqı dövründə cərəyan edən prosesləri, faciəli hadisələri çox böyük qəlb ağrısı ilə izləyirdik. Minlərlə gəncin dəfn olunduğu xiyabanı ziyarət edərkən biz tarixinizin bu dövrünü yeni bir tərzdə, çox böyük ürək ağrısı ilə hiss etdik.

İlham Heydər oğlu, Sizə ən başlıcası bunu arzu edirəm ki, mehriban, istedadlı, tolerant xalqınız indiyədək üzləşdiyi bəlalardan uzaq olsun. Mən bunu ona görə deyirəm ki, öl-

kənizin qüdrətli olmasına baxmayaraq, dünyamızda başqalarının sərvətində gözü olan quzğunlar hələ kifayət qədərdir. Ölkə varlı olduqca, perspektivləri geniş olduqca, bu ərazidə yaşayan xalq bir o qədər etibarlı müdafiə edilməlidir. Bizim aramızda problemli məsələlərin olmadığını və Belarus ilə Azərbaycan arasında əməkdaşlıq üçün bağlı mövzuların olmadığını deyərək, bir daha vurğulayıram ki, əldə etdiyimiz bütün razılaşmalar digər dövlətlər tərəfindən olan müxtəlif narazılıqlara, əngəllərə baxmayaraq, vaxtında yerinə yetiriləcəkdir. Biz suveren və müstəqil dövlətlərik, Belarus da, Azərbaycan da son illər öz suverenliyini və müstəqilliyini dəfələrlə sübut etmişdir.

Bir vaxtlar münasibətlərimizin kəsilməsinə, bir-birimizdən uzaqlaşmağımıza, ölkələrimiz arasında ticarət əlaqələrinin əslində pozulmasına baxmayaraq, bu gün sizin kimi, mən də sevinirəm ki, dövlətlərimiz arasında münasibətlər nizama düşür. Bu münasibətlərin əsasını, demək olar ki, qeyri-düzgün siyasətdən uzaq olan iqtisadiyyat təşkil edir. Daha doğrusu, Sizinlə gəldiyimiz qənaətə görə, bizim iqtisadiyyatımız hər hansı siyasətdən uzaqdır, hərçənd, nəyinsə siyasətdən uzaq olmasını təsəvvür etmək çətindir. Lakin bizim iqtisadiyyatımız siyasiləşdirilməmişdir. Əgər siyasət varsa da o bizim normal ticarət-iqtisadi münasibətlər yaradılması sahəsində əməkdaşlığımıza bənzəyir.

İlham Heydər oğlu, mən bilirəm ki, Belarusa səfərinizdən sonra biz Sizin qarşınızda bir sıra həssas məsələ qaldırdıq, çünki onlar digər dövlətlərin mənafelərinə, indiki halda bizə qardaş olan Rusiyanın mənafelərinə toxunurdu, xüsusilə bizə enerji daşıyıcılarının və s. göndərilməsi sahəsində. Bu, Rusiya Federasiyasının ənənəvi bazarına aid idi. Biz anlayırdıq ki, bu Sizin üçün ona görə çətin məsələ deyildir ki, ölkənizin nəyisə çatışmır və yaxud siz bunu satmağa hazır deyilsiniz, ona görə ki, mən bir daha vurğulayıram, bu bir çox dövlətlərin, ilk növbədə Rusiya Federasiyasının mənafelərinə toxunurdu. Lakin biz Sizə minnətdarıq ki, Siz düzgün, səmimi,

açıq, beynəlxalq münasibətlərdə qəbul olunduğu kimi, müstəqil, suveren dövlət kimi, açıq-aydın dediniz: bəli, biz qardaş Belarus xalqı ilə əməkdaşlıq etməyə hazırıq, gəlib bütün sərvətlərimizdən beynəlxalq ticarət və beynəlxalq əməkdaşlıq prinsipləri əsasında istifadə edə bilərsiniz. Biz bunu xatırlayırıq və uzun müddət unutmayacağıq. Hələ heç bir dövlət digər dövlətlərin mənafelərinə toxunan həssas məsələlərə belə açıq-aydın cavab verməmişdir.

Beş il ərzində ölkələrimiz arasında əmtəə dövriyyəsi təxminən 5 dəfə artmışdır. Lakin 40 milyon dollar səviyyəsində əmtəə dövriyyəsi bizi təmin edə bilməz. Düşünürəm ki, biz əməkdaşlıq edərək, iqtisadiyyatımızın yüksəlişini nəzərə alaraq, 2-3 il ərzində əmtəə dövriyyəsini yarım milyard dollar səviyyəsinə qaldıra bilərik. Biz bu gün bir-birimizə daha yaxın olduq. Rusiya Federasiyası ilə aramızda baş verən ixtilaf bizi Azərbaycana məhsul göndərilməsi və Azərbaycandan məhsul alınması marşrutlarınadək əməkdaşlıq istiqamətinin konkret yollarını işləyib hazırlamağa məcbur etdi.

Bu çox qiymətlidir və Azərbaycan mütəxəssislərinə minnətdarıq ki, İlham Heydər oğlu, Sizin göstərişinizlə onlar xahişimizə cavab verdilər, bizi hər vasitə ilə dəstəklədilər və kömək etdilər. Çox şadam ki, bu gün biz təkcə dövlətlərimizin deyil, bütün idarələrimizin də münasibətlərini normativ hüquqi baza üzərinə keçirməyə müvəffəq olduq. Bu çox qiymətlidir. Burada olan iri təşkilat və idarə rəhbərlərinin hamısı Azərbaycanın oxşar qurumları ilə müqavilə və sazişlər imzalamışlar. Bu çox yaxşıdır. Deyim ki, mən biləni, bizdə 13 ildə belə hal olmayıbdır. Çox yaxşı haldır ki, elmi müəssisələrdən tutmuş məhsul istehsal edən şirkətlərədək bilavasitə rəhbərlər birbaşa müqavilə və sazişlər imzalayırlar. Deməli, razılaşdırdığımız nə varsa, hamısı həyata keçiriləcəkdir. Müdrik bir Azərbaycan atalar sözündə deyildiyi kimi, «yol addım-addım qət edilər, dama-dama göl olar».

İlham Heydər oğlu, mən qəti əminəm ki, damla-damla doldurmaq əzmində olduğumuz həmin göl xalqlarımız ara-

sındakı qarşılıqlı münasibətlər və dostluq kimi saf və şəffaf olacaqdır.

Hörmətli dostlar!

Siz indicə öz prezidentinizin dili ilə dediniz ki, ölkəmizdə baş verən hadisələrə sevinir və həyəcan keçirirsiniz. Bu, Belarus xalqının ruhuna uyğundur. Burada biz vaxtilə qardaş olan respublikanın, indi isə müstəqil, perspektivli, güclü dövlətin simasında özümüzə yeni, mehriban, sınaqdan çıxmış dost tapdıq.

Cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, vaxtilə Belarusun etdiyi kimi, Siz də öz seçiminizə heyfsilənməyəcəksiniz. Biz həmişə Sizin etibarlı dostlarınız olacağıq.

Bu gün mən, təbii ki, Sizin sağlığınıza badə qaldırıram – hərçənd, çox cavan adamın sağlamlığından danışmaq yaxşı düşmür – bu badəni sizin xalqınızın şərəfinə, Belarus və Azərbaycan xalqları arasında dostluğun şərəfinə, uşaqlarınızın şərəfinə qaldırmaq istəyirəm, qoy gözəl uşaqlarınız Sizi həmişə sevindirsinlər, ailənizə nəinki qüssə-kədər, hətta pis ovqat da gətirməsinlər.

Sizin şərəfinizə, ailənizin şərəfinə, xalqınızın şərəfinə, dövlətinizin şərəfinə. Artıq biz də Azərbaycanı müşahidə edəcək və onun bütün sahələrdə uğurlarına sevinəcəyik.

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO HEYDƏR ƏLİYEV FONDUNDA

*Heydər Əliyev Fondu*

*3 may 2007-ci il*

*Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 3-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı, fondun prezidenti Mehriban Əliyeva ali qonağı səmimiyyətlə salamlayaraq, onu müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin adını daşıyan fondda görməkdən məmnun qaldıqlarını bildirdilər.*

*Dövlət başçıları və Mehriban xanım Əliyeva əvvəlcə Heydər Əliyev Fondunun yaranması, məqsədi, fəaliyyəti, həyata keçirdiyi layihələr, beynəlxalq əlaqələri barədə sənədli filmə baxdılar.*

*Prezident Aleksandr Lukaşenko fondun genişmiqyaslı fəaliyyətini yüksək qiymətləndirdi.*

*Sonra dövlətimizin başçısı ali qonağı fondun ekspozisiyası ilə tanış etdi.*

*Ulu öndərin uşaqlıq, təhsil illərinə aid fotoşəkillər, sənədlər, vaxtilə çəkdiyi rəsmlər, xüsusi xidmət orqanlarında çalışdığı dövrü, respublikaya rəhbərliyinin hər iki mərhələsindəki, habelə Moskvadakı fəaliyyətini əks etdirən eksponatlar Aleksandr Lukaşenkoda xüsusi maraq oyatdı. O, keçmiş SSRİ-nin rəhbərlərindən biri kimi yüksək nüfuz qazanmış görkəmli şəxsiyyətin Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasında və bunun təməli olan iqtisadi islahat-*

*ların həyata keçirilməsində həlledici rolunu yüksək dəyərləndirdi.*

*Prezident İlham Əliyev həmkarını ulu öndərin neft strategiyasının zirvəsi olan və indi onun adını daşıyan Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac boru kəmərinin maketi ilə də tanış etdi, bu layihənin nəinki regionda, həm də bütün dünyada geosiyasi vəziyyətə böyük təsir göstərdiyini vurğuladı.*

*Aleksandr Lukaşenko ümummilli lider Heydər Əliyevin dünyanın nüfuzlu siyasi xadimləri, dövlət və hökumət rəhbərləri ilə görüşlərini, dünyanın müxtəlif ölkələrində onun xatirəsinə ucaldılan abidələri əks etdirən fotoşəkillərə maraqla baxdı.*

*Belarus prezidenti Xatirə kitabına ürək sözlərini yazdı, görkəmli siyasi xadim Heydər Əliyevin xatirəsinə öz dərin ehtiramını bildirdi və fondla tanışlıqdan zəngin təəssürat aldığını vurğuladı.*

*Fondun prezidenti Mehriban Əliyeva ali qonağa xatirə hədiyyəsi təqdim etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO AZƏRBAYCANDA BELARUS MİLLİ SƏRGİSİNİN AÇILIŞINDA

*Respublika Olimpiya Kompleksi*

*3 may 2007-ci il*

*Mayın 3-də Bakıda, Respublika Olimpiya Kompleksində Azərbaycanda Belarus milli sərgisinin rəsmi açılışı olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev və Belarus prezidenti Aleksandr Lukaşenko mərasimdə iştirak etmişlər.*

*Milli geyimli belaruslu qızlar dövlət başçılarını duz-çörəklə qarşıladılar.*

*Açılışı bildirən qırmızı lenti kəsdikdən sonra prezidentlər ekspozisiya ilə tanış oldular. Belarus Dövlət Yeyinti Sənayesi Şirkəti («Belqospişşeprom»), «Babuşkina krınka» ASC, Orşa «Ətkonservkombinatı» ASC, Minsk avtomobil zavodu, «Amkodor» ASC, Qomel kənd təsərrüfatı maşınqayırması zavodu («Qomselmaş»), «Mogilyovliftmaş», «Mərkəz» Elm-İstehsal Birliyi, «Stroydetali» ASC və başqa müəssisələrin təmsilçiləri buraxdıqları məhsullar haqqında Azərbaycan və Belarus prezidentlərinə ətraflı məlumat verdilər.*

*Belarusun İnformasiya nazirinin müavini İqor Laptyonok Azərbaycan prezidenti İlham Əliyevə qarşıdakı 9 May Qələbə günü münasibətilə ikicildlik «Pobeda» kitabını hədiyyə etdi. Nazirliyin sərgidəki stendində 500-dən çox adda kitab, jurnal və qəzet nümayiş etdirilir.*

*Kompleksin həyətində Gəncə avtomobil zavodunda buraxılmış Belarus avtomobilləri və traktorlarının sərgisində prezi-*

*dentlərə müəssisənin fəaliyyəti, iki ölkənin maşınqayıranlarının əməkdaşlığının inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə məlumat verildi. Kənd Təsərrüfatı naziri İsmət Abasov bildirdi ki, «Aqrolizinq» ASC xətti ilə ilin sonunadək Gəncə avtomobil zavodundan 8 milyon manatlıq 382 traktor alınacaqdır.*

*Prezident İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbova «Mogilyovliftmaş» zavodu ilə müvafiq danışıqlar aparıb paytaxtın lift təsərrüfatını qaydaya salmaq barədə tapşırıq verdi.*

*Sərginin açılışında nazirlər, dövlət komitələri və şirkətlərinin rəhbərləri, Milli Məclisin deputatları, diplomatik korpusun, yerli və xarici kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak edirdilər.*

* * *

*Mayın 3-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Belarusun Dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Təyyarənin pilləkəni yanında Belarus prezidenti Aleksandr Lukaşenkonu Azərbaycanın Baş naziri Artur Rasizadə, Xarici İşlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.*

## BAKININ SABUNÇU RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN TİKİLMİŞ YENİ QƏSƏBƏNİN AÇILIŞ MƏRASİMİNDƏ

*Bakı, Sabunçu rayonu*

*4 may 2007-ci il*

*Mayın 4-də Bakının Sabunçu rayonunda Ramana qəsəbəsi yaxınlığında məcburi köçkün ailələri üçün tikilmiş yeni qəsəbənin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Qəsəbə sakinləri dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladılar.*

*Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov prezidentə məlumat verdi ki, yeni qəsəbəyə Əzizbəyov rayonundakı «Zuğulba» sanatoriyasında, yaşayış üçün tam yararsız, heç bir kommunal şəraiti olmayan binalarda müvəqqəti məskunlaşmış 450 məcburi köçkün ailəsi köçürülmüşdür. 80 hektar ərazidə salınmış qəsəbənin tikintisinə ötən ilin dekabrında başlanmış və bu il aprelin 10-da istifadəyə verilmişdir. 450 yaşayış evinin ümumi sahəsi 29 min kvadratmetrdir. Evlərin 90-ı birotaqlı (46,7 kvadratmetr, dəyəri 22 min manat), 222-si ikiotaqlı (63,1 kvadratmetr, dəyəri 29 min 344 manat), 134-ü üçotaqlı (77,8 kvadratmetr, dəyəri 33 min manat) və 4-ü dördotaqlı (91 kvadratmetr, dəyəri 38 min 224 manat) mənzillərdən ibarətdir. Burada 360 şagirdlik məktəb binası, musiqi məktəbi, ambulatoriya, poçt şöbəsi, inzibati bina da vardır. 16 kilometr asfalt yol, 21 kilometr su, 19 kilometr elektrik, 27 kilometr qaz, 34 kilometr kanalizasiya və drenaj xətləri çəkilmiş, 400 və 250 kilovatlıq 10 ədəd və 10 meqavat*

*gücündə 1 ədəd yüksək gərginlikli transformator quraşdırılmış, həcmi 500 kubmetr olan iki su anbarı və bir nasosxana tikilmişdir.*

*Yeni qəsəbənin salınması üçün Dövlət Neft Fondundan 37,4 milyon manat məbləğində vəsait ayrılmışdır. Bunun 18,4 milyon manatı sosial-texniki infrastruktur obyektlərinə xərclənmişdir. Qəsəbədə məskunlaşmış 400 ailə Şuşadan, qalan 50 ailə isə Ağdam, Laçın, Xocalı və Xocavənd rayonlarındandır.*

*Prezident İlham Əliyev əvvəlcə Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsinin Malıbəyli kənd uşaq musiqi məktəbi ilə tanış oldu. Prezidentə və xanımına gül dəstələri təqdim olundu.*

*Dövlətimizin başçısı musiqi məktəbində təhsil alan uşaqların çıxışlarını dinlədi. Azərbaycanın musiqi beşiyi sayılan Şuşanın həsrətində olan balaca xanəndələrin ifasında «Qarabağ şikəstəsi» alqışlarla qarşılandı. Məlumat verildi ki, 22 müəllimin çalışdığı musiqi məktəbində tar, kamança, qarmon, nağara, fortepiano və xor şöbələrində 148 uşaq təhsil alır. Onlar respublikamızda keçirilən müxtəlif festival və müsabiqələrdə fəal iştirak edir, Qarabağımızın qədim musiqi ənənələrinə yiyələnirlər.*

*Prezident İlham Əliyev musiqi məktəbində «Şuşa uşaq musiqi məktəbləri bu gün», «Heydər Əliyev Şuşada. 1982-ci il», «Şuşa tarixi abidələr şəhəridir» adlı fotoguşələrlə tanış oldu, ulu öndərimizin ötən əsrin 80-ci illərinin əvvəllərində Şuşaya səfəri və orada keçirdiyi görüşləri əks etdirən fotoşəkillərə maraqla baxdı. Dövlətimizin başçısı xor kollektivinin ifasında səslənən mahnılara da qulaq asdı və xanımı ilə birlikdə uşaqlarla xatirə şəkli çəkdirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev qəsəbə sakini, 3 otaqlı mənzillə təmin edilmiş malıbəylili məcburi köçkün Tacir Cəfərovun qonağı oldu. Dövlətimizin başçısı və xanımı çay süfrəsi arxasında ev sahibləri ilə söhbət etdilər.*

**T a c i r  C ə f ə r o v**: Cənab Prezident, bu gün bizim üçün şərəfli və tarixi bir gündür. Bu elə bir gündür ki, bizim ailədə xoş xatirə kimi yadda qalacaq, həyatımız boyu unut-

mayacağıq. Siz bizim üçün gözəl şərait yaratmısınız. Biz yararsız bir yerdə yaşayırdıq. İndi belə bir qəsəbə salmısınız. Bunun üçün Sizə minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Gözəl qəsəbədir, burada bütün şərait var, yaxşı evlər tikilib, məktəblər var. Mən gedib baxdım, uşaqlar çox gözəl mahnılar ifa edirlər. Yaşamaq üçün hər cür şərait var. İşıq, qaz, su, kanalizasiya – bütün xidmətlər var.

**T ü n z a l ə C ə f ə r o v a:** Cənab Prezident, bunların hamısı Sizin sayənizdədir. Sevincimizin həddi-hüdudu yoxdur.

**T a c i r C ə f ə r o v:** Bunların qiyməti yoxdur, əvəzolunmaz bir şeydir. Bunu sözlə ifadə etmək qeyri-mümkündür.

**Ə l i H ə s ə n o v:** Drenaj xətti də çəkilibdir.

**İ l h a m Ə l i y e v:** Ümumiyyətlə, bu qəsəbə qısa müddət ərzində tikilibdir. 450 evdən ibarətdir. Arzu edirəm ki, siz burada xoşbəxt yaşayasınız.

**T ü n z a l ə C ə f ə r o v a:** İnana bilmirik ki, biz şəxsən Sizinlə üzbəüz görüşürük.

**T a c i r C ə f ə r o v:** Çox sağ olun. Biz inanırıq ki, Şuşaya qayıdacağıq.

**İ l h a m Ə l i y e v:** Biz buna nail olacağıq. Bütün torpaqlarımız işğalçılardan azad edilməli, bizim insanlarımız öz yurdlarına, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qayıtmalıdırlar.

**T a c i r C ə f ə r o v:** Biz Sizə inanırıq, bütün xarici və daxili siyasətinizi dəstəkləyirik. Həmişə Sizə arxa-dayağıq. Arzumuz ancaq və ancaq torpağımıza, yurdumuza qayıtmaqdır.

**İ l h a m Ə l i y e v:** Bu, təbii tələbdir. Azərbaycan xalqı da, dövləti də haqlı olaraq bunu tələb edir. Biz çalışırıq məsələni danışıqlar yolu ilə həll edək. Amma əfsuslar olsun ki, hələlik ciddi irəliləyiş yoxdur. Bununla bərabər, hər bir başqa varianta da hazır olmalıyıq. Azərbaycanın artan qüdrəti indi qarşı tərəfə də təsir göstərir.

**T a c i r  C ə f ə r o v:** Ölkəmiz qüvvətlənir, iqtisadiyyatımız yüksəlir. İndi inkişaf etmiş dünya dövlətləri artıq ölkəmizlə hesablaşır. Bu bizim üçün şərəfli bir haldır. Şəhərimiz böyüyür, genişlənir, yeni-yeni körpülər, binalar, məktəblər tikilir. Əsas odur ki, elmə, təhsilə böyük fikir verilir.

**İ l h a m  Ə l i y e v:** Torpaqlarımız işğalçılardan azad olunandan sonra orada da gözəl binalar tikəcəyik. Artıq indidən bu barədə fikirləşirik. Ən müasir, Baş plana uyğun şəkildə. Çünki bilirsiniz ki, orada hər şey dağıdılıbdır. Bir dənə də salamat bina qalmayıbdır. Ağdam, Füzuli, Şuşanın özü tamamilə dağıdılıbdır. Biz gərək onların hamısını yenidən tikək, özü də yüksək səviyyədə. Təcrübəmiz də var. Bu cür böyük qəsəbələr tikirik. Biz tarixi yerlərimizi mütləq bərpa edəcəyik, maddi imkanlarımız da var.

**T a c i r  C ə f ə r o v:** Biz bilirik ki, oranı hansı vəziyyətə salıblar. Malıbəyli kəndindən çıxanda gözlərimizlə gördük. Mən özüm Xocalıdan çıxdım. Bizim yeddi şəhidimiz var, o cümlədən oğlum şəhid olubdur. Həyat isə davam edir. Biz Sizə inanırıq.

**İ l h a m  Ə l i y e v:** Ədalət mütləq bərpa olunacaqdır.

**T a c i r  C ə f ə r o v**: Əvvəlki illərə baxanda çox şey dəyişibdir. 90-cı illərdə vəziyyət çətin idi.

**İ l h a m  Ə l i y e v**: O vaxt hərc-mərclik, xaos, anarxiya idi. Elə torpaqlarımız da o vaxt getdi. Bir-biri ilə savaşırdılar, torpaqlarımız da əldən gedirdi.

**T a c i r  C ə f ə r o v:** Möhtərəm prezidentimiz Heydər Əliyev hakimiyyətə gələndən sonra hər şey düzəldi. 20 Yanvar faciəsinə, Xocalı hadisələrinə siyasi qiymət verilməmişdi. İndi bunların hamısını görürük, başa düşürük.

**İ l h a m  Ə l i y e v:** İndi Xocalı soyqırımı haqqında bütün dünyada geniş məlumatlar vardır.

**T a c i r  C ə f ə r o v:** Bilirik ki, YUNESKO-nun xətti ilə də məlumat yayılır.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, hamı bilməlidir. Ermənilər həmişə tarixi təhrif etməklə məşğul olublar, özlərini qurban

kimi göstərmək istəyiblər. Halbuki, onlar ən qatı cinayət törətmiş, orada günahsız insanları qəddarcasına öldürmüşlər.

**T ü n z a l ə   C ə f ə r o v a:** Son qazıntılar zamanı tapılan sümüklər buna sübutdur.

**İ l h a m   Ə l i y e v:** Bütün dövrlərdə belə olubdur. Amma həmişə çalışıblar, xüsusilə də xaricdə, sübut etsinlər ki, əksinə, onlar təcavüzə məruz qalıblar. Ona görə də həm beynəlxalq hüquq normaları, həm də ədalət bərpa olunmalıdır. Hələ gec deyil, onlar fikirləşməlidirlər ki, Azərbaycan xalqının səbri tükənə bilər. Xüsusilə nəzərə alsaq ki, indi biz onlardan ən azı on dəfə güclüyük.

**T a c i r   C ə f ə r o v:** Bəli, bizim büdcədə təkcə hərbiyə ayrılan vəsait onların ümumi büdcəsinə bərabərdir.

**İ l h a m   Ə l i y e v:** Bəli, biz nə üçün bunu edirik?! Ona görə edirik ki, istənilən anda hazır olaq və öz torpaqlarımızı işğalçılardan təmizləyək. İndi buna bizim gücümüz var və daha da güclənməliyik. Onların heç bir perspektivi yoxdur. Onların inkişaf perspektivi nədir?!

**T a c i r   C ə f ə r o v:** Bütün regional layihələrdən, Bakı–Tbilisi–Ceyhandan, hamısından kənarda qaldılar.

**İ l h a m   Ə l i y e v:** Onları kənarda biz qoyduq. Onlarda inkişaf üçün, büdcəni artırmaq üçün perspektiv yoxdur. Onlar bizimlə müqayisədə dilənçi vəziyyətinə düşəcəklər.

**T ü n z a l ə   C ə f ə r o v a:** Kimlərinsə yardımı ilə yaşayırlar.

**İ l h a m   Ə l i y e v:** Amma biz özümüz heç kimin yardımına möhtac deyilik, bütün işləri ləyaqətlə aparırıq, ölkəmizi həm iqtisadi, həm də sosial cəhətdən gücləndiririk. Belə qəsəbələr tikmək üçün əvvəllər bizim imkanımız yox idi. Ancaq nəyin hesabına etdik – Neft fondunun və bu da ulu öndərin təşəbbüsü ilə yaradılmışdır.

**T a c i r   C ə f ə r o v:** Ulu öndərin sayəsində «Əsrin müqaviləsi» Azərbaycanın xeyrinə olan şərtlərlə imzalandı.

**İ l h a m   Ə l i y e v:** İndi görün, Azərbaycana nə qədər pul gələcək və biz gözəl binalar tikəcəyik.

**T ü n z a l ə   C ə f ə r o v a:** Cənab Prezident, doğrusu, yatsaq yuxumuza da girməzdi ki, belə bir şəraitə düşərik.

**İ l h a m   Ə l i y e v:** Doğrudan da gözəl şəraitdir.

* * *

*Azərbaycan prezidentinin adından mənzilə soyuducu və televizor hədiyyə edildi.*

*Prezident İlham Əliyev qəsəbədə fəaliyyət göstərən Malıbəyli kənd orta məktəbinə gəldi. Dövlətimizin başçısı burada qəsəbənin Baş planı ilə tanış oldu, tikinti və məcburi köçkünlərin qəsəbəyə köçürülməsi prosesini əks etdirən fotoşəkillərə baxdı. Məlumat verildi ki, Heydər Əliyev Fondunun «Hərəmiz bir ağac əkək!» layihəsi çərçivəsində məktəbin həyətyanı sahəsində yüzlərlə ağac əkilmişdir.*

*Azərbaycan prezidenti 50-dən çox müəllimin çalışdığı 360 yerlik orta məktəbin idman salonunda gənclərin nümunəvi çıxışlarına baxdı, kompyuter otağını və ingilis dili kabinetini gəzdi, uşaqların bilikləri, kompyuterdən istifadə, xarici dil öyrənmə bacarığı ilə maraqlandı. Məktəblilər ingilis dilində danışmaq bacarıqlarını nümayiş etdirdilər.*

*Sonra yeni qəsəbənin təntənəli açılışı oldu.*

*Mərasimi qəsəbə sakini, Şuşa rayonu Quşçular kənd orta məktəbinin müəllimi Rəfael Teymurlu açdı.*

## Şuşa rayonu Quşçular kənd orta məktəbinin müəllimi Rəfael Teymurlunun çıxışı

*Möhtərəm cənab Prezident!*

*İcazə verin, Sizin xeyir-duanızla ərsəyə gəlmiş bu gözəl yeni qəsəbədə Sizi salamlayım. Xoş gəlmisiniz, qədəmləriniz mübarək olsun!*

*Sizin məhz bu unudulmaz gündə bizi yad etməyiniz ümid və inamımızı xeyli dərəcədə artırır, gündən-günə qüdrətlənən, çiçəklənən ölkəmizin nələrə qadir olduğunu bir daha sübut edir.*

*Möhtərəm cənab Prezident, bu gün mənim yadıma 13 il əvvəl – 1994-cü ildə ulu öndər Heydər Əliyevlə olan görüşümüz düşür. Biz onda «Zuğulba» sanatoriyasında yaşayırdıq. İndi burada iştirak edən adamların bir çoxu yəqin ki, o günləri yaxşı xatırlayır. Ölkənin ən ağır günləri idi. Bir yandan, daxildə baş qaldıran qeyri-sağlam qüvvələr, digər tərəfdən, xaricdən bizi istəməyən qüvvələrin təzyiqi – bütün bu çətinliklərin, ağırlıqların öhdəsindən yalnız Heydər Əliyev kimi dahi gələ bilərdi və bildi də. Ulu öndər dünyanın ən iri neft şirkətlərini Bakıya dəvət etməklə bu gün xalqımızın, hamımızın faydasını gördüyü Bakı–Tbilisi–Ceyhan neft kəmərinin əsası qoyuldu.*

*Möhtərəm cənab Prezident, bu görüşdə iştirak edənlərin çoxu təsdiqləyə bilər ki, biz öz kəndimizi – Malıbəylini tərk edib buraya gələndə su içməyə stəkanımız da yox idi. İndi şükürlər olsun ki, camaatımızın maddi rifahı xeyli dərəcədə yüksəlibdir. Bütün bunların hamısı Sizin sayənizdə baş vermişdir. Sözün doğrusu, bu qısa zaman kəsiyində belə gözəl, abad bir şəhər tipli qəsəbənin bizim ixtiyarımıza veriləcəyinə heç inanmağımız gəlmirdi. Ancaq bu reallıqdır. Bu qəsəbə artıq bizim ixtiyarımıza verilibdir. Cənab Prezident, bu məhz Sizin məcburi köçkünlərə, qaçqınlara, ümumiyyətlə, bütün Azərbaycan vətəndaşlarına göstərdiyiniz qayğının ən böyük təzahürüdür.*

*Cənab Prezident, Azərbaycan dünyada kiçik bir ölkədir. Müstəqilliyimizin də yaşı o qədər çox deyildir. Açığını desək, Azərbaycanın bugünkü inkişafı bizim düşmənlərimizin kədərinə səbəb olur, dostlarımızı isə sevindirir. Bu gün Azərbaycan böyük bir tikinti meydançasını xatırladır. Haraya baxırsan abadlıq-tikinti işləri gedir. Körpülərin tikilməsi, asfalt yolların çəkilməsi, yeni yaşayış massivlərinin salınması, olimpiya komplekslərinin bir-birinin ardınca istifadəyə verilməsi – bütün bunların hamısı bizi son dərəcə sevindirir.*

*Mən məktəb müəllimi olduğumdan kiçik bir haşiyə çıxmaq istəyirəm. Adi bir müəlliməm. Aldığım əməkhaqqının ilbəil*

*artması ailə büdcəmizin kifayət qədər yüksəlməsinə səbəb olur. Biz inanırıq ki, maaşlarımız, əməkhaqlarımız bundan sonra da hər il artacaq və maddi vəziyyətimiz daha da yaxşılaşacaqdır.*

*Müəllim olduğum üçün məktəb tikintisindən danışmaya bilmərəm. Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın məktəb tikintisinə bu qədər canıyananlıqla və ciddi yanaşması biz müəllimləri çox sevindirir. Möhtərəm Prezident, biz inanırıq ki, «Təhsil millətin gələcəyidir» fikri bu gün özünü tam mənası ilə doğruldur. Sizin «Azərbaycanın bütün vətəndaşları neft gəlirlərindən faydalanmalıdır» fikriniz bu gün tam mənası ilə öz təsdiqini tapır. Hər bir ailə bu gözəl yaşayış üçün Sizə dərin minnətdarlığını bildirir.*

*Möhtərəm cənab Prezident, ataların gözəl bir məsəli var: «Görünən kəndə bələdçi lazım deyil». Sizin gördüyünüz bu əzəmətli və nəhəng işlərin hamısı xalqın gözünün qabağındadır. Bu işləri görməyən göz kor, eşitməyən qulaq kar, duymayan ürək daşdır.*

*Ancaq cənab Prezident, bizim üçün salınan bu qəsəbə nə qədər gözəl, rahat olsa da, belə hesab edirəm ki, yenə də doğma torpaqlarımızı əvəz edə bilməz. İnanırıq ki, o torpaqlarımız da gec-tez geri alınacaqdır. Burada iştirak edən hər birimiz o torpaqların alınması üçün müsəlləh əsgər libası geyinib döyüşməyə tam hazırıq.*

*Möhtərəm cənab Prezident, çıxışımın sonunda Sizə bir daha dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Sizin Qarabağda, Şuşada, Malıbəylidə və bizim daha neçə qaçqın-köçkün yurdlarımızda belə görüşlər keçirməyinizi arzulayıram. Arzu edirəm ki, biz belə görüşləri o torpaqlarda keçirək. Sağ olun, Allah amanında.*

## BAKININ SABUNÇU RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN TİKİLMİŞ YENİ QƏSƏBƏNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Bakı, Sabunçu rayonu*

*4 may 2007-ci il*

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı bu gözəl qəsəbənin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Qısa müddət ərzində istifadəyə verilən bu qəsəbə ən yüksək səviyyədə yaradılıbdır. Burada yaxşı yaşamaq, işləmək, oxumaq üçün hər cür şərait var. Gözəl evlər, binalar, məktəb tikilib, yollar salınıb, işıq, qaz, su, kanalizasiya xətləri çəkilibdir. İndi burada rabitə sistemi də quraşdırılacaqdır. Yəni hər bir insanın yaşaması üçün bütün şərait var. Bu, Azərbaycanda son illər ərzində bu sahədə aparılan işlərin növbəti təzahürüdür.

Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda yaradılmış Dövlət Neft Fondunun ilk vəsaiti hesabına qaçqınlar və məcburi köçkünlər üçün qəsəbə tikilmişdir. Bundan əvvəl Azərbaycanda bizim qaçqın-köçkün soydaşlarımız çox ağır, çətin şəraitdə yaşamışlar. Çadır şəhərciklərində ən ağır şərait məhz burada idi. Təsadüfi deyil ki, bizim ilk addımlarımız məhz çadır şəhərciklərində yaşayan insanları müasir qəsəbələrə köçürməkdən ibarət idi. İndi demək olar ki, bu proses son mərhələsindədir. Əminəm ki, bu ilin sonuna qədər sonuncu çadır şəhərciyi ləğv ediləcək və orada yaşayan soydaşlarımız gözəl binalara köçürüləcəklər. Bu bizim siyasətimizin əsas istiqamətidir.

Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində öz doğma torpaqlarından didərgin düş-

müş soydaşlarımızı biz müvəqqəti olaraq normal şəraitlə təmin etməliyik. Son illər ərzində bu məqsədlər üçün çox böyük vəsait nəzərdə tutulub, xərclənir və bu gün bu gözəl qəsəbənin istifadəyə verilməsi bunun növbəti sübutudur. Burada 450 ev tikilibdir və insanlar bu evlərdə rahat yaşayacaqlar.

Azərbaycanda son illər ərzində aparılan iqtisadi islahatlar, uğurlu neft strategiyamız bizim üçün bütün bu imkanları yaradır. İndi burada çıxış edən dostumuz qeyd etdi ki, 1994-cü ildə ulu öndər Heydər Əliyev məskunlaşdığınız «Zuğulba» sanatoriyasında sizinlə görüşmüşdür. Mən də o görüşü yaxşı xatırlayıram. Çünki o vaxt mən də orada idim. O görüş faktiki olaraq, Azərbaycanda bu sahədə görülən işlərin başlanğıcı idi. O sanatoriya hələ 80-ci illərin ortalarında, demək olar ki, yararsız vəziyyətə düşmüşdü. Siz oraya gələndə, məskunlaşanda da vəziyyət o qədər də yaxşı deyildi və uzun illər ərzində təmirsiz qalmış binalarda yaşamısınız. Buradakı stendlərdəki şəkillərdə sizin necə ağır şəraitdə yaşadığınız göstərilir. Sizi oradan bu gözəl qəsəbəyə köçürmək, əlbəttə, bizim borcumuz idi. Yenə də demək istəyirəm ki, biz ilk növbədə ən ağır şəraitdə yaşayan, yəni çadır şəhərciklərində yaşayan soydaşlarımızın qayğıları ilə məşğul idik. Ondan sonra uyğunlaşdırılmış binalarda, məktəblərdə, pansionatlarda, təmirsiz qalmış binalarda yaşayan soydaşlarımızı da gözəl şəraitlə təmin edəcəyik.

İndi Azərbaycanın imkanları var. Əgər 1994-cü ildə ulu öndər tərəfindən, onun təşəbbüsü ilə «Əsrin müqaviləsi» imzalanmasaydı, bu işlərin görülməsində böyük çətinliklər çəkə bilərdik. Bu gün Azərbaycanın iqtisadi potensialı, onun qüdrəti artır. Qarşıya qoyduğumuz bütün vəzifələr öz həllini tapır. İndi Azərbaycan iqtisadi inkişaf baxımından dünya miqyasında ən qabaqcıl pillələrdədir. Biz üçüncü ildir ardıcıl olaraq, iqtisadi artım baxımından dünya miqyasında birinci yerdəyik. Bu da öz növbəsində, hər bir insanın həyatında özünü göstərir. Qaçqın-köçkünün həyatında

özünü göstərir. Müəllimin, həkimin, büdcə təşkilatlarında, özəl sektorda çalışan insanların həyatında özünü göstərir.

İndi Azərbaycanda geniş quruculuq-abadlıq işləri aparılır. Təkcə Bakıda deyil, müxtəlif rayonlarda, demək olar hər bir bölgədə məktəblər, xəstəxanalar tikilir, yollar salınır, lazım olan bütün infrastruktur, elektrik stansiyaları tikilir, su xətləri çəkilir. Biz insanları narahat edən bütün problemləri aradan qaldırmalıyıq. Bunu etmək üçün bizim düşünülmüş proqramımız var, maddi imkanlarımız, iradəmiz və xalqın dəstəyi var. Hər bir islahatı uğurla aparmaq, başa çatdırmaq üçün lazım olan bütün amillər Azərbaycanda var. İndi Azərbaycan güclü ölkəyə çevrilir. Biz öz siyasətimizi müstəqil şəkildə aparırıq. İqtisadi cəhətdən heç kimdən asılı deyilik. Enerji təhlükəsizliyi baxımından heç kimdən asılı deyilik, əksinə, biz başqa ölkələr və təşkilatlar üçün enerji təhlükəsizliyini təmin edən ölkə kimi çıxış etməyə başlamışıq. Əlbəttə ki, Azərbaycanın artan iqtisadi və siyasi önəmi qarşımızda duran məsələlərin həllində də bizə kömək göstərəcəkdir.

Bizim qarşımızda duran ən vacib, ən önəmli məsələ Azərbaycan torpaqlarının işğalçı qüvvələrdən təmizlənməsi, soydaşlarımızın, qaçqın-köçkün bacı-qardaşlarımızın öz doğma torpaqlarına qayıtmasıdır. Bizim qarşımızda bundan başqa, bundan daha önəmli vəzifə yoxdur. Çünki bütün başqa məsələlər öz həllini tapır və tapacaqdır.

Bizim gələcək planlarımızda iqtisadi, sosial məsələlər, insanların maddi vəziyyətinin daha da yaxşılaşdırılması üçün maaşların, pensiyaların artırılması da nəzərdə tutulur. Azərbaycanda insanlar yaxşı yaşamalıdırlar. Üç il ərzində yoxsulluq kəskin şəkildə, iki dəfədən çox azalıbdır, 49 faizdən 20 faizə enibdir. Bu ilin nəticələrinə görə, əminəm ki, 20 faizdən də aşağı düşəcəkdir. Azərbaycanda bir nəfər də yoxsul olmamalıdır. Yəni, bizim xalqımız yaxşı yaşamalıdır. Ona görə iqtisadi, siyasi, sosial, humanitar sahələrdə görülən işlər öz nəticəsini verir və biz proqram üzrə irəliləyirik.

O ki qaldı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə, burada hələ ki, hər şey bizdən asılı deyildir. Biz danışıqlar çərçivəsindəyik. Bu danışıqları aparırıq. Sözün düzü, bu danışıqların artıq 10 ildən çox aparılması bizim hamımızı çox narahat edir, incidir, üzür. Biz nə vaxta qədər bu danışıqlara sadiq qalmalıyıq? Biz öz sülhsevər siyasətimizi dəfələrlə sübut etmişik. Baxmayaraq, bütün dünya artıq bilir ki, bizə qarşı haqsızlıq, ədalətsizlik edilibdir. Ermənistanın silahlı qüvvələri bizim torpaqlarımızı işğal edibdir, etnik təmizləmə siyasəti aparıbdır, günahsız insanları məhv edibdir, bizim şəhərlərimizi dağıdıbdır, məscidlərimizi yerlə-yeksan edibdir, əcdadlarımızın qəbirlərini dağıdıbdır. Yəni, bütün bu ədalətsizliklər Azərbaycana və azərbaycanlılara qarşı olubdur. Bütün bunlara baxmayaraq, biz çalışırıq və bundan sonra da müəyyən müddət çalışacağıq ki, bu məsələni danışıqlar yolu ilə həll edək. Çünki biz istəmirik yenidən qan tökülsün, istəmirik cavanlarımız şəhid olsun. Ancaq bununla bərabər, biz hər an hazır olmalıyıq ki, öz torpaqlarımızı hərb yolu ilə, silahlı yolla azad edək. Bunu etmək üçün biz güclü ordu yaradırıq.

Bu gün Azərbaycan hərbi potensialını ildən-ilə artırır və bölgədə ən güclü orduya malikdir. Qısa müddət ərzində hərbi xərclərimiz 1 milyard dollara çatıbdır. Mən iki il bundan əvvəl vəzifə kimi qoymuşdum ki, bizim hərbi xərclərimiz Ermənistanın bütün xərclərinə bərabər olsun və biz buna nail olduq. Ermənistanın bütün büdcəsi 1 milyard dollar olduğu halda, bizim ancaq orduya xərclənən vəsaitimiz 1 milyard dollardır. Bundan sonra biz bunu daha da artıracağıq. Artıq hərbi tarazlıq, Ermənistan ilə Azərbaycan arasında əvvəlki illərdə mövcud olan hərbi tarazlıq kəskin şəkildə bizim xeyrimizə dəyişilibdir. Azərbaycanın artan iqtisadi və siyasi önəmini nəzərə alaraq, biz gələcəyi çox aydın görürük. Görürük ki, bir ildən, iki ildən, üç ildən sonra bizimlə Ermənistan arasında uçurum daha da genişləzəcəkdir. Bu gün də bu belədir. Azərbaycanın iqtisadiyyatı həcm baxımından Ermənistanın iqtisadiyyatından artıq 7 də-

fə böyükdür, büdcəmiz də həmçinin. Gələcək illərdə daha da artacaqdır. Bu, əlbəttə, ilk növbədə, Azərbaycanı hərtərəfli inkişaf etdirəcək, yeni müəssisələr fabriklər, zavodlar yaradılacaq, iqtisadiyyat inkişaf edəcək, insanlar daha yaxşı yaşayacaqlar. Eyni zamanda, biz həmişə hərbi potensialı da diqqət mərkəzində saxlamalıyıq və bunu artırmalıyıq, gücləndirməliyik.

Bir sözlə, bu məsələnin həlli üçün müxtəlif istiqamətlərdə apardığımız siyasət, diplomatik səylərimiz, ikitərəfli danışıqlarda fəal mövqeyimiz, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığımızla yanaşı, eyni zamanda, iqtisadi, hərbi üstünlüyümüz və hərbi potensialın ən yüksək səviyyəyə gətirilib çıxarılması bizə imkan verir ki, istənilən anda, heç bir başqa ölkəyə təcavüz etmədən öz torpağımızda istənilən əməliyyatı keçirə bilək.

Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır və dəstəklənir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Tarixi həqiqət də belədir. Beynəlxalq hüquq normaları da bunu sübut edir. Baxmayaraq, əvvəlki illərdə danışıqların ilk mərhələsində bəzi beynəlxalq təşkilatlar belə fikirdə idi ki, Dağlıq Qarabağa ya müstəqillik verilməlidir, yaxud da Ermənistana birləşməlidir. Ermənistan və erməni lobbisi çirkin fəaliyyəti, təbliğatı nəticəsində tarixi təhrif edərək bəzi beynəlxalq təşkilatları, bəzi inkişaf etmiş ölkələrin siyasi dairələrini inandırmışdılar ki, guya bu məsələdə onlar haqlıdırlar. Amma Azərbaycanın uğurlu siyasəti, yenə də artan imkanlarımız bu vəziyyəti dəyişdirdi. Biz indi erməni lobbisi ilə mübarizə aparırıq və uğurla mübarizə aparırıq. Bu yaxınlarda biz erməni lobbisinin bütün səylərini puça çıxardıq. Azərbaycanın ərazi bütövlüyü bir daha təsdiq olundu. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasət bir daha pislənildi. Bir daha göstərildi ki, Ermənistan nəinki Azərbaycanın 7 rayonunu, eyni zamanda, Dağlıq Qarabağı da işğal edibdir. Bu bizim böyük siyasi qələbəmizdir. Çünki əvvəlki illərdə çox önəmli qurumlar

və bu məsələ ilə bilavasitə məşğul olan təşkilatlar bu barədə heç vaxt belə ifadələr işlətməmişdilər. İlk illərdə, ümumiyyətlə, belə bir təsəvvür yarana bilərdi ki, guya hansısa bir müəmmalı erməni silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal edibdir. Ondan sonra biz nail olduq, artıq beynəlxalq təşkilatların sənədlərində göstərildi ki, məhz Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasəti nəticəsində Ermənistan Azərbaycan torpaqlarını işğal edibdir.

İndi isə tam həqiqət bərpa olundu və göstərildi ki, Ermənistan eyni zamanda, Dağlıq Qarabağı işğal edibdir. Yəni bütün bunlar o baxımdan bizə lazımdır ki, bu, mümkün olan razılaşmanın çərçivələrini müəyyən edir. Yəni bu çərçivələrdən kənarda heç bir razılaşma, sülh sazişi mümkün deyil və olmayacaqdır. Azərbaycanın birmənalı siyasəti bundan ibarətdir. Mən dəfələrlə bəyan etmişəm ki, bu məsələ ancaq və ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Erməni xalqı öz müqəddəratını təyin edibdir. Onların öz dövlətləri – Ermənistan dövləti var. Əgər onlar öz müqəddəratlarını bir daha təyin etmək istəyirlərsə, Qarabağda yaşayanlar köçsünlər Ermənistana, orada təyin etsinlər.

Biz bu prinsiplərə sadiqik. Mən çox şadam ki, danışıqlar prosesində və beynəlxalq təşkilatların yanaşmasında bu istiqamət üstünlük təşkil edir. Mən bir də demək istəyirəm ki, bəlkə də bu gün, yaxud da gələn il məsələnin həlli üçün bunların praktik əhəmiyyəti yoxdur. Amma gələcəkdə danışıqlar prosesində, yaxud da danışıqlar prosesi dayandığı halda, bunlar, əlbəttə, bizə siyasi dəstək verən, siyasi güc verən və haqlı olduğumuzu bir daha sübut edən çox vacib diplomatik uğurlardır.

O ki qaldı məsələnin həllinə, deyə bilərəm ki, danışıqlar konfidensial xarakter daşıyırdı, biz də Minsk qrupunun təklifinə razılıq verərək, o konfidensiallığı, yəni məxfiliyi saxlayırdıq. Çünki ümumi yanaşma belə idi. Buna baxmayaraq, son aylar ərzində müxtəlif istiqamətlərdə danışıqların gedişatı

haqqında həqiqətə uyğun olmayan versiyalar, təkliflər irəli sürülür ki, tərəflər sanki hansısa prinsiplər əsasında razılığı əldə ediblər. Bunlar tamamilə yalan və uydurma məlumatlardır. Bunun da mənbəyi bəllidir. Ermənistanın daxili vəziyyəti gərginləşdikcə, iqtidar nümayəndələri öz xalqını sakitləşdirmək üçün, yaxud da orada qarşıdan gələn parlament seçkilərində öz istəyinə nail olmaq üçün həqiqətə uyğun olmayan belə versiyaları irəli sürürlər. Danışıqlarda müzakirə olunan məsələləri təhrif edirlər və bunları öz xeyrlərinə göstərmək istəyirlər. Mən bunu bir dəfə demişəm, əgər belə idisə, onda nə üçün Ermənistanda parlament seçkiləri ərəfəsində Ermənistan danışıqların dayandırılması ilə çıxış edir? Nə üçün? Əgər bu danışıqlar onların xeyrinədirsə, əksinə, iqtidar nümayəndələri öz daxili vəziyyətlərini yaxşılaşdırmaq üçün danışıqların daha da sürətləndirilməsində maraqlı olmalı idilər. Yəni onların tərəfindən verilən bu təklif artıq özlüyündə göstərir ki, danışıqlar Azərbaycanın mövqeləri çərçivəsində aparılır. Bizim mövqeyimiz də belədir. Mən bunu prinsip etibarilə dəfələrlə bəyan etmişəm. Ancaq nəzərə alsaq ki, həm məsələ ilə məşğul olan Minsk qrupunun nümayəndələri, həm də Ermənistanın nümayəndələri müxtəlif versiyalar irəli sürürlər, mən Azərbaycanın mövqeyini və danışıqların hansı prinsiplər əsasında getdiyini sizə bir daha bildirmək istəyirəm. Hesab edirəm ki, məhz burada, bu qəsəbənin açılışında bu açıqlamanın verilməsi məqsədəuyğundur.

Bizim tələbimiz ondan ibarətdir ki, işğal olunmuş bütün torpaqlar heç bir şərt qoyulmadan azad olunmalıdır. Düzdür, əvvəlki mərhələlərdə təkliflər ondan ibarət idi ki, 5 rayon azad olunsun, Kəlbəcər və Laçın rayonları qalsın, gələcək danışıqların mövzusuna çevrilsin. Biz buna heç vaxt razılıq verməmişik. Çünki biz heç vaxt imkan verə bilmərik ki, Kəlbəcər və Laçının Azərbaycana qaytarılması hansısa şərtlərlə uyğunlaşdırılsın. Ona görə danışıqların indiki mərhələsində ümumi razılaşma var ki, 7 rayon işğalçı qüvvələrdən təmizlənir, Azərbaycana qaytarılır. Əlbəttə, biz başa

düşürük ki, bunu mərhələli yolla edə bilərik, amma bu mərhələ çox uzana bilməz.

Biz tələb edirik ki, sülh müqaviləsi imzalanandan sonra 7 rayon bir neçə il ərzində bütünlüklə qaytarılmalıdır. Ondan sonra Dağlıq Qarabağda yaşayan azərbaycanlılar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu da bizim prinsipial şərtimizdir. Bu barədə bizim mövqeyimiz kifayət qədər dəyər qazanıbdır. Həm bu məsələ ilə məşğul olan vasitəçilər, həm də Ermənistan tərəfi danışıqlar prosesində bunu artıq qəbul edir. İndi onlar öz ölkəsində öz xalqına nə deyirlər, hansı yalanları söyləyirlər, bu məni maraqlandırmır. Mən sizə danışıqların prinsipial məqamlarını açıqlayıram. Məhz ona görə ki, bu konfidensiallığı qarşı tərəf pozubdur. Bizim xalqdan gizli heç bir əməlimiz də olmayıb, planımız da yoxdur. Mən nəyi demişəmsə, onun üstündə durmuşam və duracağam.

Bir sözlə, həm 7 rayon qeyd-şərtsiz qaytarılmalıdır, eyni zamanda, azərbaycanlılar Dağlıq Qarabağa, o cümlədən Şuşaya qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın gələcək statusu müəyyən oluna bilər. Necə? Bizim razılığımız olmadan Dağlıq Qarabağa heç vaxt heç bir status verilməyəcəkdir. Yəqin bilirsiniz ki, bu yaxınlarda Dağlıq Qarabağda qanunsuz, qondarma referendum keçirilmişdir. Heç bir ölkə o referendumu tanımayıbdır. Amerika, Rusiya, Fransa, yəni Minsk qrupunun həmsədrləri tanımayıblar, pisləyiblər. Avropa İttifaqı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, digər beynəlxalq təşkilatlar, Türkiyə, GUAM dövlətləri – Gürcüstan, Moldova, Ukrayna – bütün bu ölkələr və təşkilatlar birmənalı şəkildə referendumu pisləyiblər, nəticələrini tanımayıblar. Yəni, bizim razılığımız olmadan orada heç vaxt nə bir referendum, nə də səsvermə keçirilməyəcəkdir. Azərbaycan Dağlıq Qarabağın Azərbaycandan ayrılması ilə heç vaxt barışmayacaqdır. Biz öz ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik.

Dağlıq Qarabağa status verilə bilər, amma Azərbaycanın ərazi bütövlüyü çərçivəsində. Bunu beynəlxalq praktika da göstərir. Başqa ölkələrdə, o cümlədən Avropa ölkələrində də

muxtariyyətlər var. Azlıq olmaq o demək deyil ki, sən yaşadığın ölkədə – xüsusilə nəzərə alsaq ki, sən bu ölkəyə qonaq gəlmisən – müstəqillik tələb edəsən. Bilirsiniz ki, ermənilər Azərbaycana XIX əsrin əvvəllərində çar Rusiyası tərəfindən köçürülmüşlər, yəni qonaq gələn qonaq kimi yaşamalıdır. Biz konstruktivlik nümayiş etdiririk, normal mövqe nümayiş etdiririk. Biz deyirik ki, yaxşı, Dağlıq Qarabağın statusu olsun. Nəzərə alsaq ki, sovet vaxtında Dağlıq Qarabağ muxtar vilayət idi, yəni statusu olmuşdur, ondan da üstün status ola bilər. Biz demişik ki, dünyada onları qane edən hansı muxtariyyət statusu varsa, biz ona razıyıq. Ancaq Azərbaycanın tərkibində. Bu, başlıca şərtdir. Biz bu mövqedən bir addım da geriyə çəkilməyəcəyik. Çox müsbət haldır ki, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan ATƏT-in Minsk qrupu da bizim bu mövqeyimizə şərikdir.

Sülhməramlı qüvvələr gətirilə bilər. Özü də bu bizim istəyimiz olmayıbdır. Biz buna ehtiyac duymuruq. Ancaq görürük ki, Ermənistan tərəfi bizdən bərk qorxur və istəyir öz təhlükəsizliyini təmin etsin. Biz prinsip etibarilə etiraz etmirik ki, sülhməramlı qüvvələr orada müvəqqəti olaraq yerləşdirilsin. Dünya praktikasında bu var. Bilirsiniz ki, başqa münaqişəli zonalara sülhməramlı qüvvələr həmişə gəlirlər və orada xidmət edirlər. Eyni zamanda, Dağlıq Qarabağ Ermənistanla quru yolla əlaqə saxlamaq üçün Laçın dəhlizindən də istifadə edə bilər. Yəni əsas danışılan, müzakirə olunan prinsiplər budur. Azərbaycanın mövqeyi necə vardısa, mən sizə deyirəm. Kim nə deyəcəksə, öz siyasi məqsədlərini güdən, yaxud Ermənistan nümayəndəsi, yaxud da başqa nümayəndə nə deyərsə, ona inanmayın. Mənə inanın. Mən heç vaxt öz sözümdən geri dönməmişəm. Nəyi demişəm, onu da etmişəm. İstər siyasətdə, istər iqtisadiyyatda, istərsə də bizim planlarımızda.

Üç il bundan əvvəl bəyan etmişdim ki, Azərbaycanda 600 min iş yerinin yaradılması mənim məqsədimdir. Yəqin ki, artıq biz buna bu il nail olacağıq. Demişdim ki, bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Qalmayacaq, bunu bu il həll

edirik. Demişdim ki, yoxsullar olmayacaq, yoxsulluğun səviyyəsi aşağı düşübdür. Demişdim ki, Bakı–Tbilisi–Ceyhanı biz tikəcəyik, tikdik. Demişdim ki, Bakı–Tbilisi–Ərzurumu tikəcəyik, tikdik. Demişdim ki, Bakı–Tbilisi–Qars dəmir yolunu biz tikməliyik, bunun tikintisinə bir neçə aydan sonra başlayacağıq və beləliklə, Ermənistanı dəmir yolu vasitəsilə də bütün layihələrdən tamamilə kənarda qoyacağıq. Ermənistan bundan sonra heç vaxt bizimlə rəqabət apara bilməyəcəkdir. Əgər onlar öz gələcəyini düşünürlərsə, əgər təhlükəsizlik şəraitində yaşamaq istəyirlərsə, əgər öz sərhədlərində qüdrətli və hər an öz torpaqlarını silah yolu ilə azad etməyə hazır olan Azərbaycanı görmək istəmirlərsə, əgər bizimlə dostluq şəraitində yaşamaq istəyirlərsə, öz seçimini etsinlər, bizim torpaqlardan çıxsınlar və imkan versinlər ki, bizim millətimiz, camaatımız rahat, sülh yolu ilə öz torpaqlarına qayıtsın.

Əziz bacılar və qardaşlar!

Mən bir daha vurğulamaq istəyirəm ki, bu sözləri başqa yerdə də deyə bilərdim. Çünki bu danışıqlar haqqında söz-söhbət, şayiələr gedir. Yenə də deyirəm, əfsuslar olsun, Azərbaycanda bəzi cılız siyasi qüvvələr Ermənistanla birləşərək, Azərbaycanın mövqeyini zəiflətmək istəyirlər, yaxud da bizim haqqımızda həqiqətə uyğun olmayan yalan, böhtan məlumatlar yaymaq istəyirlər. Mən bunu başqa yerdə də deyə bilərdim. Mən bunu məhz burada, şuşalıların qarşısında deyirəm, qaçqın-köçkün bacı-qardaşlarımızın qarşısında deyirəm.

Sizi bir daha əmin etmək istəyirəm ki, Azərbaycan dövləti heç vaxt milli maraqlara uyğun olmayan addımları atmaz. Biz öz doğma torpağımızı müdafiə edəcəyik və ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Sizi bir daha salamlayıram. Bu gözəl qəsəbənin açılışı münasibətilə sizi təbrik edirəm. Burada xoşbəxt yaşayın. Amma müvəqqəti olaraq. Siz öz doğma torpaqlarınıza mütləq qayıdacaqsınız! Sağ olun.

## ALMANİYANIN LÜDVİQSHAFEN ŞƏHƏRİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Almaniyanın Lüdviqshafen şəhərinin meri xanım Yeva Louzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Son iki il yarım ərzində iki dəfə Almaniyada rəsmi səfərdə olduğunu qeyd edən Azərbaycan prezidenti İlham Əliyev bu ilin fevral ayında sonuncu səfərini xatırlayaraq, bu səfər zamanı Almaniyanın kansleri və eləcə də iş adamları ilə keçirdiyi müxtəlif səviyyəli görüşlərin əməkdaşlığımızın inkişafı baxımından əhəmiyyətli olduğunu bildirdi.*

*Dövlətimizin başçısı qardaşlaşmış şəhərlər olan Sumqayıt ilə Lüdviqshafen arasında əməkdaşlığın da ikitərəfli münasibətlərimizin inkişafına töhfələr verəcəyinə əminliyini söylədi.*

*Lüdviqshafen şəhərinin meri xanım Yeva Louze Azərbaycanla tanışlığın onlarda böyük təəssürat oyatdığını bildirdi, Sumqayıt şəhəri ilə əməkdaşlığa xüsusi önəm verdiklərini vurğuladı.*

## BEYNƏLXALQ BODİBİLDİNQ VƏ FİTNES FEDERASİYASININ PREZİDENTİ RAFAEL SANTONXAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Beynəlxalq Bodibildinq və Fitnes Federasiyasının prezidenti Rafael Santonxanı qəbul etmişdir.*

*Azərbaycan prezidentinin idmanın inkişafındakı xidmətlərini yüksək qiymətləndirən qonaq bu istiqamətdə fəaliyyətinə görə dövlətimizin başçısına federasiyada təmsil olunan bütün ölkələr adından hörmət və ehtiramını çatdırdı.*

*Daha sonra Rafael Santonxan Azərbaycan prezidenti İlham Əliyevə Beynəlxalq Bodibildinq və Fitnes Federasiyasının ordenini təqdim etdi.*

**Rafael Santonxan:** Bu, təşkilatımızın yüksək ordenidir. Xatirimdədir ki, bir neçə il bundan əvvəl bu ordeni Beynəlxalq Olimpiya Komitəsinin keçmiş prezidenti cənab Samarança təqdim etmişdim. O mənim əziz dostumdur. Ordenin üzərində yazılmış sözləri Sizə oxumaq istəyirəm: «Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev idman, fitnes və sağlam həyat tərzinin təşviqinə verdiyi beynəlxalq töhfəsinə görə Beynəlxalq Bodibildinq və Fitnes Federasiyasının yüksək ordeni ilə təltif olunur».

Cənab Prezident, bu yüksək ordeni təqdim etməkdən böyük şərəf hissi duyuram.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mənə bu cür yüksək ordenin verilməsinə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu ordenlə təltif olunmaq mənim üçün böyük şərəfdir. Mən bu ordeni Azərbaycanda idmanın təşviqi sahəsində göstərdiyim xidmətlərin qiymətləndirilməsi kimi qəbul edirəm. Bu yay mənim Milli Olimpiya Komitəsinin prezidenti kimi fəaliyyətimin onuncu ili olacaqdır. Biz Azərbaycanın hər bir regionunda idmanı inkişaf etdirəcək, idmançılar hazırlayacaq, qurğular tikəcək, idmanı təşviq edəcəyik və olimpiya məsələlərini həll edəcəyik. Bu ordeni almaqdan böyük şərəf hissi duyuram. Çox sağ olun.

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYYAYA**

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı təbrik edirəm.

Ümidvar olduğumu bildirirəm ki, Azərbaycan–Kamerun münasibətləri dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 may 2007-ci il*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏLİ ABDULLAH SALEHƏ**

Hörmətli cənab Prezident!

Yəmən Respublikasının milli bayramı – Milli Birlik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı sahəsində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yəmən xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 may 2007-ci il*

## YAŞIL TEATRDA BAŞA ÇATMIŞ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*Bakı, Yaşıl Teatr*

*4 may 2007-ci il*

*Mayın 4-də Azərbaycan prezidenti İlham Əliyev Yaşıl Teatrda başa çatmış yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Ötən əsrin 60-cı illərində istifadəyə verilmiş Yaşıl Teatr Bakıda mühüm mədəni-kütləvi tədbirlərin keçirildiyi mərkəz, paytaxt sakinlərinin sevimli istirahət yerlərindən biri olmuşdur. Lakin sonradan baxımsızlıq üzündən teatr fəaliyyətini tamamilə dayandırmışdı. 1990-cı ildən isə bura bərbad vəziyyətə düşmüşdü. Teatrın Bakı üçün önəmini nəzərə alan prezident İlham Əliyev 2005-ci ilin avqustunda onun yenidən qurulması barədə sərəncam vermişdi.*

*O vaxtdan yenidənqurma işlərinə 30-dan çox inşaat briqadası cəlb olunmuşdu. Bu il martın 8-də dövlətimizin başçısı işlərin gedişi ilə maraqlanmış, müvafiq tövsiyə və tapşırıqlarını vermişdi.*

*İşlərin yekunu ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, Yaşıl Teatrın ərazisi iki dəfə genişləndirilmişdir. Tamaşaçılar üçün yerlərin sayının 1600-dən 2500-ə çatdırılması burada ən mühüm, geniş tədbirlərin keçirilməsinə imkan verəcəkdir. Oturacaqlar İspaniya istehsalıdır. Prezidentin tapşırıqlarına əsasən, səs və işıqlandırma sistemləri ən müasir səviyyədə quraşdırılmışdır. Səs avadanlığı və işıqlandırma qurğuları Amerika Birləşmiş Ştatlarının, İtaliyanın tanınmış şirkətlərindən alınmış və onların mütəxəssisləri tərəfindən də quraşdırılmışdır.*

*Yaşıl Teatrın yerləşdiyi ərazi sürüşmə zonasında olduğundan, amfiteatrın təməlinin möhkəmləndirilməsi üçün 196 dirək vurulmuşdur. Qrim otağı, inzibatçılar otağı və digər xidməti otaqlar səhnənin altında yerləşdirilmişdir.*

*Teatrın açılışı mayın 10-da olacaqdır.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını söylədi, Yaşıl Teatrın gələcək istifadəsi ilə bağlı tapşırıqlarını verdi.*

## NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Norveçin milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Norveç arasındakı dostluq münasibətləri əlaqələrimizin və əməkdaşlığımızın hərtərəfli inkişafı üçün daim möhkəm zəmin olaraq qalacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Norveç xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 may 2007-ci il*

**NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YENS STOLTENBERQƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və bütün Norveç xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan–Norveç münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, bir çox sahələrdə, xüsusən də həyata keçirdiyimiz irimiqyaslı neft-qaz layihələrində dost ölkələrimizin əməkdaşlığı bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 may 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRƏ RƏSMİ SƏFƏRİ

*6 may 2007-ci il*

*Mayın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Misirin və Azərbaycanın Dövlət bayraqları ilə bəzədilmiş Qahirə hava limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını təyyarənin pilləkəni yanında Misirin Neft naziri Samih Fəhmi və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu.*

*Prezident İlham Əliyev hava limanından maşın karvanının müşayiəti ilə Misir prezidenti Hüsnü Mübarəkin sarayına yola düşdü.*

* * *

*Mayın 6-da Qahirədə Misir prezidenti Hüsnü Mübarəkin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Ali qonağın şərəfinə sarayın qarşısında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Misir prezidenti Hüsnü Mübarək Azərbaycan prezidenti İlham Əliyevi sarayın önündə böyük hörmət və ehtiramla qarşıladı.*

*Azərbaycanın və Misirin Dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Misirin dövlət və hökumət nümayəndələri, Azərbaycan prezidentinə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Misir prezidentinə təqdim olundu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİR PREZİDENTİ HÜSNÜ MÜBARƏKLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Qahirə, Misir dövlət başçısının sarayı*

*6 may 2007-ci il*

*Mayın 6-da Qahirədə Misir dövlət başçısının sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Misir Ərəb Respublikasının Prezidenti Hüsnü Mübarəkin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycan prezidentinin bu səfərinin qarşılıqlı münasibətlərin daha da genişləndirilməsinə imkan yaradacağına əminlik vurğulandı.*

*Dövlət başçıları qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər.*

## AZƏRBAYCAN VƏ MİSİR PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Qahirə, Misir dövlət başçısının sarayı*

*6 may 2007-ci il*

*Mayın 6-da Qahirədə Azərbaycan prezidenti İlham Əliyevin və Misir prezidenti Hüsnü Mübarəkin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

*Görüşdə Azərbaycanla Misir arasında ikitərəfli münasibətlərin, siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdirildiyi vurğulandı. Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirdilər. Qeyd olundu ki, iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün böyük potensial var və bundan səmərəli istifadə edilməsi hər iki ölkə üçün zəruri və faydalıdır.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxunuldu. Misir prezidenti Hüsnü Mübarək onun ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində, sərhədlərin toxunulmazlığı prinsipi əsasında sülh yolu ilə ədalətli həllinə tərəfdar olduğunu xüsusi vurğuladı.*

*Prezident İlham Əliyev Misir prezidenti Hüsnü Mübarəki Azərbaycana rəsmi səfərə dəvət etdi.*

* * *

*Mayın 6-da Qahirədə Prezident sarayında Misir Ərəb Respublikasının Prezidenti Hüsnü Mübarəkin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.*

## QAHİRƏDƏ AZƏRBAYCAN SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞ MƏRASİMİ

*Qahirə*

*6 may 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 6-da Qahirədə ölkəmizin Misir Ərəb Respublikasındakı səfirliyinin yeni binasının açılış mərasimində iştirak etmişdir.*

*Səfirliyin əməkdaşları və Qahirədə yaşayan soydaşlarımız dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Azərbaycan səfirliyinin yeni binası böyüklüyü və memarlığı baxımından diqqəti cəlb edir. Qahirənin ən gözəl rayonlarından olan bu ərazidə bir çox səfirliklər yerləşir. Prezident İlham Əliyev və Misirin Baş naziri Əhməd Nazif «Azərbaycan Respublikasının səfirliyi» sözləri yazılmış lövhənin üzərindən ağ örtüyü götürdülər və açılışı bildirən lenti kəsdilər.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu. Azərbaycan prezidenti və Misirin Baş naziri səfirliyin yeni binasında əməkdaşlar üçün yaradılmış şəraitlə tanış oldular, ayrı-ayrı otaqlara, konfrans salonuna baxdılar, Xatirə kitabına ürək sözlərini yazdılar.*

*Misir Ərəb Respublikası Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 26-da tanımış, 1992-ci il aprelin 11-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Azərbaycanın Misirdəki səfirliyi 1994-cü ildən fəaliyyət göstərir.*

*Sonra binanın açılışı münasibətilə təntənəli mərasim oldu. Misirin Baş naziri Əhməd Nazif və Azərbaycan prezidenti İlham Əliyev mərasimdə çıxış etdilər.*

## Misirin Baş naziri Əhməd Nazifin çıxışı

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Hörmətli xanımlar və cənablar!

Mən Azərbaycan Respublikası səfirliyinin yeni binasının açılması münasibətilə keçirilən bugünkü möhtəşəm mərasimdə iştirak etməkdən böyük məmnunluq və şərəf hissi duyuram. Tədbirin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, hazırda Misirdə yüksək səviyyədə qəbul olunan Azərbaycan Respublikasının Prezidenti bizimlə buradadır.

Misir Ərəb Respublikası Hökumətinin və Misir xalqının adından biz Zati-alilərinin Qahirəyə ilk rəsmi səfərini alqışlayırıq. Səfirliyin təzə binasının açılması ölkələrimiz arasındakı əlaqələrə yeni təkan verir və onlar üçün yeni üfüqlər açır.

Xanımlar və cənablar!

Azərbaycan 1991-ci ildə müstəqilliyini əldə etdikdən sonra ölkələrimiz arasında diplomatik münasibətlər qurulmuş, əlaqələrimiz olduqca sıxlaşmışdır. Həmin vaxtdan etibarən göstərdiyimiz birgə səylər bu əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsinə yönəlmişdir. Bu səylər və qətiyyət nəticəsində Zati-alilərinin Qahirəyə səfəri zamanı bir çox protokollar və sazişlər imzalanacaqdır. Bu onu göstərir ki, ölkələrimizin potensialı genişlənir və xalqlarımıza rifah gətirə biləcək real tərəfdaşlığa çevrilməkdədir.

Münasibətlərimizin gücü Azərbaycan və Misir xalqları arasında qarşılıqlı hörmətə əsaslanır. Onlar bizim hazırkı sıx mədəni münasibətlərimizdən irəli gəlir. Siyasi baxımdan beynəlxalq və regional səviyyələrdə hər iki ölkənin mövqeyi üst-üstə düşür. Mən bu aspektləri müxtəlif sahələrdə, xüsusən də iqtisadi münasibətlər sahəsində əməkdaşlığın qurulması üçün əsas kimi görürəm. Üfüqlər genişdir və uğurun toxumları artıq səpilmişdir.

İş adamlarımız bir-birinə daha da yaxınlaşmalı, yaratdığımız çərçivədən bəhrələnməli və potensial mübadilə sahə-

lərini araşdırmalıdırlar. Misal üçün, əczaçılıq, kənd təsərrüfatı, neft kimyası və kimya sənayesi gələcəkdə mümkün əməkdaşlıq sahələri ola bilər. Xidmətlər sahəsində potensial qüvvəmizin möhkəmləndirilməsi mümkündür. Bu, xüsusən də çox yaxından əməkdaşlıq edə biləcəyimiz turizm sahəsinə aiddir. Tikinti aydın potensialı olan digər əməkdaşlıq sahəsidir. Əlbəttə ki, informasiya texnologiyaları sahəsi siyahıda ilk yerlərdən birini tutur.

Ölkələrimiz bazar iqtisadiyyatına aparan eyni yolla addımlayır. Biz sərmayədarlarımızı bir-biri ilə daha yaxın təmasda olmağa çağırırıq. Mən Azərbaycandakı sərmayədarları əməliyyatların asanlaşdırılması məqsədi ilə son illər ərzində atdığımız addımlardan bəhrələnməyə dəvət edirəm. Eyni zamanda, biz birgə müəssisələrin yaradılmasını çox istəyirik. Sərmayədarlarımız həmin addımlar əsasında nailiyyətlər əldə edə bilər.

Cənab Prezident, bu gün səhər mən Sizi bir daha Misirdə salamlayıram. Əminəm ki, səfəriniz bizim gözəl münasibətlərimizdə yeni səhifə olacaqdır.

Cənab səfir, ümid edirəm ki, səfirliyin yeni binasından çox razı qalacaqsınız.

Çox sağ olun.

**Azərbaycan Respublikasının**
**Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab Baş nazir!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən Azərbaycan səfirliyini Qahirənin ən gözəl yerlərindən birində yerləşən yeni binasının açılışı ilə əlaqədar təbrik etmək istəyirəm. Səfirliyimiz Misirdə illərdən bəri fəaliyyət göstəribdir. Müstəqilliyimizi əldə etdikdən sonra Misir Azərbaycanın öz səfirliyini açmaq üçün seçdiyi ilk ölkələrdən biri olmuşdur. Bu, ikitərəfli münasibətlərimizə

verdiyimiz əhəmiyyəti nümayiş etdirir. Müstəqillik qazandığımız vaxtdan etibarən əlaqələrimiz çox uğurla inkişaf etmişdir.

Lakin uzun illər ərzində səfirlik şəhərin müxtəlif yerlərində binaları icarəyə götürməli olurdu. Bu gün isə gözəl bir yerdə və möhtəşəm binada biz səfirliyimizin təzə iş yerinin açılışını qeyd edirik. Əminəm ki, səfirliyin işçiləri, diplomatlar ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişaf etdirilməsi üçün əllərindən gələni edəcəklər.

Əlaqələrimizin uzun tarixi var. Xalqlarımız əsrlər boyu əməkdaşlıq etmişlər. Yalnız müstəqillikdən sonra Azərbaycan beynəlxalq birliyin üzvünə çevrildi və biz aramızda ikitərəfli münasibətlər qurmağa başladıq.

Bu günə qədər bizim çox yaxşı nailiyyətlərimiz, çox möhkəm siyasi dialoqumuz, güclü iqtisadi inkişaf üçün yaxşı perspektivlərimiz və humanitar sahədə əməkdaşlıq imkanlarımız olubdur.

Mənim indiki səfərim Azərbaycan Respublikası Prezidentinin Misirə ilk rəsmi səfəridir. Bu gün səhər Misir prezidenti ilə keçirdiyim görüş və apardığım müzakirələr ölkələrimiz arasında ikitərəfli münasibətlərin və regional işlərdə mövqelərin yaxın olduğunu bir daha sübuta yetirdi. Biz beynəlxalq təşkilatlar çərçivəsində çox uğurla əməkdaşlıq edirik. Əminəm ki, bu səfər münasibətlərimizin inkişafında yeni səhifə açacaqdır.

Eyni zamanda, sizə məlumat vermək istəyirəm ki, mən cənab prezidenti Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Bu fürsətdən istifadə edərək, cənab Baş naziri də ölkəmizə dəvət edirəm ki, ikitərəfli dialoqumuzu davam etdirək.

Cənab Baş nazir iqtisadi əlaqələrimizin genişləndirilməsinin vacibliyi haqqında danışdı. Hesab edirəm ki, hazırda bunu etmək üçün çox yaxşı imkanlar və potensial var. Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edən ölkədir. Artıq üçüncü ildir ki, ölkəmiz nəinki regionda, o cümlədən bütün dünyada ümumi daxili məhsulun artımına görə birinci yeri tutur. Bu göstərici 2005-ci ildə 26 faiz, 2006-cı ildə 35 faiz olmuşdur. 2007-ci ilin

birinci rübündə isə ümumi daxili məhsulun artımı 40 faizdir. Bu bizim imkanlarımızı artırır.

Ölkəmiz böyük həcmdə karbohidrogenlər ixrac edən ölkəyə çevrilir. Biz iqtisadi əməkdaşlığımızı genişləndirmək arzusundayıq. Misir şirkətlərini ölkəmizdə sərmayədarlar, xidmət şirkətləri kimi alqışlayacağıq. İşgüzar dairələrimizə məsləhət verəcəyik ki, sizin ölkə ilə iqtisadi əməkdaşlıqda daha fəal olsunlar, çünki potensial böyükdür. Biznesi birgə aparmaq üçün qarşılıqlı arzu çox möhkəm siyasi əlaqələrə, ümumi tariximizə, birgə dəyərlərimizə və ölkələrimiz arasında münasibətlərin hazırkı səviyyəsinə əsaslanır.

Əminəm ki, əgər biz iqtisadi əməkdaşlığımızın praktik elementlərinə diqqət yetirsək, çox yaxın zamanlarda bunun nəticələrini görəcəyik. Sabah cənab Baş nazirlə görüşümüz olacaq və biz iqtisadi əməkdaşlığımızın praktik elementlərini müzakirə edəcəyik. Eyni zamanda, əməkdaşlığımızın, demək olar ki, bütün aspektlərini əhatə edəcək çox mühüm sənədlər imzalanacaqdır. Bu, gələcək əməkdaşlığın hüquqi çərçivəsi olacaq və əminəm ki, həmin addımlar yaxın gələcəkdə çox praktik nəticələrini verəcəkdir.

Mən eyni zamanda, bu fürsətdən istifadə edərək, səfərimizin ilk dəqiqələrindən duyduğumuz qonaqpərvərliyə görə ölkə rəhbərliyinə və bütün Misir xalqına minnətdarlığımı bildirmək istəyirəm. Biz ümid edirik ki, sizi Azərbaycanda qəbul edəcək və sizə öz qonaqpərvərliyimizi nümayiş etdirəcəyik və tərəfdaşlığımızı, dostluğumuzu davam etdirəcəyik.

Mən xüsusilə səfirliyin işçilərini belə gözəl binada işləmək imkanını əldə etdiklərinə görə təbrik etmək istəyirəm. Bu cür əla şərait yaradılırsa, onlar gərək daha da ürəkdən çalışsınlar və üzərlərinə düşən bütün işləri görsünlər.

Çox sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN «ƏZHƏRİ ŞƏRİF» UNİVERSİTETİNİN REKTORU İLƏ GÖRÜŞÜ

*Qahirə, «Əzhəri Şərif» Universiteti*

*6 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Qahirədə məşhur «Əzhəri Şərif» Universitetinin inzibati binasında universitetin rektoru Şeyx Məhəmməd Tantavi ilə görüşmüşdür.*

*Şeyx Məhəmməd Tantavi prezident İlham Əliyevi və onu müşayiət edən nümayəndə heyətini böyük hörmət və ehtiramla salamladı. Misir və Azərbaycanın əlaqələrinin tarixi kökləri olduğunu xatırladan rektor Azərbaycan prezidentinin rəsmi səfərini yüksək qiymətləndirdi, bu səfərin elm, təhsil sahələrində də qarşılıqlı əməkdaşlığın inkişafına təkan verəcəyini söylədi.*

*Rektor bildirdi ki, hazırda universitetdə digər müsəlman ölkələrinin tələbələri ilə yanaşı, 76 azərbaycanlı gənc də təhsil alır. X əsrdə əl-Əzhər məscidi nəzdində yaradılmış universitet sonralar fəaliyyətini genişləndirərək, elmi-dini mərkəzə çevrilmişdir. Hazırda onun nəzdində müxtəlif institutlar, akademiya, zəngin elmi kitabxana, xəstəxana, məscid, xeyriyyə idarələri və sair fəaliyyət göstərir. 1961-ci ildə universitetin strukturunda dəyişiklik edilmiş, Ali elmi şura və islamşünaslıq akademiyası yaradılmışdır. Universitetdə müsəlman hüququ, ilahiyyat, ərəb dili, tibb və digər fakültələr vardır. Müsəlman dünyasının məşhur alimlərinin bir çoxu ali təhsillərini bu uni-*

*versitetdə almışlar. Əl-Əzhər hökumət tərəfindən maliyyələşdirilir, eyni zamanda, həm Misir, həm də digər müsəlman ölkələrinin şirkətləri ona vəsait ayırır.*

*Görüşün sonunda Azərbaycan prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRƏ RƏSMİ SƏFƏRİ DAVAM EDİR

### Misir ehramları ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Misir Ərəb Respublikasına rəsmi səfərinin birinci gününün sonunda Cizə yaxınlığındakı Xeops ehramı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, Misirdə qədim padşahlıq dövründə (eramızdan əvvəl 2008–2250-ci illər) fironlar Xeops, Xefren və Mikerinin Cizə yaxınlığında əzəmətli ehram-sərdaba kompleksləri tikilmişdir. Dünyanın yeddi möcüzəsindən biri sayılan bu abidələrdən ən böyüyü hündürlüyü 146,6 metr olan Xeops ehramıdır. Ehramların yerləşdiyi sahədə Qədim Misir əsilzadələrinin dəfn olunduğu 7 mindən artıq sərdabadan ibarət nekropol var. Bu ərazidə XIX əsrdən arxeoloji qazıntılar aparılır.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Xeops ehramının tikintisinə dair müxtəlif fikirlər haqqında ətraflı məlumat verildi. Eyni zamanda, bildirildi ki, ehram 2 milyon 300 min ədəd daş blokdan tikilmişdir. Blokların hərəsinin ortaq çəkisi 2,5 tondur.*

*Prezident İlham Əliyev və xanımı ehramın ətrafını gəzdilər, turistlər üçün nəzərdə tutulan keçiddən keçdilər.*

*Dövlətimizin başçısı və xanımı ətrafdakı kiçik ehramlara, məzarlığa, yaxınlıqdakı muzeydə qazıntılar zamanı tapılmış və bərpa olunmuş qayığa baxdılar.*

*Prezident və xanımı qədim abidələrlə tanışlıq zamanı xatirə şəkilləri çəkdirdilər.*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naməlum əsgərin abidəsi önünə əklil qoymuşdur

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfərinin ikinci günü, mayın 7-də Qahirədə Naməlum əsgərin abidəsi önünə əklil qoymuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, burada 1922-ci ildə Böyük Britaniyanın Misir üzərində protektoratlığının ləğvi və ölkəyə müstəqillik verilməsi ilə başa çatmış azadlıq mübarizəsi zamanı şəhid olan insanlar dəfn olunmuşlar. Lakin Misir müstəqillik əldə etsə də, Böyük Britaniya iqtisadiyyatda hökmranlığını davam etdirirdi.*

*1952-ci ildə Camal Əbdül Nasirin rəhbərlik etdiyi «Azad zabitlər» təşkilatının başçılığı ilə inqilabi çevriliş nəticəsində Misir respublika elan olunmuşdur. Həmin hadisələr zamanı şəhid olanlar da burada dəfn edilmişlər.*

## Ənvər Sədatın məzarını ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Qahirədə Misir Ərəb Respublikasının keçmiş prezidenti Ənvər Sədatın məzarını ziyarət edərək əklil qoymuşdur.*

*Xatırladaq ki, Camal Əbdül Nasirin vəfatından sonra, 1970-ci ilin oktyabrında Prezident seçilmiş Ənvər Sədat 1981-ci il oktyabrın 6-da hərbi parad zamanı «Müsəlman qardaşlari» terrorçu təşkilatının üzvü tərəfindən qətlə yetirilmişdir.*

## Qahirədə Məhəmməd Əli qalası və məscidi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev mayın 7-də Qahirədə tarixi Məhəmməd Əli qalası və məscidi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qalanın önündə böyük səmimiyyətlə qarşıladılar.*

*Məlumat verildi ki, Misirdəki ilk ərəb şəhərləri möhtəşəm qala divarları ilə əhatə olunur və hərbi düşərgə xarakteri*

*daşıyırdı. Bu qədim qala isə Əyyubilər sülaləsinin nümayəndəsi Səlahəddin Əyyubi tərəfindən 1236-cı ildə inşa edilmişdir. Osmanlı imperiyası dövründə Misir hakimi Məhəmməd Əli paşa 1830–48-ci illərdə qalada öz adını daşıyan məscid tikdirmiş və iqamətgah kimi istifadə etmişdir. Ölkənin mədəni həyatındakı bir sıra yeniliklər Məhəmməd Əlinin apardığı islahatlarla bağlıdır.*

*Qahirənin ən hündür yerində yerləşən bu qaladan bütün şəhəri seyr etmək mümkündür.*

*Məscid memarlığı və oyma bəzəklərinin zənginliyi ilə fərqlənir. Osmanlı imperiyası dövründə Misirdə məscidlərin əksəriyyəti türk memarlığı üslubunda – böyük, yarımdairəvi günbəzlər, şişuclu minarələrlə inşa edilirdi. Məhəmməd Əli məscidi İstanbuldakı tarixi Ayasofiya məbədinə oxşar inşa edilmişdir. Burada eyni vaxtda beş minədək adam namaz qıla bilər. Qədim qalanı və məscidi görmək üçün hər il on minlərlə xarici turist gəlir.*

*Prezident İlham Əliyev və xanımı qala və məscidi gəzdilər, Məhəmməd Əli paşanın qəbrini ziyarət etdilər.*

*Dövlətimizin başçısı və xanımı qala divarlarının üstündən Qahirənin mənzərəsini seyr etdilər.*

## Qahirənin məşhur Misir muzeyi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev mayın 7-də Qahirənin məşhur Misir muzeyi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı burada böyük ehtiramla qarşıladılar.*

*Misir muzeyi qədim eksponatlardan ibarət ekspozisiyasının zənginliyinə görə dünyada ən nadir muzey hesab olunur. Burada Misir tarixinin erkən, qədim, orta, yeni, son padşahlıq və Yunan-Roma dövrlərinə aid nümunələr toplanmışdır.*

*Erkən padşahlıq dövründə Nil vadisində qədim Misir incəsənətinin prinsipləri təşəkkül tapmış və bunlar min illərlə Misir incəsənətinin inkişafının əsasını təşkil etmişdir. Muzeydə ehramların qarşısında qoyulmuş möhtəşəm sfinks heykəl-*

*ləri, xatirə məbədləri, fironların heykəlləri, təbiət təsvirləri olan eksponatlar da mühüm yer tutur. Fiva yaxınlığında firon Tutanxamonun sərdabasından tapılmış və Misir muzeyində nümayiş etdirilən eradan əvvəl XIV əsrə aid əşyalar – qızıl maska, tac, qablar, üzəri təsvirli mücrülər qədim Misir incəsənətinin texniki kamilliyi və dekorativ zərifliyi ilə yanaşı, akademik incəsənətin də xüsusiyyətlərini özündə əks etdirir.*

*Bəşəriyyətin qədim tarixinə aid onlarca eksponat vaxtilə Misir muzeyindən aparılmışdır və hazırda Böyük Britaniya, Almaniya, Belçika və digər ölkələrin məşhur muzeylərində, rəsm qalereyalarında saxlanılır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeylə tanışlıqdan zəngin təəssüratla ayrıldılar. Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.*

## MİSİR XALQ MƏCLİSİNİN SƏDRİ ƏHMƏD FƏTHİ SÜRUR İLƏ GÖRÜŞ

*Xalq Məclisinin binası*

*7 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Misir Ərəb Respublikasının parlamentinə – Xalq Məclisinə gəlmişdir.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul düzülmüşdü. Prezident İlham Əliyevi Xalq Məclisinin sədri Fəthi Sürur böyük hörmət və ehtiramla qarşıladı.*

*Sonra Azərbaycan prezidenti ilə Xalq Məclisinin sədri arasında görüş keçirildi. Əhməd Fəthi Sürur parlamentin üzvlərini prezident İlham Əliyevə təqdim etdi. Misir parlamentinin sədri Azərbaycan prezidentini Qahirədə görməkdən məmnunluğunu bildirərək, dövlətimizin başçısının səfərini yüksək qiymətləndirdi, ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı.*

*Görüşdə siyasi, iqtisadi, elm və digər sahələrdə əlaqələrimizin genişləndiyi, bununla yanaşı, parlamentlərarası əməkdaşlığın genişləndirilməsinin vacibliyi bildirildi.*

*Prezident İlham Əliyev Azərbaycanın əldə etdiyi iqtisadi uğurlardan, beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsindən danışdı. Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunaraq dedi ki, Ermənistan ölkəmizə qarşı işğalçılıq siyasəti həyata keçirərək, torpaqlarımızın bir hissəsini zəbt etmişdir.*

*Misir Xalq Məclisinin üzvləri görüşdə çıxış edərək, Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxaril-*

*masının, bu problemin tezliklə həll olunmasının, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasının zəruriliyini vurğuladılar.*

*Sonra prezident İlham Əliyevə xüsusi medal təqdim olundu. Əhməd Fəthi Sürur dedi ki, qızıldan hazırlanmış bu medal Misir Xalq Məclisinin ali qonaqlarına təqdim edilir.*

*Medalın bir üzündə Azərbaycan prezidenti İlham Əliyevin adı yazılmış, digər tərəfində isə Misir parlamenti binasının şəkli əks olunmuşdur.*

## MİSİRİN BAŞ NAZİRİ ƏHMƏD NAZİF İLƏ GÖRÜŞ

*Nazirlər Şurasının binası*

*7 may 2007-ci il*

*Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikası Nazirlər Şurasının binasında Baş nazir Əhməd Nazif ilə təkbətək görüşü olmuşdur.*

*Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafından məmnunluq bildirildi, bu sahədə əlaqələrin daha da dərinləşdirilməsi üçün böyük potensialın olduğu vurğulandı. İqtisadi münasibətlərin daha da genişlənməsində Azərbaycan–Misir hökumətlərarası komissiyasının fəal rol oynayacağına əminlik ifadə edilən görüşdə bildirildi ki, prezident İlham Əliyevin səfəri çərçivəsində imzalanacaq sənədlər bu işə öz töhfəsini verəcəkdir.*

## AZƏRBAYCAN–MİSİR SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ

*Qahirə*

*7 may 2007-ci il*

*Mayın 7-də Qahirədə Nazirlər Şurasının binasında Azərbaycan prezidenti İlham Əliyevin və Misirin Baş naziri Əhməd Nazifin iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında idman sahəsində Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Gənclər və İdman naziri Azad Rəhimov, Misir tərəfdən Milli İdman Komitəsinin sədri Həsən Sakr imzaladılar. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Misir Ərəb Respublikasının Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Ədliyyə Naziri Fikrət Məmmədov, Misir tərəfdən Beynəlxalq Əməkdaşlıq naziri xanım Faizə Əbülnəqa imzaladılar. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Torpaqlardan İstifadə Nazirliyi arasında Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən İqtisadi İnkişaf naziri Heydər Babayev, Misir tərəfdən Beynəlxalq Əməkdaşlıq naziri Faizə Əbülnəqa imzaladılar. Azərbaycanın poçt təşkilatı və Misirin Milli poçt təşkilatı arasında Beynəlxalq pul baratlarının mübadilə olunması üzrə sazişi İqtisadi İnkişaf naziri Heydər Babayev və Misirin İnformasiya-Kommunikasiya Texnologiyaları naziri Tariq Kamal imzaladılar. Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Misirin Yaxın Şərq Xəbərlər Agentliyi (MENA) arasında Əməkdaşlıq haqqında sazişi AzərTAc-ın Baş direktoru Aslan Aslanov və MENA-nın idarə heyətinin sədri*

*və Baş redaktoru Abdulla Həsən imzaladılar. Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında turizm sahəsində Əməkdaşlıq haqqında anlaşma memorandumunu Azərbaycan tərəfdən Xarici İşlər naziri Elmar Məmmədyarov, Misir tərəfdən Turizm Naziri Züheyr Qaranah imzaladılar. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Misir Ərəb Respublikasının Daxili İşlər Nazirliyi arasında Əməkdaşlıq haqqında anlaşma memorandumunu Azərbaycan tərəfdən Daxili şlər naziri Ramil Usubov, Misir tərəfdən Daxili İşlər naziri Həbib əl-Ədli imzaladılar. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Misir Ərəb Respublikasının Mineral Ehtiyatlar qurumu arasında texniki Əməkdaşlıq protokolunu Azərbaycan tərəfdən Xarici İşlər naziri Elmar Məmmədyarov, Misir tərəfdən Neft naziri Samih Fəhmi imzaladılar. Azərbaycan Respublikasının Abşeron rayonu və Misir Ərəb Respublikasının Qəlyubiyyə vilayəti arasında anlaşma memorandumunu Azərbaycan tərəfdən ölkəmizin Qahirədəki səfiri Faiq Bağırov, Misir tərəfdən Qəlyubiyyə valisi Ədli Hüseyn imzaladılar. Azərbaycan Respublikasının M.F.Axundov adına Milli Kitabxanası və Misir Ərəb Respublikasının İsgəndəriyyə Kitabxanası arasında anlaşma memorandumunu Azərbaycan tərəfdən səfir Faiq Bağırov, Misir tərəfdən İsgəndəriyyə kitabxanasının idarə heyətinin sədri İsmayıl Siracəddin imzaladılar. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Misir Ərəb Respublikasının İnformasiya-Kommunikasiya Texnologiyaları Nazirliyi arasında Əməkdaşlıq haqqında anlaşma memorandumuna əlavə protokolu Azərbaycan tərəfdən İqtisadi İnkişaf naziri Heydər Babayev, Misir tərəfdən İnformasiya-Kommunikasiya Texnologiyaları naziri Tariq Kamal imzaladılar. Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında Hava nəqliyyatı haqqında sazişə əlavə protokolu Azərbaycan tərəfdən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərov, Misir tərəfdən Mülki Aviasiya Təşkilatının sədri İhəb Sadiq imzaladılar.*

## ƏRƏB DÖVLƏTLƏRİ CƏMİYYƏTİNİN BAŞ KATİBİ ƏMR MUSA İLƏ GÖRÜŞ

*Qahirə, Ərəb Dövlətləri Cəmiyyətinin iqamətgahı*

*7 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Qahirədə Ərəb Dövlətləri Cəmiyyətinin (ƏDC) iqamətgahına gəlmişdir. ƏDC-nin Baş katibi Əmr Musa dövlətimizin başçısını ehtiramla qarşıladı.*

*Regional hökumətlərarası təşkilat olan ƏDC 1945-ci ildə Qahirədə təsis edilmişdir. Hazırda ona 22 ərəb dövləti daxildir.*

*2005-ci ilin oktyabrın 15-də Xarici İşlər naziri Elmar Məmmədyarovun Misirə rəsmi səfəri zamanı Azərbaycan Respublikası və Ərəb Dövlətləri Cəmiyyəti arasında Anlaşma memorandumu imzalanmışdır. 2006-cı ildə ölkəmizin Misirdəki səfiri Faiq Bağırov Azərbaycan Respublikasının ƏDC yanında daimi müşahidəçisi təyin edilmişdir.*

*Prezident İlham Əliyevin Baş katib Əmr Musa ilə təkbətək görüşündə Azərbaycan ilə ƏDC arasında əməkdaşlığın vəziyyəti, bu əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə olundu. Bildirildi ki, Azərbaycan ƏDC ilə yaxşı əməkdaşlıq edir, təşkilata üzv ölkələrin 7-də səfirliyini açmışdır və gələcəkdə digər ölkələrdə də diplomatik nümayəndəliklər yaradılacaqdır.*

*Görüşdə regional məsələlərlə bağlı geniş fikir mübadiləsi aparıldı.*

## ƏRƏB DÖVLƏTLƏRİ CƏMİYYƏTİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*Qahirə*

*7 may 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 7-də Qahirədə Ərəb Dövlətləri Cəmiyyətinin üzvü olan ölkələrin səfirləri ilə görüşmüşdür.*

*Görüşü ƏDC-nin Baş katibi Əmr Musa açaraq dedi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi qardaş, dost ölkənin başçısı kimi salamlamaqdan xoşbəxtlik duyuram. Onun səfərinin öz xüsusiyyəti və mənası vardır.*

*Ərəb Dövlətləri Cəmiyyətinin üzvü olan ölkələrin nümayəndələri ilə bu salondakı görüşümüzdən əvvəl biz cənab prezidentlə Azərbaycanın yerləşdiyi regionda, habelə Yaxın Şərqdə mövcud vəziyyəti və problemləri müzakirə etdik. O, Yaxın Şərqdə, İranda olan vəziyyət və İsrail–ərəb qarşıdurması ilə bağlı öz fikir və mülahizələrini bizimlə bölüşdü, bu problemlərə xüsusilə diqqətlə yanaşdıqlarını bildirdi.*

*Azərbaycan və ona qardaş olan ərəb dövlətləri arasında çox sıx münasibətlər və inteqrasiya mövcuddur. İcazənizlə, bizə verilmiş bu fürsətdən istifadə edərək, bizimlə öz fikirlərini bölüşmək üçün sözü zati-aliləri cənab İlham Əliyevə verim. Onun çıxışından sonra sualları olanlar müraciət edə biləcəkdir.*

*İndi cənab prezidentə söz verilir. Cənab Prezident, buyurun.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Baş katib!

Hörmətli səfirlər!

İlk növbədə, mən Qahirəyə səfərə dəvətə görə minnətdarlığımı bildirmək istəyirəm. Mənim Misirə rəsmi səfərimin ikinci günüdür. Çox şadam ki, sizinlə ikitərəfli münasibətlərə və regional vəziyyətə, eləcə də, ümumiyyətlə, qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparmaq imkanı yaradıldı.

Azərbaycan yeni müstəqil ölkədir. Biz öz milli müstəqilliyimizi yalnız 15 il bundan əvvəl bərpa etmişik və beynəlxalq birliyə müstəqil ölkə kimi qoşulmuşuq. Həmin çox qısa müddət ərzində biz siyasi, iqtisadi inkişaf sahəsində böyük uğurlar əldə edə bilmişik. Hazırda Azərbaycanı sürətlə inkişaf edən ölkə kimi təqdim edirik. Biz iqtisadi baxımdan olduqca mühüm enerji layihələrini həyata keçiririk. İqtisadi artım baxımından ölkəmiz artıq üçüncü növbəti ildir ki, dünyada birinci yeri tutur.

Azərbaycanda siyasi sabitliyin qorunması ölkəmizin inkişafı üçün çox vacibdir. Xüsusən də nəzərə alsaq ki, biz müstəqilliyimizin ilk illərində, yəni 1991–93-cü illərdə ölkə daxilində böyük çətinliklərlə üzləşmişdik. Vətəndaş müharibəsi, Ermənistanın Azərbaycana qarşı təcavüzü bir çox maneələr yaratmışdır. Lakin bu gün biz çox sabit və rahat vəziyyətdə inkişaf edirik.

Siyasi sabitlik bizim uğurlu inkişafımız üçün ilkin şərtlərdən biridir.

Müstəqilliyi əldə etdikdən dərhal sonra biz müsəlman dünyası ilə çox möhkəm əlaqələr qurduq. Biz İslam Konfransı Təşkilatının çox fəal üzvüyük. Ötən il biz Azərbaycanda həmin təşkilatın nazirlər səviyyəsində iki konfransını – Xarici İşlər nazirləri və Turizm nazirlərinin toplantılarını keçirdik. Biz həmin təşkilat çərçivəsində bir çox layihələr irəli sürmüşük – misal üçün, İslam Konfransı Təşkilatının Gənclər

Forumunun yaradılması – və bundan sonra gələcəkdə də daha fəal olmağı planlaşdırırıq.

Əsrlər boyu müstəqillikdən məhrum olmuş ölkəmizin indi öz milli köklərinə qayıtması, tam müstəqil ölkə kimi yaşaması bizim üçün ən böyük sərvətdir. Ərəb Dövlətləri Cəmiyyətinin üzvü olan ölkələrlə bizim mədəniyyətimizdə, ənənələrimizdə çox oxşarlığımız var, dinimiz eynidir. Bu bizim əməkdaşlığımız üçün çox möhkəm əsasdır. Biz ərəb ölkələri ilə münasibətlərimizi genişləndirmək istəyirik. Çox qısa müddət ərzində biz təşkilata üzv olan ölkələrdə 7 səfirliyimizi açmışıq və gələcəkdə onların sayının artırılmasını planlaşdırırıq. Bu bizim üzv ölkələrlə ikitərəfli münasibətlərə verdiyimiz əhəmiyyəti nümayiş etdirir.

Eyni zamanda, beynəlxalq təşkilatlarda, BMT-də bizə aid olan məsələlərin müzakirəsində bir-birimizi dəstəkləyirik. Misal üçün, Dağlıq Qarabağ münaqişəsi məsələsində biz hər zaman bu dəstəyi duymuşuq və digər məsələlərdə də qarşılıqlı dəstək olubdur. Bu bizim əməkdaşlığımızın bariz nümunəsidir.

On ildən çoxdur ki, bizim üzləşdiyimiz əsas problem Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğalının davam etməsidir. Ermənistan dövləti tərəfindən azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı öz torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Azərbaycanın Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda yerləşən yeddi rayonu da 10 ildən çoxdur ki, işğal altındadır. Dağlıq Qarabağın özü işğal altındadır. Dağlıq Qarabağda yaşamış 40 min azərbaycanlı oradan qovulmuşdur. Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda yaşamış 700 min azərbaycanlı məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistanın özündən 250 min azərbaycanlı qovulmuşdur. Ermənistan tərəfindən azərbaycanlılara qarşı soyqırımı, işğalçılıq siyasəti nəinki mülki əhali arasında minlərlə insan tələfatına səbəb olmuş, həm də infrastrukturun

tam dağıdılması ilə nəticələnmişdir. Azərbaycanın 8 şəhəri, demək olar ki, tam məhv edilmişdir. Bütün məscidlər, qəbiristanlıqlar, tarixi abidələrimiz Ermənistan işğalçıları tərəfindən dağıdılmışdır.

Təbii ki, biz Ermənistan işğalçılarından torpaqlarımızdan dinc yolla çıxmağı tələb edirik. Çünki biz bu məsələni beynəlxalq hüquq norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında dinc yolla həll etmək istəyirik. Həmin qətnamələr Ermənistan işğalçı qüvvələrinin torpaqlarımızdan dərhal çıxarılmasını tələb edir. Lakin eyni zamanda, biz görürük ki, əfsuslar olsun, sülh danışıqları hər hansı bir həll yolu ilə nəticələnmir.

Biz birmənalı olaraq problemin həllini həm də güclü olmağımızda görürük. Bu gün bizim iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından ən azı yeddi dəfə böyükdür. Bizim iqtisadi inkişafımız sürətlidir. Nəhəng enerji layihələrini həyata keçiririk və onların nəticəsində güclü iqtisadi potensial yaranacaqdır. Biz müdafiə imkanlarımızın maliyyələşdirilməsini artırırıq. Bu gün Azərbaycanda təkcə hərbi məqsədlərə xərclər Ermənistanın bütün büdcəsinə bərabərdir. Ölkələrimiz arasında olan fərqlər get-gedə artır və bu amil problemin həllində bizə yardım edəcəkdir. Bir daha demək istəyirəm ki, bu bizim bir nömrəli problemimizdir. Biz yüz minlərlə azərbaycanlının özlərinin qədim, doğma torpaqlarına qayıtması üçün çox çalışırıq.

Mən bir daha qeyd etmək istəyirəm ki, müsəlman ölkələrindəki qardaşlarımız bizi dəstəkləməkdə davam edirlər. Bizim üçün bu dəstək çox vacibdir. Mən sizinlə görüşmək üçün yaradılmış imkana görə sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Cənab Baş katibə onun qonaqpərvərliyinə görə minnətdarlığımı bildirirəm. Bizim elə indicə çox maraqlı müzakirəmiz oldu və bütün məsələlərdə mövqelərimiz üst-üstə düşür.

Diqqətinizə görə çox sağ olun.

* * *

**Ə m r  M u s a**: Cənab Prezident, çox sağ olun. Azərbaycan və Yaxın Şərqlə bağlı məzmunlu çıxışınıza, o cümlədən regionda sülhün və əmin-amanlığın bərqərar olunmasında Azərbaycanın mövqeyini bildirdiyinizə görə Sizə minnətdarıq. Sizin bu çıxışınız bizim üçün və region ölkələri üçün həddən artıq maraqlı idi.

Cənab Prezident, Siz öz çıxışınızda ölkənizdə və ətraf regionda olan siyasi və təhlükəsizlik məsələləri ilə bağlı bizə müfəssəl məlumat verdiniz və mən bundan şərəf duyuram. Hamı bilir ki, Ərəb Dövlətləri Cəmiyyəti ilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi arasında məsləhətləşmə sazişi imzalanmışdır və bu bizim daha səmərəli əməkdaşlığımıza kömək edən mühüm bir sənəddir.

Zati-aliləri cənab Prezident, bizimlə görüşməyə vaxt tapdığınıza və öz mülahizələrinizi bölüşdürdüyünüzə görə Sizə dərin təşəkkürümüzü bildirməkdən şərəf hissi duyuruq.

## YERLİ VƏ XARİCİ KİV-in NÜMAYƏNDƏLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI

*Qahirə*

*7 may 2007-ci il*

*Mayın 7-də Ərəb Dövlətləri Cəmiyyətinin üzvü olan ölkələrin səfirləri ilə görüşdən sonra yerli və xarici kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı keçirildi.*

*Ərəb Dövlətləri Cəmiyyətinin Baş katibi Əmr Musa və Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə jurnalistlər qarşısında çıxış etdilər.*

**Əmr Musa**: İlk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi Ərəb Dövlətləri Cəmiyyətində bir daha salamlayıram. Cənab prezidentlə görüşümüzdə Azərbaycanın yerləşdiyi regionda, Yaxın Şərqdə vəziyyət və ərəb dünyasını maraqlandıran bütün məsələlər, Azərbaycan və ərəb ölkələri arasında əməkdaşlıq ətrafında müzakirələr aparıldı. Cənab prezident Ərəb Dövlətləri Cəmiyyətinin üzvü olan ölkələrin səfirləri qarşısında çıxış etdi və regionda, Azərbaycanın ətrafında cərəyan edən hadisələrlə bağlı öz fikirlərini bölüşdü. Səfirlər bu müfəssəl və əhəmiyyətli çıxışına görə cənab prezidentə təşəkkürlərini bildirdilər.

İndi isə icazə verin sizin suallarınızdan öncə sözü cənab prezidentə verim.

**İlham Əliyev:** Ən əvvəl mən ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparmaq üçün yaradılmış fürsətə görə cənab Baş katibə öz minnətdarlığımı bildirirəm.

Ərəb Dövlətləri Cəmiyyəti ilə Azərbaycan arasında əlaqələr çox uğurla inkişaf edir. Hazırda biz bu yaxınlarda

imzalanmış memorandum çərçivəsində çox fəal işləyirik və ümid edirəm ki, gələcəkdə ƏDC-nin üzvü olan dövlətlərlə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edəcəkdir. Bizim əlaqələrimiz çox möhkəm tarixi, mədəni və dini əsaslara söykənir.

Bu gün Baş katiblə apardığımız müzakirələr və səfirlərlə keçirdiyimiz görüş zamanı biz regional məsələləri müzakirə etdik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının davamlı işğalını müzakirə etdik. Çünki bu məsələ regionda bizim hamımızı narahat edir. Biz bu münaqişənin beynəlxalq hüquq norma və prinsipləri, Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həlli məsələsində hər zaman müsəlman, ərəb qardaşlarımızın dəstəyini duymuşuq. Əminəm ki, gələcəkdə Ərəb Dövlətləri Cəmiyyəti ilə və eyni zamanda, təşkilatın üzvü olan dövlətlərlə Azərbaycan arasında münasibətlər uğurla davam edəcəkdir.

**Ə m r  M u s a**: Çox sağ olun cənab Prezident. İndi isə suallarınızı verin.

**S u a l: Cənab Prezident, mənim sualım iki hissədən ibarətdir. Sizcə hər iki tərəfin imkanları çərçivəsində bu əməkdaşlıq kifayət qədərdirmi və Sizi qane edirmi?**

**Azərbaycan sülh məqsədli nüvə enerjisi sahəsində ciddi tədqiqatlar aparır və bu məsələdə kifayət qədər təcrübəsi vardır. Bu sahədə ərəb dövlətləri ilə əməkdaşlıq aparmaq mümkündürmü?**

**İ l h a m  Ə l i y e v**: Bu səfərim zamanı Azərbaycan ilə Misir arasında bir sıra önəmli sazişlər bağlanmışdır. Demək olar ki, iqtisadi və sosial məsələlərin tam əksəriyyəti bu sənədlərdə öz əksini tapmışdır.

Dünən Misir Ərəb Respublikasının Prezidenti ilə görüşdə də ikitərəfli əlaqələr, regional məsələlər və bizim birgə fəaliyyətimiz haqqında geniş fikir mübadiləsi aparılmışdır. Eyni zamanda, iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı da diqqət mərkəzində idi. Azərbaycanda son illər ərzində

iqtisadi inkişaf çox sürətlə gedir. Mən, öz növbəmdə, Misirdən və bütün ərəb dünyasından olan iş adamlarını Azərbaycana iş görmək üçün dəvət etmişəm. Yəni bir sözlə, deyə bilərəm ki, iki ölkə arasında əlaqələr çox yüksək səviyyədədir və biz bundan çox razıyıq.

O ki qaldı sualın ikinci hissəsi, Azərbaycanda nüvə enerjisi, bu məsələyə dair aparılan tədqiqatlar barədə deyə bilərəm ki, bu sahədə bizim heç bir fəaliyyətimiz yoxdur. Azərbaycanda çox zəngin neft-qaz yataqları var. Bizim hesablamalarımıza görə, ən azı növbəti yüz il ərzində Azərbaycan özünü də, tərəfdaşlarını da təbii qazla və neftlə təmin edə biləcəkdir. İndi dünyada ən çox müzakirə olunan enerji təhlükəsizliyi məsələləridir. Azərbaycan bu işə öz töhfəsini verir və bundan sonra da verəcəkdir.

**S u a l: Hörmətli cənab Prezident, Azərbaycanla ərəb dünyasının əməkdaşlığının miqyasını necə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Əlbəttə ki, imkanlar çox böyükdür. Amma nəzərə alsaq ki, Azərbaycan müstəqil ölkə kimi cəmi 15 ildir yaşayır, hesab edirəm, bu illər ərzində ərəb ölkələri ilə Azərbaycan arasında qurulmuş münasibətlərin səviyyəsi çox yüksəkdir. Biz həm ikitərəfli müstəvidə, həm də İslam Konfransı Təşkilatı çərçivəsində çox uğurlu əməkdaşlıq edirik. Qısa müddət ərzində yeddi ərəb ölkəsində Azərbaycanın səfirliyi yaradılıb və növbəti illərdə başqa ərəb ölkələrində də səfirliklər açılacaqdır. Yəni bu, özlüyündə bizim bu münasibətlərin inkişafına olan marağımızı göstərir. Ərəb ölkələrindən olan şirkətlər Azərbaycanda çox uğurla fəaliyyət göstərir və biz istəyirik ki, onların sayı və işinin həcmi daha da çoxalsın.

## MİSİRİN BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ XANIM FAİZƏ ƏBÜLNƏQA İLƏ GÖRÜŞ

*7 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Misirin Beynəlxalq Əməkdaşlıq naziri, Misir–Azərbaycan birgə hökumətlərarası komissiyasının həmsədri xanım Faizə Əbülnəqa ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu, iqtisadi və humanitar sahədə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğu vurğulandı. Bildirildi ki, Azərbaycan prezidentinin Misirə rəsmi səfəri, imzalanmış sənədlər və birgə hökumətlərarası komissiyanın fəaliyyətinin genişləndirilməsi gələcək əməkdaşlığın dərinləşməsinə müsbət təsir göstərəcəkdir.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MENA AGENTLİYİNƏ MÜSAHİBƏSİ

*Qahirə, Qübbə sarayı*

*7 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Qahirədə onun üçün ayrılmış iqamətgahda – Qübbə sarayında Misirin Yaxın Şərq Xəbərlər Agentliyinin (MENA) idarə heyətinin sədri və Baş redaktoru Abdulla Həsənə müsahibə vermişdir.*

**S u a l: Zati-aliləri cənab Prezident, öncə Sizi salamlayıram. Azərbaycanla Misir arasında bütün sahələrdə əməkdaşlığın perspektivləri haqqında Sizin fikrinizi bilmək istərdik.**

**İ l h a m  Ə l i y e v:** Bu səfər çərçivəsində imzalanmış sənədlər bizim münasibətlərimizin gələcək perspektivlərini müəyyən edir. Dünən və bu gün keçirdiyim görüşlər – prezident, Baş nazir, parlamentin sədri ilə və digər görüşlər bir daha onu göstərdi ki, bizim aramızda çox səmimi dostluq münasibətləri var və bu səfərdən sonra münasibətlərimiz daha da inkişaf edəcəkdir. Siyasi və iqtisadi əlaqələr, humanitar sahədə əlaqələr bizi qane edir və əminəm ki, gələcək əməkdaşlıq iki xalqı bir-birinə daha da yaxınlaşdıracaqdır.

**S u a l: İmzalanan sənədlərdən biri də Azərbaycan ilə Misir arasında neft və qaz sahəsində əməkdaşlığa aid idi. Misirlə Azərbaycan arasında bu sahədə əlaqələrin qurulması və əməkdaşlıq yəqin ki, Misir üçün də çox həyati əhəmiyyət kəsb edir.**

**İ l h a m  Ə l i y e v:** Bu sahədə əməkdaşlıq üçün çox gözəl imkanlar var. Hər iki ölkə neft-qaz hasil və ixrac edən ölkələrdir. Gələn il Azərbaycandan dünya bazarlarına ildə 50 milyon ton xam neft ixrac olunacaqdır. Eyni zamanda,

Azərbaycanda çox böyük, nəhəng qaz yataqları vardır ki, onların da istismarına artıq başlanmışdır. Ona görə yenə deyirəm, bu sahədə həm Misir, həm də Azərbaycan dünya enerji bazarının tənzimlənməsi üçün, təmin edilməsi üçün dünya miqyasında mühüm rol oynayır. Təbii ki, imzalanmış sənədlərin arasında bu sahəyə aid olanı da var. Bu sənədin icra olunması nəticəsində çox güclü əməkdaşlıq yarana bilər.

**S u a l: Zati-alilərinizin dünən cənab prezident Hüsnü Mübarəklə olan görüşü barədə fikirlərini bizimlə bölüşməsini istərdik.**

**İ l h a m Ə l i y e v:** Görüş çox səmimi keçdi. İki ölkə arasında mövcud olan dostluq, qardaşlıq münasibətləri bir daha öz təsdiqini tapdı. Əlbəttə, görüşün böyük hissəsi ikitərəfli münasibətlərin inkişafına və təhlilinə həsr edilmişdi. Eyni zamanda, regional məsələlər, Azərbaycanın ərəb dünyası ilə əməkdaşlığı məsələləri müzakirə olundu. Onu da demək istəyirəm ki, həmin məsələlər bu gün Ərəb Dövlətləri Cəmiyyətindəki görüşdə də geniş şəkildə müzakirə olunmuşdur.

Əlbəttə, biz cənab prezidentlə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi apardıq. Misir və Azərbaycan bir-birinin ərazi bütövlüyünü dəstəkləyir. Misir dövləti bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını bəyan etmişdir. Bir sözlə, mən bu görüşün nəticələrindən çox məmnunam. Öz növbəmdə, cənab prezidenti Azərbaycana rəsmi səfərə dəvət etdim.

Görüşdə gələcək əməkdaşlığımızın perspektivləri də müzakirə olundu.

**S u a l: Ərəb dünyasını narahat edən və maraqlandıran ən əsas məsələlərdən biri Fələstin problemi, İsrail–ərəb münaqişəsidir. Bu barədə Sizin rəyinizi bilmək istərdik. Bu, bir növ siyasi sualdır.**

**İ l h a m Ə l i y e v:** Bu məsələ ilə bağlı Azərbaycan dəfələrlə öz mövqeyini açıq, birmənalı şəkildə bildirmişdir. Həm İslam Konfransı Təşkilatı çərçivəsində, eyni zamanda, başqa formatda da birmənalı mövqeyimiz bəllidir. Fələstin–

İsrail münaqişəsi tezliklə öz həllini tapmalıdır. Müstəqil Fələstin dövləti yaradılmalıdır və Fələstin xalqı, uzun illər böyük əziyyətlər çəkən xalq müstəqilliyə qovuşmalıdır. Bu mövqeyi biz təkcə İslam Konfransı Təşkilatı çərçivəsində deyil, eyni zamanda, digər beynəlxalq təşkilatlarda məsələ müzakirə olunanda da müdafiə edirik. Bu məsələ öz həllini taparsa, bütün Yaxın Şərqdə vəziyyət sabitliyə doğru sürətlə yaxşılaşacaqdır.

**S u a l: Zati-aliləri, mən İraq məsələsinə toxunmaq istəyirəm. Bilirsiniz ki, İraqda hazırda əcnəbi qüvvələr var, qan tökülür. Bu məsələyə Sizin münasibətiniz necədir?**

**İ l h a m  Ə l i y e v:** Biz İraqın ərazi bütövlüyünü dəstəkləyirik. Əminik ki, İraq xalqı ölkəsinin ərazi bütövlüyünü saxlayacaq və möhkəmləndirəcəkdir. İraqda mövcud olan daxili çəkişmələr bizi çox narahat edir. Əlbəttə ki, İraqın vahid dövlət kimi fəaliyyətini davam etdirməsi həm İraq xalqı üçün lazımdır, həm də bütün bölgə üçün lazımdır.

O ki qaldı İraqda yerləşən xarici qüvvələrə, əlbəttə ki, onlar gec-tez İraqı tərk etməlidirlər. Əsas məsələ bundadır ki, onlar nə vaxt İraqdan çıxmalıdır. Mən hesab edirəm ki, əgər onlar İraqdan bu gün çıxarılarsa, orada vəziyyət daha da gərginləşə bilər. Eyni zamanda, onlar orada uzun müddət qala bilməzlər. Yəni bütün səylər ona yönəldilməlidir ki, İraqda güclü idarəçilik sistemi yaradılsın. İraqın dövlət hakimiyyəti bütün ölkəni əhatə etsin. Müharibə zamanı müəyyən dərəcədə pozulmuş dövlət idarəçilik sistemi bərpa olunsun, milli ordu və polis qüvvələri İraqda asayişi qoruya bilsinlər. Ondan sonra xarici silahlı qüvvələr İraqdan çıxmalıdır. Bizim bu məsələyə baxışlarımız bundan ibarətdir.

**S u a l: Zati-aliləri, İranın nüvə proqramı ilə bağlı Sizin fikrinizi bilmək istərdik. Çünki bilirsiniz ki, İran uranın zənginləşdirilməsi işini davam etdirir. Amerika Birləşmiş Ştatları və digər dövlətlər tərəfindən İrana bir növ zərbə endirilməsi qorxusu var.**

**İ l h a m  Ə l i y e v:** Azərbaycan dövləti bu məsələ ilə

bağlı öz mövqeyini dəfələrlə bildirmişdir və bu mövqe hər kəsə bəllidir. Biz hesab edirik ki, bu məsələ və bu mübahisələr yalnız və yalnız danışıqlar yolu ilə, sülh yolu ilə həll olunmalıdır. Əlavə gərginliyə gətirib çıxara biləcək hər hansı addımlar atılmamalıdır. Hər bir ölkə kimi, İran da öz nüvə texnologiyalarını beynəlxalq qaydalar çərçivəsində inkişaf etdirə bilər. Bu məsələ ilə bilavasitə məşğul olan Beynəlxalq Atom Enerjisi Agentliyi fəaliyyət göstərir, o təşkilatın qaydalarına uyğun olan şəkildə inkişaf etdirə bilər.

Onu da bilirik ki, İranın nüvə proqramı bəzi ölkələri çox narahat edir. Bu da nəzərə alınmalıdır. Bütün bu məsələləri həll etmək üçün mütləq çox açıq, geniş, bütün maraqlı tərəflərin iştirakı ilə dialoq aparılması zəruridir. İran bizim üçün dost ölkədir. Bizim böyük sərhədimiz var. İstəyirik ki, İran xalqı sülh, təhlükəsizlik şəraitində yaşasın.

**A b d u l l a  H ə s ə n**: Cənab Prezident, çox sağ olun. Çox ətraflı cavablarınıza görə Sizə bir daha təşəkkür edirəm.

* * *

*Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Misirin Dövlət bayraqları ilə bəzədilmiş Qahirə hava limanında prezident İlham Əliyevi və xanımını Misirin yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla yola saldılar.*

*Prezident İlham Əliyev həmin gün axşam Bakıya gəldi.*

*Azərbaycan prezidentini HeydərƏliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ**

Hörmətli cənab Prezident!

Fransa Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında təşəkkül tapmış dostluq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı əlaqələr, qarşılıqlı maraq doğuran bir çox sahələrdə əməkdaşlığımız xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 may 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV 9 MAY QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

*Bakı*

*9 may 2007-ci il*

*Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin 62-ci ildönümü münasibətilə mayın 9-da ölkəmizin paytaxtında təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Xatırladaq ki, faşizm üzərində qələbənin əldə olunmasında, SSRİ-nin bu müharibədə qazandığı tarixi qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 600 min oğul və qızını cəbhəyə yola salmışdı. Bunların təxminən yarısı döyüşlərdə həlak olmuşdur. Müharibə zamanı göstərdikləri igidliyə görə ölkəmizin 120-dən çox vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşmuşdur. İkinci dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri heç vaxt yaddaşlardan silinməyəcək, gənc nəslə vətənpərvərlik nümunəsi olacaqdır.*

*Böyük Vətən müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarı önünə toplaşmış müharibə veteranları, ictimaiyyətin nümayəndələri,*

*paytaxt sakinləri Azərbaycan prezidenti İlham Əliyevi hörmət və ehtiramla qarşıladılar.*

*Dövlətimizin başçısı müharibə və əmək veteranlarının hər biri ilə səmimiyyətlə görüşdü, onları Qələbə bayramı münasibətilə təbrik etdi.*

*Prezident İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qoydu, İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş cəsur sərkərdənin, xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad etdi.*

*Azərbaycanın Dövlət himni əzəmətlə səsləndi.*

*Dövlətimizin başçısı 1941–45-ci illərin ağır və çətin sınaqlarından keçmiş veteranlara yaxınlaşaraq, onların problemləri, qayğıları ilə maraqlandı. Veteranlar ümummilli liderimiz Heydər Əliyevin onlara göstərdiyi diqqət və qayğını xatırladaraq, onun siyasi xəttini davam etdirən prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Onlar ölkəmizin hərtərəfli inkişaf etdirilməsi üçün çalışan dövlətimizin başçısını bundan sonra da dəstəkləyəcəklərini vurğuladılar.*

*Prezident İlham Əliyev Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi.*

*Respublikamızın rəhbəri hərbi marşın sədaları altında Fəxri qarovul dəstəsinin önündən keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyev daha sonra iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə səmimi görüşdü, Qələbə günü münasibətilə onları təbrik etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ MƏCLİSDƏ «HEYDƏR ƏLİYEV XATİRƏ ZALI»NIN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*Milli Məclis*

*9 may 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 9-da Milli Məclisdə «Heydər Əliyev xatirə zalı»nın açılışında iştirak etmiş, parlament binasının birinci və ikinci mərtəbəsində aparılan yenidənqurma və bərpa işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısını binanın qarşısında Milli Məclisin sədri Oqtay Əsədov və parlament sədrinin müavinləri hörmətlə qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə xatirə zalı ilə tanış oldu. Məlumat verildi ki, xatirə zalında ümummilli liderimizin gələcək nəsillərə örnək olan həyat yolunu, siyasi, dövlətçilik fəaliyyətini əks etdirən eksponatlar toplanmışdır. «Böyük həyatın astanasında», «Sovet təhlükəsizlik xidməti leytenantından generalınadək», «Sovet Azərbaycanını ucaldan rəhbər», «Qayıdış: müstəqillik uğrunda yenilməz mübariz», «Qurtuluş: müstəqil dövlətin xilaskarı və qurucusu», «Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır», «Azərbaycan ordusu müstəqil dövlətimizin əsas dayağıdır», «Azərbaycançılıq, müstəqillik, dövlətçilik» və «Azərbaycanın müstəqil xarici siyasətinin banisi» bölmələrində Heydər Əliyevin uşaqlıq, gənclik illərinə, Sovet İttifaqının dövlət təhlükəsizliyi sistemində ilk azərbaycanlı generalın 1944–67-ci illəri əhatə edən fəaliyyətinə, siyasi və dövlət xadimi kimi, Sovet Azərbaycanına başçılıq etdiyi*

*dövrə, ulu öndərin qurtuluş missiyasına dair, milli-mənəvi dəyərlərimizin qorunmasına, xarici siyasətinə aid fotoşəkillər toplanmışdır. Dağlıq Qarabağ probleminə həsr edilmiş guşə, habelə ulu öndərin və prezident İlham Əliyevin Milli Məclisin fəaliyyəti barədə fikirləri diqqəti cəlb edir.*

*Zalda Heydər Əliyevin özünün əsərləri, eləcə də onun həyatı, siyasi fəaliyyəti ilə bağlı və ömür-gün yoldaşı Zərifə xanım haqqında yazılmış çoxsaylı kitablar, ulu öndərin 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi üzrə səsvermənin nəticələri, parlamentin sədri seçilməsi haqqında qərar, parlamentə rəhbərlik etdiyi dövrdə imzaladığı sənədlər, beynəlxalq əhəmiyyətli layihələrin reallığa çevrilməsi, xarici və daxili siyasətə, iqtisadi islahatlara, mədəniyyətə və s. dair qəbul olunmuş tarixi qərarların surətləri, ona verilmiş xidməti və deputatlıq vəsiqələri nümayiş etdirilir.*

*«Heydər Əliyev irsi davam edir» adlı xüsusi bölmədə ulu öndərin siyasi varisi prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı fotoşəkillər toplanmışdır. Burada ulu öndərin vəfatından sonra deputatların və Milli Məclis aparatı əməkdaşlarının ürək sözlərini yazdığı Xatirə kitabı da vardır. Azərbaycan parlamentinə gələcək hər bir xarici qonaq bu zalla tanış olacaqdır.*

*Prezident İlham Əliyev ayrı-ayrı stendlərdəki materiallarla tanış oldu, ümummilli liderin burada qoyulmuş büstünə baxdı.*

*Dövlətimizin başçısı xatirə zalının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Heydər Əliyev xatirə zalı»nda nümayiş etdirilən eksponatlar ulu öndərin həyat və fəaliyyətini əks etdirir. Bütün dövrlərdə Heydər Əliyev doğma xalqına sədaqətlə xidmət etmişdir. 70–80-ci illərdə Azərbaycanın rəhbəri kimi və müstəqil Azərbaycanın prezidenti kimi, Azərbaycanın inkişafında, dövlət müstəqilliyinin qorunub saxlanılmasında və möhkəmlənməsində onun müstəsna xidmətləri olmuşdur.

1993-cü ildə Milli Məclisin sədri kimi, Azərbaycanın ağır və təhlükəli vəziyyətdən çıxarılmasında ulu öndərin müdrik-

liyi, siyasi təcrübəsi və cəsarəti əsas rol oynamışdır. Həmişə öz fəaliyyətində Azərbaycan xalqına arxalanan milli liderimiz 1993–2003-cü illərdə müstəqil Azərbaycanın prezidenti kimi, ölkəmizin hərtərəfli inkişafında və beynəlxalq mövqelərinin möhkəmlənməsində əsas və əvəzolunmaz rol oynamışdır.

Ulu öndər Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

9 may 2007-ci il».

* * *

*Prezident İlham Əliyev sonra Milli Məclisin inzibati binasının birinci və ikinci mərtəbələrində aparılan yenidənqurma və təmir işləri ilə tanış oldu, kiçik konfrans salonuna baxdı. Bildirildi ki, müasir standartlara uyğun təmir olunan salonda əsasən parlamentin daimi komissiyaları iclaslarının, xarici qonaqlarla görüşlərin və brifinqlərin keçirilməsi nəzərdə tutulur. Dövlətimizin başçısı burada davam etdirilən təmir işlərinin baş planı ilə tanış oldu, paytaxtın mənzərəsini seyr etdi. Yenidənqurma və təmir işlərinin yüksək səviyyədə aparıldığını bildirən prezident dedi ki, mən dünya ölkələrinin bir çoxunun parlamentlərində olmuşam, ancaq belə gözəllik görməmişəm.*

*Milli Məclisin sədri Oqtay Əsədov dövlət başçısına təşəkkür edərək qeyd etdi ki, ölkəmizdə aparılan bütün abadlıq, quruculuq işləri Sizin adınızla bağlıdır. Azərbaycan inkişaf edir, günü-gündən qüdrətlənir.*

*Bildirildi ki, ölkəmizin «Azəraqrartikinti» Səhmdar Cəmiyyəti və Türkiyənin «Pim proje» şirkəti yenidənqurma və təmir işlərini uğurla başa çatdırmışdır. Layihə müəllifləri memarlar Cəlal Özkan. Ayhan Türker və Mehman Göyüşovdur.*

*Sonra dövlətimizin başçısı parlament iclaslarının keçirildiyi salonda deputatlar və jurnalistlər üçün yaradılmış şəraitlə*

*maraqlandı, ikinci mərtəbədəki foyeni gəzdi, yüksək səviyyədə görülən təmir işlərindən razılığını söylədi. Prezidentə məlumat verildi ki, Xalq rəssamı Toğrul Nərimanbəyovun 1980-ci ildə foyenin divarında çəkdiyi böyük panno da bərpa olunmuşdur. Bu, ulu öndər Heydər Əliyevin sevdiyi nadir əsərlərdən biri idi. Dövlətimizin başçısı burada parlamentin sədri və müavinləri ilə xatirə şəkli çəkdirdi.*

*Prezident İlham Əliyev binanın birinci mərtəbəsinin əsas girişində Heydər Əliyevin tuncdan hazırlanmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısı Milli Məclisin qarşısında və ətrafında aparılan tikinti-təmir işləri ilə də maraqlandı. Bildirildi ki, şəhərimizin simasında öz yeri olan parlament binasının ətrafı da tamamilə yenidən qurulacaq, müasir fəvvarə quraşdırılacaqdır. Hazırda əsas binanın yanında deputatlar üçün korpusun tikintisinə başlanmışdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

*10 may 2007-ci il*

*Mayın 10-da müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 84-cü ildönümüdür. Xalqımız, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dördüncü ildir bu dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər. Ümummilli liderimizin ad günü ərəfəsində olduğu kimi, mayın 10-da da sübh tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, qonaqlar axın-axın Fəxri xiyabana üz tutur, ulu öndər Heydər Əliyevin məzarını ziyarət edir, onun ruhuna dua oxuyurlar.*

*Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, ulu öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin məzarının önünə əklil qoydu, onun ruhu qarşısında baş əydi. Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Sonra prezident İlham Əliyev və onun ailə üzvləri görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət etdilər və gül dəstələri qoydular.*

*Ümummilli liderimiz Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı diplomatik nümayəndəliklərinin rəhbərləri iştirak edirdilər.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNDƏ YAŞIL TEATRIN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Bakı, Yaşıl Teatr*

*10 may 2007-ci il*

*Mayın 10-da, xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum günündə Bakıda Yaşıl Teatrın əsaslı təmir və yenidənqurmadan sonra açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı teatra toplaşan paytaxt sakinləri, dövlət və hökumət nümayəndələri hərarətlə qarşıladılar.*

*Xatırladaq ki, ötən əsrin 60-cı illərində istifadəyə verilmiş Yaşıl Teatr Bakıda mühüm mədəni-kütləvi tədbirlərin keçirildiyi, paytaxt sakinlərinin sevimli istirahət yerlərindən biri olmuşdur. Burada dünyanın və keçmiş SSRİ-nin ən məşhur incəsənət ustaları çıxış etmişlər. Lakin sonradan baxımsızlıq üzündən teatr fəaliyyətini tamamilə dayandırmışdı. 1990-cı ildən isə büsbütün bərbad vəziyyətə düşmüşdü. Teatrın Bakı üçün önəmini nəzərə alan prezident İlham Əliyev 2005-ci ilin avqustunda onun əsaslı şəkildə yenidən qurulması barədə göstəriş vermişdi. Dövlətimizin başçısı burada işlərin gedişi ilə şəxsən maraqlanırdı. Bu diqqət və qayğı, habelə inşaatçıların səyləri sayəsində Yaşıl Teatr simasını tamamilə dəyişmişdir. Açılış mərasiminə toplaşanlar bunu minnətdarlıqla vurğuladılar.*

*Dövlətimizin başçısı açılış mərasimində nitq söylədi.*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü tamam olur. Biz bu gözəl gündə sizinlə bərabər Yaşıl Teatrın açılışına toplaşmışıq. Əslində, bildiyiniz kimi, Yaşıl Teatr 1960-cı illərdə tikilibdir. Ancaq nəzərə alsaq ki, bura tamamilə yenidən qurulub, yenidən inşa edilib, biz tam haqlı olaraq deyə bilərik ki, bu gün Yaşıl Teatrın ikinci həyatının başlanmasında iştirak edirik. Bu gözəl teatr həmişə bakılıların ən sevimli yerlərindən biri olmuşdur. 60-cı illərdə tikilmiş və istifadəyə verilmiş bu gözəl mədəniyyət ocağı Bakıya həm yaraşıq verirdi, həm də burada çox gözəl tədbirlər keçirilirdi. Azərbaycanın çox tanınmış, çox məşhur ifaçıları, müğənnilər, yaradıcı qruplar burada öz məharətlərini göstərmişlər.

Mən çox şadam ki, biz qısa müddət ərzində bu teatrın yenidən fəaliyyətə başlamasına nail ola bilmişik. Bundan sonra Yaşıl Teatr uzun illər, onilliklər ərzində Azərbaycan xalqına xidmət edəcəkdir. Mən bu teatrın bərpasında iştirak etmiş bütün insanlara dərin təşəkkürümü, minnətdarlığımı bildirmək istəyirəm.

Teatrın bərpasının tarixi də çox maraqlıdır. Xatirimdədir, düz iki il bundan əvvəl «Gülüstan» sarayında müstəqillik gününə həsr edilmiş tədbirdən sonra mən saraydan çıxaraq, yuxarıdakı yolla piyada öz iş yerimə gedirdim. Yuxarıdan bu teatrın vəziyyətinə baxdım və gözümün qarşısında çox acınacaqlı mənzərə canlandı. Teatr faktiki olaraq dağılmışdı. Bu gün qaranlıq düşəndən sonra burada nümayiş etdiriləcək filmdə o kadrlar göstəriləcəkdir. Mən dərhal Bakı Şəhər İcra Hakimiyyətinin başçısına göstəriş verdim – teatr onların tabeliyindədir – layihə hazırlansın. Memarlar, inşaatçılar çox gözəl layihə hazırladılar və yenidənqurma işləri başlandı. İndi, iki il keçmədən biz bu teatrın açılışında iştirak edirik.

Mən bu gün xüsusilə Bakı Şəhər İcra Hakimiyyətinin

əməkdaşlarının işini qeyd etmək istəyirəm. Onların böyük fəaliyyəti olubdur. Düzdür, tikintiyə mən özüm nəzarət etmişəm. Tikinti gedən zaman dəfələrlə vəziyyətlə tanış olmuşam. Ancaq deyə bilərəm ki, şəhərin rəhbəri Hacıbala Abutalıbov bu teatrın tikintisində gündəlik rejimdə iştirak edirdi. Mən hər dəfə ona zəng edəndə və ya işdə olmayanda, özü zəng edib deyirdi ki, Yaşıl Teatrdayam. Mən bilmirəm, bəlkə hər zaman burada deyildi, amma ədalət naminə deməliyəm ki, doğrudan da Hacıbala müəllim bu işlərdə çox böyük həvəslə iştirak edirdi. İndi teatr artıq fəaliyyətə başlayır, o bundan sonra Yaşıl Teatrda olduğunu deyə bilməyəcəkdir. Amma indi Azərbaycanda, Bakıda o qədər gözəl binalar, obyektlər tikilir ki, əlbəttə, hər bir rəhbər üçün iş tapılar.

Əziz dostlar, biz çox istəyirdik, çox çalışırdıq ki, mayın 10-na qədər teatr hazır olsun və biz məhz bu gün onun açılışını qeyd edək. Bu gün bizim üçün çox əziz bir gündür. Bu gün Azərbaycan xalqının ümummilli liderinin doğum günüdür. Heydər Əliyevin Azərbaycan tarixində xidmətləri əvəzsizdir. İctimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə – həm 70–80-ci illərdə, həm də müstəqillik illərində həmişə öz xalqına sədaqətlə xidmət etmişdir. Həmişə öz xalqının qayğıları ilə yaşayırdı. Məşhur adamlardan, siyasətdə böyük uğurlar qazanmış insanlardan, liderlərdən soruşurlar ki, bu uğurların sirri nədir, bu müvəffəqiyyətli siyasətin səbəbi nədir? Jurnalistlər bir çox hallarda ulu öndərə belə suallar verirdilər. O heç vaxt özü haqqında danışmağı xoşlamırdı. Ancaq biz, onun davamçıları, vəziyyəti real təhlil edə bilən şəxslər, əlbəttə, bilirik ki, o siyasətin uğuru ilk növbədə onun müdrikliyi, uzaqgörənliyi, siyasi nüfuzu, cəsarəti sayəsində mümkün olmuşdur. Bütün bu amillərlə yanaşı, məncə ən başlıca amil onun Azərbaycan xalqına olan sevgisi, məhəbbətidir. Bu ən başlıca amildir. Əgər bu olmasaydı, heç vaxt heç bir rəhbər heç bir uğur qazana bilməzdi. Yenə də deyirəm, 1969-cu ildə Azərbaycana rəhbərliyə gəldiyi dövrdə Azərbaycan müttəfiq

respublikalar arasında ən geridə qalmış idi, faktiki olaraq, sənaye istehsalı yox idi. İqtisadiyyatımız aqrar sektor üzərində qurulurdu, o da yavaş-yavaş tənəzzülə uğrayırdı. Ancaq Azərbaycanda 1982-ci ilə qədər, 13 il ərzində əldə edilmiş nailiyyətlər Azərbaycanı həm sənayenin inkişafı baxımından, həm də yeni müəssisələrin yaranması, kənd təsərrüfatının, sosial sektorun inkişafı baxımından bütün Sovet İttifaqı respublikaları arasında birinci yerə çıxarmışdı.

Eyni zamanda, hamımız yaxşı xatırlayırıq ki, 90-cı illərin əvvəli – Azərbaycan öz dövlət müstəqilliyini 1991-ci ildə bərpa etmişdir – Azərbaycanda nə qədər ağır, çətin illər idi. Faktiki olaraq, ölkəmizin gələcəyi şübhə altında idi. Biz müstəqilliyi əldən də verə bilərdik. Necə ki, vaxtilə birinci demokratik respublika iki ildən sonra süqut etmişdi, bu dəfə də müstəqilliyin bərpasından iki il keçməmiş yenə də Azərbaycan dövləti üçün çox böyük təhlükə var idi. İndi təsəvvür etmək çətindir ki, əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə Azərbaycanda rəhbərliyə gəlməsəydi, bizi nələr gözləyə bilərdi. Hər halda, Azərbaycan çox böyük çətinliklərlə üzləşə bilərdi və bizim müqəddəratımız, müstəqil dövlət kimi yaşamağımız şübhə altına düşə bilərdi. Dünyada bir çox xalqlar var ki, onların dövlət müstəqilliyi yoxdur, yaxud, onlar nə vaxtsa bunu itiriblər. Bizim xoşbəxtliyimiz ondadır ki, məhz ölkəmiz üçün ən ağır və çətin günlərdə xalq müdrikliyini göstərərək, öz rəhbərini dəvət etdi, onu dəstəklədi, ona inandı. O da xalqın dəstəyinə arxalanaraq, 10 il ərzində Azərbaycanı ən geridə qalmış yerlərdən, iqtisadi iflic vəziyyətindən, total böhrandan ən sürətlə və dinamik inkişaf edən ölkələr sırasına daxil etdi. İndi Azərbaycanın reallıqları bunu göstərir.

Bu gün əldə edilmiş uğurların təməli məhz 90-cı illərin ortalarında qoyulmuşdur. Heydər Əliyevin bacarığı, onun siyasi nüfuzu, cəsarətli siyasəti, iqtisadi və siyasi islahatlar Azərbaycanı bu illər ərzində çox yüksək zirvələrə qaldırmışdır. Biz dalbadal üçüncü ildir iqtisadi artım cəhətdən dünyada birinci yer tutan ölkəyik. Bu gün Azər-

baycanda ictimai-siyasi sabitlik tam şəkildə bərqərar olunubdur. Azərbaycan xalqı quruculuq işləri ilə məşğuldur. Biz ölkəmizi gücləndiririk, abadlaşdırırıq. Ölkəmizin hər bir yerində – Bakıda, müxtəlif şəhər və rayonlarda çox böyük quruculuq-abadlıq işləri aparılır və hər bir vətəndaş bu işlərdə çox fəal iştirak edir. Hamı bu gözəl ab-havadan çox bacarıqla istifadə edir ki, ölkəmiz daha da güclənsin, beynəlxalq müstəvidə öz yerini möhkəmlətsin və Azərbaycan xalqı rahat, sülh, firavanlıq şəraitində yaşasın. Bu, Heydər Əliyevin arzusu idi və o, öz fəaliyyəti ilə, öz səyləri ilə Azərbaycanı bu yola çıxardı. Ölkəmiz üçün ən ağır, çətin illərdə əsl liderlik keyfiyyətlərini göstərərək Azərbaycanı dünyanın ən inkişaf edən ölkələri siyahısına sala bildi.

İndi bizim beynəlxalq nüfuzumuz da çox möhkəmdir. Ulu öndər tərəfindən başlanmış uğurlu neft strategiyası bu gün Azərbaycanın iqtisadi inkişafının əsas səbəbidir. Əgər o olmasaydı, biz bu uğurları əldə edə bilməzdik. Son illər ərzində bizim dövlət büdcəmiz, ümumi daxili məhsulumuz kəskin şəkildə artıbdır. Azərbaycanın həm iqtisadi, həm sosial, həm də siyasi inkişafı onu göstərir ki, ölkə inamla irəliləyir. Bunu təkcə biz demirik, Azərbaycana gəlmiş hər bir insan – qonaq, yaxud da rəsmi şəxs bunu görür.

Biz çox sürətlə inkişaf edirik, çox yüksək sürət götürmüşük və bu sürətlə irəli gedirik. Yenə də deyirəm, bütün bu işlərin səbəbkarı ulu öndər olmuşdur. Məhz buna görə Heydər Əliyev Azərbaycan xalqının qəlbində həmişə yaşayacaqdır. Məhz buna görə 1993-cü ildə xalq ona üz tutdu. Baxmayaraq ki, o vaxt Azərbaycanda imkanlara malik olan kifayət qədər şəxslər var idi, hakimiyyətə iddialı kifayət qədər adamlar var idi. Onların həm maliyyə imkanları geniş idi, həm də hərənin yanında bir silahlı dəstəsi də var idi. Yadınızdadır ki, burada anarxiya, xaos hökm sürürdü. Dövlət idarəçiliyi pozulmuşdu, asayiş pozulmuşdu və hərə özü üçün bir ağa idi. Ancaq Heydər Əliyevin o vaxt nə ordusu var idi, nə silahlı dəstəsi var idi, nə də başqa im-

kanı var idi. Onun ancaq siyasi bacarığı və 70–80-ci illərdən etibarən xalqın ürəyində qalan o inam, sevgi və məhəbbət. Xalq da düzgün seçim etdi. Azərbaycan xalqı müdrik xalqdır və o ağır günlərdə öz liderini dəvət etdi.

Bu gün biz hamımız xoşbəxtik ki, inkişaf edən ölkədə yaşayırıq. O ölkədə ki, orada sabitlik var. O ölkədə ki, vətəndaş cəmiyyəti yaradılıbdır. O ölkədə ki, xalqla iqtidar arasında birlik var, cəmiyyətdə arxayınlıq var, sakitlik var, əmin-amanlıq var. İnsanlar öz işləri ilə məşğul olurlar, onların sosial vəziyyəti yaxşılaşır. Biz bunu da rəsmi rəqəmlərdən görürük. Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faizdən 20 faizə düşübdür. Əminəm ki, bu ilin nəticələrinə görə yenə də kəskin şəkildə düşəcəkdir. Azərbaycanda yüz minlərlə insan yeni iş yeri ilə təmin olunur. Bütün bunlara görə biz ulu öndərə borcluyuq. Bizim də borcumuz ondan ibarətdir ki, bu yolu davam etdirərək, onun siyasətinə sadiq qalaq və onun qoyduğu yolla bundan sonra da inkişaf edək.

Onu da qeyd etmək istəyirəm ki, bildiyiniz kimi, son illər ərzində Azərbaycanda mədəniyyət ocaqlarının təmiri və yaradılması çox sürətlə gedir. Bax, bu gün Yaşıl Teatr açılır. Bir neçə teatrda – Gənc Tamaşaçılar Teatrında, Rus Dram Teatrında, Kukla Teatrında təmir-bərpa işləri gedir. Azərbaycan Dövlət Dram Teatrında təmir işləri başlanmalıdır, layihə təqdim olunmuşdur. Düzdür, layihəyə mənim bəzi iradlarım olmuşdur, yeni layihə işlənilir. Biz yaxın zamanlarda Opera və Balet Teatrının əsaslı təmirinə başlayacağıq. Bütün bu təmirlər ən yüksək dünya səviyyəsində aparılacaqdır.

Muzeylər təmir edilir. Tarix muzeyi, Ədəbiyyat muzeyi, İncəsənət muzeyinin iki binası təmir edilir, ondan sonra Muzey Mərkəzi təmir olunacaqdır. Mən «İstiqlal» muzeyinin yaradılması haqqında sərəncam vermişəm. Ən gözəl, müasir üslubda tikiləcək Xalça muzeyinin layihəsi təsdiq edilib və yaxın zamanlarda tikintiyə başlayacağıq. Azərbaycanda Muğam Mərkəzi tikilir. Hər bir Bakı sakini üçün

əziz olan «Nizami» kinoteatrının bərpasına başlayacağıq. Layihə öz təsdiqini tapıbdır. Biz yaxın zamanlarda onu da ən yüksək dünya səviyyəsində təmir edəcəyik. Heydər Əliyev adına saray əsaslı təmirə dayandırılıb və bir ildən sonra onun açılışı olacaqdır. Heydər Əliyev adına İdman-Konsert Kompleksində əsaslı təmir-bərpa işləri aparılır. Yəqin ki, bir aydan sonra tam şəkildə hazır olacaqdır.

Mənim sərəncamımla bu yaxınlarda Heydər Əliyev Mərkəzinin yaradılması da nəzərdə tutulubdur. O da çox möhtəşəm mərkəz olacaq ki, orada bütün tədbirləri keçirmək mümkün olsun. Bir sözlə, bu gün Azərbaycanda ən yüksək səviyyədə təmir olunan və yaxud da öz təmirini gözləyən 18 mədəniyyət ocağı var. Yəni, Azərbaycanın reallıqları budur. Hər bir sahədə belədir. Mən çox vaxtınızı almaq istəmirəm. Bəlkə də bu gün bütün sahələrdə görülən işlər haqqında danışmağa ehtiyac yoxdur. Amma bunlar Azərbaycanın reallıqlarıdır. Bu yol bizə uğur gətirəcək və gətirir. Bu yol Heydər Əliyev yoludur, bu yol inkişaf yoludur, bu yol tərəqqi yoludur, bu yol qələbə yoludur! Mən bu yolda bütün Azərbaycan xalqına yeni-yeni uğurlar arzulayıram!

Sağ olun.

* * *

*Sonra incəsənət ustalarının iştirakı ilə bayram konserti oldu, xalqımızın ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycanın tərəqqisi, beynəlxalq aləmdə tanınması, sürətli inkişafı naminə gördüyü tarixi işləri, eləcə də Yaşıl Teatrın əvvəlki və indiki vəziyyətini əks etdirən film göstərildi.*

*Yamyaşıl ot örtüyü, yaraşıqlı oturacaqları, məhəccərlər, qranit döşəmə, ən müasir işıqlandırma sistemi, fəvvarələr və şəlalə analoqu olmayan, ərazisi iki dəfə genişləndirilmiş teatrın ümumi görünüşünə xüsusi gözəllik bəxş edir. 2500 tamaşaçı yeri olan teatrda 40 yeraltı otaq tikilmişdir.*

* * *

*Sonra ulu öndər Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü ilə əlaqədar atəşfəşanlıq oldu.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva atəşfəşanlığı seyr etdilər, teatrın səhnəsinə gələrək incəsənət ustaları ilə görüşdülər, onlara çıxışlarına görə təşəkkürlərini bildirdilər və uğurlar arzuladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ

*11 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Polşa Respublikasına işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Krakov şəhərində keçiriləcək Enerji sammitində iştirak etmək üçün Polşa Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Krakovun Balitse hava limaninda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Polşanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Krakov şəhərinin rəhbərliyi böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyevə gül dəstəsi təqdim olundu.*

## AZƏRBAYCAN, UKRAYNA VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*Krakov, «Şerton» mehmanxanası*

*11 may 2007-ci il*

*Mayın 11-də Krakov şəhərinin «Şerton» mehmanxanasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ukrayna prezidenti Viktor Yuşşenko və Gürcüstan prezidenti Mixeil Saakaşvili arasında üçtərəfli görüş keçirilmişdir.*

*GUAM çərçivəsində əməkdaşlığın hazırkı vəziyyətindən danışan dövlət başçıları əlaqələrin daha da genişləndirilməsi və möhkəmləndirilməsinin vacibliyini, enerji və nəqliyyat sahələrində işbirliyi üçün geniş perspektivin olduğunu və bundan istifadənin zəruriliyini vurğuladılar.*

*Söhbət zamanı GUAM məkanında dondurulmuş münaqişələrə də toxunuldu və onların həlli ilə bağlı təşkilat çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi bildirildi.*

*Görüşdə GUAM dövlət başçılarının Bakıda keçiriləcək qarşıdakı zirvə görüşü haqqında söhbət getdi, qəbul ediləcək sənədlər və onlarda əksini tapacaq mühüm məsələlər barədə müzakirələr aparıldı.*

*Dövlət başçıları təşkilatın gələcək inkişaf yollarına, digər ölkələr və beynəlxalq təşkilatlarla əlaqələrə, GUAM çərçivəsində nəzərdə tutulan layihələrin həyata keçirilməsinə dair fikir mübadiləsi etdilər.*

## VAVEL QƏSRİNDƏ QARŞILANMA MƏRASİMİ VƏ ENERJİ SAMMİTİNİN AÇILIŞI

*Krakov, Vavel qəsri*

*11 may 2007-ci il*

*Mayın 11-də Azərbaycan prezidenti İlham Əliyev, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Ukrayna prezidenti Viktor Yuşşenko, habelə Qazaxıstanın Energetika və Mineral Ehtiyatlar nazirinin müavini Lyəzzət Kiinov Krakovun XVI əsrə aid məşhur Vavel qəsrinə gəldilər. Burada ali qonaqların şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi dövlət başçılarını salamladı. Prezidentlər və Qazaxıstan nümayəndəsi qəsrin qarşısında xatirə şəkli çəkdirdilər.*

*Sonra Azərbaycan, Gürcüstan, Ukrayna, Polşa və Litva prezidentlərinin, habelə Qazaxıstan nümayəndəsinin iştirakı ilə Vavel qəsrində Enerji sammitinin «Enerji təhlükəsizliyi» mövzusunda ilk iclası keçirildi.*

*İclasda iştirakçı ölkələr arasında enerji sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

*Sammitin ilk iclası başa çatdıqdan sonra iştirakçılar Vavel qəsri ilə tanış oldular. Məlumat verildi ki, Renessans dövrü memarlığının nümunəsi olan bu qəsr XVII əsrin ortalarına qədər Polşa krallarının əsas iqamətgahı idi. Hazırda muzey kimi istifadə olunur.*

*Dövlət başçıları qəsrin ayrı-ayrı otaqlarını gəzdilər.*

*Daha sonra sammitin «Milli enerji sektorlarının inkişaf strategiyası və Mərkəzi Asiya–Cənubi Qafqaz–Mərkəzi Avropa nəqliyyat dəhlizi konsepsiyası» mövzusunda ikinci iclası*

*keçirildi. Polşa prezidenti Lex Kaçinski iclası açaraq, dövlət başçılarını və Qazaxıstan nümayəndəsini salamladı, bu sammitin əhəmiyyətindən danışdı.*

*Azərbaycan prezidenti İlham Əliyev iclasda çıxış etdi. Dövlətimizin başçısı sammiti vacib beynəlxalq hadisə adlandıraraq dedi ki, bu gün bizim çox faydalı və açıq müzakirələrimiz oldu. Biz gələcək əməkdaşlıq məsələlərindən danışdıq və indi müzakirələrimizi davam etdiririk. Ölkələrimiz arasında tərəfdaşlığa söykənən əməkdaşlıq bizim üçün çox vacibdir. Prezident İlham Əliyev Azərbaycanın qlobal enerji proseslərində iştirakından, ölkəmizdə gedən sürətli iqtisadi inkişafdan, Azərbaycanın regionda artan rolundan danışdı. Bildirdi ki, iqtisadi imkanları daha da artan Azərbaycan qlobal enerji layihələrinin təşəbbüskarı və birbaşa iştirakçısıdır. Dövlətimizin başçısı Azərbaycanın Avropanın enerji təchizatçısı kimi böyük potensiala malik olduğunu vurğuladı və gələcəkdə bu sahədə imkanların artacağını bildirdi.*

*Sammitdə digər dövlət başçıları da çıxış etdilər.*

## ENERJİ SAMMİTİNİN YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSI

*11 may 2007-ci il*

*Mayın 11-də Krakovda Enerji sammiti başa çatdıqdan sonra yekunlara dair mətbuat konfransı keçirilmişdir.*

*Konfransda Azərbaycan prezidenti İlham Əliyev, Polşa prezidenti Lex Kaçinski, Ukrayna prezidenti Viktor Yuşşenko, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Litva prezidenti Valdas Adamkus, habelə Qazaxıstanın Energetika və Mineral Ehtiyatlar nazirinin müavini Lyəzzət Kiinov iştirak edirdilər.*

*Konfransı Polşa prezidenti açaraq dedi ki, bu gün səmərəli şəkildə başa çatan sammitin yekunlarına dair birgə rəsmi məlumat imzalanmışdır.*

*Litva prezidenti çıxışında həmin sənəddə mühüm məsələlərin əksini tapdığını, əsasən, nəqliyyat infrastrukturunun inkişafı, neft və qazın Avropa və dünya bazarlarına nəqli, Baltik dənizi, Qara dəniz və Xəzər dənizi regionları ölkələrinin əməkdaşlığı, Avropaya inteqrasiya məsələlərini əhatə etdiyini bildirdi.*

*Sonra Polşa prezidenti çıxış edərək birgə rəsmi məlumatda nəzərdə tutulan məsələlərin ölkələrimiz arasında daha konkret layihələrin həyata keçirilməsinə imkan verəcəyini söylədi. Gürcüstan prezidenti Azərbaycanın enerji məsələsində tutduğu mövqeyi yüksək qiymətləndirdi və regionda Azərbaycan–Gürcüstan əməkdaşlığını nümunə gətirdi. O dedi ki, biz Xəzər neftinin Gürcüstan–Ukrayna–Polşa marşrutu ilə Avropaya nəqlində maraqlıyıq. Ukrayna prezidenti çıxışında hazırda dünyada enerji məsələlərinin ön planda olduğunu bildirdi və dost ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın mövqeyini dəstəklədiklərini söylədi.*

*Azərbaycan prezidenti İlham Əliyev çıxışında sammitin yüksək səviyyədə təşkilinə görə prezident Lex Kaçinskiyə təşəkkürünü bildirdi. Aparılan danışıqların məzmunundan söhbət açan dövlətimizin başçısı dedi ki, regional əməkdaşlıq üçün yaxşı şərait var. Enerji təhlükəsizliyi hazırda Avropanı ən çox maraqlandıran məsələlərdəndir. Azərbaycan enerji sahəsində böyük potensiala malikdir və regional əməkdaşlığa böyük töhfə verəcəkdir. Ölkəmizin yeni yataqlara, boru kəmərlərinə sahib olduğunu xatırladan prezident İlham Əliyev hazırda Azərbaycanın öz təbii sərvətlərini müxtəlif kəmərlər vasitəsilə Avropaya və dünya bazarlarına çıxardığını vurğuladı.*

*Dövlətimizin başçısı bildirdi ki, qarşıda enerji sahəsində əməkdaşlığa dair konkret işlər durur. İmzalanmış birgə rəsmi məlumatda bütün məsələlərdə ölkələrin mövqeyi öz əksini tapıbdır. Prezident İlham Əliyev dedi ki, Xəzər dənizi, Qara dəniz və Baltik dənizi regionları vahid regiona çevrilir. Avropa İttifaqı ilə imzalanmış sənədlər bizə daha geniş imkanlar yaradır.*

*Konfpansda çıxış edən Qazaxıstan nümayəndəsi ölkəsinin öz neftini müxtəlif marşrutlarla dünya bazarlarına çıxarmaq hüququna malik olduğunu bildirdi.*

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər. Prezident İlham Əliyev suallara cavabında bildirdi ki, Azərbaycanın öz neftini və qazını dünya bazarlarına çıxarmaq istəyi böyükdür və bu sahədə heç bir problem yoxdur. Azərbaycan neftinin Bakı–Tbilisi–Ceyhan boru kəməri vasitəsilə dünya bazarlarına nəqlini xatırladan dövlətimizin başçısı dedi ki, biz neftimizin müxtəlif marşrutlarla nəqlinə tərəfdarıq.*

*Digər prezidentlər də jurnalistlərin suallarına cavab verdilər. Mətbuat konfransında Azərbaycanın enerji sahəsində əldə etdiyi nailiyyətlər, neftin dünya bazarlarına çıxarılmasında tutduğu mövqe birmənalı şəkildə dəfələrlə vurğulandı.*

* * *

*Günün sonunda Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin adından sammit iştirakçılarının şərəfinə ziyafət verildi.*

## ENERJİ SAMMİTİNİN YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSINDA NİTQ

*Krakov*

*11 may 2007-ci il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

İlk növbədə mən səmimi qonaqpərvərliyə görə dostumuz prezident Kaçinskiyə öz minnətdarlığımı bildirmək istəyirəm. Bu gün bizim çox dostluq mühitində keçən görüşümüz oldu. Bir neçə saat ərzində konstruktiv müzakirələr apardıq və bir çox məsələlərin nəzərdən keçirilməsinin və həyata keçirilməsi yollarının müəyyən edilməsinin vacibliyini vurğuladıq. Azərbaycanın bu zirvə görüşündə təmsil olunmuş hər bir ölkə ilə çox yaxşı ikitərəfli münasibətləri var.

Eyni zamanda, biz bu gün ilk dəfə olaraq belə geniş formatda bir yerə toplaşmışıq. Bu, regional əməkdaşlığın artan əhəmiyyətinin aydın göstəricisidir. Hazırda Xəzər dənizi, Qafqaz, Qara dəniz və Baltik dənizi regionları birgə işləyir. Səmimi desəm, regionları bu qədər bir-birinə yaxın edən başqa təşəbbüs haqqında danışmaq belə, mümkün deyildir.

Enerji və daşımalar Avropa və dünyanın siyasi gündəliyində duran əsas məsələlərdəndir. Hesab edirəm ki, əməkdaşlığımızın səmərəli və uğurlu olması regionlarımız arasında daha geniş əməkdaşlığın başlanğıc nöqtəsi olacaqdır. Azərbaycan böyük neft və qaz ehtiyatlarına malik olan ölkədir. Bizim ehtiyatlarımız gələn 100 il ərzində daxili tələbatımızın ödənilməsi üçün kifayətdir. Lakin biz bu gün regionun enerji təhlükəsizliyində daha vacib rol oynayırıq. Misal üçün, gələn il Azərbaycan gündə 1 milyon barrel neft hasil edəcəkdir. Biz böyük qaz yataqları aşkar etmişik və Azərbaycan qazı artıq

qonşu ölkələrin bazarlarına ixrac olunur və oradan isə Avropa bazarlarına nəql edilə bilər.

Müxtəlif neft və qaz boru kəmərlərinin çəkilməsinə milyardlarla dollar sərmayə qoyulubdur. Bu gün bizim neft və qazımızı Avropa və dünya bazarlarına çıxaran boru kəmərimiz var. Bu, təchizatın şaxələndirilməsi deməkdir. Eyni zamanda, biz istehlakçıları da başa düşürük, çünki onlar öz təchizat mənbələrini şaxələndirmək istəyirlər. Burada biz təchizatçı, tranzit və istehlakçı ölkələr arasında maraqların güclü şəkildə tarazlaşdırılmasına nail olduq.

Məqsədlərimizə nail olmaq üçün bütün tərəflər arasında yalnız müvəffəqiyyətli əməkdaşlıq və vahid komanda halında işləmək uğurlu enerji siyasətinin əsas elementləridir. Bu gün biz şaxələndirmənin səviyyəsini artırmaq üçün konkret layihələr üzərində işlədik və bu, yalnız başlanğıcdır. Birgə rəsmi məlumat planlarımızı, nailiyyətlərimizi və gündəliyimizi aydın şəkildə əks etdirir. Əminəm ki, birgə əməkdaşlıq sayəsində biz öz məqsədlərimizə nail olacağıq. Mümkün qədər tez müddətdə işçi qrup öz işinə başlayacaqdır. İnanıram ki, Vilnüsdə keçiriləcək növbəti zirvə görüşündə biz əsas addımların ilkin proqramını əldə edəcəyik.

Bir daha demək istəyirəm ki, Azərbaycan öz tərəfdaşları ilə əməkdaşlığa çox böyük önəm verir. Xəzər dənizi – Qara dəniz – Baltik dənizi regionları bizim üçün vahid ümumi regiona çevrilir. Avropa İttifaqı ilə bu yaxınlarda imzaladığımız enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu nəzərə alınmaqla, həmin sənədlər planlarımıza əlavə təkan verir.

Mən bu görüşün nəticələri ilə bağlı bir daha öz məmnunluğumu qeyd edir, dostumuz prezident Kaçinskiyə qonaqpərvərliyə görə və bütün dost prezidentlərə və nazir müavininə səmərəli əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm.

Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev jurnalistin suallarına cavab verdi.*

**S u a l: Təchizatlara aid zəmanətlər haqqında nə deyə bilərsiniz? Təchizata hər hansı zəmanət verilirmi? Qazaxıstan və Azərbaycan tərəfindən bu layihəyə aid təchizat sahəsində hər hansı zəmanət verilə bilərmi?**

**İkinci sualım da prezident Əliyevədir. Boru kəmərinin tikintisi başa çatdırılarsa, Azərbaycan həmin vaxt kifayət qədər neft hasilatına malik olacaqmı?**

**İ l h a m Ə l i y e v:** Nəhəng neft yataqlarının işlənilməsi proqramımız ölkəmizin tələbatının tam ödənilməsinə əsaslanır. Giriş sözümdə dediyim kimi, gələn ildən etibarən Azərbaycanda neft hasilatının həcmi ildə 50 milyon ton təşkil edəcəkdir. Həmin neftin nəqli üçün bizim bir neçə boru kəmərimiz var. Əsas ixrac boru kəməri gündə 1 milyon barrel nefti buraxma qabiliyyətinə malik olan Bakı–Tbilisi–Ceyhan kəməridir. Bu o deməkdir ki, gələn il Bakı–Tbilisi–Ceyhan boru kəməri Azərbaycanın yataqlarından hasil edilən neftlə tam dolu olacaqdır. Gündə 1 milyon barrel neftin nəqlinin son hədd olmayacağını və hasilatın artırılması ilə bağlı planlarımızı nəzərə alsaq, müxtəlif istiqamətlərdə də nəql edilmək üçün əlavə həcm birmənalı şəkildə olacaqdır.

Əlbəttə ki, Bakı–Tbilisi–Ceyhan boru kəməri əlavə texniki tədbirlərin görülməsi yolu ilə genişləndirilə bilər. Biz boru kəmərinin buraxıcılıq qabiliyyətini müəyyən dərəcədə artıra bilərik. Eyni zamanda, təchizatın şaxələndirilməsi bizim üçün çox önəmlidir. Biz bunun üzərində işləyirik. Olduqca qısa müddət ərzində biz üç boru kəmərinə nail olmuşuq. Birincisi ilə neftimizin Qara dənizə, ikincisi ilə Aralıq dənizinə və üçüncüsü ilə qazımızın Avropa bazarlarına çıxarılması gündəliyimizin aydın göstəricisidir. Ona görə əminəm ki, Azərbaycanda hasil olunan neft bizim əməkdaşlığımıza xidmət edəcəkdir.

Eyni zamanda, bu gün zəmanətlər haqqında danışmaq bəlkə də hələ tez olardı. Bildiyiniz kimi, biz elə indicə işçi qrupunun yaradılması qərarına gəldik. Bizim bu gün çox geniş müzakirələrimiz oldu. Bir neçə saat ərzində bir yerdə olduq. Odessa–Brodı–Plotsk–Qdansk boru kəməri haqqında olduqca maraqlı təqdimata baxdıq və məlumatı dinlədik. Bütün meyarları, layihənin kommersiya əsaslarını qiymətləndirdikdən sonra təbii ki, biz öz planlarımız, nə vaxt və nə qədər neft hasil edəcəyimiz barədə daha təfərrüatlı şəkildə danışacağıq.

Bu gün biz layihəyə verilən aydın siyasi dəstəyə malikik. Atılacaq ilk praktik addımlar artıq müəyyənləşdirilibdir. Biz şirkətin yaradılması barədə razılığa gəlmişik. Layihənin potensialını qiymətləndirməyə başlayırıq. Əminəm ki, müzakirələrimizin və məsləhətləşmələrimizin növbəti raundu zamanı biz bu istiqamətdə irəliyə doğru gedəcəyik.

Bundan əlavə, biz başa düşürük ki, Xəzərin şərq sahilindəki tərəfdaşlarımız üçün maraqlı olarsa, orada hasil edilən neft də bu boru kəməri üçün əlavə təchizat mənbəyi ola bilər.

Sağ olun.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Polşaya işgüzar səfərini başa çatdıraraq Tbilisiyə yola düşmüşdür.*

*Krakovun Balitse hava limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidentini Polşanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Krakov şəhərinin rəhbərliyi böyük ehtiramla yola saldılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ

*12 may 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 12-də Krakovdan Gürcüstana gəlmişdir. Həmin gün Tbilisinin tarixi məhəllələrindən biri olan Abanostubanidə Heydər Əliyev parkında ulu öndərin abidəsinin təntənəli açılış mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstan prezidenti Mixeil Saakaşvili mərasimdə iştirak etmişlər.*

*2004-cü ildə prezident İlham Əliyevin Gürcüstana səfəri zamanı bu parka ulu öndərin adı verilmişdir. Azərbaycanın Xalq rəssamı, heykəltəraş Natiq Əliyev tərəfindən qranitdən hazırlanmış büstün və postamentin hündürlüyü dörd metrdir. .*

*Parka toplaşan minlərlə tbilisili – gürcülər və azərbaycanlılar dövlət başçılarını hərarətli alqışlarla qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstan prezidenti Mixeil Saakaşvili abidənin üzərindən ağ örtüyü götürdülər.*

*Dövlət başçıları mərasimdə nitq söylədilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN TBİLİSİDƏ HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQLƏRİ

*Tbilisi*

*12 may 2007-ci il*

### Gürcüstan prezidenti Mixeil Saakaşvilinin nitqi

Böyük dostumuz, sədaqətli müttəfiqimiz, qardaşım İlham Əliyevi Gürcüstanın mərkəzində – Tbilisidə Heydər Əliyevin abidəsinin açılışında salamlamaq istəyirəm.

Düşünürəm ki, bu gün tarixi qardaşlığımızın, dostluğumuzun çox parlaq təsdiqidir. Hərçənd ki, bizim çoxəsrlik dostluğumuzun sübuta ehtiyacı yoxdur. Azərbaycan, azərbaycanlılar Gürcüstanın həmişə sadiq dostları olmuşlar. Gürcüstanda yaşayan etnik azərbaycanlılar ölkəmizin vətəndaşlarıdır, öz mədəniyyətini, öz dilini, özgürlüyünü saxlayan və inkişaf etdirən bu insanlar, eyni zamanda, vətənimizin, ölkəmizin, onun gələcəyinin ayrılmaz tərkib hissəsidirlər. Eləcə də Azərbaycan Gürcüstanın gələcək tərəqqisinin ayrılmaz tərkib hissəsidir.

Mən əvvəllər də demişəm: keçən il bizə verilən qaz və elektrik enerjisi eyni vaxtda hansısa, yumşaq desək, qəribə səbəblərə görə kəsiləndə, qışın bu ən soyuq çağında Azərbaycanın bizə qaz verməsini, öz istisini bizimlə bölüşməsini heç vaxt unutmayacağıq. Bu heç də sadəcə olaraq ürəyin hərarətini bölüşmək deyildi. Azərbaycan öz evlərinin istisini, öz xəstəxanalarının istisini, öz ocaqlarının istisini, öz uşaq bağçalarının, öz məktəblərinin istisini bizimlə bölüşdü. Elə bu il də, Gürcüstanın qaz ala bilmədiyi

vaxtda, bizim üçün qiymətləri keçən ildəkinə nisbətən dörd dəfə qaldırdıqları vaxtda da Azərbaycan yenə öz qazının bir hissəsini Gürcüstanla bölüşdü. Düşünürəm ki, belə hallar istənilən xalqın yaddaşında qalır.

Bəzən sual verirlər: Heydər Əliyev bu regionun tarixində hansı rolu oynamışdır? Düşünürəm ki, çox mühüm rol oynamışdır. Çünki 90-cı illərin əvvəllərində o deyəndə ki, Azərbaycan dünya bazarlarına Gürcüstan vasitəsilə çıxmalıdır, bu təklifin kommersiya baxımından üstünlüyü çox da aşkar deyildi, sırf siyasi mənada isə bu çox riskli idi. Lakin o bu işi axıra çatdırdı. Bu alternativ olmasaydı, indi regionumuzun Avropaya verdiyi ümidlər də olmazdı – dünən biz bir neçə Avropa ölkəsinin prezidentləri ilə enerji ehtiyatlarının ixracı üçün paralel yollar, imkanlar yaradılması haqqında razılığa gəldik.

Real olaraq, regionumuzun geosiyasəti məhz Heydər Əliyevin qərarından sonra dəyişdi. Eyni zamanda, o, müasir Azərbaycan dövlətinin banisi, müasir Azərbaycan millətinin atasıdır. Sıx birləşmiş Azərbaycan, dost Azərbaycan, uğurlu Azərbaycan isə Gürcüstanın özünün daxilində inteqrasiya və müvəffəqiyyətin, bizim ümumi gələcəyimizin rəhnidir. Bu gün strateji tərəfdaşlar olmaq həmişəlik strateji tərəfdaşlar olmaq deməkdir. Strateji tərəfdaşlıq məhz uzun müddət və həmişəlik tərəfdaşlıq deməkdir. Biz isə öz coğrafi mövqeyimizi nəzərə alaraq, belə olmağa borcluyuq. Biz birlikdə olmalıyıq, yeni dostlar tapmalıyıq. Lakin başlıcası odur ki, başa düşmüşük, bir dünyaya baxın: nə qədər parçalanma, nə qədər münaqişələr, nə qədər çəkişmələr, nə qədər həll edilməmiş problemlər var. Bizim xalqlarımız isə müdriklik göstərirlər. Mən hələ rəhbərləri demirəm, xalqlarımız bütün bu baş verənlərə qarışmamaq üçün müdriklik göstərirlər.

Gürcüstan–Azərbaycan münasibətlərinə düşmən olan kəs Azərbaycanın düşmənidir, Gürcüstanın düşmənidir. Çünki bizim gücümüz birlikdədir. Gürcüstan azərbaycanlıları Gürcüstan cəmiyyətinə inteqrasiya olurlar. Onlar gürcü dilini öyrənir, bu dildə danışırlar. Kim birliyin əleyhinədirsə, ha-

mımızın əleyhinədir. Bax, burada, arxa tərəfdə Azərbaycan məktəbi var, orada azərbaycanlı uşaqlar təhsil alırlar. Onların simasında Gürcüstanın gələcək vətənpərvərləri yetişir.

Mən İlham Əliyevi bir daha salamlamaq istəyirəm. Bu həqiqətən, hadisələrin sınağından çıxmış dostluq və qardaşlıqdır. Çox müxtəlif vədlər, çox müxtəlif təkliflər olub, aramızı vurmağa və bizi bir-birimizdən ayırmağa çalışmışlar. Amma bütün bunlar baş tutmadı və baş tutmayacaqdır. Çünki biz birlikdə partikulyar, şəxsi kateqoriyalarla deyil – hərçənd, bizim çox güclü şəxsi münasibətlərimiz var – ilk növbədə, dövlət kateqoriyaları ilə düşünürük. Biz Gürcüstanı, Azərbaycanı bu gün, 2007-ci ildə görürük, biz Gürcüstanı, Azərbaycanı 2017-ci ildə görürük. Əminəm ki, yaxın illərdə də, yaxın onilliklərdə də bu iki qardaş xalq özünün daha yaxşı gələcəyini tapacaq və özlərinin birliyi ilə, müdrikliyi ilə, uğurları ilə, nümunələri ilə dünya işlərində daha mühüm rol oynayacaqlar.

Azərbaycan prezidentinə bir daha dərin təşəkkürümüzü bildiririk.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Əziz qardaşım Mixeil, belə səmimi sözlərə görə çox sağ ol!

Bu gün mən böyük iftixar hissi keçirirəm ki, 15 il əvvəl müstəqillik qazanmış xalqlarımız və ölkələrimiz arasında çoxəsrlik münasibətlərin tarixində bizi daha da yaxınlaşdıran bir hadisə baş verir.

Bu gün gözəl bir yerdə, Tbilisinin mərkəzində biz Azərbaycanın ümummilli lideri Heydər Əliyevin büstünü açdıq. Mən ilk növbədə, büstün qoyulması barədə qərar qəbul etdiyinə görə, bunun üçün Tbilisinin ən gözəl, yaraşıqlı, tarixi yerlərindən birini seçdiyinə görə qardaşım Mixeilə təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda, ulu öndərimizin xatirəsinə göstərilən ehtirama görə bütün gürcü xalqına təşəkkürümü bildirmək istəyirəm.

Bugünkü mərasim bizim birliyimizin rəmzidir, qardaşlığımızın rəmzidir. Onun rəmzidir ki, əvvəlki kimi, xalqlarımız bundan sonra da hələ çox onilliklər və əsrlər bir yerdə olacaq, yaxın olacaq, bir-birinə kömək edəcək, indi olduğu kimi, bir-birinin uğurlarına sevinəcəklər.

Xatirimdədir, bu ilin fevralında burada, yaxınlıqda biz indiki kimi, ikimiz Heydər Əliyev adına sahil küçəsini açdıq. Bu gözəl çayın sahilində Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi barədə gürcü xalqının və şəxsən prezidentin qəbul etdiyi bu qərar çox mühüm idi.

Bu gün biz büstün açılışını qeyd edirik. Bir daha demək istəyirəm ki, bu bizi çox ruhlandırır. Daha möhkəm əminlik yaradır ki, bizim dostluğumuz və qardaşlığımız çox onilliklər və əsrlər davam edəcəkdir.

Heydər Əliyev Azərbaycan xalqının tarixində, Azərbaycan dövlətçiliyinin tarixində çox böyük rol oynamışdır. Bizim tariximizdə, Gürcüstan ilə Azərbaycanın ümumi tarixində bir dövr də olmuşdur ki, biz Rusiya imperiyasının süqutu nəticəsində müstəqillik əldə etmişdik. Lakin təəssüf ki, o çox çəkmədi, təxminən 2 il oldu. Sonra biz müstəqilliyi itirdik. 90-cı illərin əvvəllərində artıq Sovet İttifaqının süqutu nəticəsində xalqlarımız yenidən müstəqil olmaq, öz taleyini müəyyən etmək, bütün məsələlərini özləri həll etmək və gələcək üçün planlar qurmaq kimi böyük xoşbəxtliyə qovuşdular. Ancaq bu müstəqillik də təhlükə qarşısında idi. Azərbaycanda müstəqillik əldə edildikdən sonra iki il ərzində mənfi, qeyri-müəyyən istiqamətdə proseslər baş verirdi. Ümumi xaos, iqtisadi böhran, siyasi və hərbi böhran, vətəndaş müharibəsi, bir sözlə, Gürcüstanın da bütün başına gələnlər. Əgər o zaman Azərbaycan xalqı müdriklik göstərib ölkənin idarə olunmasına Heydər Əliyevi dəvət etməsəydi, hələ məlum deyildi ki, hər şey nə ilə bitəcəkdi və biz müstəqilliyimizi və dövlətçiliyimizi qoruya biləcəkdikmi? O nəinki müstəqilliyimizi qorudu, həm də Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində ölkəmizin gələcək uğurlu inkişafının təməlini və ciddi bazasını yaratdı. Bu gün

bizim nəyimiz varsa, nəyə malikiksə, milli nailiyyətimiz kimi nə ilə fəxr ediriksə, məhz onun müdrikliyi, qətiyyəti, cəsarəti və qəbul olunan qərarların doğruluğuna əminliyi sayəsində əldə olunmuşdur. Bu gün Azərbaycan öz gücünə güvənən ölkədir, dövlət müstəqilliyi artıq sarsılmaz və əbədi olan ölkədir. Buna görə də Heydər Əliyev hər bir azərbaycanlının, xalqımızın hər bir vətənpərvərinin xatirəsində daim yaşayacaqdır.

Biz eyni münasibəti qardaş gürcü xalqından da gördük. İndi bu büstün açılışı bunun daha bir təsdiqidir. Heydər Əliyev Gürcüstanı çox sevirdi, gürcü xalqını çox sevirdi, gürcü xalqına həmişə böyük səmimiyyətlə, böyük hörmətlə yanaşırdı. O, 70-ci illərdə, 80-ci illərdə və artıq müstəqil Azərbaycanın prezidenti kimi, Gürcüstanda dəfələrlə olmuşdur. Ailədə söhbətlərində gürcü xalqından, gürcü mədəniyyətindən, gürcü xalqının tarixindən həmişə böyük məhəbbətlə danışırdı. Görünür müəyyən dərəcədə, bəlkə də xeyli dərəcədə bu da böyük rol oynamışdır ki, bir çox əsrlər boyu aralarında heç vaxt müharibələr olmayan və həmişə sülh şəraitində yaşayan – yeri gəlmişkən, bu, qonşular üçün heç də səciyyəvi hal deyildir – xalqlarımız müstəqilliyə qovuşduqları dövrdə də keçmiş əlaqələri itirmədi, bir-birinə qarşı durmadılar. Əksinə, öz milli mənafelərinin müdafiəsi uğrunda da, indi təkcə bizim üçün, təkcə region üçün deyil, həm də geniş mənada, qitə üçün mühüm rol oynayan layihələrin irəlilədilməsi uğrunda da vahid orqanizm kimi, güclü regional qüvvə kimi çıxış etdilər.

Mixeil Saakaşvilinin qeyd etdiyi kimi, dünən Polşa sammitində biz əsası məhz 1994-cü ildə qoyulan energetika sahəsində tərəfdaşlığımızın yeni mərhələsi haqqında müəyyən razılaşmalara nail olduq. O vaxt bu olmasaydı, indi nəinki qonşularımızın – Gürcüstanın enerji müstəqilliyini təmin edə bilərdik, hətta özümüzü də təmin edə bilməzdik. Regionda nələr olacağını, Azərbaycanın başına nələr gələcəyini, onun bugünkü vəziyyətinin necə olacağını təsəvvür etmək çətin deyildir.

Ona görə də bu məsələdə biz gürcüləri və azərbaycanlıları həmişə birləşdirmiş tarixi yaddaşa və bugünkü nailiyyətlə-

rimizə arxalanmalıyıq. Gələcək fəaliyyətimizdə də biz bu nailiyyətlərə, bu uğurlara, bu qardaşlığa, bu qarşılıqlı dəstəyə əsaslanmalıyıq.

İndi Gürcüstanın öz yüksəliş, hətta deyərdim, çiçəklənmə dövrünü yaşadığı, çox böyük dəyişikliklərin, siyasi və iqtisadi islahatların uğurla həyata keçirildiyi bir vaxtda – insanlar da bunu görürlər – biz daha da güclənirik. Siz nə qədər çox möhkəmlənsəniz, biz də bir o qədər çox möhkəmlənəcəyik. Ümumi tariximiz, qardaşlıq əlaqələrimizin keçmişi, bugünkü vəziyyəti və milli mənafelərimiz tələb edir ki, biz birlikdə olaq. Biz birlikdə böyük qüvvəyik. Buraya prezidentlər – onlar sözdə deyil, həqiqətən qardaşdırlar – arasındakı şəxsi münasibətləri də əlavə etsək, inkişafımızın çox nikbin, çox ümidverici mənzərəsi yaranar.

Əminəm ki, biz qarşımızda duran bütün məsələləri həll edəcəyik. Biz separatizmə son qoyacaq, etnik təmizləmələrdən əziyyət çəkmiş insanları öz ocaqlarına qaytaracaq, bütün ərazimiz üzərində milli suverenliyi bərpa edəcəyik. Bunun üçün biz güclü və birlikdə olmalıyıq. Biz bunu edirik. Biz möhkəmlənirik və bir- birimizə daha da yaxınlaşırıq.

Bugünkü gün Azərbaycan xalqının yaddaşında uzun müddət, yəqin ki, həmişəlik qalacaqdır. Bu bizim birliyimizin günüdür, Azərbaycana olduğu kimi, qardaş Gürcüstana da sədaqətlə xidmət etmiş böyük azərbaycanlının xatirə günüdür. Gələcək inkişafımızı müəyyənləşdirdiyimiz, regionun geosiyasi inkişaf strategiyasını müəyyənləşdirdiyimiz, Gürcüstan və Azərbaycanın Avropa və dünya işləri üçün əhəmiyyətinin artdığı gündür. Sərhədlərimizin hüdudları və ya həmvətənlərimizin sayı haqqında statistika məlumatını götürsək, biz ərazicə və əhalinin sayına görə kiçik ölkələrik, ancaq daha mühüm rol oynayırıq.

Bu proses gedir və davam edəcəkdir. Mən bu gözəl gündə bu qərara görə dostum və qardaşım Mixeilə bir daha təşəkkür etmək, qardaşlığa, dəstəyə görə bütün gürcü xalqına təşəkkür etmək istəyirəm. Biz sizin dəstəyinizi həmişə hiss edirik. Bu gün

Mixeilin dediyi kimi, ağır vaxtda Azərbaycan sizin yanınızda olmuşdur, bunda qeyri-adi bir şey yoxdur, bu normaldır, belə də olmalıdır. Əgər biz dostuqsa – biz isə dostuq – həmişə bir olmalıyıq. Bir-birimizin uğurlarına sevinməliyik və dar gündə arxa-dayaq olmaq, kömək etmək və birlikdə irəliləmək üçün, hətta çağırılmasaq da, birinci gəlməliyik. Ölkələrimizin gələcəyi ancaq bu birlikdə mümkündür. Bu mənim də, Mixeilin də dərin inamıdır. Güclü dövlət, güclü alyans quruculuğu yolunda Gürcüstan və Azərbaycanın bütün vətəndaşlarına uğur arzulayıram, gələcəkdə inamla irəliləməyi arzulayıram. Bizim hələ çox planlarımız var və biz onları birgə səylərlə həyata keçirəcəyik.

Bir daha çox sağ olun.

* * *

*Azərbaycan və Gürcüstan prezidentləri Heydər Əliyevin büstü önünə əklillər qoydular, mərasimə toplaşan Tbilisi sakinləri ilə xatirə şəkli çəkdirdilər.*

*Sonra prezidentlər İlham Əliyev və Mixeil Saakaşvili Azərbaycan xalqının ümummilli liderinin adını daşıyan parkın yaxınlığında yerləşən Heydər Əliyev Fondunun Gürcüstan filialında oldular. Burada onlar Xocalı soyqırımından bəhs edən fotoguşəyə, habelə Gürcüstan uşaqlarının rəsmlərindən ibarət sərgiyə baxdılar.*

*Mayın 12-də Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstana səfəri başa çatmışdır.*

*Tbilisi hava limanında Azərbaycan dövlətinin başçısını Gürcüstan prezidenti Mixeil Saakaşvili böyük ehtiramla yola saldı.*

* * *

*Prezident İlham Əliyev həmin gün Vətənə qayıtdı.*

*Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Azərbaycan prezidentini Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**İORDANİYANIN KRALI
ƏLAHƏZRƏT II ABDULLAHA**

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün İordaniya xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–İordaniya münasibətləri dostluq və əməkdaşlıq məcrasında müvəffəqiyyətlə inkişaf edir. Əminəm ki, xalqlarımızın istək və iradəsinə uyğun olaraq əlaqələrimizin daha da genişləndirilməsi, əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində niyyətlərimizi həyata keçirmək üçün qarşılıqlı səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2007-ci il*

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NESTOR KİRÇNERƏ**

Hörmətli cənab Prezident!

Argentinanın milli bayramı – May inqilabının ildönümü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri, qarşılıqlı əlaqələrimiz daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2007-ci il*

## BOLQARISTANIN ƏDLİYYƏ NAZİRİ GEORGİ PETKANOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Prezident sarayında Bolqarıstanın Ədliyyə naziri Georgi Petkanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan–Bolqarıstan ikitərəfli münasibətlərinin dinamik surətdə inkişafından məmnun olduğunu qeyd edən dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyini bildirdi. Azərbaycan prezidenti hər iki ölkə başçılarının qarşılıqlı səfərlərinin əlaqələrimizin daha da möhkəmlənməsində xüsusi əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Bolqarıstanın Ədliyyə nazirinin Bakıya səfərinin ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişafına öz töhfəsini verəcəyinə əminliyini söylədi.*

*Bolqarıstanın Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığa böyük maraq göstərdiyini qeyd edən Georgi Petkanov ümidvar olduğunu bildirdi ki, ölkələrimizin Ədliyyə nazirlikləri arasında əlaqələrin genişlənməsi ikitərəfli münasibətlərimizin inkişafında da mühüm rol oynayacaqdır.*

## «HESS CORPORATİON»un İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI RƏHBƏRİ CON HESSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Prezident sarayında «Hess Corporation»un idarə heyətinin sədri və Baş icraçı rəhbəri Con Hessin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Con Hess rəhbərlik etdiyi korporasiyanın Azərbaycanda fəaliyyət göstərməsindən və ölkəmizin tərəfdaşı olmasından böyük məmnunluğunu ifadə etdi. Qonaq «Hess Corporation»un ölkəmizdə görəcəyi gələcək işlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev Azərbaycanda xarici şirkətlərin fəaliyyəti üçün olduqca əlverişli şəraitin yaradıldığını vurğuladı, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal enerji və nəqliyyat layihələrinin dünyanın enerji təhlükəsizliyi sistemində mühüm rol oynadığını bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT KUKLA TEATRINDA, HEYDƏR ƏLİYEV ADINA SARAYDA VƏ DÖVLƏT RUS DRAM TEATRINDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*16 may 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 16-da Dövlət Kukla Teatrında, Heydər Əliyev adına Sarayda və Dövlət Rus Dram Teatrında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Xatırladaq ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin «Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında» 2007-ci il 19 fevral tarixli sərəncamına uyğun olaraq, Bakının ən böyük mədəniyyət ocaqları əsaslı təmir edilir və yenidən qurulur.*

*Bu mühüm dövlət əhəmiyyətli işi daim nəzarətdə saxlayan prezident İlham Əliyev əvvəlcə Dövlət Kukla Teatrına gəldi. Dövlətimizin başçısı uşaqların teatra rahat gəlib-getməsini təmin etmək üçün ətrafdakı kiçik və köhnə tikililəri sökərək, ərazini abadlaşdırmaq və səliqə-sahman yaratmaq barədə tapşırıqlar verdi.*

*Binanı gəzərkən prezident İlham Əliyev təmir-bərpa işlərinin layihəsinə və teatrın təmirdən sonrakı görünüşünü əks etdirən şəklə baxdı. Bildirildi ki, hazırda əsasən bəzək-tərtibat işləri aparılır. Bərpaçılar divarlarda uşaqların zövqünə uyğun çəkilmiş rəsmlərin orijinallığını saxlamağa çalışırlar. «Embawood» şirkəti paralel olaraq sanitariya qovşağını, kommuni-*

*kasiya xətlərini, səs və işıq sistemini də tamamilə dəyişdirir. Bütün avadanlıq Avropanın ən məşhur şirkətlərindən alınır.*

*Prezident İlham Əliyev həm də tarixi memarlıq abidəsi kimi tanınan bu binanın tamaşalara gələn uşaqların ürəyincə olması üçün təmir-bərpa işlərinin yüksək səviyyədə davam etdirilməsini tapşırdı.*

*Dövlətimizin başçısının sərəncamına əsasən təmir-bərpa və yenidənqurma işləri gedən mədəniyyət ocaqlarından biri də Heydər Əliyev adına saraydir. Ulu öndərin saysız-hesabsız yadigarlarından biri olan bu saray 35 il ərzində ilk dəfədir əsaslı şəkildə yenidən qurulur. Prezident İlham Əliyev təmir-bərpa işləri yenicə başlananda da buraya gəlmiş, görüləcək işlərin layihəsi ilə tanış olmuşdu.*

*Dövlətimizin başçısına ötən aylarda görülmüş işlər barədə məlumat verildi. Bildirildi ki, təmir-bərpa və yenidənqurma ən müasir texnologiyalar əsasında aparılır, mütəxəssislər konstruksiyaların və mühəndis qurğularının faktiki vəziyyətini ekspertizadan keçirdikdən sonra təmir işlərinin mexanizmi müəyyənləşdirilir. Sarayın əsaslı şəkildə yenidən qurulması işlərini bu sahədə kifayət qədər təcrübəsi olan «Azəraqrartikinti» Səhmdar Cəmiyyəti və Türkiyənin tanınmış «Pim proje» şirkəti görür. Səhnə və salonun işıqlandırma, səs sistemləri tamamilə yeniləşdiriləcəkdir. İstilik və havalandırma avadanlığı dünyanın tanınmış firmalarından alınır. Bəzək və tərtibat işlərində də xaricdən gətirilmiş materiallardan istifadə olunacaqdır. Yenisi ilə əvəz ediləcək oturacaqlar sökülmüş, kommunikasiya xətlərinin və sanitariya qovşağının quraşdırılmasına başlanmışdır.*

*Prezident İlham Əliyev sarayin fasadında edilən dəyişikliklərlə maraqlandı, binanın daha baxımlı və əzəmətli görkəm alması üçün hər bir işi dəqiqlik və incəliklə görməyi tövsiyə etdi.*

*Daha sonra Dövlət Rus Dram Teatrına gələn prezident İlham Əliyevə məlumat verildi ki, digər teatrlardan fərqli olaraq, bu binanın tamaşa salonunun tavanı qəza vəziyyətində idi. XIX əsrin sonlarında tikilmiş bina ayrı-ayrı dövrlərdə*

*müxtəlif funksiyaları yerinə yetirmiş, ötən əsrin 20-ci illərində isə teatra çevrilmişdir. Uzun illər təmirsiz qalması binanın bərbad hala düşməsinə səbəb olmuşdur. Prezidentin məlum sərəncamına əsasən aparılan təmir-bərpa işləri teatrın binasına ikinci həyat verəcəkdir. Bütün mühəndis-texniki qurğular, işıqlandırma, səs sistemləri tamamilə dəyişdiriləcəkdir. Elektrik, rabitə, yanğın təhlükəsizliyi xəbərdarlığı, ümumi havalandırma sisteminin, qazanxananın avadanlığı dünyanın məşhur şirkətlərindən gətirilir. Təmir-yenidənqurma işlərini «Nurgün» inşaat şirkəti yerinə yetirir.*

*Prezident İlham Əliyev binanın köhnəliyini nəzərə alaraq, tikinti texnologiyasına diqqət yetirməklə, teatrı ən müasir səviyyədə təmir etmək barədə tapşırıqlar verdi.*

*Teatrın bədii rəhbəri və Baş rejissoru, Xalq artisti Aleksandr Şarovski mədəniyyətə, incəsənətə, sənət adamlarına həssas münasibətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DAİRƏVİ AVTOMOBİL YOLUNUN VƏ YERALTI PİYADA KEÇİDİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*17 may 2007-ci il*

*Mayın 17-də ölkəmizin paytaxtında Zabrat–Balaxanı–Mehdiabad–Xırdalan–Binəqədi dairəvi avtomobil yolu və növbəti yeraltı piyada keçidi istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev yolun və piyada keçidinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Ziya Bünyadov prospekti ilə Əlövsət Qayıbov küçəsinin kəsişdiyi yerə gəldi.*

*Nəqliyyat naziri Ziya Məmmədov və «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov prezident İlham Əliyevi qarşıladılar, ölkəmizdə nəqliyyat sektorunun inkişafına, yolların təmirinə və yeni infrastrukturun yaradılmasına göstərdiyi diqqət və qayğıya görə təşəkkür etdilər. Məlumat verildi ki, yeni istifadəyə verilən yolla sutka ərzində təxminən 30–40 min avtomaşın hərəkət edəcək və Ziya Bünyadov prospektində tıxacların qarşısı alınacaqdır. Ən önəmlisi isə yük maşınları şəhərə daxil olmayacaqdır. Burada yeni dəmir yol körpüsü də tikilir.*

*Zabrat–Balaxanı–Mehdiabad–Xırdalan–Binəqədi yolunun sifarişçisi Nəqliyyat Nazirliyi, icraçı isə «Akkord» şirkətlər qrupudur. Ümumi uzunluğu 28,9 kilometr olan yola 80 min ton asfalt döşənmişdir. Yolun yenidən qurulması işlərinə 2007-ci il martın 19-da başlanmış, mayın 8-də başa çatdırılmışdır.*

*Prezident İlham Əliyev Bakı şəhərətrafı avtomobil yollarının yeniləşdirilməsi layihəsi çərçivəsində görülən işlər*

*barədə məlumatla tanış oldu, yolların əvvəlki və təmirdən sonrakı vəziyyətini əks etdirən şəkillərə baxdı.*

*Bildirildi ki, layihə əsasında uzunluğu 43,9 kilometr olan Ziya Bünyadov prospekti Binəqədi şosesi (uzunluğu 6 km, eni 13–15 m), Binəqədi şosesi (uzunluğu 3 km, eni 15–18 m), Dövlət Yol Polisi–Biləcəri (uzunluğu 1,8 km, eni 7,5 m), Biləcəri–Binəqədi şosesi (uzunluğu 6 km, eni 9–12 m), Binəqədi şosesi–Mehdiabad (uzunluğu 6,1 km, eni 8 m) və Xırdalan dairəsi–Binəqədi–Balaxanı yolu (uzunluğu 21 km, eni 7,5–9 m) çəkilmişdir. 122 min ton asfalt-beton qarışığı işlədilmiş, 7 minədək ağac və kol əkilmiş, 28 min poqonmetr səki, 2600 metr kanalizasiya xətti çəkilmişdir.*

*Əvvəllər mövcud olmuş, lakin bərbad vəziyyətə düşmüş Zabrat–Balaxanı–Mehdiabad–Xırdalan–Binəqədi yolu genişləndirilərək, eni 7,5 metrdən 15 metrə çatdırılmışdır. Şimal bölgəsindən gələn avtonəqliyyatın Mərdəkan, Maştağa, Zabrat, Pirşağı və digər istiqamətlərə və yaxud əksinə hərəkəti 15–18 kilometr qısalacaqdır. Yəni şəhərin içinə girməmək şərtilə bu dairəvi yoldan istifadə olunacaqdır. Binəqədi rayonu ərazisində 33 kilometr, Sabunçu rayonu ərazisində isə 11 kilometrə yaxın yeni yol çəkilmişdir. İndiyədək Bakı şəhərində Nəqliyyat Nazirliyinin xətti ilə 75 kilometrlik yol çəkilmişdir.*

*Ziya Bünyadov prospektindən Əlövsət Qayıbov küçəsi istiqamətinə gedən yolun üstündə yerləşən bazarın arxasından 1,5 kilometr uzunluğunda yeni yol çəkiləcəkdir. Bu, bazara girib-çıxan yük maşınlarının hərəkətini asanlaşdıracaq və Ziya Bünyadov prospektindəki nəqliyyat gərginliyini azaldacaqdır.*

*Dövlətimizin başçısı yol inşaatçıları ilə görüşüb söhbət etdi, qısa müddət ərzində gördükləri işlərə görə onlara təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev respublika əhəmiyyətli yolların, paytaxtda mərkəzi yolların müasir standartlara cavab verməsi, yeni yol qovşaqlarının tikintisi, küçələrin genişləndirilməsi ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

*Dövlətimizin başçısı avtomobilin sükanı arxasına əyləşərək yeni yolun keyfiyyəti ilə əyani tanış oldu.*

* * *

*Sonra prezident İlham Əliyev Binəqədi qəsəbəsinə gəldi. Buraya toplaşan sakinlər dövlətimizin başçısını böyük hörmət və qonaqpərvərliklə qarşıladılar. Onlar ölkəmizdə son illər ərzində görülən işləri yüksək qiymətləndirərək, Bakının kənd və qəsəbələrinə göstərdiyi diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirdilər.*

*Prezident İlham Əliyev qəsəbə sakinlərini salamladı, onları bu gözəl yolun çəkilməsi münasibətilə təbrik etdi.*

**Hacı Mustafa Vəliyev** (*qəsəbə ağsaqqalı*): Cənab Prezident, xoş gəlmisiniz. Bütün bunlar Sizin sayənizdədir, Sizin diqqətinizin nəticəsidir.

**İlham Əliyev:** Sağ olun. Bəli, özü də qısa müddət ərzində, ay yarım ərzində keyfiyyətli yol çəkilibdir.

**Hacı Mustafa Vəliyev:** Biz də istəyirdik ki, maşını özünüz sürəsiniz və yolları görəsiniz.

**İlham Əliyev:** Mən şəkillərə də baxdım, əvvəllər bu yollar çox bərbad vəziyyətdə idi.

**Hacı Mustafa Vəliyev:** Cənab Prezident, biz 2003-cü ildə Sizinlə Şüvəlanda ağsaqqallarla birlikdə bir dəfə görüşmüşük. Siz bu çətin vəzifəni öz üzərinizə götürdünüz. Bu gün isə onun bəhrəsini görürsünüz. İnşallah, Sizin bu siyasətiniz nəticəsində bizim ölkəmiz, Azərbaycan daha da çiçəklənəcək, bu, ən ucqar rayonlara da təsir edəcəkdir. Biz televiziya vasitəsilə görəndə ki, Xınalıq kəndinə telefon, yol çəkilib, insan deməyə söz tapmır. İnanırıq ki, gənclərimizin gələcəyi var, qüvvətli cavan prezidentimiz var və onunla fəxr edirik. Siz bu qəsəbəyə birinci dəfədir gəlirsiniz və istəyirik hər il gələsiniz.

**İlham Əliyev:** Sağ olun, istəyirdim gəlim və yaxşı oldu ki, yolun açılışında bərabər iştirak etdik.

Doğrudan da, təzə yol buraya gəliş-gedişi asanlaşdıracaq, sizin üçün çox rahat olacaqdır. Çünki əvvəllər böyük əziyyət çəkirdiniz, bu yolu, xüsusilə marşrut avtobusları ilə gedib-gəlmək çox çətin idi. İndi ən rahat, gözəl yollardan biridir.

**Hacı Mustafa Vəliyev:** Cənab Prezident, ürəyimizdə sözümüz çoxdur. Bilmirik hansıları deyək. İstər təhsil, istərsə də iqtisadi və başqa sahələrdə Sizin böyük əməyiniz var.

**İlham Əliyev:** Hər bir sahədə də inkişaf var. Bu, Azərbaycanın indiki reallıqlarıdır.

**Hacı Mustafa Vəliyev**: Bəli. Biz ümid edirik ki, Sizin siyasətiniz nəticəsində torpaqlarımız da azad olunacaq, köçkünlərimiz, qaçqınlarımız öz yurdlarına qayıdacaqlar.

**İlham Əliyev:** Biz indi onlara şərait yaradırıq. Ancaq bu, müvəqqəti bir yerləşmədir. Əsas məsələ odur ki, torpaqlar azad olunsun və onlar öz torpaqlarına qayıtsınlar. Biz ondan sonra oranı da qurub-tikəcəyik, yollar, binalar, fabrik, zavod – nə lazımdırsa tikiləcəkdir. İndi Azərbaycanda ümumi inkişaf elədir ki, istənilən məsələ həll oluna bilər. Yol çəkilir, məktəblər, xəstəxanalar, hər şey tikilir. Yəni ölkəmizin iqtisadi gücü artır və hər şey edə bilərik. Bu yol ay yarım ərzində çəkilib, bunun özü də böyük bir işdir.

**Hacı Mustafa Vəliyev:** Bizim təkcə yollarımız təzələnmir, bütün Azərbaycan inkişaf edir.

**İlham Əliyev:** Sağ olun.

**Hacı Mustafa Vəliyev:** Danışdıqlarımız hamısı səmimidir. İnşallah, hər şey yaxşı olacaqdır.

**İlham Əliyev:** Mən görəndə ki, hər bir yer, rayon, şəhər abadlaşır, gözəlləşir, böyük işlər görülür, ümumi iqtisadi inkişaf var, sevinirəm. Hər bir kəndin problemi də həll olunmalıdır. Bu, həll olunarsa, bütün məsələlər həllini tapacaqdır.

Təxminən iki il bundan əvvəl şəhər icra hakimiyyətində Bakının ətraf qəsəbələrinin problemlərinin həlli üçün böyük bir müşavirə keçirdim. Orada hər bir rayon üçün xüsusi

proqram nəzərdə tutuldu. İndi onun icrasına başlanıbdır, bütün qəsəbələr daha da abadlaşacaqdır. Çünki Bakıətrafı qəsəbələrdə 700 minə qədər əhali yaşayır. Bu, özlüyündə böyük bir şəhərdir, onların da problemləri çoxdur. Ona görə infrastruktur proqram – qaz, işıq, su, kanalizasiya, məktəb, ambulatoriya, xəstəxana – çox genişdir və icra olunur. Rayonlar üçün ayrıca proqram var, biz bunu 2004-cü ildə qəbul etdik. Bakının qəsəbələri üçün də ayrıca proqram var. Bakının özü üçün də ayrıca proqram var – körpülər, yollar salınması, binaların təmiri və bərpası.

Dünən gedib teatrların təmiri ilə tanış oldum. İndi bütün teatrlar, muzeylər təmir olunur. Yəni bunlar bizim milli sərvətimizdir. Həm humanitar sahəyə, həm də infrastruktura, yol, nəqliyyat, təhsil, səhiyyə məsələlərinə böyük diqqət yetirilir. İstəyirəm ki, bunlar tezliklə həll olunsun. Gələn ilin oktyabrında mənim prezidentlik fəaliyyətimin 5 ili tamam olacaqdır. Onda xalqa hesabat veriləcəkdir. Ancaq bu görülən işlər də hesabatdır.

**Hacı Mustafa Vəliyev:** Biz əminik ki, Azərbaycan dünya ölkələri arasında ulduz kimi parlayacaqdır. Çünki Sizin kimi gözəl, cavan siyasətçi prezidentimiz var.

**İlham Əliyev:** Sağ olun. Sizə cansağlığı arzulayıram.

**Məleykə Allahverdiyeva** (*müəllimə*): Siz bizim əbədi prezidentimizsiniz. 800 məktəb tikilib istifadəyə verilibdir. 18 məktəb də Binəqədi rayonunda tikilib və tikilməkdə davam edir. Bu Sizin və ölkənin birinci xanımı Mehriban Əliyevanın, ulu öndər ocağının qayğısının bəhrəsidir. Biz bunu görürük.

*Xaliqin qüdrət qələmidir,*
*nəqş elədi Heydərə!*
*Ağıl, kamal, düşüncə*
*bəxş elədi Heydərə!*
*Azərbaycan deyilən*
*bu gözəl məmləkəti*

*Dünyaya dünya qədər*
*tanıtmaq üçün*
*Heydəri bəxş elədi bizlərə!*

Siz də onun oğlusunuz. Ata Heydər, oğul Heydər oğludur. Cənab Prezident, Azərbaycan yalnız Sizə ümidlidir. Siz bizim seçilmiş əbədi prezidentimizsiniz. Sizinlə görüşmək mənə nəsib oldu. Mən Mehriban xanımla da görüşmüşəm. Gözəl və güclü kadr siyasətiniz var, biz Sizi həmişə dəstəkləyirik.

**İlham Əliyev:** Təhsil gələcəkdir.

**Məleykə Allahverdiyeva:** Bəli, bunu ulu öndər demişdi.

**İlham Əliyev:** Bizim daxili imkanlarımız var və daha da artacaqdır. Ona görə gənc nəsil gərək çox bilikli, savadlı olsun, həyatda öz yerini tuta bilsin və ümumi inkişafa da öz töhfəsini versin. Məktəb tikintisi, kompyuterləşmə, kitabların latın qrafikalı Azərbaycan əlifbası ilə nəşri – bütün bu işlər gələcək nəslin yetişdirilməsi üçün vacibdir və uşaqlarımız da vətənpərvərlik ruhunda böyüməlidirlər. Bu işdə müəllimlərin çox böyük əməyi var. Mən müəllimlərin fəaliyyətini çox yüksək qiymətləndirirəm və sizə də təşəkkür edirəm.

**Məleykə Allahverdiyeva:** Çox sağ olun. Gələcək prezident seçkilərində bütün binəqədililər yüz faiz Sizinlədi.

* * *

*Prezident İlham Əliyev Binəqədidən Mehdiabad qəsəbəsinə gəldi. Qəsəbənin mərkəzi meydanına toplaşan sakinlər dövlətimizin başçısını gül-çiçəklə, hərarətli alqışlarla qarşıladılar. Burada qəsəbə sakinləri ilə görüş keçirildi.*

**Nadir Ağayev** (*Abşeron Rayon Təhsil Şöbəsinin müdiri*): Cənab Prezident, icazə verin Mehdiabad qəsəbəsinin və bütün rayonun ağsaqqalları, ziyalıları, ictimaiyyəti adından Sizə «Xoş gəlmisiniz!» deyim. Cənab Prezident, Sizin haki-

miyyətiniz illərində bütün Azərbaycanın inkişafı, xüsusilə sosial-iqtisadi inkişafı göz qabağındadır. Bütün regionlarda olduğu kimi, bu, Abşeronda da öz əksini tapır. Rayonumuzda quruculuq, abadlıq işləri gündən-günə vüsət alır. Hazırda rayonda 6 məktəb tikilir və onların üçü istifadəyə tam hazırdır, qalanları isə sentyabradək hazır olacaqdır. Elə bir kənd, qəsəbə yoxdur ki, orada məktəb, bağça, səhiyyə obyekti təmir edilməsin, yaxud yenisi tikilməsin. Bütün bunlar Sizin qayğınızdır, apardığınız siyasətin, ulu öndərin qoyduğu bünövrənin ucaldılmasıdır.

Siz həqiqətən də Heydər Əliyev xəttinin layiqli davamçısısınız. Ona görə də abşeronlular 2003-cü ildə Sizə səs verdilər. 2008-ci ildə də seçki olacaq, abşeronlular yenə də Sizi yüksək səviyyədə dəstəkləyəcəklər. Sizin bütün daxili və xarici siyasətinizi bəyənirik və fəxr edirik ki, belə prezidentimiz var. Mən bütün mehdiabadlılar adından Sizə bir daha təşəkkürümü bildirirəm.

**Natiq Abdullayev** (*II qrup Qarabağ müharibəsi əlili*): Cənab Prezident, mən veteranlar, şəhid ailələri adından Sizi salamlayıram.

Rəhmətlik Heydər Əliyev Mehdiabadda əlillər üçün qəsəbə saldı.

**İlham Əliyev:** Bəli, buraya gəlmişdi.

**Natiq Abdullayev:** Orada mənə evin orderini təqdim etdi. Biz Sizə dərin minnətdarlığımızı bildiririk, qayğınızı həmişə hiss etmişik. Problemsiz yer yoxdur, müvəqqəti şeylərdir. İnkişafa doğru gedirik.

Cənab Prezident, Sizdən bir xahişimiz var. Siz Xırdalana şəhər statusu verdiniz. Mehdiabada da qəsəbə statusu verilibdir. Qəsəbəmizdə xəstəxana tikilsəydi çox yaxşı olardı.

**İlham Əliyev:** Xəstəxana yoxdur?!

**Natiq Abdullayev:** Yoxdur. Əlillərimiz, şəhid ailələrimiz var.

**İlham Əliyev:** Mən göstəriş verəcəyəm ki, burada xəstəxana tikilsin.

**N a t i q  A b d u l l a y e v:** Sizə arxalanırıq və Siz də həmişə bizə arxalana bilərsiniz.

**İ l h a m  Ə l i y e v:** Mən də sizə arxalanıram.

**N a t i q  A b d u l l a ye v:** Mən Mirmövsüm ağanın qardaşı oğluyam. Mənə evin orderini şəxsən Heydər Əliyev veribdir. Allah ona rəhmət eləsin. O, dünyasını dəyişəndə bizim belimiz sındı. Amma Siz gəldiniz, bizi dikəltdiniz. Biz həqiqətən Sizin qayğınızı hiss edirik.

Bizim iki problemimiz də var. Mehdiabad–Məhəmmədi və Mehdiabad–Pirşağı yolları pis vəziyyətdədir. Şükür Allaha ki, qalan hər şey yaxşıdır, gözəldir. Keçən il sentyabrın 12-də Siz rayonumuzdan 38 nəfəri mükafatlandırdınız. Rayonda nə qədər dəyişikliklər olubdur. Sizin bu rayona nəzarətinizi hiss edirik. Abşeron Azərbaycanın bir gözüdür. Necə ki, biz Sizə arxalanırıq, istəyirik Siz də bizə arxalanasınız.

Sizə bütün veteranlar adından bir daha salamlarımı yetirirəm.

**İ l h a m  Ə l i y e v:** Mən də çox sevinirəm ki, Abşeron rayonunda işlər yaxşı gedir, çox gözəl quruculuq işləri aparılır, məktəblər tikilir, yollar abadlaşır. Mən xatırlayıram, rayona gələndə gördüm ki, qısa müddət ərzində müsbətə doğru yaxşı dəyişikliklər çoxdur: yeni zavodlar, fabriklər, eyni zamanda, infrastruktur layihələr. Xırdalan qəsəbəsinə də şəhər statusu verildi. Bu, Xırdalanın önəmini, onun bizim üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Bütövlükdə, rayonda gedən abadlıq, quruculuq işləri məni sevindirir.

Bu yolun çəkilişi də rayona göstərilən diqqətin nəticəsidir. Bu yol qısa müddətdə, ay yarım ərzində çəkilib və çox da keyfiyyətlidir. İndi gediş-gəliş rahatlaşacaqdır. Bundan sonra başqa istiqamətlərdə də yollar çəkiləcəkdir. İndi Siz Mehdiabad–Pirşağı, Mehdiabad–Məhəmmədi yollarını deyirsiniz, mən Nəqliyyat nazirinə tapşırıq verəcəyəm ki, məşğul olsunlar. Xəstəxana tikintisi də nəzərdə tutulacaqdır.

Bilirsiniz ki, Bakı şəhərinin və qəsəbələrinin inkişafı üçün xüsusi proqramlar nəzərdə tutulubdur. Abşeron rayonu

Bakı ilə həmsərhəddir, amma Bakıya aid deyil. Ona görə Abşeronun xüsusi inkişaf proqramı olmalıdır və burada məktəb tikintisi, insanları narahat edən bütün məsələlər öz həllini tapmalıdır: işıq, su, qaz, kanalizasiya, yollar. Əsas bunlardır və bir də iş yerləri. Bütövlükdə, indi Azərbaycanda inkişaf o qədər sürətlə gedir ki, hər bir rayonun inkişafı mümkündür, olacaq və var. Bakıda, rayonlarda, Bakı ilə həmsərhəd bölgələrdə insanlar daha da yaxşı yaşamalıdırlar. Mənim məqsədim budur, əsas vəzifəm də budur və çalışıram ki, buna nail olum. Həmişə bütün işlərdə xalqa arxalanıram. Həm ölkə daxilində islahatların aparılması üçün, həm xarici münasibətlərdə Azərbaycanın güclü mövqe nümayiş etdirməsi üçün, həm də müstəqil siyasət aparmaq üçün mənim dayağım xalqdır. Bu dəstək var və ona görə mən buna arxalanıb çalışıram ki, müstəqil ölkə kimi, Azərbaycanı xalqla birlikdə ən yüksək zirvələrə qaldırım. Biz bunu da edirik. İndi dünya səviyyəsində ölkəmizin rolu artır.

**N a t i q A b d u l l a y e v:** Cənab Prezident, Sizin siyasətinizi izləyirik, prinsipial mövqeyinizi bilirik.

**İ l h a m Ə l i y e v:** Hər bir sahədə mövqe olmalıdır. Ulu öndər Heydər Əliyevin də fəlsəfəsi məhz bu idi, mövqe nümayiş etdirirdi. Hər bir insanın həm xarici siyasətdə, həm daxili siyasətdə, həm də islahatların aparılmasında mövqeyi olmalıdır. Mövqesiz insan cəmiyyətdə o qədər də böyük önəmə malik deyildir. Hər bir insanın və ilk növbədə, ölkənin də özünəməxsus mövqeyi olmalıdır. Azərbaycan elə ölkədir ki, onun bütün məsələlərlə bağlı öz mövqeyi var. Heç kimdən asılı olmayan, müstəqil, öz milli maraqlarına əsaslanan mövqeyi var. Əsas budur. Belə olan halda, əlbəttə, iqtisadi inkişaf da gedəcək, bizim beynəlxalq nüfuzumuz da artacaqdır. Biz bunu görürük. Bizim böyük iqtisadi imkanlarımız var. Neft, qaz ehtiyatları – bunlar bizə əlavə güc verir və biz də bundan istifadə edirik və etməliyik. Çünki istəyirik ölkəmiz daha da güclənsin.

Bizim problemlərimiz çoxdur. Həm sosial, həm iqtisadi, həm də başqa problemlər var. İqtisadiyyatımız yalnız keçən

il 1990-cı ilin səviyyəsinə qalxdı. Yəni Sovet İttifaqı dağılandan sonra iqtisadiyyata o qədər böyük zərbə vuruldu, bütün əlaqələr kəsildi və müstəqilliyin ilk illərində o qədər səhvlər buraxıldı ki, onları aradan qaldırmaq üçün nə qədər vaxt lazım oldu. Ancaq biz indi bu səviyyəyə gəlib çatmışıq. Bundan sonra ancaq və ancaq inkişafa doğru gedəcəyik.

Qarabağ problemi ən başlıca, birinci problemdir. Bizim bundan başqa əsas problemimiz olmayacaq, onlar həll ediləcəkdir. Çalışırıq ki, Qarabağ məsələsini danışıqlar yolu ilə həll edək. Amma görürük ki, alınmır. Nə üçün? Çünki qarşı tərəf özünü səmimi aparmır. Biz nə etməliyik? Danışıqları davam etdirməliyik?! Mən hesab edirəm, danışıqları hələ ki, davam etdirməliyik, çünki buna alternativ yoxdur. Alternativ müharibədir. Müharibəni də heç kim istəmir. Amma bununla bərabər, nə etməliyik?! Güclü olmalıyıq. Neçə dəfə? 10 dəfə, 20 dəfə Ermənistandan güclü olmalıyıq və biz artıq bunu təmin edirik.

Əgər 8 il bundan əvvəl bizim iqtisadi vəziyyətimiz Ermənistanla təxminən eyni idisə, indi biz iqtisadi inkişaf baxımından, büdcə baxımından, ordu quruculuğu baxımından onlardan 7-8 dəfə qüdrətliyik. Daha da güclənməli, orduya diqqəti artırmalı, iqtisadi potensialı möhkəmləndirməliyik. Bütün neft-qaz əməliyyatları nəticəsində Azərbaycana külli miqdarda pul gələcək və bu da, əlbəttə, ilk növbədə insanların problemlərinin həlli, ordunun güclənməsi üçün, siyasi önəmimizin artması üçün istifadə olunmalıdır. Belə olan halda, biz bu məsələni daha da asanlıqla həll edəcəyik. Ancaq heç vaxt Azərbaycan xalqı və dövləti milli maraqlara zidd olan razılaşmaya getməyəcəkdir. Heç vaxt! Yəni, bu bizim prinsipial mövqeyimizdir. Onlar bunu nə qədər tez başa düşsələr, bir o qədər yaxşı olar. Hər halda, indi biz inkişaf yolundayıq. Onların isə inkişafı yoxdur. Nəyin hesabına inkişaf etmirlər?! Çünki bölgədə həyata keçirilən bütün böyük layihələrdən təcrid olunmuş vəziyyətdədirlər.

İndi Türkiyəyə dəmir yolunu çəkəcəyik. Onlar tam təcrid vəziyyətinə düşəcəklər. İqtisadi perspektivləri yoxdur. Ancaq xarici yardıma arxalanırlar. O yardım bu gün var, sabah isə olmaya bilər. Heç bir ölkəyə yaraşmır ki, öz gələcəyini xarici yardıma görə müəyyən etsin. Biz heç kimdən yardım almırıq və hər şeyi özümüz həll edirik. Allaha şükür ki, xalqımız da çox müdrikdir, intellektual potensialı çox yüksəkdir. İndi cəmiyyətdə elə gözəl ab-hava var ki, bütün işləri görməyimiz mümkündür və mümkün olacaqdır.

Hər bir kəndin problemi də həll olunmalıdır. Mən bunu bir neçə dəfə demişəm. Əgər hər bir kəndin problemi həll edilsə, ölkədə bütün problemlər həll olunacaqdır. Çünki kənd, qəsəbə, necə deyərlər, kiçik yaşayış məntəqəsidir.

Mənim mehdiabadlılara da xüsusi hörmətim, məhəbbətim var.

**Brilyant Məmmədova** (*elmi işçi*): Cənab Prezident, mehdiabadlılar bu gün çox böyük sevinc hissi keçirirlər. Ona görə ki, dövlət başçısı Mehdiabada üçüncü dəfədir gəlir. Allah rəhmət eləsin, Sizin atanız iki dəfə burada olmuş, mehdiabadlılarla görüşmüşdü. İndi Siz gəlmisiniz. Biz bunu həsrətlə gözləyirdik. Çünki Sizin çıxışlarınızı televiziya vasitəsilə həmişə dinləyirik və hər uğurunuzu xalqın uğuru hesab edirik. Siz həmişə öz çıxışlarınızda «Mən hər bir azərbaycanlının prezidenti olacağam» demisiniz. Siz doğrudan da verdiyiniz vədlərə əməl etdiniz. Möhtərəm Prezidentimiz, biz buna çox sevinirik. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının yerinə yetirilməsi ilə əlaqədar az sayda qəsəbə, kənd qalmışdır ki, Siz oraya getməyəsiniz. Ən ucqar Xınalığa getmək, oraya yol çəkmək böyük bacarıqdır. Sizdə olan bacarıq, insanlara, hər bir Azərbaycan vətəndaşına qayğınız xalqımız tərəfindən həmişə alqışlanır.

Biz sevinirik ki, ulu öndərimizin Sizin kimi varisi var. Siz onun qoyduğu siyasi xətti davam etdirirsiniz. Eyni zamanda, xalqın rifahı Sizin bir nömrəli qayğınızdır. Televiziya vasitəsilə hamı bunu izləyir. Bütün regionlarda misli görünməmiş inki-

şafı, məktəblərin, səhiyyə ocaqlarının tikintisini, kənd təsərrüfatı sahəsində fermerlərə qayğınızı deməmək olmaz.

Bir neçə kəlmə də alimlərə göstərdiyiniz qayğıdan danışmaq istəyirəm. Mən Azərbaycan Elmi-Tədqiqat Tərəvəzçilik İnstitutunda işləyirəm. Alimlərə, elmi işçilərə qayğınızı fərəh hissi ilə qeyd edirəm. Özüm Mehdiabadda yaşayıram. Alimlərimizdə böyük fəallıq yaranıbdır. Onların əməkhaqqı bir neçə dəfə artırılmışdır, elmlər namizədləri 30 manat, elmlər doktorları isə 60 manat əlavə də alırlar. Alimlər Sizin bu qayğınızdan ruhlanaraq, daha da yaxşı işləmək istəyirlər. Allah Sizi qorusun!

**Q ə m f i l ə  Q a y i b o v a** (*şəhid anası*): Cənab Prezident, şəhid anası kimi, mən Sizi alqışlayıram, öpürəm, bağrıma basıram. Allah ulu öndərimizə qəni-qəni rəhmət eləsin ki, Sizin kimi yetirməsi var. Biz Sizinlə fəxr edirik. Biz şəhid anaları göstərdiyiniz qayğıya görə Sizə minnətdarıq. Çox sağ olun. Sizin gəlişiniz bizim üçün şərəfdir. Mehdiabad camaatı, şəhid anaları adından Sizi öpürük, alqışlayırıq.

**İ l h a m  Ə l i y e v:** Mən də sizi alqışlayıram. Bir daha demək istəyirəm ki, Azərbaycan bundan sonra da ancaq və ancaq inkişaf yolu ilə gedəcəkdir. İndi həm sosial, iqtisadi sahədə, həm də infrastruktur, yol çəkilişi və sair sahələrdə bütün problemlər öz həllini tapacaqdır. Maaşlar, pensiyalar artdı və bundan sonra da artacaqdır. Minimum əməkhaqqı hər il ən azı, iki dəfə artırılır. Minimum əməkhaqqı ilə yanaşı, bütün başqa kateqoriyadan olan insanların əməkhaqları, pensiya da artırılır. Düzdür, bu bizi tam qane edə bilməz. Amma inkişaf var və gələcəkdə artım daha sürətlə gedəcəkdir. Ona görə mən gələcəkdə sosial, iqtisadi sahələrdə Azərbaycanın qarşısında böyük problem görmürəm. Harada problem varsa, biz bunu bilirik, həll edirik və həll edəcəyik.

Bir daha demək istəyirəm ki, mənim əsas məqsədim doğma xalqa xidmət etməkdir. Mən vəzifəyə bu məramla

gəlmişəm və bunu əsas tutaraq, nə lazımdırsa, əlimdən nə gəlirsə onu da edəcəyəm. Sizə də uğurlar arzulayıram.

* * *

*Prezident İlham Əliyev mehdiabadlılarla səmimi görüşdü. Qəsəbə sakinləri bir daha prezidenti dəstəklədiklərini vurğuladılar. Eyni zamanda, dövlətimizin başçısından yarımçıq qalmış məktəb binasının tikintisinin tamamlanmasına, qəsəbədə şəhidlərə abidə qoyulmasına kömək göstərməsini xahiş etdilər.*

*Prezident İlham Əliyev daha sonra paytaxtın Nəsimi rayonuna gəldi.*

*Azərbaycan Respublikasının Prezidentinin «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006–2007-ci illər üçün Tədbirlər Planının təsdiq edilməsi haqqında» 2006-cı il 2 fevral tarixli sərəncamına uyğun olaraq, inşası nəzərdə tutulan 13 yeraltı piyada keçidindən üçüncüsünün açılışına toplaşan inşaatçılar və paytaxt sakinləri dövlətimizin başçısını hörmət və ehtiramla qarşıladılar. Prezidentə gül dəstəsi təqdim olundu.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, paytaxtın ən gur gediş-gəlişli yerlərindən olan bu ərazidə yeraltı keçidin olmaması həm piyadalar, həm də sürücülər üçün böyük təhlükə yaradırdı. İnşasına 2006-cı ilin avqustunda başlanmış yeraltı keçidin ümumi uzunluğu 38,5 metr, eni 6 metrdir. «Təzə Bazar Ticarət Mərkəzi»nə və Bakı Dövlət Sirkinə tərəf giriş-çıxışı olan keçidi «Astikinti» Məhdud Məsuliyyətli Cəmiyyəti tikmişdir. İnşaat işlərinə ümumilikdə 1 milyon manat vəsait xərclənmişdir. Burada piyadaların hərəkətini fasiləsiz müşahidə etmək üçün qurğu quraşdırılıb, nasos stansiyası, müstəqil enerji təchizatı vardır. Keçidin divarlarına dövlətimizin başçısının müdrik kəlamları həkk olunmuşdur. Uşaq və əlil arabalarının hərəkəti üçün ayrıca pilləkən vardır. Daim səslənən həzin musiqi xoş ovqat yaradır.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, keçidlə tanış oldu, ərazinin indiki görünüşünə tamaşa etdi. Dö-*

*şəmə və divarların mərmərləri Türkiyə və İrandan gətirilmişdir. İnşaat işlərində 50-yə yaxın işçi çalışmışdır.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, müasir üslubda tikilən keçiddə ən yüksək texnologiyanın tətbiq edildiyini, görünüşünün çox gözəl olduğunu vurğuladı və buranın təmiz və səliqəli saxlanılmasının zəruriliyini bildirdi.*

*Dövlətimizin başçısı keçidlə Bakı Dövlət Sirki tərəfə çıxaraq ətrafı seyr etdi, paytaxtda yeni keçidlərin, avtomobil dayanacaqlarının tikintisi üçün əlavə tədbirlərin görülməsi haqqında müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN «LA LETTRE DİPLOMATİGUE» JURNALINA MÜSAHİBƏSİ

*17 may 2007-ci il*

**S u a l: Cənab Prezident, bu il yanvarın 29–31-də Fransaya ilk dövlət səfəriniz baş tutdu. Səfərin gedişi ilə bağlı təəssüratlarınızı bölüşə və əldə olunmuş nəticələr barədə məlumat verə bilərsinizmi? Sizin fikrinizcə, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransa Dağlıq Qarabağla bağlı ölkənizlə Ermənistan arasında münaqişənin həllində vasitəçilik səylərini gücləndirmək iqtidarındadırmı?**

**İ l h a m Ə l i y e v:** Qeyd edim ki, prezident seçildikdən sonra mənim xaricə ilk rəsmi səfərim 2004-cü ilin yanvarında məhz Fransaya olmuşdur. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev də dövlət başçısı kimi, ilk rəsmi səfərini məhz Fransaya etmişdi. Bu, ölkəmizin Fransa ilə əlaqələrə verdiyi önəmin yaxşı göstəricisidir. Azərbaycan–Fransa ikitərəfli münasibətləri müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni və digər sahələrdə uğurla inkişaf etməkdədir. Ölkələrimiz arasında fəal siyasi dialoq mövcuddur. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlər həyata keçirilir. Fransanın aparıcı şirkətləri uzun illərdir ki, ölkəmizin energetika sahəsində, habelə qeyri-neft sektorunda uğurla fəaliyyət göstərir.

Bu ilin yanvar ayında Fransaya dövlət səfərim də çox uğurlu keçdi. Səfər zamanı keçirdiyim görüşlər ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi baxımından olduqca əhəmiyyətli olmuşdur. Səfərin nəticəsi olaraq birgə bəyannamə qəbul edilmiş, iki ölkə

arasında iqtisadiyyat, humanitar, turizm, sosial sahələri əhatə edən doqquz sənəd imzalanmışdır. Fransa şirkətləri bir daha Azərbaycan iqtisadiyyatının inkişafına sərmayə qoyuluşunda çox maraqlı olduqlarını bildirdilər. Səfərin yekunlarında öz əksini tapan məqamlardan biri də Fransada «Azərbaycan İli»nin və Azərbaycanda «Fransa İli»nin keçirilməsinin qərara alınması olmuşdur.

Sualınızın ikinci hissəsinə gəlincə, bildirməliyəm ki, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi, Fransa Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinə birbaşa cəlb olunmuşdur və bu prosesdə fəal iştirak edir. Fransa münaqişə ilə bağlı mövqeyini dəfələrlə ifadə etmişdir. Bu mövqe indiki dövlət səfərim zamanı qəbul edilmiş birgə bəyannamədə də əks olunmuşdur. Orada deyilir ki, Fransa Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Eyni zamanda, keçirdiyim görüşlərdə də Fransa rəhbərliyi dəfələrlə qeyd etmişdir ki, Fransa Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda həllində çox maraqlıdır. Başda prezident cənab Jak Şirak olmaqla, bütün səviyyələrdə Fransa rəsmiləri qeyd etdilər ki, Fransa bu münaqişənin həlli üçün bütün səylərini əsirgəməyəcəkdir.

**S u a l: Avropa İttifaqı və Azərbaycan arasında təzəlikcə qəbul olunmuş fəaliyyət planı çərçivəsində ölkənizin və onun strukturlarının, xüsusən də iqtisadi inteqrasiya baxımından, Avropaya yaxınlaşmada hansı uğurlara nail olunmuşdur? Milli qanunvericiliyinizin Avropa İttifaqının qanunvericiliyinə yaxınlaşdırılması istiqamətində hansı tədbirlər görülmüşdür? Dağlıq Qarabağ münaqişəsinin həllinin tapılması üçün Avropa İttifaqından hansı dəstəyi gözləyirsiniz?**

**İ l h a m Ə l i y e v:** Avropa İttifaqı ilə əməkdaşlığımız uğurla inkişaf edir və hazırda yeni mərhələyə qədəm qoymuşdur. Ölkəmizlə Avropa İttifaqı arasında «Yeni qonşuluq siyasətinə dair fəaliyyət planı» çərçivəsində beşillik tədbirlər planı var. Bu sənəd əməkdaşlığımızın gələcəkdə bir

neçə istiqamətlərdə daha geniş şəkildə həyata keçirilməsi üçün möhkəm əsas yaradır. Bu proseslər Azərbaycanın gələcək inkişafında mühüm rol oynayacaqdır. Qarşıdakı beş il ərzində «Yeni qonşuluq siyasəti»nin həyata keçirilməsi sayəsində meyarlarımız Avropa İttifaqının meyarlarına yaxınlaşdırılacaqdır. Bu istiqamətdə ölkəmiz tərəfindən fəal iş aparılır, o cümlədən milli qanunvericiliyin dünya və Avropa standartlarına uyğunlaşdırılması, beynəlxalq təşkilatlarla, həmçinin Avropa İttifaqı ilə sıx əməkdaşlığın hüquqi bazasının yaradılması istiqamətində konkret işlər həyata keçirilir. Biz Azərbaycanı müasir, demokratik, iqtisadi və siyasi baxımdan güclü və etibarlı tərəfdaş ölkəyə çevirmək əzmindəyik. Ümid edirəm ki, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» bu məqsədə nail olunması işinə öz töhfəsini verəcəkdir. Gələn beş il ərzində biz iqtisadi islahatları davam etdirəcək, regional əməkdaşlıq səviyyəsində, Azərbaycan–Avropa İttifaqı səviyyəsində əməkdaşlığımızı daha da genişləndirəcəyik. Biz siyasi islahatları davam etdirmək əzmindəyik. Azərbaycanda qanunun aliliyinin tam bərqərar olunması, demokratikləşmə prosesinin davam etdirilməsi bütün bu məqsədlərimizə çatmaqda bizə yardımçı olacaqdır.

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı suala gəldikdə, deməliyəm ki, digər beynəlxalq təşkilatlar kimi, Avropa İttifaqı da Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Avropa İttifaqının bu mövqeyi mənim keçən il Brüsselə səfərim zamanı bir daha ifadə olunmuşdur. Avropa Komissiyasının sədri Joze Manuel Barrozu bildirmişdir ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tam tanıyır və dəstəkləyir. Bu mövqe Avropa İttifaqı ilə «Yeni qonşuluq siyasətinə dair fəaliyyət planı»nda da öz əksini tapmışdır. Həmin sənəddə deyilir ki, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü Avropada sülhün və sabitliyin qorunmasına öz töhfəsini verəcəkdir.

Lakin təəssüflər olsun ki, Ermənistan, bütün digər beynəlxalq təşkilatların mövqeyi kimi, Avropa İttifaqının da

mövqeyinə məhəl qoymur. Ermənistan beynəlxalq hüququn bütün norma və prinsiplərini pozur. Ermənistan öz qoşunlarının işğal edilmiş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə məhəl qoymur. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğal olunmuşdur. Ermənistan Dağlıq Qarabağ və onun ətrafında olan ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirmişdir. Bu siyasətin nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənilər Dağlıq Qarabağda heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayan, qanunsuz referendumlar keçirirlər. Belə mövqe beynəlxalq davranış, beynəlxalq hüquq normalarına tam ziddir. Avropa İttifaqı, Avropa Şurası, ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Fransa, Rusiya, habelə Türkiyə bu yaxınlarda keçirilmiş qondarma referendumu pisləişdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Azərbaycanın ərazi bütövlüyü BMT və bütün beynəlxalq birlik tərəfindən tanınmışdır. Buna görə də münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Dağlıq Qarabağa yüksək özünüidarə və muxtariyyət statusu verilməklə həll olunmalıdır. Bir çox ölkələrdə milli azlıqlar yaşayır. Lakin milli azlıq olmaq o demək deyil ki, sənin hansısa ərazini ölkədən ayırmaq hüququn var. Təsəvvür edin ki, ermənilər yaşadıqları bütün ölkələrdə öz müqəddəratını təyin etməyə çalışsalar, nə baş verər? Neçə yeni erməni dövləti yarana bilər?! Ermənistan rəhbərliyi aydın başa düşməlidir ki, Azərbaycan ərazi bütövlüyü məsələsi ilə bağlı heç bir güzəştə getməyəcəkdir. Biz ümid edirik ki, Ermənistan rəhbərliyi tezliklə özündə güc taparaq danışıqlarda konstruktiv mövqe tutacaq, işğalçı qüvvələri torpaqlarımızdan çıxaracaqdır. Əks təqdirdə, biz münaqişənin digər həll yolları üzərində düşünməli olacağıq. Bu gün Azərbaycan Ermənistandan çox güclüdür.

Eyni zamanda, hesab edirəm ki, beynəlxalq təşkilatlar da münaqişənin həlli ilə bağlı daha fəal və qəti mövqe nümayiş

etdirməlidir. Son genişlənmə prosesindən bəri Cənubi Qafqaz Avropanın qonşusuna çevrilmişdir. Zənnimcə Avropa İttifaqı qonşuluğunda münaqişə ocaqlarının mövcudluğuna biganə qala bilməz. Belə ki, bu münaqişə ocaqları yalnız Cənubi Qafqaz regionu üçün deyil, bütünlükdə Avropa üçün, onun sabit iqtisadi inkişafı üçün təhlükə yaradır.

**S u a l: Azərbaycan Gürcüstan, Ukrayna və Moldovanın daxil olduğu GUAM-ın üzvüdür. Qafqazda qonşuluq münasibətlərinin yaxşılaşdırılması üçün qurum daxilində birliyin və əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan bu təşkilatın addımlarını necə qiymətləndirirsiniz? Rusiya və Gürcüstan arasında münasibətlərin səviyyəsi necədir? Sizin fikrinizcə, bu yaxınlarda Türkmənistanda keçirilmiş prezident seçkiləri bu ölkə ilə siyasi, enerji, iqtisadi və mədəni sahədə geniş əməkdaşlığa perspektivlər açırmı?**

**İ l h a m Ə l i y e v:** GUAM yarandığı dövrdən bəri bir neçə mərhələdən keçmişdir. Hazırda GUAM dəqiq fəaliyyət mexanizmi olan beynəlxalq bir təşkilata çevrilməkdədir. GUAM yaradılan zaman ölkəmiz müstəqilliyini yenicə qazanmışdı və təbii ki, həmin illərdə mövcud olmuş problemlər ümumi xarakter daşıyırdı. Ötən 10 il ərzində təşkilata üzv olan dövlətlər müstəqilliyini möhkəmləndirmiş, demokratik təsisatların gücləndirilməsi, iqtisadi potensialın artırılması sahəsində böyük nailiyyətlər əldə etmişdir. Ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə sıx əməkdaşlıq həyata keçirilir. Ölkələrimizin yerləşdiyi region son vaxtlar dünya işlərində getdikcə daha mühüm rol oynayır. GUAM ölkələri dünyada gedən iqtisadi, siyasi proseslərə real şəkildə inteqrasiya olunmağı arzulayır. Bu baxımdan ötən ilin may ayında Kiyevdə keçirilmiş sammitdə GUAM-ın Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilata çevrilməsi məntiqi proses idi.

Bir məsələni də xüsusi vurğulamaq istərdim ki, GUAM-ın üzvü olan 4 ölkədən üçünün – Azərbaycan, Moldova və Gürcüstanın ərazi bütövlüyü təcavüzkar separatizm nəticəsində

pozulmuşdur. Mühüm faktdır ki, keçən il təşkilatın üzvləri ərazilərində olan dondurulmuş münaqişələrlə bağlı vəziyyətin müzakirəsinin BMT Baş Məclisinin gündəliyinə salınmasına nail oldular. Bu çox çətin məsələ idi və yalnız birgə səylərimiz nəticəsində mümkün oldu.

İnanıram ki, ölkələrimiz GUAM çərçivəsində əməkdaşlıqlarını dərinləşdirməklə iqtisadi, siyasi, demokratikləşmə və digər sahələrdə daha böyük uğurlar qazanacaq və xalqlarımız bu uğurlardan bəhrələnəcəkdir.

Rusiya ilə Gürcüstan arasındakı münasibətlərə gəlincə, hər ikisi bizimlə qonşu ölkələrdir və hər ikisi ilə yaxşı münasibətlərimiz var. Bu münasibətlər strateji tərəfdaşlıq münasibətləridir. Qonşu ölkələrlə münasibətlərimiz mehriban qonşuluq, qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Azərbaycan heç bir başqa ölkənin daxili işlərinə qarışmır, digər dövlətlər arasında olan münasibətlərə müdaxilə etmir. Qeyd etməliyəm ki, ölkələr diqqətlərini öz problemləri üzərində cəmləşdirsələr, regionda, dünyada daha təhlükəsiz və sabit şərait təmin etmək olar.

Sualınızın üçüncü hissəsi ilə bağlı deyə bilərəm ki, Azərbaycan ilə Türkmənistan arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün yaxşı potensial vardır. Xalqlarımız arasında etnik, mədəni köklərin yaxınlığı əlaqələrimizin genişlənməsi üçün möhkəm əsas yaradır. Biz Türkmənistan ilə əməkdaşlığın müxtəlif sahələrdə daha da inkişaf etdirilməsinə hazırıq. Türkmənistan rəhbərliyi də Azərbaycan ilə münasibətlərin daha da genişləndirilməsinə böyük maraq göstərir. Biz Türkmənistanın yeni seçilmiş prezidenti ilə artıq bu sahədə konkret işlərin həyata keçirilməsi məsələlərini müzakirə etmiş və ümumi razılığa gəlmişik.

**S u a l: Təhlükəsizlik sahəsində ölkənizin ABŞ-la yaxınlaşması, Xəzər dənizi də daxil olmaqla, neft və qaz kəmərlərinin qorunmasında özünü xüsusilə büruzə verir. Bu əməkdaşlığın ümumi əsaslarını və əhatə etdiyi aspektləri göstərə bilərsinizmi? Bu əməkdaşlıq daimi forma alacaqmı? Müdafiə**

**imkanlarınızın möhkəmləndirilməsi və müasirləşdirilməsi daxil olmaqla, bu cür əməkdaşlıq başqa hansı tərəfdaşlarla inkişaf etdirilə bilər? Bu perspektivdə Rusiya Federasiyasına hansı yer ayrılmışdır?**

**İlham Əliyev:** ABŞ ilə yaxın əməkdaşlıq, Avroatlantik strukturlarına inteqrasiya Azərbaycanın strateji seçimidir. ABŞ ilə ikitərəfli əlaqələrimiz çox yüksək səviyyədədir. Ölkələrimiz müxtəlif sahələrdə, o cümlədən energetika, iqtisadiyyat, təhlükəsizlik, siyasət, cəmiyyətin demokratikləşməsi sahəsində sıx əməkdaşlıq edir. Biz ABŞ-ın Azərbaycanın enerji sektorunun inkişafında, təşəbbüskarı olduğumuz qlobal enerji layihələrinin reallaşmasında rolunu yüksək qiymətləndiririk. Antiterror əməliyyatları sahəsində də fəal əməkdaşlıq edirik. Biz Əfqanıstandakı koalisiya qüvvələrinə dərhal qoşulduq, Kosovoya əsgərlərimizi göndərdik. İraqda müharibə başlayanda biz oraya əsgərlərini göndərən ilk ölkələrdən biri olmuşuq. Bu bizim ABŞ ilə möhkəm tərəfdaşlığımızın aydın göstəricisi idi.

Ötən il ABŞ-a rəsmi səfərim, orada aparılmış danışıqlar ikitərəfli münasibətlərimizin inkişafı baxımından çox əhəmiyyətli olmuşdur.

Rusiya ilə münasibətlərə gəldikdə, deməliyəm ki, bu münasibətlər uğurla inkişaf edir və strateji tərəfdaşlıq xarakteri daşıyır. Müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığımız daim genişlənir. Digər qonşularla olduğu kimi, Azərbaycanın Rusiya ilə münasibətləri də mehriban qonşuluq, qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Bir məqamı xüsusi vurğulamaq istəyirəm ki, xarici siyasətimizdə rəhbər tutduğumuz amil təbii ki, Azərbaycanın dövlət maraqlarıdır. Bu mənada hər hansı bir ölkə ilə əməkdaşlığımız heç vaxt hansısa başqa bir ölkəyə qarşı yönəldilən əməkdaşlıq kimi qiymətləndirilə bilməz. Biz bütün ölkələrlə yaxın münasibətlər qurmağa, sıx əməkdaşlıq etməyə çalışırıq. Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş olduğunu artıq sübut etmişdir.

**S u a l: Xəzəryanı dövlət və qonşunuz olan, böyük sayda azərbaycanlı yaşayan İranla münasibətlər sizin üçün vacibdir. Siz təsdiq etdiniz ki, ölkəniz İrana qarşı hərbi addımları dəstəkləməyəcək və ona münasibətdə sanksiyaların tərəfdarı deyilsiniz. İran öz nüvə proqramını davam etdirmək qətiyyətində olduğu zaman, regionda hökm sürən vəziyyəti necə qiymətləndirərdiniz? Nüvə silahlanmasının davam etməsinin nüvə arsenallarının tənzimlənməsinə xidmət edən mexanizmlərin fəaliyyət qabiliyyətini şübhə altına almasından ehtiyat etmirsinizmi? Necə bilirsiniz, İran və ABŞ arasında gərginliyin azaldılması və dialoqun bərpası üçün hər hansı əhəmiyyətli yardım göstərə bilərsinizmi? Ümumi baxımdan isə milli dəniz ərazilərinin müəyyən edilməsi və Xəzərdə milli sektorların delimitasiyası ilə bağlı İranla və digər qonşu dövlətlərlə məsələ nə yerdədir?**

**İ l h a m Ə l i y e v:** İranla çox yaxşı münasibətlərimiz, fəal iqtisadi əlaqələrimiz var. Qeyd etdiyiniz kimi, orada xeyli sayda azərbaycanlı yaşayır. Bizim İranla min kilometrdən artıq sərhədimiz vardır. Əlbəttə ki, bütün bu amillər nəzərə alınmaqla, biz İran ətrafında gedən prosesləri yaxından izləyirik. Orada vəziyyəti gərginləşdirəcək istənilən potensial addım, ümumilikdə, regional inkişafa böyük təsir göstərə bilər. Bu da öz növbəsində bizi narahat etməyə bilməz. Biz İranın nüvə proqramı ilə bağlı mövqeyimizi ifadə etmişik. Bu mövqe ondan ibarətdir ki, hər bir ölkə beynəlxalq hüquq normalarına uyğun olaraq, dinc məqsədlər üçün nüvə enerjisinə malik ola bilər. Hesab edirəm ki, bu istiqamətdə konstruktiv danışıqlar aparılmalı, bütün mübahisəli məsələlər dinc yolla, beynəlxalq hüquq norma və prinsipləri əsasında həll olunmalıdır. Ümid edirik ki, məsələ ilə bağlı danışıqlar prosesində iştirak edən bütün tərəflər problemin həllinin dinc formatına sadiq qalacaqlar.

Xəzər dənizinin delimitasiyası məsələsinə gəlincə, deməliyəm ki, bu məsələdə Azərbaycan, Rusiya və Qazaxıstanın mövqeləri tam üst-üstə düşür. Bu mövqe beynəlxalq hüquq

normalarına əsaslanır. Qeyd etdiyim dövlətlər arasında Xəzər dənizindən istifadə qaydalarının əsaslarını müəyyən edən sazişlər də imzalanmışdır. İran ilə müntəzəm danışıqlar aparılır və deyə bilərəm ki, mövqelərimizdə yaxınlaşma vardır. Hazırda sahilyanı dövlətlər Xəzərin hüquqi statusuna dair konvensiya layihəsi ətrafında müzakirələr aparır. İnanıram ki, ortada olan bütün məsələlər tezliklə tam həllini tapacaqdır.

**S u a l: Beynəlxalq ictimaiyyət İraq münaqişəsinin inkişafını narahatlıqla izləyir. Azərbaycana və regiona bunun necə təsiri ola bilər? İraqda yaranmış vəziyyətdən çıxışı necə görürsünüz və xarici qoşunların ölkədən çıxarılmasının sabitliyin başlanmasına gətirib çıxara biləcəyinə inanırsınızmı?**

**İ l h a m Ə l i y e v:** Qeyd etdiyim kimi, Azərbaycan əsgərləri hərbi əməliyyatların ilk günündən İraqda xidmət göstərməyə başlamışlar və bu xidmət indiyə kimi davam edir. Əlbəttə ki, İraqda baş verən hadisələr bütün beynəlxalq birliyi, o cümlədən beynəlxalq birliyin bir üzvü kimi, bizi də narahat edir. Biz İraqda sülhün bərqərar olunmasını, zorakılığın, xalqın üzləşdiyi bu dəhşətli faciənin sona çatmasını istəyirik. Azərbaycan İraqda sülhün və təhlükəsizliyin bərpa olunması üçün əlindən gələni etməyə hazırdır.

**S u a l: Qara dəniz və Xəzər dənizi regionunda dialoq və enerji əməkdaşlığı ilə bağlı hər hansı irəliləyiş əldə olunubmu? Əsas qonşu dövlətlərlə münasibətlərdə neft və qaz diplomatiyası sahəsində Azərbaycanın mövqeyi nədən ibarətdir? BTC-nin ən yüksək istismar səviyyəsinə çatdığı və Azərbaycan neftinin Avropa bazarlarına çıxarıldığı bir vaxtda neft və qaz kəmərlərinin tikilməsi sahəsində hansı yeni layihələriniz var? Asiyada, xüsusən də Çin və Hindistan kimi hazırkı və potensial müştərilərinizlə hansı münasibətləri inkişaf etdirmək niyyətindəsiniz?**

**İ l h a m Ə l i y e v:** Demək olar ki, biz bütün enerji layihələrimizi başa çatdırmışıq. İki boru kəməri inşa edilmişdir– Bakı–Tbilisi–Ceyhan neft boru kəməri və Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri. Bakı–Tbilisi–Ceyhan boru kəməri vasitəsilə biz gündə təqribən bir milyon barrel

neft ixrac edəcəyik. Bir trilyon kubmetr təbii qaz ehtiyatına malik olan nəhəng «Şahdəniz» yatağından hasil olunan qaz Bakı–Tbilisi–Ərzurum boru kəməri ilə Türkiyəyə və oradan Yunanıstan vasitəsilə Avropaya ixrac ediləcəkdir. Bundan əlavə, Azərbaycan nefti iki digər boru kəməri vasitəsilə Qara dənizə çıxarılır. Beləliklə, bizim neft və qazımızın artıq Avropa və dünya bazarlarına çıxışı var. Buna görə də yaxın perspektivdə əlavə boru kəmərlərinin inşasına ehtiyac görmürük. Lakin əgər gələcəkdə daha əlavə həcmdə neft hasil edilərsə və kommersiya baxımından zəruri hesab olunarsa, biz başqa istiqamətləri də nəzərdən keçirə bilərik. Biz bu fikirdəyik ki, alternativ marşrutlar nə qədər çox olsa, bir o qədər yaxşıdır. Buna görə də boru kəmərlərinin çoxluğu siyasəti Azərbaycan üçün və enerji ehtiyatlarımızdan, infrastrukturumuzdan gələcəkdə faydalanacaq tərəflər üçün ən yaxşı seçimdir.

Bakı–Tbilisi–Ceyhan boru kəməri bütünlükdə Xəzər dənizi və Qara dəniz regionunun ümumi inkişafı üçün böyük əhəmiyyət daşıyır. Bu gün Qara dəniz və Xəzər dənizi regionu müxtəlif sahələrdə əməkdaşlıq edir. Azərbaycanın birbaşa təşəbbüsü və iştirakı ilə tərəfdaşlarımız və qonşularımızın genişmiqyaslı iqtisadi və siyasi əməkdaşlıq layihələrinə cəlb edilməsinə imkan verən çox mühüm infrastruktur yaradılmışdır. Deməliyəm ki, Bakı–Tbilisi–Ceyhan boru kəməri sadəcə olaraq neftimizin xarici bazarlara nəql edilməsinə imkan verən dəhliz deyildir. Bu, regional əməkdaşlığa, sülh və sabitliyə, xalqların rifah halının yaxşılaşdırılmasına xidmət edən bir layihədir. Bu gün bizim apardığımız siyasət Xəzər dənizi regionundan kənara çıxır. Biz artıq regional əməkdaşlığın daha geniş mənada yeni elementlərini görürük. Hazırda digər bir qlobal beynəlxalq layihə – Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi üzərində çalışırıq və bu sahədə konkret işlər görülmüşdür. Asiya ilə Avropanı Azərbaycan vasitəsilə birləşdirəcək dəmir yolu layihəsinin reallaşdırılması məqsədi ilə artıq Azərbaycan hökuməti tərəfindən böyük maliyyə vəsaiti ayrılmışdır. Biz ümid edirik ki, yaxın illərdə layihənin həyata

keçirilməsi başa çatacaq və bunun nəticəsində yük və sərnişinlərin bu yol vasitəsilə qatarlarla Çindən Avropaya daşınması mümkün olacaqdır.

**S u a l: Neft və qazdan əldə etdiyiniz gəlirlər 2006-cı ildə Azərbaycana təxminən 35 faiz artımla dünya iqtisadiyyatında ən yüksək göstəriciyə nail olmağa imkan verdi. Neftdən alınan gəlirlərdən necə istifadə etməyi planlaşdırırsınız? Neft fondu ilə infrastrukturun və sosial vəziyyətin yaxşılaşdırılmasına yönəldilmiş sərmayələr arasında bölüşdürməni necə nəzərdə tutmusunuz? Azərbaycan əhalisinin bir hissəsinin yaşadığı yoxsulluğa qarşı mübarizə sahəsində tədbirlərin nəticələri barədə nə deyə bilərsiniz? İqtisadiyyatın şaxələndirilməsi üçün hansı tədbirlər görəcəksiniz və bundan nə gözləyirsiniz?**

**İ l h a m Ə l i y e v:** 1994-cü ildən həyata keçirilən layihələr yalnız 2005-ci ildən başlayaraq, ölkəmizə əhəmiyyətli dərəcədə neft gəlirləri gətirməyə başlamışdır. Biz qarşıdakı illərdə ölkəyə nəhəng neft gəlirlərinin axını ərəfəsindəyik. Sizin də qeyd etdiyiniz kimi, iqtisadiyyatımız böyük sürətlə artır. 2007-ci ilin dövlət büdcəsi təxminən 6,5 milyard dollar təşkil edir. Müqayisə üçün deyim ki, 2003-cü ildə bu rəqəm 1,5 milyard dollar idi. 2005-ci ildə ümumi daxili məhsul 26 faiz, 2006-cı ildə isə 34,5 faiz artmışdır. Xüsusi vurğulamaq istəyirəm ki, bu artım sadəcə, neft sektorunun inkişafı sayəsində əldə edilməmişdir. Biz qeyri-neft sektorunun inkişafına da xüsusi önəm veririk. 2006-cı ildə qeyri-neft sektorunun ümumi daxili məhsuldakı payı 46,4 faiz təşkil etmişdir. Onu da deməliyəm ki, ümumi daxili məhsulda özəl sektorun payı 81 faizdir. Əlbəttə, biz neftin hasilatı aşağı düşdükdən sonra nələrin baş verəcəyi barədə indidən düşünürük. Hazırda ölkəmizdə təhsil və elm sahəsinə böyük investisiyalar qoyulur. Müasir Azərbaycan naminə güclü intellektual potensialın yaradılması məqsədi ilə informasiya texnologiyalarına, iqtisadiyyatın qeyri-neft sektoruna investisiya qoyulması məsələsinə böyük diqqət yetiririk. Digər proqram sənayenin inkişafı ilə bağlıdır. Qeyd etdiyim kimi, qeyri-neft

sektoruna investisiyaların cəlb edilməsi məsələsinə böyük önəm veririk. Xaricdən və Azərbaycandan qeyri-neft sektoruna sərmayələrin cəlb edilməsi məqsədi ilə kapitalı 100 milyon ABŞ dolları təşkil edən Dövlət İnvestisiya Şirkətini yaratmışıq.

Neft fondunun yaradılması neft strategiyamızın mühüm elementlərindən biri olmuşdur. Biz neftdən gəlir əldə etməyə başlayan zaman dərhal Neft fondunu təsis etdik. Fondun fəaliyyəti şəffaflıq prinsipləri üzərində qurulmuşdur. Onun fəaliyyəti və gəlirləri haqqında məlumatlar müntəzəm olaraq dərc edilir. Neft fondunun gəlirlərinin nə miqdarda və hansı sahələrə xərclənməsi barədə qərarın qəbul olunmasına parlament nəzarət edir. Fondda beynəlxalq audit həyata keçirilir və o, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu da daxil olmaqla, beynəlxalq maliyyə təşkilatları ilə yaxından əməkdaşlıq edir. Eyni zamanda, bildirmək istəyirəm ki, Azərbaycan Böyük Britaniyanın hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biri olmuşdur. Bu təşəbbüsə regionda təkan verilməsi istiqamətində göstərdiyimiz fəaliyyət ABŞ və Böyük Britaniya tərəfindən yüksək qiymətləndirilmişdir.

O cümlədən, neft kimyası sənayesi prioritetlərimizdən biridir. Böyük diqqət yetirdiyimiz sahələrdən biri də infrastrukturdur. İndi ölkənin bütün yerlərində böyük tikinti və yeni infrastrukturun yaradılması işləri gedir. Yeni yollar salınır, elektrik stansiyaları tikilir, su və qazpaylaşdırıcı sistemlər yeniləşdirilir, yeni xəstəxanalar, məktəblər və sair inşa edilir.

Əsas prioritetlərimizdən biri də kənd təsərrüfatının inkişafıdır. Azərbaycan əhalisinin əlli faizi kənd yerlərində yaşayır. Yaxşı potensialımız, torpağımız, iqlimimiz var. Fermer təsərrüfatlarının inkişafı üçün böyük miqdarda maliyyə vəsaiti ayrılır.

Azərbaycanda sosial sahənin inkişafına xüsusi diqqət verilir. 2007-ci il büdcəsində sosial sahə üçün ayrılmış xərclər 37,9 faiz, yəni 2,5 milyard dollar olmuşdur. Son üç il ərzində Azərbaycanda 520 min yeni iş yeri açılmışdır və bunun çoxu

qeyri-neft sektorunda yaradılmışdır. Bu əsasən, regionlarda baş vermişdir. Ölkədə əməkhaqları, pensiyalar mütəmadi olaraq artırılır. Qeyd etmək istərdim ki, neft hasil edən bir ölkə olsaq da, biz çoxşaxəli iqtisadiyyatın olmasına böyük əhəmiyyət veririk. Bəzi neft hasil edən ölkələrin mənfi təcrübəsini təkrarlamaq istəmirik. Yəni, orada insanların bir qismi daha da zənginləşir, qalan hissəsi isə daha da kasıb vəziyyətə düşür. Ona görə biz neftdən gələn sərvəti insan kapitalına çevirmək istəyirik.

Yoxsulluğun azaldılması məsələsinə gəlincə, bu sahədə dövlət proqramı vardır. Bu proqram beynəlxalq maliyyə qurumları ilə birgə uğurla həyata keçirilir. Müvəffəqiyyətli iqtisadi siyasət nəticəsində ölkəmizdə yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 2006-cı ildə 20 faizə enmişdir. Biz gələn bir neçə il ərzində bunu daha da aşağı salacaq və ümumiyyətlə, yoxsulluğu aradan qaldıracağıq.

**S u a l: Beynəlxalq maliyyə təsisatları kimi, Avropa İttifaqı da xarici sərmayələrin cəlb olunmasında sabit qaydaların və mülkiyyətə münasibətdə hörmət tələb edən açıq iqtisadiyyatın tərəfdarıdır. İşgüzar mühitin yaxşılaşdırılması proqramınız çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində ölkənizdə hansı tədbirlər görülüb? Özəlləşdirmə hazırda əhatə etdiyindən əlavə, başqa sahələrə də şamil olunacaqmı? Ölkənizin Ümumdünya Ticarət Təşkilatına üzv olması məsələsi ilə bağlı vəziyyət necədir?**

**İ l h a m Ə l i y e v:** Korrupsiya bütün keçmiş sovet respublikaları üçün ciddi problemə çevrilmişdir. Bu, totalitar, qərarların inzibati qaydada qəbul edildiyi sistemdən miras qalmış bir məsələdir. Bununla yanaşı, deməliyəm ki, bu, dünyanın bir çox, hətta inkişaf etmiş ölkələrinin də üzləşdiyi problemdir. Hesab edirəm ki, bu sahədə inzibati vasitələrlə müsbət nəticələr əldə etmək mümkün deyildir. Fikrimcə, korrupsiya ilə güclü iqtisadi tədbirlər və mükəmməl qanunlar vasitəsilə mübarizə aparmaq lazımdır. Ölkəmizdə bu sahədə konkret işlər görülür. Parlament korrupsiya ilə mübari-

zəyə dair qanun qəbul etmişdir. Azərbaycan Respublikası Prokurorluğunun tərkibində korrupsiya ilə mübarizə üzrə xüsusi idarə yaradılmışdır. Qeyd etdiyim kimi, korrupsiya ilə mübarizədə iqtisadi vasitələr böyük önəm daşıyır. Bunun üçün insanların həyat səviyyəsini yüksəltməli, əməkhaqlarını artırmalıyıq və güclü ictimai nəzarət təmin edilməlidir. Bildirdiyim kimi, bu istiqamətdə konkret tədbirlər görülür.

Siz özəlləşdirmə məsələsinə toxundunuz. Hesab edirəm ki, genişmiqyaslı özəlləşdirmə proqramının həyata keçirilməsi davam etdirilməlidir. Azərbaycan rəhbərliyi özəlləşdirmə məsələsinə böyük diqqət yetirir və bu proses çox uğurla gedir. Ölkəmizdə özəlləşdirmənin əsas fazası başa çatdırılmışdır. Dediyim kimi, hazırda Azərbaycanda ümumi daxili məhsulun 81 faizi özəl sektorun payına düşür. Özəlləşdirmənin sürətlə həyata keçirilməsi, orta təbəqənin yaradılması, bürokratik aparatın ixtisar edilməsi və iqtisadiyyatın maksimum dərəcədə sərbəstləşdirilməsi sahəsində gördüyümüz işlər Azərbaycanın gələcəkdə də güclü iqtisadi inkişafı üçün möhkəm zəmin yaradır.

Ümumdünya Ticarət Təşkilatına üzvlük məsələsinə gəlincə, demək istəyirəm ki, artıq üzvlüklə bağlı müvafiq sənədlər təşkilata təqdim edilmişdir və təşkilata daxil olmaq üçün ölkə daxilində zəruri olan bütün prosedurlar uğurla həyata keçirilməkdədir.

**S u a l: Avropa İttifaqının və Avropa Şurasının əsas fəaliyyət istiqamətlərindən biri demokratiyanın, xüsusən də ədalətli və şəffaf seçki vasitələrinin gücləndirilməsidir. Sizin fikrinizcə, insan hüquqlarının müdafiəsi, fundamental azadlıqlar və hüquqi dövlət quruculuğu sahəsində hansı addımlar atılmalıdır? Azərbaycan dinə və xüsusən də islama hansı yeri ayırır? İslam fanatizminin artmasını və əl-Qaidə kimi radikal ekstremist qrupların beynəlxalq aləmə təhlükəsini necə qiymətləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** Biz ölkəmizdə demokratik inkişaf prosesinə böyük önəm veririk. Ümumiyyətlə, demokratikləşməyə, siyasi plüralizmə, qanunun aliliyinin təmin olunmasına gələ-

cək inkişafımızın əsas amilləri kimi baxırıq. Ölkənin ümumi inkişafından danışdıqda, hansısa bir elementə üstün, digərinə isə az əhəmiyyət vermək olmaz. İqtisadi artım, siyasi inkişaf və demokratikləşmə prosesi paralel getməlidir. Yalnız bu halda uğur qazanmaq olar. İndi Azərbaycanda demokratik inkişaf istiqamətində böyük irəliləyişlərə nail olunmuşdur. Müasir cəmiyyət qurmaq, qanunun aliliyini və sosial ədalət prinsipini tam təmin etmək, insanlar üçün bərabər şərait yaratmaq və güclü iqtisadiyyat qurmaq qarşımızda duran əsas məqsədlərdəndir. Bu sahədə həyata keçirdiyimiz konkret işlər yaxın gələcəkdə həmin məqsədlərə nail olacağımıza əminlik yaradır.

Sualınızın ikinci hissəsi ilə bağlı deyə bilərəm ki, Azərbaycan dünyəvi ölkədir və ölkəmizin ali qanununa görə, din dövlətdən ayrıdır. Bununla yanaşı, islam dini bizim tariximizin, keçmişimizin və hazırkı həyatımızın ayrılmaz bir hissəsidir. Biz öz dinimizə, eyni zamanda, ölkəmizdə mövcud olan bütün digər dinlərə böyük hörmətlə yanaşırıq. Bu gün fəxr hissi ilə deyə bilərik ki, Azərbaycanda yüksək dini tolerantlıq mövcuddur. Ölkəmizdə dini zəmində heç bir mübahisə yoxdur. Etnik və dini zəmində qarşıdurmaların baş verdiyi bugünkü dünyada bunu nadir vəziyyət adlandırmaq olar. Azərbaycan müxtəlif millətlərə və dinlərə mənsub olan insanların birgə yaşadığı ölkədir. Azərbaycan xalqının tarixi mentaliteti və hazırda ölkədə dini azadlığın təmin olunması sahəsində görülən işlər müxtəlif dini konfessiyaların mehribanlıq şəraitində, bir ailə kimi yaşaması üçün möhkəm əsas yaradır. Ölkəmizdə heç zaman dini fanatizm olmamışdır və olmayacaqdır. Biz hər cür fanatizmin və ekstremizmin əleyhinəyik. Hesab edirəm ki, bu sahədə Azərbaycanın müsbət təcrübəsindən istifadə oluna bilər.

Azərbaycan beynəlxalq terrorizmlə mübarizədə fəal iştirak edən ölkələrdən biridir. Lakin onu da bildirmək istəyirəm ki, terrorizmin, fanatizmin, radikal ekstremizmin islam dini ilə bağlanması çox səhv və təhlükəli bir yanaşmadır. Azərbaycan özü uzun müddət erməni terrorizminin qurbanı olmuşdur. Erməni terror təşkilatları tərəfindən Azərbay-

canda həyata keçirilən vəhşi terror aktları nəticəsində xeyli sayda insanımız həlak olmuş və yaralanmışdır. Bir daha demək istəyirəm ki, terrorizmin və radikal ekstremizmin hər hansı bir din ilə bağlanmasına yol vermək olmaz.

**S u a l: Sizin məqsədiniz iqtisadiyyatın şaxələndirilməsini gücləndirmək və tarazlı iqtisadi inkişafa nail olmaqdır. Bu perspektivdə ölkənizdə Fransanın və onun şirkətlərinin rolunu necə dəyərləndirirsiniz? Fransada olduğunuz müddətdə enerji ilə bağlı sahələrlə yanaşı, ətraf mühit, bank, sığorta, yeyinti sənayesi, gömrük kimi sahələrdə əməkdaşlıq baxımından hər hansı irəliləyişə nail oldunuzmu? Sizin fikrinizcə, hər iki dövlətin marağında olan davamlı inkişaf və ətraf mühitin qorunması kimi sahələrdə əməkdaşlığı artırmaq olarmı?**

**İ l h a m Ə l i y e v:** Azərbaycanın enerji sektorunda və qeyri-neft sektorunda Fransanın bir sıra aparıcı şirkətləri uğurla fəaliyyət göstərir. Demək olar ki, Fransaya hər səfərim zamanı bu ölkənin işgüzar dairələri ilə görüşlərim olur. Dövlət səfəri çərçivəsində də Fransanın nüfuzlu «Qaz de France», «Vinci», «BNP Paribas», «Société Générale» kimi şirkətlərinin, Lill şəhəri işgüzar dairələrinin nümayəndələri ilə görüşlərim olubdur. Bundan əlavə, bir sıra nüfuzlu Fransa şirkətlərinin nümayəndə heyətlərinin ölkəmizə xeyli sayda səfərləri zamanı mən onlarla görüşmüşəm. Hazırda qeyri-neft sektorunun inkişafı Azərbaycan iqtisadiyyatında prioritet məsələdir. Hesab edirəm ki, bu sahədə Fransa şirkətləri Azərbaycanda daha da fəal işləyə bilərlər.

Ətraf mühitlə bağlı məsələyə gəlincə, deyə bilərəm ki, bu sahədə bizə Sovet İttifaqından çox mənfi bir miras qalmışdır. Belə ki, o zamanlar ekologiya haqqında anlayış belə yox idi. Heç kim təbiətin vəziyyətinə fikir vermirdi. Hazırda bu sahəyə ölkəmizdə böyük diqqət yetirilir. Mənim tərəfimdən imzalanmış sərəncam əsasında ekologiya sahəsində proqram qəbul olunmuşdur. Biz bu proqram çərçivəsində gələn 5–10 il ərzində yüz milyonlarla dollar sərf edərək, Bakı ətrafında və digər yerlərdə neftlə çirklənmiş gölləri

tamamilə təmizləyəcəyik. Fransa şirkətlərinin ətraf mühitin qorunması sahəsində xeyli təcrübəsi vardır. Bu mənada biz həmin istiqamətdə Fransanın şirkətləri, habelə müvafiq strukturları ilə əməkdaşlıq etməyə hazırıq.

**S u a l: Azərbaycan ilə Fransa arasında mədəni və humanitar əlaqələrin perspektivləri barəsində nə deyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v:** Azərbaycan ilə Fransa arasında mədəni və humanitar əlaqələr digər sahələrdə olduğu kimi, uğurla inkişaf edir. Ölkələrimiz və xalqlarımız qədim və zəngin tarixə, mədəniyyətə malikdir. Ölkələrimizin mədəni sahədə əməkdaşlığı, sözsüz ki, xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edir. Qeyd etməliyəm ki, Fransaya dövlət səfərim zamanı Azərbaycanda «Fransa İli»nin, Fransada isə «Azərbaycan İli»nin keçirilməsi barədə qərarın qəbul edilməsi bu baxımdan çox önəmli hadisədir. Eyni zamanda, bu səfər zamanı elm, mədəniyyət və humanitar sahələri əhatə edən dörd sənəd imzalanmışdır. Əminəm ki, humanitar və mədəni sahələrdə əlaqələrimiz bundan sonra da genişlənəcəkdir.

## MACARISTANIN XARİCİ İŞLƏR NAZİRİ KİNQA GÖNTSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Prezident sarayında Macarıstanın Xarici İşlər naziri Kinqa Göntsin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xanım Kinqa Gönts Macarıstan ilə Azərbaycan arasında əlaqələrin sürətlə inkişaf etdiyini vurğuladı. O, səfəri müddətində ölkəmizin müxtəlif strukturları ilə iqtisadiyyat, enerji, kənd təsərrüfatı və bir sıra digər sahələrdə gələcək əməkdaşlıq imkanlarını müzakirə edəcəyini söylədi. Azərbaycanın Avropa İttifaqının yaxın qonşusuna çevrildiyini vurğulayan qonaq «Yeni qonşuluq siyasəti»nin Aİ üçün böyük əhəmiyyət kəsb etdiyini bildirdi.*

*Prezident İlham Əliyev ölkəmizin Macarıstan ilə münasibətlərə böyük əhəmiyyət verdiyini və əlaqələrimizi müxtəlif sahələrdə daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etdi. O, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu və ölkəmizin qurumun «Yeni qonşuluq siyasəti»nə daxil olduğunu bildirdi. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun da imzalandığını xatırladan prezident İlham Əliyev bütün bunların əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanlar yaratdığını vurğuladı.*

# AKADEMİK MİRMƏMMƏD CAVADZADƏYƏ «İSTİQLAL» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*Prezident sarayı*

*18 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Prezident sarayında görkəmli cərrah-uroloq, akademik Mirməmməd Cavad oğlu Cavadzadəyə «İstiqlal» ordeni təqdim etmişdir.*

**Mirməmməd Cavadzadə:** Cənab Prezident, bu yüksək mükafata görə təşəkkür edirəm.

Cənab Prezident, bildiyiniz kimi, mən Zərifə xanımla neçə illər bir yerdə işləmişəm. 1963-cü ildə Moskvadan Azərbaycana gəldim, Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunda işləməyə başladım. O instituta yaxşı mütəxəssislər lazım idi. Bizim kollektivimiz hər gün Zərifə xanıma dua edir ki, ulu öndər Heydər Əliyevlə bir yerdə bu institutu yüksək səviyyəyə qaldırdılar. Heydər Əliyevin məsləhətlərindən sonra 12 nəfər Moskvaya doktoranturaya göndərildi. Sonra daha 7 nəfəri sırf ixtisaslaşma üçün göndərdik, çünki bu çox vacib idi. İndi institumuzda elmi şura üzvlərinin hamısı Heydər Əliyevin və Zərifə xanımın köməyi ilə yetişmiş mütəxəssislərdir.

**İlham Əliyev:** Çox böyük işlər görmüsünüz. Bütün Azərbaycan bunu bilir və Sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirlər. Çox böyük nüfuza malik olan insansınız. Mən bu gün istəyirəm gözəl yubileyiniz münasibətilə Sizi ürəkdən təbrik edim. Sizə cansağlığı, uzun ömür arzulayıram. Həmişə belə fəal olasınız, həmişə öz fəaliyyətinizlə doğ-

ma ölkəmizin inkişafına bundan sonra da xidmət göstərəsiniz. Böyük alimsiniz, ziyalısınız, çox gözəl həkim, təşkilatçısınız. İctimai həyatda da həmişə fəal olmusunuz. Həmişə Sizin prinsipial mövqeyiniz olub və hamı Sizə çox böyük hörmətlə yanaşır. Mən də istəyirəm bu gözəl gündə Azərbaycan dövlətinin yüksək mükafatını Sizə təqdim edim. Mən Sizi «İstiqlal» ordeni ilə təltif etmişəm və bu gözəl gündə ordeni özüm Sizə təqdim edirəm. Siz buna layiqsiniz.

**Mirməmməd Cavadzadə:** «İstiqlal» ordeninə layiq görüldüyümə görə minnətdarlığımı bildirirəm. Allahtaladan Sizə cansağlığı diləyirik.

## RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Prezident sarayında Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Rusiya Federasiyasının Xarici İşlər nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasındakı əlaqələrin hazırkı vəziyyətini müzakirə etmək və əməkdaşlığımızın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək baxımından əhəmiyyətini vurğuladı. Azərbaycan–Rusiya münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə uğurla inkişaf etdiyini bildirən prezident İlham Əliyev bu münasibətlərin səviyyəsindən razılığını ifadə etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığını və əlaqələrimizin daha da gücləndirilməsi üçün yaxşı imkanların olduğunu söylədi. O, əməkdaşlığımızın müxtəlif istiqamətlərdə daha da inkişaf etdirilməsinin zəruriliyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında mövcud olan yaxşı münasibətlərin regionun sabitliyi və inkişafında mühüm amil olduğunu və bu baxımdan Rusiyanın Xarici İşlər nazirinin ölkəmizə səfərinə böyük əhəmiyyət verdiyini bildirdi.*

*Azərbaycana yenidən səfər etməsindən məmnunluğunu söyləyən Sergey Lavrov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. O, Rusiya prezidenti Vladimir Putinin dövlət başçımızla keçirdiyi görüşləri məmnuniyyətlə xatırladığını vur-*

*ğuladı və bu görüşlər zamanı əldə edilmiş razılaşmaların uğurlu nəticələr verdiyini qeyd etdi. Ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığını yüksək qiymətləndirən nazir Rusiyanın Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini bildirdi. O bu əlaqələrin gələcəkdə də hər iki xalqın mənafeləri naminə inkişaf edəcəyinə ümidvar olduğunu dedi.*

*Prezident İlham Əliyev Rusiya prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

## FRANSA – QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDRİ, SENATOR AMBRUAZ DÜPONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Prezident sarayında Fransa–Qafqaz Dostluq Qrupunun sədri, senator Ambruaz Düponun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Fransa münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Ölkələrimiz arasında müxtəlif səviyyələrdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində əlaqələrin intensiv xarakter daşıdığını qeyd edən prezident İlham Əliyev Fransa–Qafqaz Dostluq Qrupunun sədri, senator Ambruaz Düponun bu əlaqələrin genişlənməsində fəal rol oynadığını vurğuladı.*

*Prezident İlham Əliyev cənab Düponun ölkəmizə bu səfərinin əməkdaşlığımızın daha da inkişafı işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Azərbaycan–Fransa əməkdaşlığının sürətlə inkişaf etdiyini bildirən senator prezident İlham Əliyevin Parisə dövlət səfərindən sonra ölkəmizə ilk səfərindən məmnun olduğunu söylədi. O, həmin səfərin Fransada böyük təəssürat yaratdığını və ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ açdığını qeyd etdi.*

*Sonra Fransanın ölkəmizdəki səfiri Bernar dü Şafo Azərbaycan prezidenti İlham Əliyevin Parisə səfəri zamanı Jak*

*Şirak tərəfindən ona təqdim edilən «Şərəf Legionunun Böyük Xaç» ordeninin diplomunu Fransa prezidenti adından dövlətimizin başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev Jak Şiraka minnətdarlığını və salamlarını çatdırmağı qonaqdan xahiş etdi.*

## ALMANİYANIN «WİNTERSHALL» SƏHMDAR CƏMİYYƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ RAYNER SVİTSERLOTUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Prezident sarayında Almaniyanın* «Wintershall» *Səhmdar Cəmiyyətinin idarə heyətinin sədri Rayner Svitserlotun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı son illərdə Azərbaycanda neft və qaz sənayesi sahəsində çox böyük uğurların əldə olunduğunu vurğuladı. Azərbaycanın dünyanın iri enerji şirkətləri ilə müvəffəqiyyətlə əməkdaşlıq etdiyini xatırladan prezident İlham Əliyev ölkəmizdə xarici şirkətlərin fəaliyyəti üçün bütün şəraitin yaradıldığını bildirdi.*

*Ölkəmizin neft bumunu yaşadığını vurğulayan Rayner Svitserlot dedi ki, «Azərbaycan ilə Avropa arasında enerji sahəsində əməkdaşlıq və tərəfdaşlığın hazırkı səviyyəsi, habelə yaradılmış infrastrukturun inkişafı onu göstərir ki, Azərbaycanın bu istiqamətdə, o cümlədən Avropa ilə tərəfdaşlıq baxımından çox böyük perspektivləri var». Qonaq rəhbərlik etdiyi şirkətin gələcək planları barədə dövlətimizin başçısına məlumat verdi.*

# TÜRKİYƏNİN SARIYER BƏLƏDİYYƏSİNİN SƏDRİ YUSUF TÜLÜNÜN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Prezident sarayında Türkiyənin Sarıyer bələdiyyəsinin sədri Yusuf Tülünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsində mühüm rol oynadığı bildirildi, müxtəlif səviyyələrdə, o cümlədən iki ölkənin regionları və bələdiyyələri arasında əməkdaşlığın münasibətlərimizin daha da möhkəmləndirilməsi işinə mühüm töhfə verdiyi qeyd olundu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT İNCƏSƏNƏT MUZEYİNİN YAXINLIĞINDAKI PARKDA BAŞA ÇATMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*22 may 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 22-də Rüstəm Mustafayev adına Dövlət İncəsənət Muzeyinin yaxınlığındakı, Niyazi küçəsindəki parkda başa çatmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur. Dövlətimizin başçısına məlumat verildi ki, burada işlərə iki ay əvvəl başlanmış və qısa müddətdə tamamlanmışdır. Ötən əsrin 20-ci illərində memar K.Sençixinin layihəsi üzrə burada salınmış kiçik bağça sonralar bağ-park memarlığı nümunəsi kimi yenidən qurulmuşdur. Parkın elementlərinin özünəməxsus formaları keçmiş Dağüstü parkın arxitekturasını xatırladırdı. Bura ətrafda yaşayan sakinlərin xoşladıqları istirahət guşələrindən biri idi.*

*Dövlətimizin başçısı İlham Əliyev parkın təmir-bərpa işlərindən əvvəlki vəziyyətini əks etdirən fotoşəkillərlə tanış oldu. Bildirildi ki, görkəmini itirən park sakinlərin istirahəti üçün də yararsız vəziyyətdə idi. Şəhərin mərkəzində yerləşən bu guşənin yenidən əvvəlki görkəminə qaytarılması bir növ zərurətə çevrilmişdi. Əsaslı təmir işləri ən yüksək səviyyədə görülmüş, parkın ərazisi başdan-başa yenidən qurulmuşdur. Yaşıllaşdırma işləri aparılmış, yeni dekorativ bitkilər əkilmişdir. Dörd fəvvarə və bir neçə süni bulaq gözəl mənzərə yaradır. Burada xüsusi işıqlandırma sistemi də quraşdırılmış, yeni oturacaqlar qoyulmuşdur.*

**İ l h a m  Ə l i y e v**: Bu park çox gözəlləşibdir. Bura Bakının tarixi yeridir və indi yeni görkəm alıbdır. Amma öz tarixi simasını saxlayıb, yəni burada heç nə dəyişilməyibdir. Sadəcə olaraq yeniləşib və Bakının çox gözəl yerinə çevrilibdir. Gördüyünüz işlər mənim çox xoşuma gəldi, çox gözəldir.

Mən dünən axşam da gəlmişdim, gecə görüntüsü çox gözəldir. İndi də gəldim ki, baxım gündüz necə görünür. Gündüz görüntüsü də gözəldir. Siz də iki ay ərzində burada çox fəal işləmisiniz, çox gözəl mənzərə yaratmısınız. Sizə təşəkkür edirəm.

Bakının gözəl yerləri çoxdur. Biz gərək onların hamısını abadlaşdıraq. Bütün meydanlar, tarixi küçələr, binalar təzə görkəm alır. Görürsünüz, bu binalara yeni üzlük daş çəkilir ki, ətraf gözəl olsun. O biri tərəfdəki parkda da işlər başlanmalıdır. O da tarixi parkdır. Orada təmirə ehtiyac var. Amma əvvəlki əsas tarixi quruluşunu saxlamaq şərtilə, heç nə dəyişmədən, sadəcə olaraq, bərpa etmək lazımdır. Çox gözəl, müasir, səliqəli, təmiz, gözəl bir park olacaqdır.

Burada istirahət etmək, dincəlmək, gəzmək üçün hər cür şərait var, oturacaqlar qoyulmuşdur. Azərbaycanda bir neçə gözəl park yaranıbdır. Heydər Əliyev adına sarayın qarşısında da. Yadınızdadır ora əvvəllər nə gündə idi. Yerə iri beton plitələr döşənmişdi. Mən ilk dəfə heykəl qoyulacaq yerə baxanda gördüm. İndi isə ən gözəl parklardan biridir. Bakıda belə yerlər çoxdur. Sadəcə olaraq, biz gərək onları müasir səviyyəyə çatdıraq, səliqə ilə həm gözəlləşdirək, həm də onların funksional mənası olsun. Yəni indi insanlar Heydər Əliyevin abidəsinin ətrafında gecə-gündüz gəzirlər, dincəlirlər. Yayın istisində fəvvarələr ətrafa sərinlik verir. Mən hər dəfə oradan maşınla keçəndə görürəm ki, park uşaqlarla, yaşlı insanlarla doludur. Amma əvvəllər qaranlıq idi, heç bir şərait yox idi və oraya heç kim gəlmirdi. İndi bura da insanlarla dolu olacaqdır. Çünki belə gözəl şərait yaradılıb.

Bura mənə doğma yerdir. Burada vaxtımı çox keçirmişəm. Məktəbi də təmir etdik, indi gərək onu da üzlük daşla yenidən gözəlləşdirək. Bakının gözəl naxışları ilə, Bakı memarlığına xas olan elementlərlə bərpa olunmalıdır. Yadınızdadır, bu bina nə gündə idi. Biabırçı vəziyyətdə idi, indi isə elə bil ki, təzə, gözəl binadır. Hər tərəf belə olmalıdır. Hələ qabaqda çox iş var. Siz də hazır olun, şəhərimizi bərabər gözəlləşdirək. Sağ olun.

*İnşaatçılar dövlətimizin başçısına təşəkkürlərini bildirdilər, onun rəhbərliyi altında aparılan abadlıq işlərindən məmnunluqlarını vurğuladılar.*

* * *

*Daha sonra dövlətimizin başçısı Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının yerləşdiyi bağa gəldi, burada əsaslı təmir işlərinin aparılmasının vacibliyini bildirdi. Şəhərin ilk bağlarından olan və keçmişdə «Qubernator bağı» kimi tanınan bu ərazinin özünəməxsus bitki aləmi var. XIX əsrin 30-cu illərində salınan bu bağın ərazisi elə həmin əsrin 60–70-ci illərində xeyli genişləndirilmişdir. Ötən əsrin 70-ci illərində isə yenidən qurulmuş, əlavə yaşıllaşdırma işləri görülmüşdür. Lakin ərazinin təkrarolunmaz koloriti qorunub saxlanılmışdır. Bağdakı sıx yaşıllıq, fəvvarə, pavilyon və köşklər buranı paytaxt sakinlərinin daimi istirahət yerinə çevirmişdir. Lakin bu ərazinin müasir görkəm alması üçün təmir işlərinin aparılmasına ehtiyac vardır.*

*Prezident İlham Əliyev ərazi ilə yaxından tanışlığı zamanı paytaxtın əsas istirahət yerlərindən olan bu bağın təmir olunması üçün tapşırıq və tövsiyələrini verdi. Dövlətimizin başçısı bildirdi ki, təmir işləri elə aparılmalıdır ki, mövcud memarlıq ansamblı pozulmasın.*

*Prezident İlham Əliyev bağla tanışlıq zamanı paytaxt sakinləri ilə də görüşdü.*

*Sakinlər dövlətimizin başçısına Allahdan cansağlığı, işlərində uğurlar dilədilər.*

*Prezident İlham Əliyev bağda xüsusi memarlıq üslubuna malik fəvvarənin yenidən qurulmasının, fəvvarənin yaxınlığındakı ərazinin abadlaşdırılmasının, burada təmir işlərinin aparılmasının vacibliyini vurğuladı.*

*Dövlətimizin başçısı Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında aparılan təmir işlərinin gedişi ilə də maraqlandı. Bakıda memarlıq baxımından əhəmiyyətli binaların qorunmasının və təmir-bərpasının davam etdirilməsinin vacibliyini bildirdi.*

## ABŞ DÖVLƏT KATİBİNİN İQTİSADİ VƏ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FRENK MERMUDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Prezident sarayında ABŞ Dövlət katibinin iqtisadi və ticarət məsələləri üzrə xüsusi nümayəndəsi Frenk Mermudun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev ilə yenidən görüşməkdən böyük məmnunluğunu ifadə edən Frenk Mermud Azərbaycana səfərdən əsas məqsədinin ölkələrimiz arasında iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı sahəsində əlaqələrin genişləndirilməsi olduğunu bildirdi. O, səfəri zamanı bir sıra uğurlu görüşlər keçirdiyini və onu müşayiət edən ABŞ-ın müxtəlif şirkətlərinin nümayəndələrinin kənd təsərrüfatı sahəsində əməkdaşlıq imkanlarını araşdırmaq üçün Azərbaycanın rayonlarında olduqlarını qeyd etdi. Qonaq kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan bir sıra müəssisələrə şəxsən baş çəkdiyini və burada gördüklərinin onda xoş təəssürat doğurduğunu söylədi.*

*Dövlətimizin başçısı Azərbaycan hökumətinin kənd təsərrüfatının inkişafına böyük önəm verdiyini və bu sahədə ABŞ ilə əməkdaşlığın genişləndirilməsindən razılığını bildirdi. Ölkəmizin əhalisinin təxminən yarısının kənd yerlərində yaşadığını qeyd edən prezident İlham Əliyev bu sahənin inkişafının Azərbaycan üçün təkcə iqtisadi deyil, eyni zamanda, sosial əhəmiyyət daşıdığını vurğuladı. O, Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə sıx əməkdaşlıq təcrübəsinin mövcud olduğunu xatırlatdı və bildirdi ki, bu təcrübədən kənd təsərrüfatı sahəsində də istifadə üçün yaxşı imkanlar vardır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA «XƏTAİ» TİCARƏT VƏ İSTİRAHƏT MƏRKƏZİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*Bakı, Xətai rayonu*

*23 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti mayin 23-də Bakının Xətai rayonu ərazisində (Nobel prospekti ilə N.Rəfiyev küçəsinin kəsişməsində) «Xətai» ticarət və istirahət mərkəzi istifadəyə verilmişdi.*

*Dövlətimizin başçısını buraya toplaşan paytaxt sakinləri, mərkəzin işçiləri hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi, ticarət və istirahət obyekti ilə yaxından tanış oldu.*

*Mərkəzin direktoru Abdulla Abdullayev məlumat verərək bildirdi ki, tikintisinə 18 ay bundan əvvəl başlanmış bu obyekt 8 mərtəbədən ibarətdir. Ümumi sahəsi 177 369 kvadratmetrdir ki, bunun da 24 335 kvadratmetrini yeraltı avtomobil dayanacağı təşkil edir. Birinci mərtəbənin ticarət sahəsi 12 317, yardımçı sahəsi 8 611, inzibati sahəsi 811 kvadratmetrdir. İkinci mərtəbədə isə ticarət sahəsi 9 202, yardımçı sahə 9 450, inzibati sahə isə 348 kvadratmetrdir. Üçüncü – yeddinci mərtəbələrdə 380-dək ofis fəaliyyət göstərəcəkdir. Hər mərtəbədə 10 562 kvadratmetr əsas sahə, 7 974 kvadratmetr köməkçi sahə vardır.*

*Mərkəzdə ticarət xidməti, sığorta, bank, diaqnostika, bərbərxana, çamaşırxana (kimyəvi təmizləmə), cari tikiş xidməti, atelye, yeməkxana, uşaq əyləncə mərkəzi, biznesklub, konfrans*

*salonu, sağlamlıq mərkəzi, tərcümə mərkəzi fəaliyyət göstərəcəkdir. Burada müxtəlif sahələrdə təxminən 6 min nəfər işləyəcəkdir. Binada 29 lift və 12 ekskalator quraşdırılacaqdır. Mərkəzin ümumi smeta dəyəri 280 milyon manatdır. Hazırda birinci mərtəbə tam istifadəyə verilmiş, digər mərtəbələrdə son tamamlama işləri aparılır və 1200 nəfər işlə təmin olunmuşdur.*

*Dövlətimizin başçısı mərkəzin ayrı-ayrı sahələrini gəzdi, burada satılan malların keyfiyyəti və qiyməti ilə maraqlandı. Prezident İlham Əliyev buranın Bakıda ən böyük ticarət mərkəzi olduğunu vurğuladı və dedi ki, müasir standartlara cavab verir və gözəl arxitekturaya malik binadır. Xarici görünüşü də yüksək səviyyədədir. İnsanların rahat və mədəni şəraitdə işləməsi üçün gözəl şərait yaradılmışdır.*

*Azərbaycan prezidenti «Xətai» ticarət və istirahət mərkəzinin xarici görünüşünü seyr etdi, ətraf ərazidə aparılan abadlıq işləri ilə maraqlandı, paytaxtda gözəl memarlıq üslubunda tikilmiş binalarda müasir işıqlandırma sisteminin quraşdırılmasının zəruriliyini bildirdi.*

**TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

Ankaradakı ticarət mərkəzində baş vermiş partlayış nəticəsində insan tələfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Biz törədilmiş terror aktından hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı mübarizədə birgə səylər göstərilməsini zəruri hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar dərdinizə şərik çıxır, yaralananlara və xəsarət alanlara şəfa diləyir, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2007-ci il*

**TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Ankaranın Ulus rayonundakı ticarət mərkəzində törədilmiş partlayış nəticəsində çoxlu sayda insanın həlak olması və yaralanması xəbəri məni olduqca kədərləndirdi.

Biz terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyir, belə amansız cinayət əməllərinin qarşısının alınması üçün bütün qüvvələrimizi səfərbər etməyi vacib hesab edirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2007-ci il*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CİORCİO NEAPOLİTANOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə İtaliya arasındakı münasibətlər bu gün inkişaf etməkdədir. Ümidvaram ki, əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda səylərimizlə dost xalqlarımızın rifahına bundan sonra da töhfələr verəcəyik.

Bu əlamətdar bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2007-ci il*

## İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB ROMANO PRODİYƏ

Hörmətli cənab Sədr!

Milli bayramınız – Respublika günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–İtaliya əlaqələrinin genişlənməsinə, qarşılıqlı maraq doğuran sahələrdə birgə işimizə böyük əhəmiyyət veririk. Əmin olduğumu bildirmək istərdim ki, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızı bundan sonra da uğurla davam etdirəcəyik. Fürsətdən istifadə edərək Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2007-ci il*

**İSVEÇ KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB FREDRİK RAYNFELDTƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – İsveç Bayrağı günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, xalqlarımız arasındakı dostluq münasibətləri Azərbaycan–İsveç əməkdaşlığının inkişafı üçün daim möhkəm zəmin olaraq qalacaqdır.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2007-ci il*

**İSVEÇİN KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

İsveç Krallığının milli bayramı – İsveç Bayrağı günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveç xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2007-ci il*

# BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN İŞTİRAKÇILARININ BİR QRUPU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Prezident sarayında «Keçid cəmiyyətlərində demokratiya» mövzusunda Bakıda keçirilən beynəlxalq elmi-praktik konfrans iştirakçılarının bir qrupunu qəbul etmişdir.*

**İlham Əliyev:** Sizi görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz. Eşitdim ki, konfrans çox maraqlı keçdi, bir çox maraqlı məsələlər müzakirə olunubdur. Ümidvaram ki, konfransın nəticələri çox müsbət olacaqdır. Ümumilikdə Azərbaycanda belə bir forumun keçirilməsi yaxşı göstəricidir və biz sevinirik ki, bir çox ölkələrdən, regionlardan, uzaq xaricdən nümayəndələr burada iştirak ediblər. Bütün bunlar ölkələrimiz arasında daha çox anlaşmaya, regional əməkdaşlığın inkişafına kömək edir, əlbəttə ki, nümayəndələr konfransın işində iştirak edən ölkələrin gələcəkdə sıx qarşılıqlı əlaqəsinə kömək edəcəkdir.

Demokratikləşmə mövzusu postsovet məkanının bütün ölkələri üçün çox aktualdır. 15 il ərzində müəyyən nailiyyətlər əldə olunmuşdur, eyni zamanda, çoxlu həll olunmamış problemlər də vardır. Azərbaycana gəldikdə isə, bizim üçün başlıcası demokratiya yolu ilə inamla inkişaf etmək və demokratik proseslərə sadiq qalmaqdır. Əgər 15 il əvvəl tamamilə başqa şəraitdə, başqa ictimai-siyasi formasiyada yaşadığımızı nəzərə alsaq, 15 illik dövrdə mühüm nailiyyətlər qazanılmışdır. Azərbaycan dünyanın siyasi xəritəsinin bir

hissəsi olmuşdur, fəal əməkdaşlıq edir və bir çox mühüm regional, beynəlxalq təşkilatların üzvüdür, siyasi islahatların həyata keçirilməsinə dair üzərinə götürdüyü vəzifələri həyata keçirir. Bütün bunlar ölkəmizin inkişafına kömək edir. Ölkəmizdə iqtisadi və siyasi islahatlar paralel şəkildə həyata keçirilir. Düşünürəm ki, bu, uğurun mühüm şərtidir. Keçid dövrü şəraitində davamlı yüksəlişi məhz bu, təmin edir. Siyasi islahatları iqtisadi islahatlara qurban vermək yalnız məhdud zaman kəsiyində uğur gətirə bilər. Eyni zamanda, ciddi iqtisadi baza olmadan heç bir siyasi islahatın uğur qazanmaq imkanı yoxdur.

Ölkəmizdə davamlı iqtisadi yüksəliş müşahidə olunur – son üç ildə biz iqtisadiyyatın artımına görə dünyada liderik. Güclü sosial siyasət aparılır, demokratik prinsiplər bərqərar olur, hüquqi dövlət qurulur, qanunun aliliyi təmin edilir. Bir sözlə, biz buna çalışırıq, buna doğru gedirik. Əminəm ki, qarşıdan gələn illər ərzində bu istiqamətdə daha böyük uğurlar qazanılacaqdır.

Mən konfransda iştirak etmək üçün ölkəmizə gəldiyinizə görə sizə təşəkkür etmək istərdim. Bu həm fikir mübadiləsi aparmağa, həm də yenilikləri eşitməyə, Azərbaycana ilk dəfə gələnlər üçün ölkəmizin həyatını görməyə yaxşı imkandır.

**Vladislav İnozemtsev** (*Rusiyanın «Svobodnaya mısl XXI veka» jurnalının Baş redaktoru*): Bu gün konfransda fikirlər toqquşdu, çox maraqlı diskussiya aparıldı. İndi mən öz fikrimi bildirmək istəyirəm. Şübhəsiz ki, bu gün nəzərə almaq lazımdır ki, demokratikləşmə prosesi çox mürəkkəb, qlobal rəqabət şəraitində, dünyanın inkişaf etmiş və az inkişaf etmiş dövlətlərə bölündüyü şəraitdə, ehtiyatlar uğrunda, iqtisadi üstünlük uğrunda mübarizə şəraitində gedir. Bu baxımdan mənə elə gəlir ki, ilk növbədə Avropa təsisatlarının, bütünlükdə Avropa İttifaqının təcrübəsini, onların Rusiyanın, Azərbaycanın və postsovet dövlətlərinin əksəriyyətinin Avropa iqtisadi birliyinə inteqrasiyasına münasibətini öyrənmək maraqlı olardı.

**İ l h a m  Ə l i y e v:** Müstəqilliyə qovuşandan sonra Azərbaycanda demokratiya uğurla inkişaf edir və dərinləşir, ölkəmiz bu yolla irəliləməkdə qərarlıdır. Demokratiyanın inkişafında xalqın meyarları, baxışları həlledici əhəmiyyət daşıyır. Rəyin başlıca meyarı xalqdır. O, müəyyən edir. Əgər xalq ölkədəki vəziyyətdən razıdırsa, o, həyata keçirilən siyasəti dəstəkləyirsə, deməli, bu siyasət düzgündür. Bəlkə də bir qədər sadə yanaşmadır, ancaq hesab edirəm ki, bu, bütün mövcud və mümkün olan meyarlardan ən düzgünüdür. Şübhəsiz ki, xaricdən verilən hansısa qiymət vacibdir və biz Azərbaycanda həm dünya ictimai rəyinə, həm də, əlbəttə ki, mövcud qiymətləndirmələrə çox həssaslıqla yanaşırıq. Lakin prezident kimi, mənim üçün məhz xalqın nə düşündüyü daha vacibdir. Demokratiyaya gəldikdə isə, bu sözün kökü də xalqın hakimiyyəti deməkdir, o xalqın hakimiyyəti ki, sən onun qarşısında hesabat verirsən.

**K o r n e l e u s  O f m a n** (*Almaniyanın Bertlesman fondunun təmsilçisi*): Cənab Prezident, mən Sizə bukletləri təqdim etmək istəyirəm. Bunlar ötən il Sizin iştirak etdiyiniz ümumi konfransa həsr olunmuşdur. Ötən il Siz nəinki Azərbaycanda, o cümlədən regionunuzdakı demokratiya mövzusunda çox maraqlı çıxış etdiniz. Bu gün iştirak etdiyimiz konfrans həmin işlərin bir növ davamıdır. Ümid edirəm ki, gələcəkdə regionda demokratiyanın inkişaf etdirilməsi ilə bağlı Avropa İttifaqının nümayəndələri ilə aparılan dialoq davam etdiriləcəkdir. Mən burada olmağımdan çox məmnunam. Şəxsən mən Azərbaycanda fondumuzla və Avropa İttifaqı ilə əməkdaşlıq etmək istəyən tərəfdaşlar tapmaq fikrindəyəm.

**İ l h a m  Ə l i y e v:** Bukletlərə görə çox sağ olun. Xatirimdədir ki, konfrans çox maraqlı idi. Mən həmin tədbirdə böyük məmnuniyyətlə iştirak etdim. Orada öz mövqeyimizi təqdim etmək və regional inkişafa aid mühüm məsələləri müzakirə etmək üçün əla imkan yaradıldı. Həmin konfrans gündəlik üzləşdiyimiz məsələləri açıq şəkildə nəzərdən keçir-

mək üçün yaxşı fürsət oldu. Mən çox şadam ki, Siz buradasınız, biz sizin fondunuzla çox sıx münasibətlər qurmaq fikrindəyik. Mənim həmin konfransda iştirakım ilk addım oldu. Ümid edirəm ki, gələcəkdə daha çox təmaslarımız olacaqdır. Bu tərəfdaşlığın inkişaf etdirilməsi məqsədi ilə bizim qeyri-hökumət təşkilatları və fondlarla bir çox birgə layihələr həyata keçirilə bilər. Mən Sizə böyük uğurlar arzulayıram və xahiş edirəm ki, Bertlesman fondundakı dostlarıma ən səmimi salamlarımı çatdırasınız.

**Ergün Özbudun** (*Ankara Universitetinin professoru*): Cənab Prezident, bizi qəbul etdiyiniz üçün minnətdarıq və yoldaşlarım adından Sizə təşəkkürümü bildirirəm. Bir türk olaraq Azərbaycana ziyarətdən böyük şərəf duyuram. Mərhum atanızın dediyi kimi, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Mən buna bütün qəlbimlə inanıram. Türkiyə Azərbaycanın inkişafını diqqətlə izləyir. Bugünkü konfransımızın mövzusu millətlərarası siyasət sahəsində çox işlənmiş mövzudur. Keçid cəmiyyətlərində demokratiyanın bu gününü və sabahını müzakirə etmək imkanı tapdıq. Belə toplantı və konfranslar davam etməlidir, çünki qarşılıqlı olaraq ölkələrimizin təcrübəsini digər məsləkdaşlarla və sizlərlə bölüşmək imkanı əldə edirik. Bunun da çox faydalı olacağına inanıram.

**İlham Əliyev:** Sağ olun, mən də Sizə təşəkkür edirəm. Azərbaycana xoş gəlmisiniz. Sizin konfransda iştirakınız bizim üçün çox önəmlidir. Çünki bildiyiniz kimi, Türkiyə – Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Bizim həm iqtisadi, həm siyasi, həm də bütün sahələrdə əməkdaşlığımız çox uğurludur. Təmaslar da çox genişdir. Biz ümid edirik ki, gələcəkdə bu daha da güclənəcəkdir. Bizi beynəlxalq iqtisadi, nəqliyyat, enerji layihələri, eyni zamanda, ortaq maraqlar birləşdirir. Bölgədə gedən proseslər də Türkiyə–Azərbaycan əlaqələrindən xeyli dərəcədə asılıdır. Türkiyə bir neçə onilliklər boyu demokratiya yolu ilə inkişaf edən ölkədir və böyük uğurlarınız var. Əlbəttə, sizin təcrübəniz bizim üçün

çox önəmlidir. Xüsusilə, müstəqilliyimizin ilk illərində, Azərbaycan müstəqil dövlət kimi yaşamağa başlayanda Türkiyənin əldə etdiyi nailiyyətlər, təcrübə bizim üçün çox əhəmiyyətli idi. İndi isə bizim ölkələrimiz bir-birini müxtəlif sahələrdə tamamlayır. Həm iqtisadi, həm siyasi, həm də enerji sahəsində bizim güclü işbirliyimiz regional müstəvidə də mühüm rol oynayır. Xahiş edirəm, bütün türk qardaşlarımıza mənim salamlarımı çatdırasınız.

**Svante Kornel** (*Amerika Birləşmiş Ştatlarının Con Hopkins Universiteti Mərkəzi Asiya və Qafqaz İnstitutunun İpək Yolu tədqiqatları proqramının direktoru*): Belə vacib bir konfransa dəvət üçün minnətdarıq. İnşallah, bu konfransın gələcəkdə də davamı olacaqdır. Biz əlimizdən gələni etməyə hazırıq. Sizə bildirmək istəyirəm ki, bizim «Azərbaycan müstəqillikdən sonra» kitabımız hazır olmaq üzrədir. Bu il ərzində Nyu-Yorkda çapdan çıxacaqdır. İstərdik ki, gələcəkdə Azərbaycan dilində də nəşri olsun. Sizə demək istəyirəm ki, bizim institutun Brüsseldə ofis açmaq planı vardır. İnşallah, Azərbaycanın Avropa üçün təhlükəsizlik baxımından, enerji baxımından, həm də digər baxımlardan əhəmiyyəti olacaqdır. Diplomatik Akademiya üçün də əlimizdən gələni etməyə hazırıq, Azərbaycanda dünya səviyyəli bir qurumun olacağına inanıram. Sizin çox gözəl layihənizi təbrik etmək istəyirəm. Son çıxan yazımızı Sizə təqdim edirəm. Burada Qara dəniz regionundan və enerji baxımından Azərbaycanın bu regionda əhəmiyyətindən bəhs edilir.

**İlham Əliyev:** Azərbaycanda yüksək ixtisaslı kadrların, o cümlədən peşəkar diplomatların hazırlanması sahəsində böyük işlər görülür və qarşıda geniş planlar durur. Azərbaycan həmin sahədə beynəlxalq əməkdaşlığa önəm verir.

Sizin institutun akademiya ilə əməkdaşlığı onun formalaşmasına çox böyük dəstək olacaqdır. Mən istəyirəm bu, beynəlxalq tədqiqat, diplomatiya mərkəzinə, həm də siyasi mərkəzə çevrilsin. Region üçün gözəl imkan yaratsın. Azərbaycanda təkcə diplomatların deyil, bütövlükdə, geniş mə-

nada müasir dünyagörüşlü mütəxəssislərin, menecerlərin hazırlanması bizim üçün çox vacibdir. İndi Azərbaycanda əsas problemlərdən biri müasir peşəkar kadrların hazırlanmasıdır.

**M a r e k  B a r a n s k i** (*Varşava Universitetinin professoru, tarix elmləri doktoru*): Azərbaycan gözəl diyardır, Bakı gözəl şəhərdir və onun iqtisadiyyatı inkişaf edir. Mən Bakıya, Azərbaycana ilk dəfədir gəlirəm. Görürəm ki, bura çox gözəldir.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Yeri gəlmişkən, Bakının bu tarixi simasında Polşa memarlarının xidməti çoxdur. Mən bilmirəm, Sizə deyiblər, ya yox, Azərbaycanın iri neft sənayeçilərinin XIX əsrin sonu – XX əsrin əvvəlində tikdirdikləri çox gözəl tarixi evlərin əksəriyyəti Polşa memarları tərəfindən inşa edilmişdir. Yenilərini biz artıq özümüz tikirik. Ancaq bu tarixi üslub göstərir ki, burada polyaklar çox iş görmüşlər. Həm memar, həm də neft mədənlərində mühəndis işləyən çoxlu polyak var idi. Ona görə də tarixi əlaqələrimiz güclüdür. Mən Polşada rəsmi səfərdə olanda Senatin binasında Bakıda Polşa memarlarının tikdikləri tarixi binaların fotoşəkillərindən ibarət sərgi açılmışdı.

**M a m u k a  A r e ş i d z e** (*Gürcüstandan müstəqil ekspert, Qafqaz üzrə mütəxəssis*): Cənab Prezident, mənə çox xoşdur ki, bu gün Sizinlə ünsiyyətdə olmaq imkanı qazanmışam. Çox xoşdur ki, Heydər Əliyeviçin işlədiyi binadayam. Bu konfrans dünya birliyinə çox yaxşı ismarıcdır. Zənnimcə, o çox yaxşı tərtib edilmişdir və diqqət məhz Sizin indi burada dediklərinizə yönəldilmişdir. Mən Sizə təmsil etdiyim Gürcüstan nümayəndə heyəti adından çox sağ olun demək istəyirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən şadam ki, siz gəlmisiniz. Mən bu yaxınlarda Tbilisidə oldum. Bizim çoxlu ümumi layihələrimiz var, çox mühüm cəhətdir ki, müxtəlif ekspertlərin və qeyri-hökumət təşkilatlarının xətti ilə çox sıx əməkdaşlıq edirik. Biz hazırda Azərbaycanın regional inkişafına dair böyük proqram həyata keçiririk. Digər şəhərlərimizlə

Bakı arasındakı fərqlər artıq aradan götürülür. Bizdə məhz paytaxta deyil, ən uzaq kəndlərə və şəhərlərə çoxlu sərmayələr qoyulur. Çox ciddi məşğulluq proqramı həyata keçirilir, üç il ərzində yoxsulluq 49 faizdən 20 faizə düşmüşdür. Bəli, bu, ciddi göstəricidir. Xüsusilə neft hasil edən ölkələrdə bəzən elə olur ki, yoxsullarla varlılar arasında fərq artır. Yoxsulluğun azalması isə varlılarla yoxsullar arasında fərqin azalmasının başlıca göstəricisidir. Biz şəffaflıq sahəsində yaxşı nailiyyətlər əldə etmişik. Görünür, bu da sizin bu gün apardığınız diskussiyaların bir elementidir. Azərbaycanda yaradılmış Neft fondu bu yaxınlarda strukturun şəffaflığı kateqoriyasında BMT-nin mükafatını almışdır. Biz bir vaxtlar Britaniya Baş nazirinin irəli sürdüyü hasilat sənayesi sahələrində şəffaflıq təşəbbüsünə artıq 4 ildir qoşulmuşuq və bu prosesə rəhbərlik edənlərin hamısının ümumi etirafına görə, bu istiqamətdə aparıcı ölkəyik. Bizdə bütün neft gəlirləri transparentdir, dünyanın iri auditor şirkətləri Neft fondunda audit keçirir, gəlirlər və xərclər barədə hesabat hər rüb mətbuatda dərc olunur. Fondun xərcləri yalnız büdcə vasitəsilə həyata keçirilir. Başqa sözlə, hər bir vətəndaş parlamentdəki nümayəndələr vasitəsilə bu işdə iştirak edir. Mən artıq öz şərhlərimdə demişəm, qəti əminəm ki, demokratik proseslərin tam yayılması üçün möhkəm iqtisadi bazanın olması zəruridir. Bu hətta bizim qısa müstəqillik tariximizdən də görünür. İlk illər, iqtisadi çətinliklər və xaotik, qeyri-sabit vəziyyət olanda insanların bu barədə danışmağa mövzusu da yox idi. Rifah yaxşılaşdıqca, özəlləşdirmə davam etdikcə insanlar sərbəst olurlar. Bizdə iqtisadiyyatda özəl sektorun payı 81 faizdir. Baxmayaraq ki, neft hasilatı dövlət inhisarındadır. Yəni strateji sahələrdən, o cümlədən dəmir yolu, energetika və neft hasilatından savayı, bütün sahələr özəl kapitala məxsusdur.

Möhkəm iqtisadi baza lazımdır. Demokratiya adambaşına düşən ÜDM-in ən çox olduğu yerlərdə inkişaf etmişdir. Bu məsələdə çox təsadüfi hallarda istisnalar olur. Ona

görə də biz buna səy göstəririk. Lakin bu, demokratik və siyasi prosesləri ləngitmək üçün səbəb ola bilməz. Əksinə, onları paralel həyata keçirməklə yaxşı nəticələrə nail olacağıq, biz iqtisadi cəhətdən güclü, regional baxımdan əhəmiyyətli, tolerant, açıq, azad dövlət quracağıq ki, orada yaşamaq yaxşı olsun. Əsas budur ki, insanlar özlərini müdafiə olunmuş, varlı, azad hiss etsinlər və üzlərində təbəssüm olsun.

## MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU VİKTOR SADOVNİÇİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Prezident sarayında Moskva Dövlət Universitetinin rektoru Viktor Sadovniçini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında humanitar sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Moskva Dövlət Universiteti ilə Bakı Dövlət Universiteti arasında əməkdaşlığın bu əlaqələrin daha da genişləndirilməsi işinə öz töhfəsini verdiyini vurğuladı.*

*Viktor Sadovniçi ölkəmizə yenidən səfər etməkdən məmnunluğunu ifadə etdi. Xalqımızın ümummilli lideri ilə dəfələrlə görüşdüyünü xatırlayan qonaq Heydər Əliyevin hələ Sovet İttifaqı dövründə Moskvada yüksək dövlət vəzifəsində çalışarkən təhsilin inkişafına böyük diqqət və qayğı göstərdiyini xatırlatdı. Viktor Sadovniçi rəhbərlik etdiyi təhsil müəssisəsi ilə Bakı Dövlət Universiteti arasında səmərəli əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əmin olduğunu bildirdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Kemerovo vilayətindəki «Yubileynaya» şaxtasında partlayış nəticəsində çoxsaylı insan tələfatı xəbərini kədər hissi ilə qarşıladım.

Sizə, həlak olmuş şaxtaçıların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 may 2007-ci il*

## XƏZƏRİN DƏNİZ MÜHİTİNİN MÜHAFİZƏSİNƏ HƏSR OLUNMUŞ BİRİNCİ BAKI KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Xəzərin dəniz mühitinin mühafizəsinə həsr olunmuş Birinci Bakı Konfransının iştirakçılarını səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar arzulayıram.

Xəzər dənizi geostrateji mövqeyinə görə Azərbaycan və bütövlükdə region üçün mühüm əhəmiyyət kəsb edir. Böyük neft-qaz yataqlarına malik Xəzər regiondakı ölkələrin iqtisadi dirçəlişində xüsusi rol oynayır. Karbohidrogen ehtiyatlarının intensiv işlənməsi şəraitində dənizin flora və fauna zənginliyinin qorunması, ekoloji vəziyyətinin yaxşılaşdırılması bizim daim diqqətimizdədir.

Konfransın gündəliyinə daxil olan problemlərin aktuallığı və ciddiliyi onların həlli üçün region ölkələri arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsini tələb edir. Məhz bu səbəbdən Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunub saxlanılması və təbii ehtiyatlardan səmərəli istifadə olunması məqsədi ilə Xəzəryanı dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Xəzərin dəniz mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyasının bütün Xəzəryanı dövlətlər tərəfindən imzalanması onların Xəzər dənizinin mühafizəsi istiqamətində birgə fəaliyyət göstərməyə hazır olduqlarını nümayiş etdirir.

Ümidvaram ki, konfransınız qarşıda duran məsələlərin həlli naminə Xəzəryanı dövlətlərin öz səy və imkanlarını birləşdirmələri üçün yeni təkan verəcək, dəniz mühitinin mü-

hafizəsində maraqlı olan bütün tərəflər arasında əməkdaşlığın gücləndirilməsi və region ölkələri xalqlarının qarşılıqlı münasibətlərinin daha da dərinləşdirilməsinə xidmət edəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 may 2007-ci il*

## İRANIN EKOLOGİYA KOMİTƏSİNİN SƏDRİ, İRAN PREZİDENTİNİN EKOLOGİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DOKTOR VAEZ CAVADİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Bakıda keçirilən Xəzərin dəniz mühitinin mühafizəsinə həsr olunmuş Birinci Bakı Konfransında iştirak edən İran İslam Respublikasının Ekologiya Komitəsinin sədri, İran prezidentinin ekologiya məsələləri üzrə müavini xanım doktor Vaez Cavadini qəbul etmişdir.*

*Görüşdə ətraf mühitin mühafizəsi sahəsində Xəzəryanı dövlətlərin əməkdaşlığının vacibliyi qeyd olunmuşdur. Xəzərin dəniz mühitinin mühafizəsinə həsr olunmuş Birinci Bakı Konfransının əlaqələrin daha da inkişaf etməsində böyük rol oynadığı vurğulanmış, eyni zamanda, Azərbaycan–İran ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilmişdir.*

## ATƏT-in MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNAR FASYE VƏ RUSİYALI HƏMSƏDRİ YURİ MERZLYAKOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasye və rusiyalı həmsədri Yuri Merzlyakovu qəbul etmişdir.*

*Görüş zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti ilə bağlı məsələlər müzakirə edilmişdir.*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ**

Hörmətli Mixeil Nikolayeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Azərbaycan xalqı və şəxsən öz adımdan Sizi səmimi-qəlbdən təbrik edirəm.

Dövlətçiliyin getdikcə möhkəmləndirilməsi, demokratiyanın genişləndirilməsi, əsaslı sosial-iqtisadi islahatların aparılması yolunda dost Gürcüstanın uğurları bizi sevindirir.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin inkişafı və dərinləşməsi, transmilli enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində uğurlu qarşılıqlı fəaliyyət, regional və beynəlxalq qurumlarda fəal əməkdaşlıq və qarşılıqlı dəstək bundan sonra da ölkələrimizin və xalqlarımızın tərəqqisinə və rifahına, regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına kömək edəcəkdir.

Əziz Mixeil Nikolayeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni uğurlar, qardaş gürcü xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 may 2007-ci il*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*25 may 2007-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Respublika günü münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl bayram ərəfəsində bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

1918-ci il mayın 28-də müsəlman aləmində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır. Respublikanın ömrü uzun olmadı. Ancaq o qısa müddət ərzində çox işlər görüldü. Respublikanı yaradanların niyyətləri çox gözəl idi. Azərbaycanı azad, müstəqil ölkəyə çevirmək, Azərbaycanı dünya birliyinə daxil etmək və ölkəmizi hərtərəfli inkişaf etdirmək. Əfsuslar olsun ki, bu niyyətlərin böyük əksəriyyəti icra olunmamış qaldı. İki ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

Azərbaycan xalqı və Azərbaycan dövləti cümhuriyyətin fəaliyyətinə və onu yaradanların xatirəsinə çox böyük hörmətlə yanaşır. Bu hörmətin əlaməti olaraq bu gün biz Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinə həsr edilmiş abidənin açılışını qeyd etdik. O gözəl abidə paytaxtımızın gözəl guşələrinin birində – İstiqlaliyyət küçəsində ucaldıldı.

Cümhuriyyətin qısa tarixi bir daha onu göstərir ki, hər hansı bir qələbəni, nailiyyəti əldə etməkdən daha çətin, daha məsuliyyətli vəzifə onu qoruyub saxlamaqdır. O cümlədən, müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan daha da

asan məsələ idi. Azərbaycanın müasir tarixi onu bir daha göstərdi. 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində yaranmış müstəqil Azərbaycan Respublikasının fəaliyyətində böyük çətinliklər var idi. Müstəqilliyimizin ilk illərində ölkəmiz faktiki olaraq müstəqil dövlət kimi fəaliyyət göstərə bilmirdi. Mən bu tezisi bir neçə dəfə ifadə etmişəm və bir daha demək istəyirəm, dünyada bir çox ölkələr var ki, onların müstəqilliyə aid olan bütün atributları mövcuddur, ancaq onlar müstəqil siyasət aparmaq iqtidarında deyillər. Azərbaycanda 1991-ci ildə, müstəqilliyimizin ilk illərində və 1993-cü ilə qədər vəziyyət buna bənzər idi. Müstəqilliyə xas olan bütün atributlar var idi, fəqət, ölkə nə xarici siyasətdə, nə də daxili siyasətdə müstəqil siyasət apara bilmirdi. Bir çox hallarda xarici təsirdən asılı vəziyyətdə idi. Faktiki olaraq, o vaxt bizim müstəqilliyimizin gələcəyi şübhə altında idi. Çünki Azərbaycanda gedən neqativ proseslər, böhranlı vəziyyət, idarəolunmaz vəziyyət, hərc-mərclik, iqtisadi və siyasi böhran ölkənin müqəddəratını şübhə altına qoyurdu. Məhz o illərdən iki il keçəndən sonra Azərbaycan xalqı müstəqilliyi yenə də itirə bilərdi – necə ki, 1920-ci ildə. Azərbaycan xalqının müdrikliyi sayəsində ulu öndər Heydər Əliyevin rəhbərliyə gəlməsi nəticəsində Azərbaycan bu bəlalardan qurtuldu və 1993-cü ildən başlayaraq öz inkişaf dövrünü yaşayır.

1993–2003-cü illər ərzində Azərbaycanın dövlətçiliyi quruldu. Azərbaycanın inkişaf strategiyası müəyyən olundu. Bütün istiqamətlərdə, xarici müstəvidə, xarici siyasət baxımından ölkəmiz özünü dünyaya etibarlı tərəfdaş kimi, ləyaqətli ölkə kimi təqdim edə bildi. Bütün ölkələrlə xarici əlaqələrimiz qarşılıqlı hörmət və maraqlar əsasında qurulubdur və bu gün də bu belədir. Azərbaycanda 1993-cü ildən başlanmış və bu günə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən çox sürətlə inkişaf

edən ölkədir. Bu islahatlar bu gün də davam edir. Azərbaycanda güclü sosial siyasətin əsasları məhz o illərdə qoyulubdur. Ona görə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir. Məhz o illərdə Azərbaycan müstəqil ölkə kimi, özünü bütün dünyaya təqdim etdi. O illər ərzində Azərbaycanın indiki güclü iqtisadi potensialı formalaşdı. O illərdən başlayaraq bu günə qədər Azərbaycan bütün istiqamətlərdə çox açıq, prinsipial siyasət apararaq, öz xalqının milli maraqlarının tam şəkildə təmin olunmasını təşkil edir. Biz də bu siyasətə sadiqik.

Mən yaxşı xatırlayıram, 2003-cü ildə prezident seçkiləri ərəfəsində və ondan sonra, andiçmə mərasimindəki çıxışımda bəyan etmişdim və Azərbaycan xalqına söz vermişdim ki, mən bu siyasətə sadiq qalacağam, Azərbaycanda bu siyasətin davam etdirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm. Mən çox şadam ki, bu gün bizim ölkəmizin uğurlu inkişafı sübut etdi ki, bizim bütün planlarımız, niyyətlərimiz həyatda öz əksini tapır. Bu gün həm iqtisadi inkişaf baxımından, həm də respublikada gedən siyasi islahatlar baxımından ölkəmiz çox dinamik şəkildə inkişaf edir. Azərbaycanda demokratikləşmə prosesləri çox sürətlə inkişaf edir və vətəndaş cəmiyyətinin yaranmasında, hüquqi dövlətin qurulmasında, qanunun aliliyinin bərqərar olunmasında çox böyük işlər görülübdür və gələcəkdə çox böyük işlər görüləcəkdir.

Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir. Azərbaycan azad ölkədir. Azərbaycan dünyəvi ölkədir. Eyni zamanda, Azərbaycan inkişaf edən ölkədir. İqtisadi cəhətdən əldə edilmiş bütün uğurlara baxmayaraq, biz hələ də inkişaf edən ölkəyik. Bizim məqsədimiz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirməkdir. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq. Biz inkişaf etmiş bütün ölkələrin təcrübəsini bilirik, öyrənirik və biz o istiqamətdə inkişaf edirik. Eyni zamanda, Azərbaycan demokratik inkişaf baxımından

çox sürətlə irəliyə gedir. Baxmayaraq ki, hələ bu sahədə mövcud olan problemlər var və bu da təbiidir. Çünki biz sadəcə olaraq, son 15 il ərzində demokratiya şəraitində yaşayırıq. Ondan əvvəlki illərdə əsrlər boyu Azərbaycanda ictimai-siyasi quruluş tam başqa idi. Ona görə bu qısa tarixi müddəti nəzərə alaraq qeyd etməliyik ki, bu 15 il ərzində demokratiyanın inkişafı baxımından çox böyük nailiyyətlər əldə edilibdir.

Azərbaycanda siyasi islahatlar çox cəsarətlə aparılır. Bu da bizim prinsipial və düşünülmüş seçimimizdir. İqtisadi islahatlar və siyasi islahatlar ölkəmizin inkişafı üçün çox möhkəm zəmin yaradır. Biz bu iki amili bərabər, paralel şəkildə həyata keçiririk və bu gözəl zəmin əsasında güclü dövlət quruculuğu prosesi gedir. Bu zəmin əsasında Azərbaycanda güclü sosial siyasət aparılır. Xarici siyasət bu zəmin əsasında qurulur. Çünki xarici siyasət daxili siyasətin davamıdır. Daxili siyasətdə həm iqtisadi, həm də siyasi islahatların prioritet xarakter daşıması bizim üçün çox vacibdir və biz bunu edirik.

Mən tam əminəm ki, əsl açıq demokratik cəmiyyəti ancaq maddi rifah əsasında qurmaq mümkündür. İqtisadi cəhətdən geridə qalmış ölkələrdə demokratik proseslər də geridə qalır. O ölkələr ki, onlar iqtisadi cəhətdən güclüdürlər, orada sahibkarlıq inkişaf edibdir və azad sahibkarlıq böyük uğurlar qazanıbdır, o ölkələrdə demokratiyanın inkişafı da çox yüksək zirvədədir. Ona görə iqtisadi islahatların davam etdirilməsi, xalqın maddi rifahının yaxşılaşması demokratik cəmiyyətin qurulması və formalaşması üçün başlıca şərtdir.

Ancaq bununla bərabər, əgər sadəcə olaraq, öz diqqətimizi iqtisadi məsələlərə yönəltsək və siyasi islahatlarda hansısa bir yubanma olarsa, bu da Azərbaycanın qarşısında duran vəzifələrin həlli üçün bizə imkan yaratmayacaqdır. Siyasi islahatlar mütləq aparılmalıdır. Azərbaycan müasir ölkəyə çevrilməlidir. Dünyanın ən inkişaf etmiş ölkələrinin kriteriyaları, bizim xalqımıza, bizim xalqın mentalitetinə xas olan kriteriyalar Azərbaycanda mütləq və mütləq tətbiq olun-

malıdır. Bizim siyasətimiz təkcə bizim niyyətlərimiz, yaxud da bəyanatlarımız deyil, bizim praktiki əməli işlərimizdir.

Azərbaycan Avropanın bir neçə aparıcı təşkilatları ilə çox səmərəli əməkdaşlıq edir. Biz 2001-ci ildən Avropa Şurasının üzvüyük. Bu bizim prinsipial seçimimizdir. Bu seçimi biz özümüz etmişik. Bu yaxınlarda, keçən ilin sonunda Azərbaycan Avropa İttifaqı ilə «Yeni qonşuluq siyasəti»nə qoşularaq beşillik proqram imzalayıbdır. Bu da bizim prinsipial seçimimizdir. Bizim istəyimiz odur ki, Azərbaycanda bütün kriteriyalar inkişaf etmiş ölkələrin kriteriyalarına yaxınlaşsın və onlara uyğun olsun.

Gələcək isə göstərər bu yolun sonu nə olacaqdır. Əlbəttə, əgər Avropa İttifaqı ilə bizim əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəksə, əgər gələcəkdə Avropa İttifaqı tərəfindən belə bir fikir olarsa, biz, əlbəttə, istərdik ki, daha da sıx inteqrasiya edək. Ancaq bu, qarşılıqlı maraqlar əsasında olmalıdır, Azərbaycan buna hazır olmalıdır və Azərbaycan xalqının normal, firavan yaşaması üçün bütün bu amillər zəruridir.

İqtisadi islahatlar sürətlə gedir. Azərbaycan son üç il ərzində iqtisadi artım baxımından dünyada birinci ölkədir. Biz bu liderliyi əldə etmişik və bunu əldən vermək fikrində deyilik. Məni çox sevindirən odur ki, bütün iqtisadi göstəricilərlə bərabər, ümumi daxili məhsulun artımı, insanların həyat səviyyəsi də yaxşılaşır. Azərbaycanda kəskin şəkildə aşağı düşən yoxsulluğun səviyyəsi bunun ən gözəl göstəricisidir. İlk növbədə bu onu göstərir ki, iqtisadi islahatlar və sosial islahatlar düzgün istiqamətdə aparılır. Digər tərəfdən, onu göstərir ki, Azərbaycanda bu sahədə çox böyük şəffaflıq var.

Biz bilirik ki, bəzi hallarda neftlə zəngin olan ölkələrdə neft hasilatı artdıqca, kasıblar və varlılar arasında uçurum da böyüyür və bu, ölkələrdə təbəqələşməyə gətirib çıxarır. Biz bunu gözəl bilirik. Bunu tarixdən də bilirik və bir neçə ölkədə vəziyyət belədir. Ancaq biz Azərbaycanda bunun tam əksini görürük. Azərbaycanda kasıbların sayı kəskin şəkildə azalır.

Məqsəd ondadır ki, kasıblar olmasın. Azərbaycan xalqı ona layiqdir ki, rahat yaşasın, firavan yaşasın, maddi rifah içərisində yaşasın. Bütün imkanlar bizdə var. İntellektual potensial çox yüksəkdir. Xalqın intellektual potensialı burada başlıca rol oynayır. Biz çalışırıq bu sahəyə, xüsusilə təhsillə bağlı məsələlərə böyük diqqət verək ki, bizim gənclərimiz bilikli olsunlar, savadlı olsunlar, həyatda öz yerini tapa bilsinlər və ölkənin inkişafında fəal iştirak etsinlər.

Bizim coğrafi vəziyyətimiz çox əlverişlidir və biz bu vəziyyətdən çox səmərəli istifadə edirik. Coğrafi vəziyyət özlüyündə hələ o demək deyil ki, bundan mütləq istifadə olunacaqdır. Bir çox ölkələr var ki, onların coğrafi vəziyyəti bizimkindən pis deyil. Ancaq Azərbaycan bu vəziyyətdən çox məharətlə istifadə edir və biz artıq bölgənin mərkəzinə çevrilirik. Biz bunu özümüz öz fəaliyyətimizlə, öz siyasətimizlə edirik.

Azərbaycanın çox zəngin təbii ehtiyatları var və biz o təbii ehtiyatlardan Azərbaycan xalqının milli maraqlarının qorunması üçün, Azərbaycanda güclü iqtisadi potensialın yaranması üçün çox səmərəli şəkildə istifadə edirik. Neft fondunun yaranması həm gələcək nəsillər üçün gözəl imkanlar yaradacaq, həm də orada yığılan vəsait gələcək nəsillərə xidmət edəcəkdir. Bu, Azərbaycanın bugünkü problemlərinin həlli üçün də bizə yardımçı olur.

Azərbaycanın xarici siyasəti birmənalıdır, çox çevikdir və tam şəkildə milli maraqlara əsaslanır. Bütün qonşu ölkələrlə bizim gözəl münasibətlərimiz var. Bu bizə lazımdır, biz bu bölgədə yaşayırıq və qonşularla bizim münasibətlərimiz bundan sonra da sürətlə davam etməlidir. Bütün beynəlxalq təşkilatlarla, üzv olduğumuz, yaxud əməkdaşlıq etdiyimiz beynəlxalq təşkilatlarla da münasibətlərimiz çox gözəl müstəvidə, qarşılıqlı hörmət əsasında inkişaf edir.

Dünyanın aparıcı ölkələri ilə Azərbaycanın çox gözəl münasibətləri vardır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkə ilə, eyni zamanda, başqa ölkələrlə bizim çox gözəl və işgüzar münasi-

bətlərimiz var. Yəni mən bunları nə üçün deyirəm, əgər biz bütün bu amilləri vahid bir kontekstdə götürsək görərik ki, ölkəmizin inkişafı üçün çox gözəl imkanlar var. Ən başlıcası hər bir istiqamət, hər bir sahə üzrə bizim düşünülmüş siyasətimiz var, konsepsiyamız var. Biz öz fəaliyyətimizi bu konsepsiya çərçivəsində planlaşdırırıq, proqnozlaşdırırıq və icra edirik. Azərbaycanla əməkdaşlıq etmək xarici tərəfdaşlar üçün də çox rahatdır. Çünki biz siyasətimizi səmimi şəkildə, ilk növbədə Azərbaycanın milli maraqları, ondan sonra bütün ölkələrlə qarşılıqlı hörmət əsasında münasibətlərin inkişafı şəklində aparırıq.

Biz gələcək haqqında fikirləşəndə, mən şəxsən gələcəyə çox nikbinliklə baxıram. Bizim bu günə qədər bəyan etdiyimiz bütün proqramlar həyatda öz əksini tapır. Yoxsulluq, işsizlik azalır, böyük layihələr icra olunur. Dünya üçün çox böyük əhəmiyyət kəsb edən neft-qaz layihələrimiz, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994 və 1996-cı illərdə imzalanmış «Azəri», «Çıraq», «Günəşli» və «Şahdəniz» neft-qaz yataqları barədə müqavilələr bu gün Azərbaycanın müstəqilliyini gücləndirir.

Biz bu gün müstəqillik gününün ərəfəsindəyik. Bizim müstəqilliyimizi ən çox gücləndirən məhz bu amillərdir – enerji məsələləri, enerji təhlükəsizliyi. Biz bu məsələləri həll etmişik. Biz özümüz üçün öz neft-qaz problemlərimizi yüz faiz həll etmişik. Dörd neft-qaz kəməri var. Azərbaycanda çox böyük həcmdə neft hasilatına başlanıbdır, bu il qaz ixracına başlanacaqdır. Azərbaycanın neft və qaz ehtiyatları dünya bazarlarına çıxarılacaq, bizim siyasi önəmimiz artacaq, iqtisadi potensialımız artacaqdır. Azərbaycan maliyyə resursları baxımından çox güclü ölkəyə çevrilir.

Biz bütün nəqliyyat dəhlizlərini də neft dəhlizləri əsasında qururuq. Əgər o dəhlizlər açılmasaydı, bu gün nəqliyyat dəhlizlərindən söhbət gedə bilməzdi. Bu gün biz Bakı–Tbilisi–Qars kimi Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən, bizim milli maraqlara tam uyğun olan layihəni artıq reallığa

çeviririk. Nəyin hesabına?! Onun hesabına ki, o dəhliz artıq var. İkincisi, ona görə ki, bizim maddi imkanlarımız var. Əfsuslar olsun ki, erməni lobbisinin fəaliyyəti nəticəsində beynəlxalq maliyyə qurumları ilk mərhələdə dəmir yolu layihəsinə bir az soyuq yanaşırlar. Halbuki indi bizdə məlumatlar var ki, bu münasibət dəyişir. Nə üçün dəyişir? Ona görə ki, biz özümüz vəsait tapdıq. Biz heç kimdən xahiş etmədən bu məsələni özümüz həll edirik. Bu bizim iqtisadi qüdrətimizi göstərir. Bu nəyin hesabına yaranıbdır?! Ancaq və ancaq ilk növbədə, enerji siyasətinin nəticəsində. Ondan sonra bu, bütün başqa sahələrdə yayılır. İndi bizim əsas məqsədimiz qeyri-neft sektorunun, kənd təsərrüfatının, sənayenin inkişafı və müasirləşməsi, çox güclü sənaye potensialının yaranması, iş yerlərinin açılması, Azərbaycanın müasir infrastruktura malik olmasıdır.

Yollar, körpülər, elektrik stansiyaları, məktəblər, xəstəxanalar, qaçqınlar üçün şəhərciklər – bütün bunları sadalamaq üçün bir neçə saat vaxt lazımdır, amma bütün bunlar reallıqdır və bu reallığı biz, Azərbaycan xalqı həyata keçiririk. Biz bunları Azərbaycan xalqının dəstəyinə arxalanaraq edirik. Bu dəstəyi hiss etmək bizə əlavə güc verir. Bir daha demək istəyirəm, mən çox şadam ki, bizim nəzərdə tutduğumuz bütün proqramlar icra olunur.

Bizim qarşımızda duran ən başlıca problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Bu istiqamətdə də danışıqlar aparılır. Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri çəkilməyəcəkdir. Bizim mövqeyimiz bəllidir. Mən bu barədə dəfələrlə bildirmişəm. Son dəfə daha da dolğun və əhatəli bəyanat vermişəm. Çünki hesab edirəm, Azərbaycan xalqı danışıqların nəyin ətrafında getdiyini bilməlidir. Bir daha demək istəyirəm ki, bizim mövqeyimiz xalq tərəfindən dəstəklənir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Dağlıq Qarabağın Azərbaycandan ayrılmasından söhbət gedə bilməz. Onun başqa ölkəyə birləşməsindən söhbət gedə bilməz. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Biz

buna nail olacağıq və etnik təmizləmə siyasətindən əziyyət çəkən soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar.

Mən ümid edirəm ki, əgər qarşı tərəf konstruktivlik nümayiş etdirərsə, biz məsələnin həllinə nail ola bilərik. Amma bu prinsiplər əsasında. Çox müsbət haldır ki, artıq bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri, geniş mənada dünya ictimaiyyəti bu prinsipləri qəbul edir və məsələnin həllini yalnız və yalnız bu prinsiplər əsasında görür.

Mən son dörd ilə yaxın fəaliyyətim zamanı bir çox xarici ölkədə rəsmi səfərlərdə olmuşam. Bir çox xarici dövlət, hökumət başçıları Azərbaycanda səfərdə olublar. Bütün bu görüşlərdə bu məsələ müzakirə olunubdur. Eyni zamanda, bütün görüşlər nəticəsində ya birgə bəyannamə, yaxud da birgə saziş imzalanır və mütləq və mütləq orada Azərbaycanın ərazi bütövlüyü dəstəklənir. Elə bir təmas, elə bir görüş, səfər olmayıb ki, bu məsələ orada öz əksini tapmasın. Bu nə üçün bizə lazımdır? Birincisi, bu, haqq-ədaləti təsdiqləyir. İkincisi, bu, münaqişənin həlli yollarını müəyyən edir. Əgər biz münaqişəni siyasi diplomatik və hüquqi müstəvidə həll edəcəyiksə, bu bizə çox lazımdır. Biz bunu istəyirik. Biz istəyirik ki, məsələni məhz hüquqi əsasda, beynəlxalq hüquq və normalar əsasında və siyasi danışıqlar əsasında həll edək. Bunu etmək üçün çox gözəl imkanlar var. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının dörd qətnaməsi, Avropa Şurasının qətnaməsi, Avropa İttifaqının bu məsələyə münasibəti, Amerika Dövlət Departamentinin son bəyanatı, GUAM təşkilatının birmənalı bəyanatı və bütün o münaqişəli zonalarda separatizmə eyni münasibətin bildirilməsi – bütün bunlar məsələnin həlli üçün həm siyasi, həm hüquqi, həm də diplomatik əsasdır. Yox, əgər biz gördük ki, danışıqlar səmərə vermir, siyasi və hüquqi müstəvidə artıq bir şey əldə etmək mümkün deyil, bizim başqa yolumuz da var. Bu, əlbəttə, arzuolunan yol deyil. Amma o da yoldur, o da alternativdir. O da müharibə yoludur. Biz buna da hazır olmalıyıq.

Mən bunu açıq deyirəm. Bəzi hallarda beynəlxalq təşkilatlar bunu çox narahatlıqla qarşılayırlar. Amma bu mənim mövqeyimdir. Mən xalq tərəfindən seçilmiş prezidentəm. Mənim hər bir məsələyə dair öz mövqeyim var və mən o mövqeyi müdafiə edirəm, xalqın dəstəyinə arxalanaraq bunu icra edirəm. O da yoldur və o yola da hazır olmaq üçün güclü ordu olmalıdır. Düşmən bilməlidir ki, biz istənilən anda məsələni hərb yolu ilə həll edə bilərik. Ordunun güclənməsi, orduda nizam-intizamın güclənməsi, ordunun maddi-texniki bazasının möhkəmlənməsi, müasir silahların alınması – bütün bunlar buna görədir. Mən iki il bundan əvvəl deyəndə ki, bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olacaq, bunu bəziləri, həm ölkə daxilində, həm də xüsusilə Ermənistanda çox böyük kinayə ilə, istehza ilə qarşıladılar. İndi isə onlar görürlər ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Bu gün bu belədir, növbəti illərdə bizim hərbi büdcəmiz Ermənistanın büdcəsindən qat-qat çox olacaqdır. Bu, imkan yaradır və biz bu imkandan istifadə etməliyik.

Əgər qısamüddətli perspektivə baxsaq görərik ki, bir neçə ildən sonra, üç-dörd ildən sonra Azərbaycanla Ermənistan arasında çox geniş uçurum olacaqdır. Bu gün iqtisadiyyatımız onların iqtisadiyyatından 7-8 dəfə böyükdürsə, üç-dörd il ərzində ondan 20 dəfə böyük olacaqdır. Ondan sonra gəlsin bizimlə rəqabət aparsın. Ondan sonra gəlsin, necə deyərlər, məsələnin reallıqlar əsasında həlli haqqında danışsın. Məsələ reallıqlar əsasında həll oluna bilməz. Beynəlxalq hüquq əsasında həll olunmalıdır. Əgər biz də məsələyə reallıqlar əsasında münasibət göstərsək, onda biz bu reallıqları öz xeyrimizə çevirə bilərik. Ona görə bu məsələ yalnız və yalnız bu şəkildə həll olunacaqdır. Mən başqa yol görmürəm və ümid edirəm, beynəlxalq vasitəçilərin səyləri bizə imkan verəcək ki, biz razılaşmaya daha da yaxınlaşaq.

Əziz dostlar!

Bu gün yenə də deyirəm, biz bayram ərəfəsindəyik . Mən bu gündə istərdim ki, öz fikirlərimi sizinlə bölüşüm. Düzdür, mən vaxtaşırı bəyanatlar da verirəm, çıxışlar da edirəm, bölgələrdə də tez-tez oluram. Amma hər halda lazımdır və vacibdir ki, bu gündə, müstəqilliyimizi qeyd etdiyimiz gündə biz bir daha həm görülən işlərə qiymət verək, onları düzgün təhlil edək və ən önəmlisi gələcəyə baxaq. Biz hara gedirik, biz nə istəyirik, biz hansı ölkəni yaradırıq, hansı ölkəni formalaşdırırıq. Çünki Azərbaycanda bu proses hələ davam edir. İnkişaf etmiş ölkələrdə artıq hər şey – demokratik təsisatlar, siyasi sistem, iqtisadi əsaslar, sosial siyasət oturuşubdur. Biz isə artıq ölkənin formalaşmasının mərhələsindəyik. Biz bunu edirik. Ölkə necə olacaq, Azərbaycan hansı ölkəyə çevriləcəkdir, bu bizdən asılıdır.

Mən bir daha  demək istəyirəm ki, Azərbaycanı müstəqil, demokratik, azad, dünyəvi,  maddi rifahı yüksək olan ölkə kimi görmək istəyirəm. Əminəm ki, siz də mənim fikirlərimə şəriksiniz. Buna nail olmaq bizdən asılıdır.

Mən bu gözəl bayram ərəfəsində sizi bir daha ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar arzulayıram. Arzu edirəm ki, müstəqil Azərbaycan möhkəmlənsin və irəliyə getsin.

* * *

*Prezident İlham Əliyev mərasimdə iştirak edən xarici ölkələrin Azərbaycandakı səfirləri, tanınmış ziyalılar, elm, ədəbiyyat, incəsənət və mədəniyyət xadimləri ilə görüşüb söhbət etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İSTİQLALİYYƏT KÜÇƏSİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*25 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidənin açılışında iştirak etmişdir.*

*Respublika ictimaiyyətinin nümayəndələri, elm adamları, Milli Məclisin deputatları dövlətimizin başçısını alqışlarla qarşıladılar.*

*Əlamətdar hadisə münasibətilə burada Fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyev abidənin üzərindən ağ örtüyü götürdü. Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Daha sonra dövlətimizin başçısı abidənin ətrafında yaradılmış abadlıq işləri ilə yaxından tanış oldu. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və əlamətdar hadisə kimi daxil olmuşdur.*

*Prezident İlham Əliyevin ölkəmizdə tarix elminin inkişafında böyük xidmətlər göstərmiş insanlarla söhbəti zamanı bir daha qeyd olundu ki, müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoymuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirmişdir.*

*Məhz ona görə də Azərbaycan xalqı həmin tarixi günü ən əziz bayramlarından biri olan – Respublika günü kimi qeyd edir.*

**İ l h a m Ə l i y e v:** Gözəl abidədir, yeri də gözəl, tarixi yerdir və küçənin adı da İstiqlaliyyətdir. Abidənin ətrafında da gözəl bir park yarandı. Mən çox şadam ki, biz bu abidəni yaratdıq.

Mən İstiqlal muzeyinin yaradılması haqqında sərəncam imzalamışam. İndiki İstiqlal muzeyi Muzey mərkəzində yerləşirdi. Mən gedib oraya baxmışam. Yeni İstiqlal muzeyi şəhərin ən möhtəşəm yerlərindən birində, Dağüstü parkda, keçmiş Kirovun heykəlinin yerində olacaq.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etsə də onun aşıladığı müstəqillik hissləri xalqımızın yaddaşından heç vaxt silinməmişdir. Məhz ona görə də XX əsrin sonunda yenidən tarixi şans qazanmış ölkəmiz Xalq Cümhuriyyəti dövründən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz suverenliyini və müstəqilliyini qoruyub saxlamağı bacardı. Başda ümummilli liderimiz Heydər Əliyev olmaqla, Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərqərar edildi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Regional və qlobal baxımdan strateji əhəmiyyətə malik, Xəzər neftini beynəlxalq bazarlara fasiləsiz və təhlükəsiz şəkildə çatdıran Bakı–Tbilisi–Ceyhan neft kəməri ölkəmizin uzunmüddətli inkişaf imkanlarını daha da genişləndirmişdir. Bakı–Tbilisi–Ərzurum qaz, Bakı–Tbilisi–Qars dəmir yolu qlobal layihələrinin reallığa çevrilməsi ölkəmizin gələcək inkişaf strategiyası üçün daha böyük üfüqlər açır.

Bir neçə aydan sonra çəkilişinə başlanacaq Bakı–Tbilisi–Qars dəmir yolu Türkiyəni Azərbaycan ilə, ölkəmizin üzərindən keçməklə Asiyanı Avropa ilə birləşdirəcək. Bizim

Türkiyə ilə dəmir yolu əlaqəmiz yoxdur. Dəmir yolu çəkiləndən sonra bütün bu əlaqələr daha sürətlə möhkəmlənəcəkdir.

**Y a q u b  M a h m u d o v** (AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun direktoru):Cənab Prezident, gələcəkdə imkan olarsa Bakı–Tbilisi–Qars dəmir yolu İqdıradək uzadılaraq Naxçıvanla birləşdirilsə, Şərqi Anadolu məsələsi həll edilər.

**İ l h a m  Ə l i y e v:** Biz bunu nəzərdə saxlamışıq. Gələcəkdə Qars dəmir yolunun tikintisi başlandıqdan sonra biz bu məsələni qoyacağıq. Biz Türkiyə hökuməti ilə bu barədə danışıqlar aparırıq ki, Naxçıvanı da o yola birləşdirək. Beləliklə, Naxçıvan Bakı ilə dəmir yolu vasitəsilə birləşəcək və blokadadan çıxacaq. Bakı–Tbilisi–Qars dəmir yolu çəkilənə qədər gərək biz bu işləri də hazırlayaq. Biz bu işləri – həm iqtisadi, siyasi, həm tarixə, keçmişimizə, mədəniyyətimizə münasibətlə bağlı işləri görürük. Bütün bunlar çox vacibdir, bir-birini tamamlayır. Müstəqilliyimiz əbədidir. Bundan sonra ancaq və ancaq inkişaf olacaq.

*Qeyd edək ki, abidə qranitdən və ağ mərmərdən yonulub. Üzərində 1918-ci il mayın 28-də Tiflisdə qəbul olunmuş «İstiqlal bəyannaməsi»nin həm əski, həm də latın qrafikalı yeni Azərbaycan əlifbası ilə həkk olunduğu abidə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin yaşadılması və onun gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyev abidənin ucaldıldığı yerdə aparılmış abadlıq işlərini yüksək qiymətləndirdi.*

*Dövlət başçısı tanınmış alimlər və ziyalılarla birlikdə abidənin önündə xatirə şəkli çəkdirdi.*

## LUVR MUZEYİNİN DİREKTORU ANRİ LUARET İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Prezident sarayında Fransanın dünya şöhrətli Luvr muzeyinin direktoru Anri Luareti qəbul etmişdir.*

*Dövlətimizin başçısı dünyanın ən məşhur muzeylərindən olan Luvr muzeyinin direktorunun Azərbaycana səfərinin ölkəmizin mədəni həyatında əlamətdar hadisə olduğunu bildirdi. Luvr muzeyi ilə Azərbaycan muzeyləri arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətindən danışan dövlətimizin başçısı cənab Luaretin ölkəmizə səfərinin Azərbaycanın mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığının daha da genişləndirilməsi işinə mühüm töhfə verəcəyinə əminliyini söylədi.*

*Anri Luaret Azərbaycana səfərindən məmnun qaldığını bildirdi. Rəhbərlik etdiyi muzeyin Azərbaycan muzeyləri ilə əməkdaşlıq imkanları və gələcək planlar barədə danışan qonaq bu yaxınlarda Luvr muzeyində açılacaq yeni ekspozisiyada Azərbaycanın mədəniyyət nümunələrinin təmsil edilməsində maraqlı olduğunu vurğuladı.*

## ABŞ VİTSE-PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ COZEF VUD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Prezident sarayında ABŞ vitse-prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Cozef Vudu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan –ABŞ münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, enerji, təhlükəsizlik məsələləri və demokratik inkişaf prosesləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Kraliçanın Təvəllüd günü münasibətilə Sizə və bütün xalqınıza təbriklərimizi ifadə etməkdən məmnunluq duyuram.

Bu gün ölkələrimiz istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar və layihələr çərçivəsində müvəffəqiyyətlə əməkdaşlıq edirlər. Bu əməkdaşlıq xalqlarımız arasında mənəvi körpülər salaraq onları bir-birinə yaxınlaşdırmaqla yanaşı, ümumi rifahımıza, iqtisadi potensialımızın daha da möhkəmlənməsinə xidmət edir.

Əminəm ki, qarşılıqlı münasibətlərimizin hazırkı inkişaf dinamikası bundan sonra da sabit və davamlı olacaqdır.

Fürsətdən istifadə edərək Sizə ən xoş arzularımı yetirir, Birləşmiş Krallığın dost xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2007-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Əminəm ki, dostluq və əməkdaşlığımız bundan sonra da ardıcıl şəkildə inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2007-ci il*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Portuqaliya günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Portuqaliya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və filavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2007-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramı – Rusiya günü münasibətilə Sizi və bütün Rusiya xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan təbrik edirəm.

Şadam ki, bu gün Rusiyada dövlətçiliyin möhkəmləndirilməsi, mühüm sosial-iqtisadi, ictimai-siyasi dəyişikliklərin həyata keçirilməsi prosesi uğurla gedir. Rusiyanın dünya birliyində nüfuzu durmadan artır, mövqeləri möhkəmlənir.

Ölkələrimizi və xalqlarımızı əsrlərdən bəri sıx mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma telləri bağlayır. Əminəm ki, bundan sonra da bizim birgə səylərimiz dövlətlərimizin, Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin mənafeləri naminə Azərbaycanla Rusiya arasında sıx, qarşılıqlı surətdə faydalı və konstruktiv əməkdaşlığın, strateji tərəfdaşlığın inkişafına və möhkəmlənməsinə yönəldiləcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, Sizə və bütün dost Rusiya xalqına böyük uğurlar, sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2007-ci il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM QLORİYA MAKAPAQAL ARROYAYA**

Hörmətli xanım Prezident!

Filippin Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Filippin münasibətləri daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAX RAYONUNA SƏFƏRİ

*30 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Qazax rayonuna səfərə gəlmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə Heydər parkında ümummilli liderimizin abidəsini ziyarət etdi, xanımı Mehriban Əliyeva ilə birlikdə abidə önünə gül dəstəsi qoydu, parkı gəzdi. Dövlətimizin başçısına parkın ərazisinin genişləndiriləcəyi barədə məlumat verildi və bildirildi ki, burada müasir texnoloji avadanlığa malik informasiya köşkü yaradılmışdır. Bu köşk vasitəsilə insanlar ulu öndər Heydər Əliyevin həyat yolu, fəaliyyəti haqqında dolğun informasiya ala bilirlər. Köşk internet şəbəkəsinə qoşulmuşdur və dünya informasiya mənbələrinə daxil olmaq mümkündür. Vətəndaşlar öz irad və təkliflərini elektron poçt vasitəsilə rayon icra hakimiyyətinə çatdıra bilərlər. Qazaxlılar burada ulu öndərin 1998-ci ildə prezident seçkiləri ərəfəsində rayonda ictimaiyyətlə görüşdə söylədiyi nitqi də dinləyə bilirlər.*

*Dövlətimizin başçısı parkın ətrafından axan Ağstafa çayını seyr etdi və burada xanımı ilə birlikdə xatirə şəkli çəkdirdi.*

## QAZAXDA OLIMPIYA İDMAN KOMPLEKSININ TƏNTƏNƏLİ AÇILIŞI

*30 may 2007-ci il*

*Mayın 30-da Qazax şəhərində Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimi olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.*

*Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi və buraya toplaşmış idmançılarla görüşdü.*

*Sonra dövlətimizin başçısı kompleksin ərazisini gəzdi, yeni idman qurğusu ilə tanış oldu.*

*Məlumat verildi ki, burada idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün hər şərait yaradılmışdır. Kompleksdə təkcə yerli əhəmiyyətli deyil, beynəlxalq səviyyəli yarışların keçirilməsi üçün də imkan vardır. Ətraf yaşıllaşdırılmış, bəzək kolları əkilmişdir. Təməli 2005-ci ildə Azərbaycan prezidenti İlham Əliyevin tapşırığı ilə qoyulmuş kompleksin ərazisi 15 hektardır. 1000 nəfərlik tamaşaçı yeri olan böyük idman zalından əlavə, 4 məşq meydançası, 5 kiçik salon, ortülü hovuz, tennis kortları, mehmanxana, 6 ədəd ikimərtəbəli və 10 ədəd birmərtəbəli kotteclər, mini futbol meydançası vardır. Xarici qonaqların yüksək səviyyədə qəbulu üçün də hər cür şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev bütün bunlarla tanış oldu, yüksək səviyyədə inşa olunmuş bu obyektlərin rayon üçün böyük əhəmiyyəti olduğunu bildirdi.*

*Kompleksdə «Güc» muzeyi də fəaliyyət göstərir. Bu muzeyin məqsədi xaricdən gələn qonaqları rayon əhalisinin məişətdə istifadə etdiyi qədim əşyalarla, eləcə də məşhur Qazax xalçaları və xalça məmulatı ilə tanış etməkdir.*

*Prezident İlham Əliyev muzeyin eksponatlarına baxdı.*

*Kompleksdə ümummilli lider Heydər Əliyevin büstü qoyulmuş, Azərbaycan, o cümlədən Qazax idmançılarının beynəlxalq və respublika səviyyəli yarışlardakı uğurlarını əks etdirən guşə yaradılmışdır.*

*Sonra kompleksin açılışına həsr olunmuş mərasim keçirildi.*

## QAZAX OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*30 may 2007-ci il*

Əziz qazaxlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Qazax Olimpiya İdman Kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, bu gözəl olimpiya kompleksində idmançılar çox uğurla çıxış edəcəklər. Gənc idmançılar burada məşqlər edəcək, Qazax sakinləri idmanla məşğul olacaqlar. Həm idmanla məşğul olmaq, həm də dincəlmək, asudə vaxt keçirmək üçün burada bütün imkanlar var. Bu, olimpiya kompleksidir, idman, istirahət, turizm mərkəzidir. Burada gözəl üzgüçülük hovuzu, gözəl idman salonları, məşq otaqları, mehmanxana, kotteclər tikilibdir, çox böyük ərazisi var. Əminəm ki, qazaxlıların istifadəsinə verilən bu kompleks uzun illər ərzində xidmət göstərəcək və sakinlər buradan çox səmərəli şəkildə istifadə edəcəklər.

Mən xatırlayıram, iki il bundan əvvəl burada kompleksin tikintisi ilə tanış olurdum, görürdüm ki, iş gedir. O vaxt göstəriş vermişdim ki, kompleks dünyanın ən yüksək standartlarına uyğun şəkildə tikilsin, burada ən müasir avadanlıq quraşdırılsın. Dünyada hansı ən qabaqcıl texnologiya, hansı ən müasir avadanlıq, tikinti materialları varsa, burada tətbiq olunsun. Mən çox şadam ki, bu gözəl kompleks dünyanın ən yüksək standartlarına cavab verir. Azərbaycanda belə komplekslərin tikintisi bundan sonra da davam etdiriləcəkdir.

Azərbaycanda idmanın maddi-texniki bazasının möhkəmlənməsi üçün çox böyük işlər görülür. Qazax Olimpiya

Kompleksi Azərbaycanın müxtəlif bölgələrində tikilən 11-ci böyük olimpiya mərkəzidir. Bundan əlavə, Bakıda müxtəlif idman qurğuları – Heydər Əliyev adına İdman-Konsert Kompleksi əsaslı təmir olunub, bulvarda yerləşən İdman sarayı təmir edilib, Mingəçevirdə avarçəkmə bazası yenidən qurulur. Federasiyaların xətti ilə müxtəlif idman salonları tikilir. Yəni, Azərbaycanda idmanla məşğul olmaq üçün çox gözəl şərait var və mən əminəm ki, gələcək illərdə bizim ardıcıl, məqsədyönlü siyasətimiz nəticəsində Azərbaycanın hər bir yerində ən müasir idman qurğuları tikiləcəkdir. Deyə bilərəm ki, hazırda Azərbaycanın müxtəlif şəhər və rayonlarında 20 olimpiya kompleksi ya tikilir, yaxud da ki, onların tikintisi üçün hazırlıq işləri görülür. Bu çox böyük quruculuq işləridir. Biz buna çox böyük investisiya qoyuruq. Amma biz bu investtisiyaları insanların sağlamlığına qoyuruq, uşaqların idmanla məşğul olmasına qoyuruq. Bu investisiyaları Azərbaycanın gələcəyinə qoyuruq. Çünki idmanla məşğul olan insanlar, uşaqlar həm fiziki cəhətdən güclü olurlar, eyni zamanda, mənəvi cəhətdən də çox möhkəm, saf olurlar.

Biz də gələcək nəslimizi bu cür yetişdirməliyik. Onlar fiziki cəhətdən güclü, vətənpərvər olmalıdırlar və mənəvi cəhətdən Azərbaycan xalqına xas olan ən yüksək xüsusiyyətlərə malik olmalıdırlar.

Hər bir cəmiyyətin həyatında idmanın çox böyük rolu vardır. İdman həm ölkənin şöhrətini ucaldan bir sahədir, həm insanları fiziki cəhətdən sağlam edən sahədir, eyni zamanda, sosial sahədir. Bütün bu amillər idmanı ən cəlbedici və hər bir ölkədə çox mühüm yer tutan sahəyə çevirir. Mən çox şadam ki, Azərbaycanda idmana münasibət ən yüksək səviyyədədir. Dövlət xətti ilə bu münasibət göz qabağındadır. Azərbaycanda müxtəlif idman qurumları – Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman federasiyaları, cəmiyyətləri bir komanda şəklində fəaliyyət göstərir. Bir nöqtəyə vururlar ki, bu da Azərbaycanda idmanın güclənməsi, olimpiya hərəkatının yayılmasıdır.

Mən çox şadam ki, Azərbaycanda idmanın maddi-texniki bazasının möhkəmlənməsi ilə bərabər, idmançılarımız beynəlxalq yarışlarda da çox gözəl nəticələr göstərirlər. Hər il idmançılarımız beynəlxalq yarışlarda yüzlərlə qızıl, gümüş, bürünc medallar qazanırlar. Dünya, Avropa çempionatlarında Azərbaycanın bayrağı qaldırılır, Dövlət himni səslənir, Azərbaycanın idman şöhrəti yüksəlir. Müstəqil ölkə kimi, bizim Olimpiya oyunlarında iştirakımız da çox uğurlu olubdur. Sidney və Afina Yay Olimpiya oyunlarında Azərbaycan idmançıları səkkiz medal qazanmışlar. Bu çox böyük göstəricidir, çox böyük nailiyyətdir. Təsadüfi deyil ki, beynəlxalq olimpiya qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyır, bizim fəaliyyətimizi çox yüksək qiymətləndirir və Azərbaycanda idmana olan münasibəti başqa ölkələrə də örnək, nümunə kimi göstərilir. Bu da ondan irəli gəlir ki, Azərbaycanda dövlət səviyyəsində idmana çox böyük dəstək var, əməli, praktik işlər görülür. Azərbaycan Milli Olimpiya Komitəsi çox fəaldır və beynəlxalq idman, olimpiya qurumları ilə də bizim əməkdaşlığımız çox səmərəlidir və uğurludur. Bu yaxınlarda, keçən ay Masallıda olimpiya mərkəzinin açılışında Avropa Olimpiya Komitəsinin prezidenti iştirak edərkən demişdir ki, Azərbaycanda idman sahəsində çox böyük işlər görülür.

Biz çalışırıq ki, Azərbaycanda müxtəlif beynəlxalq yarışlar da keçirilsin. Gələn ay Bakıda bədii gimnastika üzrə Avropa çempionatı keçiriləcəkdir. Ondan sonra, bu il Bakıda güləşin bütün növləri üzrə dünya çempionatı keçiriləcəkdir. Bu onu göstərir ki, bizə çox böyük inam var, etimad var və beynəlxalq qurumlar bilir ki, Azərbaycanda istənilən yarış ən yüksək səviyyədə keçiriləcəkdir. İndi təkcə Bakıda deyil, Azərbaycanın müxtəlif bölgələrində də ən mötəbər beynəlxalq yarışların keçirilməsi mümkündür. Mən bu gün bu komplekslə tanış olarkən göstəriş verdim ki, burada müxtəlif idman növləri üzrə həm Azərbaycan çempionatları keçirilsin, həm də beynəlxalq yarışlar keçirilsin. Bunu etmək üçün bütün imkanlar var. Beynəlxalq idman qurumları ilə

bizim səmərəli əməkdaşlığımız, əlbəttə ki, Azərbaycanda idman hərəkatını daha da gücləndirir.

Bildiyiniz kimi, artıq bu sahədə bizim çox gözəl təcrübəmiz var. Növbəti addımımız da Azərbaycanın həm idman sahəsinə olan diqqətidir, eyni zamanda, Azərbaycanın ümumilikdə potensialını göstərir. Bu addım ondan ibarətdir ki, bu yaxınlarda biz 2016-cı ildə Yay Olimpiya oyunlarının Azərbaycanda keçirilməsi haqqında Beynəlxalq Olimpiya Komitəsinə müraciət etmişik. Bu, Azərbaycanın çox böyük iqtisadi və siyasi potensialı olan ölkə kimi təqdim edilməsidir. Biz artıq bəyan edirik ki, biz bunu etməyə hazırıq. İqtisadi potensialımız buna imkan verir, Azərbaycanda idman infrastrukturu yaradılıb və o vaxta qədər daha da möhkəmlənəcəkdir. Azərbaycanı idman ölkəsi kimi tanıyan beynəlxalq qurumlar, əlbəttə ki, bizə çox böyük diqqətlə yanaşırlar.

Mən əminəm ki, Azərbaycanın gələcək uğurlu inkişafı idman sahəsində də daha böyük uğurlara gətirib çıxaracaqdır.

Gələn il Çində Olimpiya oyunları keçiriləcək və bizim idmançılarımız da bu oyunlara hazırlaşırlar. Təlim-məşq toplanışları çox vacibdir və yüksək səviyyədə keçirilməlidir. Bir daha demək istəyirəm ki, bu toplanışların istənilən bölgədə keçirilməsi mümkündür.

Bir sözlə, idman həm insanı fiziki cəhətdən gücləndirir, həm mənəvi cəhətdən, həm də gənc nəslə imkan yaradır ki, öz fiziki sağlamlığını möhkəmləndirsin, asudə vaxtını səmərəli keçirsin. İdman sağlamlıqdır. Bizə isə sağlam millət lazımdır, sağlam yeni gənc nəsil lazımdır. Bilikli, savadlı, bütün dünyada gedən proseslərə bələd olan, gözəl təhsil alan, öz biliyi, savadı ilə Azərbaycanın gələcək inkişafına töhfə verəcək gənc nəsil lazımdır, vətənpərvər gənc nəsil lazımdır. Biz müharibə şəraitində yaşayırıq və əlbəttə, həmişə hazır olmalıyıq ki, torpaqlarımızı istənilən yolla, hərb yolu ilə azad edək. Bunu etmək üçün hazırlıq çox güclü olmalıdır və uşaqlar vətənpərvərlik ruhunda böyüməlidir.

Qazax rayonu da ön cəbhədədir, Ermənistanla həmsərhəddir. Qazaxlılar öz doğma torpaqlarını həmişə rəşadətlə qorumuşlar. Müharibədə çox böyük itkilər vermişlər, ancaq Azərbaycanın ərazi bütövlüyünü qorumuşlar, öz sərhədlərini qorumuşlar. İmkan verməmişlər ki, düşmən öz çirkin niyyətlərini burada həyata keçirsin. Halbuki, belə niyyətlər var idi. Qazaxlılar həmişə çox böyük məharətlə, böyük cəsarətlə doğma torpağımızın keşiyində durmuşlar. Azərbaycan xalqı bunu bilir və çox yüksək qiymətləndirir.

Bu gün rayonun inkişafında gedən müsbət proseslər məni çox sevindirir. Qazaxın iqtisadi potensialı güclənir, icra hakimiyyəti başçısının çıxışında səslənən rəqəmlər bunu əyani şəkildə göstərir. Burada böyük infrastruktur layihələr həyata keçirilir. Yol infrastrukturu yeniləşir. Bakı–Qazax avtomobil yolu tikilir və yəqin ki, bu yaxınlarda ən müasir, ən gözəl standartlara uyğun şəkildə istifadəyə veriləcəkdir. Gözəl olimpiya kompleksi tikilmişdir. Bildiyiniz kimi, bir müddət bundan əvvəl mənim göstərişimlə Qazaxda böyük Müalicə-Diaqnostika Mərkəzinin tikintisinə başlanmışdır və artıq qurtarmaq üzrədir. Bu da rayonun inkişafına çox böyük töhfədir. İnsanlar orada gözəl müalicə olunacaqlar, tibbi müayinədən keçəcəklər. Ağır xəstələr, böyrək çatışmazlığından əziyyət çəkən xəstələr həftədə 2-3 dəfə Bakıya getməyə məcbur idilər. Onlar burada keyfiyyətli müalicə alacaqlar və bu mərkəz insanların sağlamlığına çox böyük dəstək olacaqdır.

Körpülər tikilir, məktəblər tikilir, müəssisələr, fabriklər işə başlayır, iş yerləri açılır. Yəni bütün ölkədə gedən proseslər Qazaxda da gedir və Qazaxın siması dəyişir. Mən Qazaxda dəfələrlə olmuşam və bu gün buraya gələrkən bu gözəl dəyişiklikləri gördüm. Yeni parklar salınır, küçələr abadlaşır, çox gözəl xiyabanlar salınır, binalar tikilir. Budur Azərbaycanın bugünkü reallıqları, budur bizim siyasətimizin əməli, praktik nəticələri.

Bizim siyasətimiz görülən real işlərdir, həll olunan məsə-

lələrdir. İnvestisiya qoyuluşu, sosial məsələlərin həlli, quruculuq, abadlıq işləri, inkişafdır. Azərbaycanın ümumi inkişafı çox sürətlə gedir. Qazax rayonu da çox sürətlə inkişaf edir. Biz iqtisadi inkişaf baxımından ən dinamik və sürətlə inkişaf edən ölkəyik. Azərbaycanda elə sahə yoxdur ki, orada inkişaf olmasın, gözəl zavodlar, fabriklər, məktəblər, xəstəxanalar, idman qurğuları tikilir, aeroportlar tikilir, muzeylər, teatrlar bərpa edilir, yollar salınır. Azərbaycan indi inkişaf dövrünü yaşayır. Biz həmişə onu da yadda saxlamalıyıq ki, bu gözəl imkanları bizə ulu öndərin siyasəti yaratdı. Məhz onun Azərbaycana rəhbərliyə qayıdışından sonra bütün xoşagəlməz meyillər artıq keçmişdə qaldı və ölkə uğurla inkişaf etməyə başladı. İqtisadi islahatlar, siyasi islahatlar, quruculuq-abadlıq işləri, neft strategiyamız bu gün bizə imkan verir ki, bütün məsələlər öz həllini tapsın və belə gözəl komplekslərin tikintisi də mümkün olsun. Bundan sonra Azərbaycanın qarşısında çox üfüqlər açılır, çox gözəl perspektivlər var. Biz bilirik ki, hara gedirik, məqsədimiz nədir. Məqsədimiz müasir güclü dövlət yaratmaqdır. İqtisadi cəhətdən güclü dövlət yaratmaq, sosial rifah cəmiyyəti qurmaqdır. İnsanları narahat edən bütün məsələləri həll etmək, azad cəmiyyət yaratmaqdır ki, insanlar rahat, gözəl yaşasınlar, rifah içində yaşasınlar. Mənim də məqsədim budur və bu məqsədə doğru biz uğurla gedirik. Bütün Azərbaycan xalqı indi quruculuq işləri ilə məşğuldur. Bütün Azərbaycan xalqı ölkəmizin inkişafında fəal iştirak edir, o cümlədən qazaxlılar da.

Mən bu gözəl gündə bir daha demək istəyirəm ki, indiyədək görülən işlər çox sevindiricidir. Bizim çox böyük planlarımız var. İldən-ilə ölkəmiz daha da güclənəcək, bütün sahələrdə inkişaf gedəcək və Azərbaycan qüdrətli dövlətə çevriləcəkdir.

Əziz bacılar və qardaşlar, çox sevinirəm ki, bu gün yenidən Qazaxdayam. Çox sevinirəm ki, olduqca gözəl əsər yaradılmışdır. Qazaxlılar da bundan istifadə edəcəklər. Çox sevinirəm ki, Qazax şəhərində, qədim Azərbaycan tor-

pağında gözəl quruculuq, abadlıq işləri gedir. Bu münasibətlə mən sizi bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Arzu edirəm ki, həyatınızda hər şey yaxşı olsun. Arzu edirəm ki, həmişə sevinc içində yaşayasınız, həmişə əmin-amanlıq, sabitlik olsun, ölkəmiz çiçəklənsin, inkişaf etsin, Azərbaycan xalqı irəliyə getsin.

## Daş Salahlı kəndində sement zavodunun təməli qoyulmuşdur

*Mayın 30-da Qazax rayonunun Daş Salahlı kəndində sement zavodunun təməli qoyulmuşdur.*

*İnşaatçılar mərasimə gələn prezident İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezidentə məlumat verildi ki, «Akkord» şirkətlər qrupu tərəfindən inşa olunan zavod bölgəni tam təmin edəcək və işə düşdükdən sonra qərb bölgəsinə sement idxalı azalacaqdır. Qonşu Gürcüstana da məhsul ixrac etmək mümkün olacaqdır. Müəssisədə quraşdırma işlərini Çin və Avstriya mütəxəssisləri görəcəklər. Çinin «Çun-Xao» Sintezial beynəlxalq şirkəti dünyanın 22 ölkəsində belə zavod inşa etmişdir. Azərbaycanda inşa olunan zavod sayca 24-cüdür. Tikintidə yerli işçilər də çalışacaq, zavod işə düşdükdən sonra isə burada 300-dən çox adam daimi işlə təmin olunacaqdır.*

*Prezident İlham Əliyev gilizi təmələ qoydu və beton qarışığı tökdü, inşaatçılara işlərində uğurlar arzuladı.*

*Zavod gündə 2500 ton məhsul istehsal edəcəkdir. Xammal Qaymaqlı, Daş Salahlı, Ağköynək və Kəmərli kəndlərindəki yataqlardan gətiriləcəkdir. Zavodun tikintisi ilə əlaqədar bu kəndlərdən 150 hektar topraq sahəsi «Akkord» şirkətlər qrupunun balansına verilmişdir. Smeta dəyəri 49,5 milyon ABŞ dolları olan zavodun 2008-ci ilin avqustunda istifadəyə verilməsi nəzərdə tutulmuşdur.*

## Daş Salahlı Bentonit emalı zavodunun birinci mərhələsi işə salınmışdır

*Azərbaycan prezidenti İlham Əliyev mayın 30-da Daş Salahlı kəndində inşa olunan Bentonit emalı zavoduna gəldi. Dövlətimizin başçısını burada böyük hörmətlə qarşıladılar. «Azrosprominvest» Azərbaycan–Rusiya birgə müəssisəsinin bu zavodu «Daş Salahlı Bentonit» Açıq Səhmdar Cəmiyyətinin müəssisəsinin bazasında yaradılmışdır. Daş Salahlı Bentonit müəssisəsinin əsası ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. O vaxt SSRİ-nin bu məhsula olan tələbatını əsasən bu mədən təmin edirdi və müxtəlif ünvanlara ildə 800 min ton məhsul göndərilirdi. SSRİ-nin süqutundan sonra isə fəaliyyətini dayandırmışdı. Bu müəssisəyə ikinci həyat prezident İlham Əliyev tərəfindən verilmişdir. Hazırda burada 83 milyon ton xammal ehtiyatı vardır. «Şimal» karxanası gələcək nəsillər üçün qorunub saxlanılacaqdır. «Gəmi» və «Mərkəzi» karxanaları isə 25 illiyə istifadəyə veriləcəkdir. Həmin müddətdə gündə 25 min ton məhsul istehsal olunub ixrac ediləcəkdir. Əsas bazar Rusiya olacaqdır. Bu tipli müəssisə Türkmənistan və Gürcüstanda da vardır. Bu il Rusiyaya 70 min ton məhsul satılacaqdır.*

*Prezident İlham Əliyev «Azrosprominvest» birgə müəssisəsinin göstəriciləri ilə tanış oldu. Bildirildi ki, «Azrosprominvest» Rusiyanın «Bentonit» Elm-İstehsalat Birliyi və Azərbaycanın «Daş Salahlı Bentonit» Səhmdar Cəmiyyəti arasında bağlanmış icarə müqaviləsi əsasında yaradılmışdır. Müəssisənin əsas məqsədi metallurgiya, neft, qaz, ətriyyat, maşınqayırma və digər sənaye sahələrində istifadə olunan yüksək keyfiyyətli bentonit gili emal etmək və Avropa bazarında layiqli mövqe tutmaqdır. Müəssisənin elan olunmuş nizamnamə fondu 12 milyon ABŞ dollarıdır, o cümlədən Rusiya tərəfindən birbaşa investisiyaları 6 milyon ABŞ dolları təşkil edəcəkdir. Hazırda sərf olunan birbaşa investisiyaların məbləği 2,9 milyon ABŞ dolları təşkil edir.*

*Zavodun inşasında ən müasir texnologiya tətbiq olunacaq, avadanlıq Almaniya, Rusiya, Ukraynadan gətiriləcəkdir.*

*Hazırda zavodda 120 nəfər çalışır. 2008-ci ilin mayında tam istifadəyə veriləndən sonra 250 nəfər işlə təmin ediləcəkdir. İşçilər gündə bir dəfə pulsuz yeməklə təmin olunur. Zavoda məxsus nəqliyyat vasitəsilə işdən evə çatdırılırlar. İşçilərin ixtisasının artırılması üçün mütəmadi kurslar təşkil edilir. Bu zavod dünyada analoqu olmayan yeganə profilli müəssisədir.*

*Prezident İlham Əliyev zavodun birinci mərhələsinin işə düşməsini bildirən düyməni basdı və müəssisə işə düşdü. Dövlətimizin başçısı kollektivə öz xeyir-duasını verdi və gələcək fəaliyyətlərində uğurlar arzuladı.*

## Qazax Müalicə-Diaqnostika Mərkəzinin tikintisi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev mayın 30-da Qazax Müalicə-Diaqnostika Mərkəzinin tikintisi ilə tanış olmuşdur.*

*Mərkəzin ümumi tikinti sahəsi 6 min kvadratmetrdir. Üçmərtəbəli bina bu ilin avqust–sentyabr aylarında tam istifadəyə veriləcəkdir.*

*Təməli 2005-ci il oktyabrın 11-də prezident İlham Əliyev tərəfindən qoyulmuş mərkəzin birinci mərtəbəsində funksional diaqnostika, təcili yardım şöbələri, ikinci mərtəbədə dializ şöbəsi və stasionar, üçüncü mərtəbədə isə cərrahiyyə-əməliyyat bloku yerləşəcəkdir. Mərkəzin avtomobil dayanacağı, nasos stansiyası, istilik mərkəzi, yardımçı elektrik stansiyası olacaqdır.*

*Prezident İlham Əliyev tikinti işlərinin gedişi ilə tanış oldu, tövsiyə və tapşırıqlarını verdi. Dövlətimizin başçısı dedi ki, bu mərkəz ən müasir tələblərə cavab verməlidir, xarici görünüşü də yüksək səviyyədə olmalıdır. Tam istifadəyə veriləndən sonra xəstələr əziyyət çəkib Bakıya və digər şəhərlərə getməyəcəklər, burada istənilən müalicəni ala biləcəklər. Hətta qonşu Gürcüstanda yaşayan azərbaycanlılar da bu mərkəzin xidmətindən istifadə edə biləcəklər.*

## İsmayıl Şıxlı adına parkın açılış mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev mayın 30-da Qazax şəhərinin mərkəzində – Heydər Əliyev prospektində Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan parkın və ədibin abidəsinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev abidənin üzərindən ağ örtüyü götürdü. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

*Abidənin və parkın inşasına 2006-cı ildə başlanılmışdır. 1,2 hektar sahəni əhatə edən parkda görkəmli ədibin qranit postament üzərində 4,2 metr hündürlüyündə heykəli qoyulmuşdur.*

*Azərbaycan Yazıçılar Birliyi Qazax bölməsinin rəhbəri Barat Vüsal Xalq yazıçısı İsmayıl Şıxlının yaradıcılığından, görkəmli ictimai xadim kimi fəaliyyətindən söhbət açdı, onun Azərbaycanın müstəqilliyi yolunda xidmətlərini xatırlatdı. O, ulu öndər Heydər Əliyevin ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinə diqqət və qayğısını xüsusi vurğuladı, onların yubileylərinin keçirilməsini, xatirələrinin əbədiləşdirilməsinin ölkə ictimaiyyəti tərəfindən razılıqla qarşılandığını bildirdi.*

*İsmayıl Şıxlının oğlu Elçin Şıxlı prezident İlham Əliyevə təşəkkür edərək dedi ki, onun Qazax rayonuna, sərhəd bölgəsinə səfəri insanlarda böyük ruh yüksəkliyi doğurur.*

*Prezident İlham Əliyev Azərbaycan dilinin, tarixinin qorunmasında Heydər Əliyevin xidmətlərini xatırlatdı, ədiblərin bu sahədə fəaliyyətlərini yüksək qiymətləndirdi və dedi ki, onların yaradıcılığına yüksək qiymət verilməlidir. Azərbaycanda bu ənənə Heydər Əliyev dövründən sonra davam etdirilmişdir. Lakin 90-cı illərin əvvəllərində bu sahəyə diqqət yetirilməmiş, əksinə, bir çox mədəniyyət ocaqlarının bağlanmasına qərar verilmişdir. Lakin ulu öndər əvvəlki ənənəni bərpa edərək, Azərbaycanın ədəbiyyat, mədəniyyət xadimlərinə daim böyük diqqət və qayğı göstərmişdir. Bu ənənə bundan sonra da davam edəcəkdir.*

*Prezident İlham Əliyev Xalq yazıçısı İsmayıl Şıxlının Milli Məclisdəki fəaliyyətini xatırlatdı, onun adına parkın salınmasını və burada abidəsinin qoyulmasını ədibin yaradıcılığına verilən yüksək qiymət, xatirəsinə göstərilən ehtiram kimi dəyərləndirdi.*

**«Mütəfəkkirlər bağı» ilə tanışlıq**

*Azərbaycan prezidenti İlham Əliyev mayın 30-da Qazax şəhərinin mərkəzində yerləşən «Mütəfəkkirlər bağı» ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Qazax rayonunun ədəbiyyat, incəsənət, elm və hərbi sahədə görkəmli şəxsiyyətlərinin xatirəsinə salınmış bağ 2 hektar sahəni əhatə edir. Bağın giriş hissəsində Xalq şairi Səməd Vurğunun heykəli, baş hissəsində isə Molla Pənah Vaqifin və Molla Vəli Vidadinin heykəlləri ucaldılmışdır. Bağda Azərbaycanın Xalq yazıçıları Mehdi Hüseynin, İsmayıl Şıxlının, Yusif Səmədoğlunun, Xalq şairləri Osman Sarıvəllinin, Mirvarid Dilbazinin, Cənubi Qafqazda ilk pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Əhməd Seyidovun, ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbovun, ilk artilleriya generalı Əlağa Şıxlinskinin, ilk hərbi topoqrafiya generalı İbrahim ağa Vəkilovun, İtaliyanın milli qəhrəmanı Tahir İsayevin, saz havalarının mahir ifaçısı, ustad Ədalət Nəsibovun və akademik Teymur Bünyadovun büstləri qoyulmuşdur. 2005-ci ilin iyununda açılmış bağda milli ornamentli rəngli fəvvarələr kompleksi də yaradılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva büstlərə bir-bir tamaşa etdilər.*

*Prezident İlham Əliyev bu cür parkların və bağların başqa yerlərdə də salınmasının zəruriliyini vurğuladı, Qazaxda görülən abadlıq-quruculuq işlərini yüksək qiymətləndirdi.*

## «Dədə Qorqud» abidə kompleksini ziyarət

*Azərbaycan prezidenti İlham Əliyev mayın 30-da Qazax şəhərində «Dədə Qorqud» abidə kompleksini ziyarət etmişdir.*

*Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi ilə əlaqədar ulu öndər Heydər Əliyevin 1999-cu il 21 fevral tarixli sərəncamına əsasən, Qazax şəhərinin şərq girəcəyində «Dədə Qorqud» meydanı salınmışdır. 2005-ci ildə meydan tamamilə yenidən qurulmuşdur və 5 min kvadratmetr sahəni əhatə edir. Meydanda Dədə Qorqudun 9 metr hündürlüyündə heykəli ucaldılmışdır və dastanın 12 boyunu əks etdirən kompozisiyalarla birlikdə yaraşıqlı kompleks yaradılmışdır.*

*Burada ulu öndərin «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin bu gün üçün də, gələcək nəsillər üçün də, dünya üçün də böyük əhəmiyyəti vardır» kəlamı yazılmış lövhə vurulmuşdur.*

*Prezident İlham Əliyev bu ulu dastanla bağlı qədim Qazax torpağında belə abidə kompleksinin yaradılmasını tariximizin bugünkü və gələcək nəsillərə olduğu kimi çatdırılması baxımından çox əhəmiyyətli olduğunu vurğuladı, eyni zamanda, onun şəhərə xüsusi yaraşıq verdiyini bildirdi.*

*Sonra Qazax aşıqları prezident İlham Əliyevin və xanımının gəlişi şərəfinə el havaları ifa etdilər.*

*Daha sonra dövlətimizin başçısına Qazaxın rəmzi sayılan Dilboz atı hədiyyə olundu. Dilboz atı (Qazax atı da deyilir) Azərbaycanda XVIII əsrin sonu – XIX əsrin əvvəllərində yetişdirilmiş cinsdir. Bu atların boz rəngli yaxşı minik tipi vaxtilə Dilbazilər nəslinin ilxısında çox yayıldığına görə ona Dilboz (Dilbazi) atı adı verilmişdir. Prezident İlham Əliyev və Mehriban xanım atın yanında xatirə şəkli çəkdirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev Qazaxa səfərini başa çatdıraraq Tovuz rayonuna yola düşdü.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TOVUZ RAYONUNA SƏFƏRİ

*30 may 2007-ci il*

### Ulu öndərin abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Tovuz rayonunda səfərdə olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə Tovuz şəhərinin Heydər Əliyev meydanında xalqımızın ümummilli liderinin abidəsini ziyarət edərək gül dəstələri qoydular.*

*Dövlətimizin başçısı sonra Tovuzda aparılacaq abadlıq və quruculuq işlərinə dair hazırlanmış tədbirlər planı, tikiləcək yeni obyektlərin, inzibati binaların layihələri ilə tanış oldu.*

*Rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalov məlumat verdi ki, ilk növbədə Tovuz şəhərinin və mərkəzi su kəməri boyunca yerləşən yaşayış məntəqələrinin içməli su təchizatına diqqət yetiriləcəkdir. Bu məqsədlə 5,6 kilometr uzunluğunda su xətti çəkiləcək, anbarlar, suqəbuledici qurğular, laboratoriya binası tikiləcəkdir. Şəhərdə rəngli və musiqili böyük fəvvarə yaradılacaq, yeni park və xiyabanlar salınacaqdır. «Turanbank»ın filialı üçün bina və yeni müasir mehmanxana da inşa ediləcəkdir.*

*Şəhərin giriş hissəsi milli memarlıq üslubunda tamamilə yenidən qurulacaqdır. Heydər Əliyev seyrangahı tamamilə yeni görkəm alacaq, Tovuzçayın yaxınlığında süni göl olacaq, sakinlərin mədəni istirahəti, gənclərin məşğuliyyəti üçün gözəl şərait yaradılacaqdır.*

*Prezident İlham Əliyev görüləcək işlərə tezliklə başlanmasının zəruriliyini bildirdi, müvafiq tövsiyə və tapşırıqlarını verərək, nəzərdə tutulan bütün işlərin yüksək zövqlə və keyfiyyətlə yerinə yetirilməsinin vacibliyini vurğuladı.*

## Tovuz şəhərində Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimi

*Mayın 30-da Tovuz şəhərinin giriş hissəsində Olimpiya İdman Kompleksinin təməlinin qoyulması münasibətilə mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Mərasimə toplaşmış minlərlə sakin dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev Olimpiya İdman Kompleksinin layihəsi ilə tanış oldu. Məlumat verildi ki, iki mərtəbədən ibarət bu idman qurğusu gələn ilin payızında istifadəyə veriləcəkdir. Kompleksdə üzgüçülük hovuzu, futbol, voleybol, basketbol meydançaları, idman salonları, təlim-məşq otaqları və kotteclər inşa ediləcək, idmançılar üçün hər cür şərait yaradılacaqdır.*

*Dövlətimizin başçısı gilizi təmələ atdı və beton qarışığı tökdü, inşaatçılara işlərində uğurlar arzuladı.*

## TOVUZ OLİMPİYA KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ NİTQ

*30 may 2007-ci il*

Əziz tovuzlular!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Çox şadam ki, yenidən Tovuzdayam və bu gözəl gündə, əlamətdar gündə sizinlə birlikdəyəm. Bu gün Tovuzda müasir olimpiya kompleksinin təməlqoyma mərasimində bərabər iştirak edirik. Mən əminəm ki, qısa müddət ərzində, gələn il bu olimpiya kompleksinin tikintisi başa çatacaq və biz yenə də görüşəcəyik, bir yerdə olacağıq.

Bu olimpiya mərkəzinin Tovuzda yaradılması çox böyük əhəmiyyət kəsb edən məsələdir. Bu, təkcə olimpiya idman mərkəzi deyil, eyni zamanda, turizmin inkişafı üçün çox gözəl dəstək olacaqdır. Burada gözəl mehmanxana, üzgüçülük hovuzu, gözəl idman salonları olacaq, yarışların, təlim-məşq toplanışlarının keçirilməsi üçün bütün şərait yaradılacaqdır. Bildiyiniz kimi, Azərbaycanda belə gözəl olimpiya qurğularının tikintisi geniş vüsət almışdır. Bu gün səhər mən Qazax rayonunda gözəl olimpiya mərkəzinin açılışında iştirak etdim və bir daha gördüm ki, bizim nə qədər böyük potensialımız var, nə qədər böyük imkanlarımız var. İndi Azərbaycanda istənilən infrastruktur obyekt, istənilən müəssisə, sosial obyekt, o cümlədən idman qurğuları dünyanın ən yüksək standartlarına uyğun şəkildə yaradılır. Azərbaycanda son illər ərzində 11 müasir olimpiya idman kompleksi yaradılmışdır və hamısı da ən yüksək dünya standartları səviyyəsindədir. Mən əminəm ki, Tovuzda tiki-

ləcək kompleks də dünya standartları səviyyəsində olacaq və rayonun inkişafına öz töhfəsini verəcəkdir.

Mən çox şadam ki, işlər çox sürətlə aparılır. Bu gün buraya gəlməzdən əvvəl Tovuzda görüləcək işlərlə tanış oldum, gördüm ki, çox böyük planlar var: həm abadlıq-quruculuq işləri, həm tarixi yerlərin bərpası, həm də insanları narahat edən sosial problemlərin həlli, su kəmərinin çəkilişi, məktəb tikintisi. Yəni bütün sahələrdə, bütün ölkəmizdə olduğu kimi, Tovuzda da çox böyük imkanlar var. İnkişaf üçün imkanlar var ki, rayon əhalisi daha da gözəl şəraitdə yaşasın. Tovuzun çox böyük potensialı var, çox böyük rayondur. Mən çox istərdim ki, Tovuz çiçəklənsin, inkişaf etsin. Burada güclü sənaye potensialı yaradılsın, kənd təsərrüfatı inkişaf etsin, bütün sosial məsələlər öz həllini tapsın. Əlbəttə, mən əlimdən gələni edəcəyəm ki, biz birlikdə buna nail ola bilək.

Bildiyiniz kimi, Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Mən dəfələrlə bəyan etmişəm ki, biz insanlar üçün yaşayırıq, insanlara xidmət etmək üçün işləyirik. Mən əsas vəzifəni bunda görürəm. Həm ölkənin iqtisadi potensialını möhkəmləndirmək, həm də insanları narahat edən bütün problemləri uğurla həll etmək – bu iki istiqamətdə Azərbaycanda çox böyük işlər görülübdür, xüsusi proqramlar icra olunur. Biz tam şəkildə bazar iqtisadiyyatı şəraitində yaşayırıq. İqtisadiyyatımızın 81 faizi özəl sektorda formalaşıbdır. Ancaq bununla bərabər, sosial məsələlərin həlli də həmişə diqqət mərkəzindədir və belə də olmalıdır. Bəzi hallarda bazar iqtisadiyyatı prinsipləri tam şəkildə tətbiq olunanda sosial ədalət prinsipləri bir qədər kölgədə qalır. İnkişaf etmiş ölkələrin təcrübəsi, onların keçid dövrünün təcrübəsi bunu göstərir. Biz isə çalışırıq ki, Azərbaycanda bazar iqtisadiyyatı, iqtisadi islahatlar sürətlə aparılmaqla bərabər, insanların həyat səviyyəsi də yaxşılaşsın. Bir çox hallarda çox ciddi islahatlar aparılan zaman cəmiyyətdə sosial gərginlik artır. Bunun qarşısını almaq üçün, sosial məsələlərin həlli üçün müxtəlif proqramlar icra

olunur. Minimum əməkhaqqı, minimum pensiyalar mütəmadi qaydada qaldırılır. Ehtiyac içərisində yaşayan təbəqə üçün ünvanlı sosial yardım nəzərdə tutulubdur. Yoxsulluqla mübarizə proqramı uğurla icra edilir və Azərbaycanda yoxsulların sayı kəskin şəkildə aşağı düşübdür. Ümid edirəm ki, biz Azərbaycanda yoxsulluğun tamamilə aradan qaldırılmasına nail olacağıq.

Yəni, bu bizim prinsipial mövqeyimizdir, bizim siyasətimizdir və Azərbaycanda görülən işlərin, icra olunan bütün proqramların əsas məqsədi insanlarımızın daha da yaxşı yaşamasıdır. Bunu nəzərə alaraq, bildiyiniz kimi, Azərbaycanda indi yeni müalicə-diaqnostika mərkəzlərinin tikintisi də başlanmışdır. Müxtəlif bölgələrdə bu komplekslərin tikintisi nəzərdə tutulur. Biz vaxtilə olimpiya komplekslərinin tikintisinə başlayanda – nəzərə almalıyıq ki, bunları bir ildə, iki ildə bütün bölgələrdə etmək mümkün deyil – çalışırdıq ki, hər bir bölgədə olimpiya kompleksi yaradılsın. İndi isə çalışırıq ki, hər bir rayonda olimpiya kompleksi yaradılsın.

Eyni yanaşma müalicə-diaqnostika mərkəzlərinin tikintisində də mövcuddur. Biz ilk mərhələdə çalışırdıq və nəzərdə tutmuşduq ki, hər bir bölgədə belə mərkəzlər yaradılsın ki, insanlar ondan daha da rahat istifadə edə bilsinlər. Ancaq növbəti mərhələdə, əlbəttə, hər bir rayon mərkəzində belə müalicə-diaqnostika mərkəzinin tikintisi nəzərdə tutulacaqdır. Bu bölgədə Gəncə və Qazaxda nəzərdə tutulmuşdu. Qazaxda işlər artıq başa çatmaq üzrədir, Gəncədə də işlər gedir. Ancaq icra hakimiyyəti başçısının müraciətini və Tovuz rayonunun potensialını, əhalisinin çoxluğunu nəzərə alaraq, mən hesab edirəm ki, biz yaxın vaxtlarda burada da müasir müalicə-diaqnostika mərkəzinin tikintisinə başlamalıyıq. Mən bununla əlaqədar müvafiq göstərişlər verəcəyəm.

Bildiyiniz kimi, indi ölkəmizdə quruculuq, abadlıq işləri çox sürətlə gedir. Bizim iqtisadi potensialımız möhkəmlənir, büdcə gəlirləri və xərcləri kəskin şəkildə artır. İqtisadi artım dünyada analoqu olmayan sürətlə gedir. Biz son üç il

ərzində bu göstəriciyə görə dünyada birinci ölkəyik, aparıcı yerdəyik. İqtisadi islahatlar, eyni zamanda, sosial siyasətin güclənməsi – bütün bunlar bizim imkanlarımızı artırır. Azərbaycanın dövlət büdcəsi ildən-ilə yüksək sürətlə artır. Bu yaxınlarda Milli Məclisdə bu məsələyə yenidən baxıldı və Azərbaycanın dövlət büdcəsi yenidən artırıldı. Bu il Azərbaycanın büdcə xərcləri 6,3 milyard manatdır. Bu da təxminən 7,4–7,5 milyard dollar təşkil edir. Biz nəzərə almalıyıq ki, bir neçə il bundan əvvəl dövlət büdcəmiz cəmi 1 milyard dollar idi. Görün nə qədər artım var, imkanlar nə qədər artıbdır. Əsas məsələ ondadır ki, büdcə xərcləri ilk növbədə sosial məsələlərin həllinə yönəldilsin, eyni zamanda, infrastruktur layihələrin həllinə və Azərbaycanda güclü qeyri-neft sektorunun inkişafına yönəldilsin. Bu məqsədlə bizim xüsusi proqramlarımız var, o cümlədən sənaye inkişafı proqramı, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Mənə dünən verilən məlumata görə, 2003-cü ilin oktyabr ayından bu ayın sonuna qədər Azərbaycanda 552 min yeni iş yeri açılmışdır. Yəni, bu çox böyük göstəricidir. Bu onu göstərir ki, bizim iqtisadi inkişaf proqramımız, regional inkişaf proqramımız uğurla icra edilir. Yoxsulluq azalır, işsizlik azalır və imkanlarımız da artır.

Əminəm ki, kənd təsərrüfatında aparılan islahatlar öz bəhrəsini verəcəkdir. İndi biz kənd təsərrüfatında artımı görürük. Müxtəlif proqramlar həyata keçirilir. «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılıbdır. Azərbaycanda artıq kənd təsərrüfatı texnikasının istehsalına başlanılıb və əminəm ki, yaxın zamanlarda kəndlilərə çox böyük sayda texnika veriləcəkdir. Kənd təsərrüfatına dəstəyin artırılması üçün büdcədə 80 milyon manat dotasiya nəzərdə tutulubdur. Sahibkarlığın, kənd təsərrüfatının, qeyri-neft sektorunun, yerli sənayenin inkişafı, idxalı əvəz edə biləcək məhsulların istehsalı – Azərbaycanın qeyri-neft sektoruna aid olan ümumi inkişaf konsepsiyası budur. Bir daha demək istəyirəm ki, biz bu sahədə böyük uğurlar qazanmışıq. Ancaq, əlbəttə ki, hələ böyük problemlər var və onların həlli bizim

üçün ən başlıca vəzifədir. Elə olmalıdır ki, Azərbaycanda bütün sosial məsələlər öz həllini tapsın. Azərbaycanda minimum əməkhaqqı insanın minimum tələbatını ödəsin, baxmayaraq ki, bu sahədə də böyük artım var. Bu gün Azərbaycanda orta əməkhaqqı 200 dollardır. İlin sonuna qədər yenə də artacaqdır. Ancaq onu da etiraf etməliyik ki, bütün kateqoriyalardan olan insanlar bu əməkhaqqını almır. Büdcədən maliyyələşən təşkilatlarda işləyən insanların əməkhaqqı baxmayaraq ki, bir neçə dəfə qaldırılıb, ancaq hələ ki, bizi qane etmir.

Azərbaycanda orta pensiya 58 manatdır. Əvvəlki illərlə müqayisədə çox böyük artımdır. Amma bu pensiya ilə insan özünü təmin edə bilmir. Bütün bu problemləri biz bilirik və onu da bilirik nə etməliyik. İlk növbədə öz gücümüzə arxalanmalıyıq. İlk növbədə iqtisadi potensialı maksimum şəkildə işə salmalıyıq. Bizim böyük təbii sərvətlərimiz – neftimiz, qazımız var. Heydər Əliyevin neft strategiyası uğurla icra edilir və Azərbaycana həm siyasi, həm də iqtisadi dividendlər gətirir. İndi ölkəmiz beynəlxalq müstəvidə özünə layiq möhkəm yerini tutubdur. Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərində çox fəal iştirak edir və bizim təşəbbüslərimiz, siyasətimiz, baxışlarımız bölgədə enerji siyasətinin formalaşmasında aparıcı rol oynayır. Bu belədir və biz bu imkanlardan səmərəli istifadə etməliyik. Elə etməliyik ki, bu böyük təbii sərvətlər, bu kapital insan kapitalına çevrilsin. Bunun üçün olimpiya kompleksləri, məktəblər, xəstəxanalar, bütün sosial infrastruktur, iş yerləri, zavodlar, fabriklər lazımdır və biz bunu edirik.

Əgər biz müqayisə üçün istənilən ölkənin inkişaf dinamikasını götürsək görərik ki, istər ümumi daxili məhsulun artımına görə, istərsə də yoxsulluğun azaldılmasına, iş yerlərinin açılmasına görə və xüsusi infrastruktur layihələrin həyata keçirilməsinə görə ən sürətlə, ən dinamik inkişaf edən ölkə Azərbaycandır. Bu məni çox sevindirir. Onu göstərir ki, bizim siyasətimiz düşünülmüş siyasətdir, ölkəmizin inkişafına gözəl şərait yaradır.

Mən xatırlayıram, prezident seçkiləri ərəfəsində Tovuzda olarkən, burada insanlarla görüşərkən, camaatla, vətəndaşlarla söhbət edərkən demişdim ki, əgər bu yüksək vəzifəyə seçilsəm, əlimdən gələni edəcəyəm ki, ölkənin qarşısında duran bütün problemlərin həlli üçün çalışım və onları həll edim. Mən çox şadam, çox sevinirəm və çox böyük qürur hissi ilə deyə bilərəm ki, son 3-4 il ərzində Azərbaycan böyük və şərəfli yol keçibdir. Həm beynəlxalq müstəvidə, həm də ölkə daxilində gedən proseslər, iqtisadi islahatlar, ölkədə sabitliyin, vətəndaş birliyinin möhkəmlənməsi, vətəndaş cəmiyyətinin formalaşması, xalqla iqtidar arasında birliyin mövcudluğu və möhkəmlənməsi – bütün bunlar ölkəmiz üçün çox vacibdir.

Biz görürük, tarixdən bilirik və indiki zamanədə başqa ölkələrdə baş verən hadisələri də görürük. Görürük ki, harada siyasət xalq tərəfindən dəstəklənirsə, o ölkədə sabitlik də var, əmin-amanlıq da var, insanlar da normal yaşayırlar və heç bir böhranlı vəziyyət yaranmır. Mən çox şadam ki, Azərbaycanda bu gün məhz belə vəziyyət mövcuddur. 90-cı illərin əvvəllərində Azərbaycanda hansı vəziyyət olduğunu biz hamımız yaxşı xatırlayırıq. Ölkəmizin gələcəyi üçün böyük təhlükələr var idi, ölkə idarəolunmaz vəziyyətdə idi. İndi isə ulu öndərin fəaliyyəti nəticəsində 10 il ərzində və ondan sonrakı illərdə o qədər böyük işlər görülüb, Azərbaycan dövlətçiliyinin elə əsasları qoyulub ki, bizim müstəqilliyimiz o qədər möhkəmlənib ki, indi bizim qarşımızda üfüqlər açıqdır, yolumuz açıqdır. Biz sadəcə olaraq, hamımız birləşib əl-ələ verərək ölkəmizin hərtərəfli inkişafı üçün çalışmalıyıq. Bu ab-hava bu gün Azərbaycanda var. Mən bölgələrə çox tez-tez gedirəm, görürəm, vəziyyətlə tanış oluram. Görürəm ki, insanlarda böyük nikbinlik, ruh yüksəkliyi var, gələcəyə inam var. Ölkəmizin inkişafı üçün böyük arzular var, böyük niyyətlər var. Ölkəmizin uğurlu inkişafı hər bir vətənpərvər insanı ruhlandırır. Bizə əlavə güc verir və insanları daha da böyük işlərin görülməsinə sövq edir.

Əziz dostlar, mən bu gözəl gündə sizi bir daha salamlamaq istəyirəm. Tovuzlular həmişə Azərbaycanın ərazi bütövlüyünün keşiyində durmuşlar. Həmişə düşmənlə üz-üzə dayanaraq ona çox layiqli cavablar vermiş, öz doğma torpaqlarını, Azərbaycanın ərazi bütövlüyünü müdafiə etmişlər, həmişə mübariz olmuşlar. Bu gün Azərbaycanın inkişaf proseslərində tovuzlular çox fəal iştirak edirlər. Əminəm ki, Tovuz Azərbaycanın ən inkişaf etmiş rayonlarından birinə çevriləcəkdir, mən buna şübhə etmirəm. Çünki sizin gözəl planlarınız var, niyyətləriniz var, təşəbbüsləriniz var. Təbii ki, burada hələ çoxlu açılışlar olacaq və biz bundan sonra da həmişə birlikdə olacağıq.

Sizi bir daha təbrik edirəm və cansağlığı arzulayıram. Arzu edirəm ki, sizin həyatınızda hər şey yaxşı olsun. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev sakinlərlə görüşdü, qayğı və problemləri ilə maraqlandı və onlarla xatirə şəkli çəkdirdi.*

*Tovuzlular ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısının qərb bölgəsinə səfərlərini xatırlatdılar. Rayonlarda görülən geniş abadlıq-quruculuq işlərinə görə prezidentə dərin minnətdarlıqlarını bildirdilər və onun xarici və daxili siyasətini, ölkəmizdə əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işləri dəstəklədiklərini bildirdilər.*

* * *

*Prezident İlham Əliyev mayın 30-da, Tovuz Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimi başa çatdıqdan sonra şəhərin girəcəyində yerləşən «Heydər Əliyev seyrəngahı»na gəldi. Dövlətimizin başçısını və xanımını burada musiqi və mahnılarla qarşıladılar.*

*Prezidentə bu mədəniyyət və istirahət guşəsində yaradılmış şərait və aparılacaq yenidənqurma işləri barədə məlumat verildi. Bildirildi ki, şəhərin giriş hissəsində, o cümlədən sey-*

*rəngahda aparılacaq kompleks abadlıq işləri Tovuza xüsusi yaraşıq verməklə yanaşı, insanların da ürəyincə olacaq və xarici qonaqlarda xoş təəssürat yaradacaqdır.*

*Prezident İlham Əliyev və xanımı yerli özfəaliyyət kollektivlərinin, mahnı və rəqs qruplarının, aşıqlar dəstəsinin ifalarını böyük maraqla dinlədilər, onlarla xatirə şəkilləri çəkdirdilər. Ulu öndər haqqında şeir hərarətli alqışlarla qarşılandı.*

*Dövlətimizin başçısı ifaçılara təşəkkür edərək onlara uğurlar arzuladı, gənclərə, istedadlı uşaqlara xüsusi diqqət və qayğı göstərilməsinin zəruriliyini vurğuladı və «Heydər Əliyev seyrəngahı»nın müasirləşdirilməsi ilə bağlı tövsiyələrini verdi.*

* * *

*Mayın 30-da prezident İlham Əliyev Tovuzun Aşağı Ayıblı kəndinə gəldi və 1176 şagird yerlik orta məktəb binasının tikinti işlərinin gedişi ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, üçmərtəbəli təhsil ocağı ikibloklu olacaq və ayrıca idman kompleksi tikiləcəkdir. İnşaat işlərinə bir müddət əvvəl başlanılmış, artıq 1-ci və 2-ci mərtəbələrin tikintisi tamamlanmışdır. Bu təhsil ocağının yeni tədris ilinədək istifadəyə verilməsi planlaşdırılır. Şagirdlərin təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili üçün məktəb zəruri avadanlıqla təmin olunacaqdır. Bildirildi ki, bu kəndin 14 min əhalisi var və burada dörd məktəb fəaliyyət göstərsə də, onların əsaslı təmirinə böyük ehtiyac duyulur.*

*Prezident İlham Əliyev inşaatçılarla görüşdü, tikinti gedən sahələrə baş çəkdi, binaya bayır tərəfdən üzlük daş vurulması, xarici görünüşünün müasir olması üçün tapşırıqlar verdi. O dedi ki, birinci mərhələ məktəb tikintisi idisə, ikinci mərhələ mövcud məktəblərin təmiri məsələsidir. Bu məqsədlər üçün gələn ildən daha çox vəsait ayrılacaqdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏRİ

*30 may 2007-ci il*

*Prezident İlham Əliyev mayın 30-da Tovuzdan Gəncə şəhərinə gəldi.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Gəncənin baş meydanında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev bütövlükdə baş meydanın və ətraf ərazinin yeni işıqlandırma sisteminin layihəsi ilə tanış oldu. Bildirildi ki, xalqımızın ümummilli liderinin adını daşıyan muzeyin, park və digər obyektlərin gecə mənzərəsinin tamamilə yeniləşdirilməsi üçün işlər davam etdirilir.*

*Dövlətimizin başçısı şəhər icra hakimiyyətinin binasında aparılan təmir işlərinə də baxdı, baş meydanın plitələrinin dəyişdirilməsi, müasir işıqlandırma sistemi ilə təmin olunması və təmir işlərinin keyfiyyətlə görülməsi barədə tövsiyə və tapşırıqlarını verdi.*

* * *

*Prezident İlham Əliyev sonra Gəncənin qədim qapılarının ilkin şəkildə bərpası üçün görülən işlərlə tanış olmaq üçün şəhərin girəcəyinə gəldi. Burada prezidenti və xanımını Gəncə ziyalıları böyük səmimiyyətlə qarşıladılar.*

*Xalq artisti Pərvanə Qurbanova dövlətimizin başçısına Gəncənin emblеminə həsr olunmuş monumental abidənin Sankt-Peterburqda hazırlanmış maketini təqdim edərək dedi ki, prezidentin qətiyyəti sayəsində Gəncənin gerbi, emblemi özünə qaytarılmış və bu, tarixi hadisəyə çevrilmişdir.*

**İ l h a m   Ə l i y e v:** Mən çox sevinirəm ki, bu gün çox böyük işlər gedir, şəhər gözəlləşir, tarixi abidələr bərpa olunur, yeni abidələr yaranır. Düşünürəm ki, bu abidə də gəncəlilər tərəfindən yaxşı qəbul olunacaqdır. Biz tarixi abidələri bərpa etməliyik. Gəncənin böyük tarixi var, böyük keçmişi var. Biz gərək o tarixi qoruyaq. Bəzi səbəblər üzündən itmiş, yaxud da buradan aparılmış tarixi sərvətlərimizi həm qaytarmalıyıq, eyni zamanda, müvəqqəti olaraq onları əvəz edən surəti yaradılmalıdır. O cümlədən, Gəncənin qədim qapılarının.

Bildiyiniz kimi, o qapı Gürcüstanda kilsədədir. Biz müraciət etmişdik ki, o qapılar Gəncəyə qaytarılsın. İndi bu barədə danışıqlar gedir, amma hələlik məsələ öz həllini tapmır. Biz Gəncə qapılarının dəqiq surətini yaratmalıyıq və bu işlər də gedir. Bütün başqa tarixi abidələr – Gəncənin gerbi, tarixi keçmişdə Gəncəyə aid olan əlamətlər, elementlər gərək bərpa olunsun. Çünki bu bizim tariximizdir. Biz müstəqil ölkə kimi, çox sürətlə inkişaf edirik. Bölgələr bütün sahələrdə inkişaf edir və bununla bərabər, həmişə öz tariximizə böyük hörmətlə yanaşmalıyıq, onu bilməliyik. Tariximizi gənc nəsil bilməlidir. Bizim memarlıq abidələrimizin bərpası, qorunması mütləq və mütləq davam etməlidir.

Mən bu gün səhər Qazaxda idim, ondan sonra Tovuzda oldum, böyük işlər görülür. İndi Azərbaycanın hər bir bölgəsində, o cümlədən, Gəncədə quruculuq işləri aparılır. Sizi ürəkdən salamlayıram, yeni uğurlar arzulayıram.

Bilirsiniz ki, indi Azərbaycanda məktəb tikintisi çox geniş vüsət alıbdır. Xüsusilə o rayonlarda ki, orada yeni məktəblərə ehtiyac var. Ancaq birinci mərhələdə, əlbəttə, tikinti işlərinə diqqət göstərilirdi. Lakin Gəncə şəhərində bəlkə də yeni məktəbin tikintisinə ehtiyac yoxdur, mövcud olan məktəblərin təmirinə ehtiyac var. Ona görə indi xüsusi proqram hazırlanır və büdcədə dəqiqləşdirmə aparılan zaman əlavə vəsait nəzərdə tutulubdur. Bu il Gəncənin bir neçə məktəbində təmir işləri başlanacaqdır. Artıq yeddi məktəbdə

təmir gedir. Gəncədə 44 məktəb fəaliyyət göstərir, onların vəziyyəti o qədər də yaxşı deyildir. Çoxdan tikilibdir, təmirsizdir. Yeddisinə bu il başlayırıq, ondan sonra da digər məktəblər yüksək səviyyədə təmir ediləcəkdir.

Müalicə-Diaqnostika Mərkəzi də tikilir. Yəni, yaşamaq üçün bütün şərait ən yüksək səviyyədə olacaqdır. Dünyada hansı səviyyə varsa, burada da olacaqdır. Baxın, təyyarənin səsi gəlir. Gəncədə ən gözəl hava limanı tikilibdir. Dünyanın ən böyük təyyarələri artıq Gəncəyə enir. Bütün bunlar inkişafı göstərir. Bu işlər gələcəkdə də davam etdiriləcəkdir. Əsas odur ki, biz bu yolla inamla irəliyə gedək, qarşıya qoyduğumuz bütün məsələləri həll edək. Bu hamımızın istəyidir.

* * *

*Ziyalılar dövlətimizin başçısına bir daha minnətdarlıqlarını bildirdilər, ona cansağlığı arzuladılar.*

*Sonra prezident İlham Əliyev Gəncə qapılarının və Gəncə qalasının maketinə, fotoşəkillərinə baxdı. Məlumat verildi ki, dəmirçi Osmanoğlu İbrahim tərəfindən 1063-cü ildə hazırlanmış məşhur Gəncə qapıları 1139-cu ildə Gəncədə zəlzələ baş verərkən yadellilər tərəfindən aparılmışdır. İndi həmin qapıları və qala divarının kiçik bir hissəsini bərpa etmək məqsədi ilə burada tikinti işlərinə başlanılmışdır. Bərpa işlərini Milli Elmlər Akademiyasının Gəncə Regional Elm Mərkəzinin mütəxəssisləri aparırlar. Qapılar dəmir parçalarından və 800-dən çox çarmıxdan hazırlanır. Hündürlüyü 3,7, eni isə 3,4 metrdir. Hazırda tamamlama işləri gedir və yaxın vaxtlarda Gəncə qapıları şəhərin girişini bəzəyəcək, bu qədim diyara gələn hər bir qonaq ilk növbədə XII əsrdə mövcud olmuş Gəncə qapılarından keçəcəkdir.*

*Bildirildi ki, ətrafda 20 metr hündürlüyündə rəmzi qala divarının ucaldılması da nəzərdə tutulur. Memarlıq və şəhərsalma idarəsinin mütəxəssisləri tərəfindən layihələşdiril-*

*miş qala divarının yuxarı hissəsində Gəncənin gerbi qoyulacaqdır və üz tərəfi Naxçıvandan gətirilmiş kərpiclə hörüləcəkdir.*

*Prezident İlham Əliyev Gəncə qapılarının Azərbaycan tarixinin bir parçası olduğunu vurğulayaraq, onun üzərində yazılmış sözlərin tərcüməsinin latın qrafikalı Azərbaycan əlifbası ilə də yazılmasını tövsiyə etdi və bunun tarixin öyrənilməsi baxımından əhəmiyyətli olduğunu vurğuladı.*

* * *

*Prezident İlham Əliyev mayın 30-da Gəncədə Cəfər Cabbarlı adına 6 nömrəli orta məktəbə gələrək, burada aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Gəncənin aparıcı ümumtəhsil ocaqlarından olan bu məktəb 1936-cı ildə inşa edilmişdi. Hazırda burada təmir işləri ən yüksək səviyyədə görülür və şagirdlərin təlim-tərbiyəsi üçün bütün şərait yaradılacaqdır. 47 sinif otağı və 34 fənn kabineti olan bu məktəbdə 900 şagird təhsil alır, 149 müəllim çalışır.*

*Prezident İlham Əliyev təmirin gedişi ilə maraqlandı, yenidənqurma işlərinin ən yüksək səviyyədə aparılması ilə bağlı məsləhət və tövsiyələrini verdi.*

*Respublikamızın qərb bölgəsinə səfərini başa çatdıran prezident İlham Əliyev mayın 30-da Bakıya qayıtdı.*

## «TRANSPARENCY İNTERNATİONAL» TƏŞKİLATININ AVROPA VƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ ÜZRƏ REGİONAL GÖRÜŞÜNÜN VƏ «KORRUPSİYAYA QARŞI MÜBARİZƏ VƏ KEÇİD DÖVRÜ ÖLKƏLƏRİNDƏ İNSTİTUSİONAL İSLAHATLAR» MÖVZUSUNA HƏSR OLUNMUŞ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli iştirakçılar!

Müasir dövrdə inteqrasiya proseslərinin dərinləşməsi ümumi inkişafla yanaşı, dünyanı narahat edən bir sıra problemlər də doğurur. Qloballaşma şəraitində terrorizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya, korrupsiya cəmiyyətlərin üzləşdiyi risklərə çevrilmişdir. Hər bir dövlət öz iqtisadiyyatını, siyasi sistemini, insanların sosial rifahını və əmin-amanlığını belə təhdidlərdən qorumaq məqsədi ilə müəyyən mübarizə siyasətini formalaşdırır və həyata keçirir. Korrupsiyaya qarşı mübarizə bu siyasətin tərkib hissəsi olmaqla, cəmiyyətin bütün iştirakçılarının səylərini birləşdirməyi tələb edir. Bu da öz növbəsində qanunvericilik və institusional mexanizmləri təkmilləşdirməklə yanaşı, milli və beynəlxalq səviyyədə dövlətlərin, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti təsisatlarının fəaliyyətinin əlaqələndirilməsini, təcrübə mübadiləsini vacib edir.

Azərbaycan dövləti siyasi iradə nümayiş etdirərək korrupsiyaya qarşı mübarizə sahəsində ardıcıl və məqsədyönlü tədbirlər görmüş, korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramını həyata keçirmişdir. Aparılan islahatlar nəticəsində dövlət idarəçiliyi təkmilləşdirilmiş, iqtisadi inkişafda mühüm nəticələr əldə edilmiş, sosial proqramlar reallaşdırılmışdır. Əldə edilən nailiyyətlərin davam etdirilməsi və

gələcək inkişaf istiqamətlərinin müəyyən olunması məqsədi ilə korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması sahəsində yeni milli strategiya yekunlaşmaq üzrədir. Milli strategiyanın həyata keçirilməsində ölkəmiz vətəndaş cəmiyyətinin və beynəlxalq tərəfdaşların dəstəyində maraqlıdır.

Bu baxımdan «Transparency international» təşkilatının təşəbbüsü ilə keçirilən və müxtəlif ölkələrin dövlət, vətəndaş cəmiyyəti, elm və özəl sektor nümayəndələrini bir araya gətirən hazırkı konfrans korrupsiyaya qarşı mübarizədə ümumi problemlərin müzakirəsi və qarşılıqlı təcrübə mübadiləsi üçün uğurlu forum olacaqdır. Konfrans korrupsiyaya qarşı mübarizənin əsas prinsiplərinin, strategiya və planlarının inkişaf etdirilməsinə öz konkret töhfəsini verəcək və korrupsiyaya qarşı birgə mübarizəmizi gücləndirəcəkdir.

«Transparency international» təşkilatının Avropa və Mərkəzi Asiya ölkələri üzrə regional görüşünün və «Korrupsiyaya qarşı mübarizə və keçid dövrü ölkələrində institusional islahatlar» mövzusuna həsr olunmuş konfransının Bakı şəhərində keçirilməsi münasibətilə Sizi təbrik edir, fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 may 2007-ci il*

**SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ**

Hörmətli cənab Prezident!

Suriya Ərəb Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, dost ölkələrimiz və xalqlarımız arasında əlaqələrin hərtərəfli inkişafı yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Suriya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 may 2007-ci il*

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UMARU YARADUAYA**

Hörmətli cənab Prezident!

Nigeriya Federativ Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Nigeriya arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 may 2007-ci il*

## «TRANSPARENCY İNTERNATİONAL» TƏŞKİLATININ SƏDRİ HÜGET LABEL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında «Transparency İnternational» təşkilatının sədri Hüget Labeli qəbul etmişdir.*

*Ölkəmizə «Korrupsiyaya qarşı mübarizə və keçid dövrü ölkələrində institusional islahatlar» mövzusunda Avropa və Mərkəzi Asiya ölkələri üzrə konfransda iştirak etmək üçün ilk dəfə səfər etdiyini bildirən Hüget Label tədbirin gözəl təşkilinə görə Azərbaycan hökumətinə təşəkkürünü çatdırdı. O, Azərbaycanda müxtəlif sahələrdə uğurlu islahatların həyata keçirildiyini və mühüm nəticələrin əldə olunduğunu bildirdi.*

*Dövlətimizin başçısı belə bir konfransın ölkəmizdə keçirilməsinin əhəmiyyətli hadisə olduğunu qeyd etdi və onun işinə uğurlar arzuladı. Prezident İlham Əliyev Azərbaycanda iqtisadiyyatın inkişafı, işsizliyin aradan qaldırılması, neft gəlirlərinin şəffaflığının təmin olunması, demokratik inkişaf və digər sahələrdə mühüm işlərin görüldüyünü vurğuladı və bu tədbirlərin bundan sonra da uğurla davam etdiriləcəyini bildirdi.*

## «GLOBAL STEEL» ŞİRKƏTİNİN PREZİDENTİ PROMOD MİTTAL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında «Global Steel» şirkətinin prezidenti Promod Mittalı qəbul etmişdir.*

*Promod Mittal Azərbaycanda iqtisadiyyatın inkişafı sahəsində olduqca böyük nailiyyətlərin əldə edildiyini söylədi. Ölkəmizin iştirakı ilə həyata keçirilmiş qlobal enerji layihələrinin əhəmiyyətinə toxunan qonaq bu layihələrin Azərbaycanı iqtisadi cəhətdən daha da gücləndirəcəyini bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının son illərdə yüksək sürətlə inkişaf etdiyini qeyd etdi. Gələcək illərdə neft və qaz çıxarılmasının daha da artması ilə ölkəmizin enerji daşıyıcılarının mühüm hasilatçısı və ixracçısına çevriləcəyini bildirən prezident İlham Əliyev bununla yanaşı, qeyri-neft sektorunun da inkişafına böyük diqqət verildiyini vurğuladı.*

*Görüşdə «Global Steel» şirkətinin Azərbaycan ilə gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıldı.*

## «SİEMENS» SƏHMDAR CƏMİYYƏTİNİN MƏRKƏZİ İDARƏ HEYƏTİNİN ÜZVÜ RUDİ LAMPREXT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında «Siemens» Səhmdar Cəmiyyətinin mərkəzi idarə heyətinin üzvü Rudi Lamprexti qəbul etmişdir.*

*Ölkəmizin müxtəlif sahələrdə uğurlu inkişafının təmin edilməsi məqsədi ilə bir çox layihələrin həyata keçirildiyini bildirən prezident İlham Əliyev son illərdə bu istiqamətdə çox böyük işlərin görüldüyünü vurğuladı. Dövlətimizin başçısı hazırda qeyri-neft sektorunun inkişafının ölkəmiz üçün əsas prioritetlərdən biri olduğunu və xarici şirkətlərin bu sahədə iştirakı üçün Azərbaycanda bütün şəraitin yaradıldığını bildirdi.*

*Rudi Lamprext ölkəmizə hər səfəri zamanı burada baş verən böyük dəyişikliklərin şahidi olduğunu və Azərbaycanın iqtisadi inkişaf sürətinə görə çox yüksək göstəricilər əldə etdiyini vurğuladı. O, «Siemens» şirkətinin Azərbaycanla əməkdaşlığının gələcək perspektivləri barədə dövlətimizin başçısına məlumat verdi.*

# ALMANİYANIN MAYNS ŞƏHƏR BƏLƏDİYYƏSİNİN BAŞÇISI JENS BEUTELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında Almaniya Federativ Respublikası Reynland-Pfalts əyalətinin paytaxtı Mayns şəhər bələdiyyəsinin başçısı Jens Beutelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı nümayəndə heyətinin səfər zamanı Azərbaycanın müxtəlif regionlarına baş çəkməsinin ölkəmizlə daha yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını bildirdi. Prezident İlham Əliyev Azərbaycan–Almaniya münasibətlərinin uğurla inkişaf etdiyini vurğuladı və iki ölkənin şəhər və regionları arasında əməkdaşlığın dərinləşdirilməsinin ikitərəfli əlaqələrin daha da gücləndirilməsi işinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Jens Beutel Mayns şəhəri ilə Bakı şəhəri arasında uzun illər ərzində əməkdaşlığın mövcud olduğunu qeyd edərək, bu səfəri zamanı ölkəmizin digər regionları ilə də tanış olmaqdan məmnun qaldığını bildirdi. Qonaq səfərinin Azərbaycan ilə Almaniya arasında bir çox sahələrdə, o cümlədən mədəniyyət sahəsində əlaqələrin daha da genişləndirilməsinə kömək edəcəyinə ümidvar olduğunu söylədi.*

## YƏHUDİ İCMALARI FEDERASİYASININ PREZİDENTİ LEV LEVAYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında MDB Yəhudi İcmaları Federasiyasının prezidenti Lev Levayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə məmnunluqla vurğulandı ki, Azərbaycanda tarixən millətlərarası, konfessiyalararası münasibətlər qarşılıqlı hörmət və dostluq əsasında qurulmuşdur. Xüsusi qeyd olundu ki, ölkəmizdə milli-dini tolerantlıq yüksək səviyyədədir və bu müsbət ənənə uğurla davam etdirilir.*

*Prezident İlham Əliyev MDB Yəhudi İcmaları Federasiyası prezidentinin Azərbaycana səfərinin xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verəcəyinə ümidvar olduğunu söylədi.*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VALDİS ZATLERSƏ**

Hörmətli cənab Prezident!

Latviya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Latviya münasibətlərinin hazırkı səviyyəsindən məmunluq duyur, əlaqələrimizin daha da dərinləşməsinə böyük əhəmiyyət veririk. Ümidvaram ki, dostluğumuzun, ikitərəfli qaydada və beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın sabit və davamlı inkişafı üçün bundan sonra da səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Latviya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2007-ci il*

## POLŞANIN DAXİLİ İŞLƏR VƏ ADMİNİSTRASİYA NAZİRİ YANUŞ KAÇMAREKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Polşanın Daxili İşlər və Administrasiya naziri Yanuş Kaçmarekin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Polşaya sonuncu səfərini və prezident Lex Kaçinski ilə görüşlərini məmnunluqla xatırladaraq bildirdi ki, ölkələrimiz arasında münasibətlər dostluq və anlaşma əsasında uğurla davam etdirilir. Qarşılıqlı səfərlərin əməkdaşlığımızın mühüm elementi olduğunu qeyd edən prezident İlham Əliyev Azərbaycan və Polşanın müvafiq qurumları, o cümlədən hüquq-mühafizə orqanları arasında əlaqələrin vacibliyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, ölkəmiz regional təhlükəsizliyin təmin olunması işində fəal iştirak edir və bu məsələlər Azərbaycan ilə Avropa İttifaqı arasında «Yeni qonşuluq siyasəti»nə dair fəaliyyət planı çərçivəsində 5 illik tədbirlər planında da öz əksini tapmışdır. Prezident İlham Əliyev Polşanın Daxili İşlər və Administrasiya nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasında əldə olunmuş razılaşmaların təhlili və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.*

*Azərbaycana səfərdən razı qaldığını deyən nazir Yanuş Kaçmarek prezident İlham Əliyevin fəaliyyətini daim maraqla izlədiyini bildirdi, Polşanın və Azərbaycanın dövlət başçıla-*

*rının keçirdikləri görüşlərdən böyük məmunluq duyduğunu xüsusi vurğuladı. Yanuş Kaçmarek dövlətimizin başçısı İlham Əliyevə prezident Lex Kaçinskinin salamlarını çatdırdı.*

*Prezident İlham Əliyev Polşa prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarının ona çatdırılmasını xahiş etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ LORENS BRİSTOUNU DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*1 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Böyük Britaniyanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Lorens Bristounu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Lorens Bristoun Azərbaycanda səfir kimi fəaliyyət göstərməsindən olduqca məmnun qaldığını bildirdi. Son illərdə Azərbaycanda çox mühüm dəyişikliklərin baş verdiyini deyən diplomat məhz bu dövrdə ölkəsini burada təmsil etməkdən böyük şərəf duyduğunu vurğuladı.*

*Dövlətimizin başçısı ölkəmizdə fəaliyyəti dövründə Azərbaycan–Böyük Britaniya münasibətlərinin daha da gücləndirilməsində xidmətlərinə görə səfir Lorens Bristouna təşəkkür etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Böyük Britaniya arasında müxtəlif sahələrdə, o cümlədən qlobal enerji layihələrinin həyata keçirilməsi sahəsində sıx əməkdaşlığın olduğunu vurğuladı, əlaqələrimizin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminliyini söylədi.*

## ABŞ-ın TİCARƏT NAZİRİNİN MÜAVİNİ DAVİD SAMPSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Prezident sarayında ABŞ-ın Ticarət nazirinin müavini David Sampsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–ABŞ münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini, bu səfərin iki ölkə arasında, xüsusilə iqtisadi sahədə, əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. O, hazırda Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektoruna böyük diqqət yetirildiyini vurğulayaraq, əsasən informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat sahələrinin inkişafı üçün bir çox layihələrin həyata keçirdiyini qeyd etdi. Prezident İlham Əliyev ABŞ şirkətlərinin ölkəmizin qeyri-neft sektorunda iştirakını alqışladığını bildirdi və bu baxımdan ABŞ-ın Ticarət nazirinin müavininin ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar oldugunu söylədi.*

*David Sampson ABŞ-ın Ticarət naziri Karios Qutyerresin salamlarını dövlətimizin başçısına çatdırdı. O dedi ki, «Biz sizin ABŞ-la dostluğunuzu və ABŞ-ın terrorizm ilə mübarizədə səylərinə, habelə İraq, Əfqanıstan və Kosovoda həyata keçirilən əməliyyatlara göstərdiyiniz dəstəyi çox yüksək qiymətləndiririk. Bizim münasibətlərimiz çox önəmli strateji xarakter daşıyır. Ümid edirəm, bu səfərimlə ABŞ-ın biznes dairələrinə belə bir mesaj göndəriləcəkdir ki, biz Azərbaycanla iqtisadiy-*

*yat və ticarət əlaqələrini dərinləşdirmək və gücləndirməyin tərəfdarıyıq» Səfər zamanı Bakıda ABŞ Ticarət Palatasının nümayəndələri ilə görüş keçirdiyini deyən David Sampson ABŞ şirkətlərində Azərbaycanın potensialı ilə bağlı böyük nikbinliyin və burada fəaliyyət göstərməyə geniş marağın mövcudluğunu qeyd edərək, bunun dost və müttəfiq ölkələrin əməkdaşlığı üçün çox vacib amil olduğunu vurğuladı.*

## ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, İSPANİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİGEL ANGEL MORATİNOS KUYAUBENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Prezident sarayında ATƏT-in fəaliyyətdə olan hazırkı sədri, İspaniya Krallığının Xarici İşlər naziri Migel Angel Moratinos Kuyaubenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**Migel Angel Moratinos Kuyaube:** Sizin qəbulunuzda olmaq mənim üçün böyük şərəfdir. ATƏT-in fəaliyyətdə olan sədri və İspaniya Krallığının Xarici İşlər naziri kimi, Azərbaycana ilk dəfədir səfər edirəm. Bu gün Azərbaycan–İspaniya münasibətləri üçün tarixi bir gündür. Belə ki, tarixdə ilk dəfə olaraq İspaniyanın Xarici İşlər naziri Azərbaycana səfər edir. Bu, ilk səfərdir, lakin sonuncu olmayacaqdır. Ölkənizə səfər etməkdən çox məmnunam. Bu səfərim Azərbaycanda gedən böyük inkişaf dövrünə təsadüf edir. Ümid edirəm ki, bu səfər Azərbaycan və İspaniya üçün faydalı olacaqdır. Bununla yanaşı, ATƏT adından müəyyən məsələlərin həll edilməsi ilə bağlı səylərinizə, ölkənizin gələcəyi üçün vacib olan daxili siyasi proseslərə, iqtisadi islahatlara dəstək ola bilərik. Ümidvaram ki, azərbaycanlı dostlarımla faydalı görüşlər keçirəcəyəm. Əminəm ki, bu səfərdən sonra ölkənizə yenidən gəlmək istəyim daha da artacaqdır. Bildirmək istəyirəm ki, dünən İspaniya krali zati-aliləri I Xuan Karlos ilə

görüşmüşəm. O, səmimi salamlarını Sizə çatdırmağı və Sizi İspaniyaya səfərə dəvət etməyi məndən xahiş etdi. Beləcə, biz iki ölkə arasında münasibətləri necə gücləndirə biləcəyimizi nəzərdən keçirə bilərik.

**İ l h a m Ə l i y e v:** Xahiş edirəm, mənim də ən səmimi salamlarımı zati-aliləri I Xuan Karlosa çatdırasınız. Ümumiyyətlə, Sizinlə həmfikirəm ki, ikitərəfli əlaqələrimizi daha da gücləndirməliyik. Siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrimizi genişləndirmək üçün güclü potensialımız və yaxşı imkanlarımız vardır. Əminəm ki, ölkəmizə ilk səfəriniz bu istiqamətdə çox mühüm addım olacaqdır. Biz İspaniya ilə ikitərəfli əlaqələrimizə böyük əhəmiyyət veririk.

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## BAKIDA «XƏZƏR NEFT-QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI–2007» XIV BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ*

*Heydər Əliyev adına İdman-Konsert Kompleksi*

*5 iyun 2007-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli Xəzər neft-qaz sərgi və konfransının iştirakçıları!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, sərgi həmişə olduğu kimi, çox uğurlu keçəcək və burada, konfransda da səslənən fikirlər, aparılacaq fikir mübadiləsi gələcək əməkdaşlığımız üçün çox gözəl imkanlar yaradacaqdır.

Sərgi artıq ənənəvi xarakter daşıyır və çox sevindirici haldır ki, ona maraq azalmır, əksinə, artır. Sərgidə yeni-yeni şirkətlər iştirak edir. Çox şadam ki, yerli Azərbaycan şirkətlərinin də sayı ildən-ilə çoxalır. Bu onu göstərir ki, Azərbaycanda həm neft-qaz sənayesində, həm də xidmət sektorunda çox güclü sənaye potensialı yaradılır. Bizim məqsədimiz də məhz bundan

---

* Konfransda İTE Grup RLC şirkətinin Baş məsləhətçisi Endryu Vud, Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Tatlıyev, Böyük Britaniyanın Azərbaycandakı səfiri Lorens Bristoun, ABŞ-ın Ticarət nazirinin müavini David Sampson, Gürcüstanın Energetika naziri Nika Gilauri, Türkiyənin Energetika və Təbii Ehtiyatlar nazirinin müavini Yusif Yazar, İsrailin Azərbaycandakı səfiri Artur Lenk, Almaniyanın İqtisadiyyat və Texnologiyalar nazirinin müavini Hartmurt Şnayder, Norveçin Neft Sənayesi və Energetika nazirinin müavini xanım Anita Utset çıxış etdilər.

ibarətdir ki, gözəl imkanlardan istifadə edilməklə Azərbaycanda çox güclü neft sektoru formalaşsın.

Mən birinci sərgini çox yaxşı xatırlayıram. 1994-cü ildə keçirilmiş sərgi Azərbaycanın inkişafı üçün çox mühüm rol oynamışdır. O vaxt Azərbaycanı dünyada çox tanımırdılar. Azərbaycan çox böyük siyasi risklər ölkəsi kimi tanınırdı. O şəraitdə sərginin keçirilməsi, Azərbaycanın imkanlarının təqdim edilməsi, çox böyük neft-qaz sərvətlərinin mövcud olması, əlbəttə ki, investorların Azərbaycana gəlişini də sürətləndirdi. O vaxt bizim əsas məqsədimiz Azərbaycanın neft-qaz sektoruna, Xəzər dənizinin Azərbaycana məxsus olan sektoruna xarici şirkətləri, investisiyaları cəlb etmək və beləliklə, Azərbaycanın inkişaf strategiyasını müəyyən etmək idi.

İndi, 2007-ci ildə keçmişə nəzər salarkən bir daha görürük ki, qarşıda duran bütün məsələlər öz həllini tapdı. Bunun əsas, başlıca səbəbi o illərdə ulu öndər Heydər Əliyev tərəfindən uğurla, cəsarətlə həyata keçirilmiş Azərbaycanın neft strategiyası olmuşdur. Məhz o strategiyanın icrası nəticəsində bu gün Azərbaycan dünyada ən dinamik şəkildə inkişaf edən ölkədir. Azərbaycan öz neft-qaz problemini həll edibdir. Biz bütün məqsədlərə nail olmuşuq və bundan sonra ölkəmiz yalnız və yalnız inkişaf edəcək, bu gözəl imkanlardan səmərəli istifadə edəcəkdir. Azərbaycanın hərtərəfli inkişafı üçün isə gözəl imkanlar mövcuddur.

Biz son 13 il ərzində Azərbaycanın neft-qaz sektoruna 30 milyard dollar xarici sərmayənin gətirilməsinə nail olmuşuq. Bu çox böyük rəqəmdir, çox böyük məbləğdir. Bu onu göstərir ki, Azərbaycanda çox gözəl investisiya iqlimi var. 1994-cü ildə «Əsrin müqaviləsi» imzalanarkən bizim əsas məqsədimiz ondan ibarət idi ki, Azərbaycanın milli maraqları maksimum dərəcədə təmin olunsun və bununla bərabər, xarici şirkətlər üçün də gözəl şərait yaradılsın. Onlar burada özlərini rahat hiss etsinlər. Əmin olsunlar ki, qoyulan hər bir vəsait burada dövlət tərəfindən qorunur və dövlət bu məsələdə öz funksiyasını yerinə yetirməyə hazırdır. Bir daha de-

mək istəyirəm ki, 13 il ərzində heç vaxt bizimlə, dövlətlə, Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici investorlar arasında heç bir mübahisəli, ya da ciddi mübahisəli məsələ olmamışdır, heç bir məhkəmə çəkişməsi olmamışdır. Yəni, bu onu göstərir ki, həm investorlar öz üzərinə düşən öhdəlikləri yerinə yetirirlər, həm də Azərbaycan dövləti investisiyaları qoruyur. Bu, Azərbaycanı çox etibarlı tərəfdaş kimi göstərir. Biz bundan, bu gözəl nailiyyətlərdən istifadə edib investisiyaları indi digər sektorlara da cəlb edirik.

Bizim indi əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və bu sahədə böyük işlər görülür. O cümlədən neftdən əldə olunan gəlirləri də həm sosial məsələlərin həllinə, həm də nəhəng infrastruktur layihələrə, qeyri-neft sektorunun inkişafına yönəldirik. «Əsrin müqaviləsi»nin imzalanması, Heydər Əliyev neft strategiyasının uğurla icra olunması Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndiribdir. Bizim iqtisadi müstəqilliyimizi, enerji müstəqilliyimizi çox yüksək dərəcədə möhkəmləndiribdir və inkişafımızın da əsas səbəbidir. Biz bunu həmişə yadda saxlamalıyıq. Mən əminəm ki, bundan sonrakı illərdə Azərbaycanın neft-qaz yataqlarının istismarı nəticəsində ölkəmiz çox sürətlə inkişaf edəcək, çiçəklənəcək, Azərbaycan xalqı rifah içində yaşayacaqdır.

Keçən sərgidən ötən dövr, yəni son bir il ərzində Azərbaycanda iki əlamətdar hadisə baş vermişdir və bunlar dünya əhəmiyyətli hadisələrdir. Birincisi, Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara verilmişdir. Bu bizim tarixi qələbəmizdir, tarixi nailiyyətimizdir. Bilirsiniz ki, bu kəmərin tikintisinə müxtəlif dövrlərdə çox böyük müqavimət, çox böyük təzyiqlər var idi. Hətta kəmərin iqtisadi cəhətdən sərfəli olmaması haqqında şayiələr yayılırdı. Deyilirdi ki, Azərbaycan nefti kəmərin doldurulmasına kifayət etməyəcək, başqa ölkələrin nefti də buraya gəlməlidir. Amma biz bilirdik ki, bu şayiələrin, bu fikirlərin heç bir əsası yoxdur. Onun əsası yalnız qərəzçilik idi. Bu gün, kəmərin bir il ərzindəki fəaliyyəti nəticəsində

artıq demək olar ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri maksimum gücünə yaxın olan həcmdə Azərbaycan neftini dünya bazarlarına çatdırır.

Gələn il isə Bakı–Tbilisi–Ceyhan tam şəkildə Azərbaycan nefti ilə doldurulacaq və uzun illər ərzində Azərbaycan nefti bu kəmər vasitəsilə dünya bazarlarına çıxacaqdır. Nəzərə alsaq ki, «Azəri», «Çıraq» yataqlarında ilkin ehtimal olunan ehtiyatın həcmi, demək olar, iki dəfə artıbdır, görərik ki, növbəti onilliklər ərzində Azərbaycan öz neft strategiyasını uğurla icra edərək böyük uğurlara nail olacaqdır.

İkinci əlamətdar hadisə, bəlkə də əhəmiyyəti baxımından birincidən geridə qalmayan hadisə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi və «Şahdəniz» yatağından qazın hasilatıdır. Azərbaycan artıq nəinki neft ixrac edən, eyni zamanda, qaz ixrac edən ölkəyə çevrilir. Bu da bizim strateji seçimimizdir. 1996-cı ildə yenə də Heydər Əliyevin təşəbbüsü ilə bağlanmış «Şahdəniz» müqaviləsi də artıq öz səmərəsini verməkdədir. Xüsusilə nəzərə alsaq ki, indiki zamanədə qaz amili ölkələrin enerji təhlükəsizliyini, enerji müstəqilliyini təmin edən əsas amildir, onda görərik ki, 1996-cı ildə nə qədər düzgün, nə qədər müdrik qərar qəbul edilmişdir. Əgər o vaxt «Şahdəniz» qaz yatağı üzrə müqavilə imzalanmasaydı, təsəvvür etmək çətin deyil ki, Azərbaycan indi hansı ciddi problemlərlə üzləşə bilərdi. Hələ ki, bizim neft şirkəti tərəfindən hasil edilən qazın həcmi tələbatımızı ödəmir. Baxmayaraq ki, bu il Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən çox geniş qaz proqramı icra olunmağa başlamışdır. Keçən ilə nisbətən gələn il Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən hasil ediləcək qaz iki dəfə çox olacaqdır. Yəni təkcə Azərbaycan Dövlət Neft Şirkəti təxminən 8 milyard kubmetr qaz hasil edəcəkdir. Nəzərə alsaq ki, gələn il «Şahdəniz» yatağından da 8 milyard kubmetrdən çox qaz gözlənilir, beləliklə, Azərbaycan həm özünün tələbatını ödəyəcək, həm də qaz ixrac edən etibarlı ölkəyə çevriləcəkdir.

Bu iki hadisə son bir il ərzində baş veribdir və bunlar Azərbaycanın uğurlu siyasətinin, Azərbaycanın neft strategiyasının təntənəsidir. Müstəqil Azərbaycan dövlətinin qələbəsidir. Bu iki hadisə bütün sahələrə öz təsirini göstərir. Azərbaycanın iqtisadi potensialı artır, beynəlxalq önəmi artır, beynəlxalq mövqelərimiz möhkəmlənir. Biz Avropanın enerji təhlükəsizliyi məsələlərində artıq iştirak etmək əzmindəyik və bu məsələlər də öz həllini tapmaqdadır. Biz keçən ilin noyabr ayında Avropa İttifaqı ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışıq. Bu çox əlamətdar və deyə bilərəm ki, tarixi hadisədir. Çünki Azərbaycan qaz ixrac edən ölkəyə çevrilərək, öz qazını Avropa bazarına daxil etmək istəyindədir. Buna oxşar sənəd – enerji sahəsində strateji əməkdaşlıq haqqında sənəd Amerika ilə Azərbaycan arasında da imzalanmışdır. Yəni bütün bunlar, əlbəttə, bizim müstəqilliyimizin möhkəmlənməsi üçün, uğurlu inkişafımız üçün çox böyük əhəmiyyətə malik olan məsələlərdir.

Mən bu fürsətdən istifadə edib bizim bütün dostlarımıza, bizə dəstək olan şirkətlərə, dövlətlərə öz təşəkkürümü bildirmək istəyirəm. İlk növbədə Amerika hökumətinə ki, bütün dövrlərdə Azərbaycanın neft strategiyasını çox güclü şəkildə dəstəkləmişdir. Mən *bp* şirkətini xüsusilə qeyd etmək istəyirəm. *bp* şirkəti həm «Azəri», «Çıraq», həm də «Şahdəniz» layihələrində operator şirkətdir və uzun illər ərzində Azərbaycanda fəaliyyət göstərir. Çox böyük həcmdə investisiyalar qoyub, iki konsorsiuma rəhbərlik edib və Azərbaycan Dövlət Neft Şirkəti ilə bərabər vahid komanda şəklində Azərbaycanın neft sahəsinin inkişafında çox böyük işlər görür. Mən bu kürsüdən Azərbaycan Dövlət Neft Şirkətinin bütün işçilərini, mütəxəssislərini, fəhlələrini səmimi salamlayıram. Biz bütün bu uğurlara onların zəhməti, fəaliyyəti nəticəsində nail ola bilmişik. Çox böyük qürur hissi ilə deyə bilərəm ki, mənim də fəaliyyətimin 9 ili Azərbaycan Dövlət Neft Şirkəti ilə bağlı olmuşdur.

Mən Azərbaycanda fəaliyyət göstərən, ölkəmizə investisiya qoyan, 1994-cü ildə bizə inanan və bizimlə bərabər bütün bu uğurlara nail olan bütün şirkətləri salamlayıram. Onlara öz təşəkkürümü bildirmək istəyirəm ki, bizimlə bərabər bütün bu işləri görübdür.

Azərbaycanın çox böyük neft-qaz yataqları var. Mən artıq qeyd etdim ki, qazma işləri aparıldıqca yeni, ehtiyatlar barədə yeni məlumatlar ortaya çıxır. Əgər 1994-cü ildə «Azəri», «Çıraq»da neft ehtiyatı 500 milyon ton səviyyəsində idisə, indiki məlumata görə artıq 1 milyard tondan çoxdur. «Şahdəniz» yatağında birinci kəşfiyyat quyusu qazılanda məlumat verilmişdi ki, orada 600 milyard kubmetr qaz ehtiyatı var. Ancaq indi verilən məlumata görə «Şahdəniz» qaz yatağında minimum 1 trilyon 200 milyard kubmetr qaz var. Əgər «Azəri», «Çıraq» yataqlarındakı təbii qazın həcmini də buna əlavə etsək – bu isə 300 milyard kubmetrdir – görərik ki, Azərbaycanın qaz ehtiyatları 1 trilyon 500 milyard kubmetrdən çoxdur. Yəni öz tələbatımızı ödəmək üçün bu, ən azı 100 ilə bizə kifayət olacaqdır. Amma, əlbəttə, mən əminəm ki, gələcək illərdə yeni yataqlar aşkarlanacaqdır. Azərbaycanın enerji ilə təminatı həm bizim gücümüzü artırır, həm də bundan tərəfdaşlarımız istifadə edirlər.

Mən qeyd etdim, son bir il ərzində yeni əlamətdar hadisə ondan ibarət olmuşdur ki, Azərbaycan qazı artıq başqa ölkələrə ixrac edilir. Bu da çox tarixi və əhəmiyyətli hadisədir. 2007-ci ilə qədər Azərbaycan qaz idxal edən ölkə idi. Biz qazı idxal edib ondan elektrik stansiyalarında istifadə edirdik. 2007-ci ildən başlayaraq, artıq biz qaz idxal etmirik, əksinə, ixrac edirik. Yəni, bütün bu dəyişikliklər çox böyük siyasi, iqtisadi və coğrafi-siyasi əhəmiyyət daşıyır. Böyük neft-qaz ixrac edən ölkə kimi, Azərbaycan şübhəsiz ki, regionda daha da fəal rol oynayacaqdır. Regional əməkdaşlıq işlərində, həmişə olduğu kimi, bizim çox güclü mövqeyimiz var. Biz regional əməkdaşlıq məsələlərində bir çox hallarda təşəbbüskar rolunu üzərimizə götürmüşük və tərəfdaşları-

mızla birlikdə enerji təhlükəsizliyi məsələlərini uğurla irəliyə aparırıq.

Bu məsələlər, bu dəhlizlərin açılması, öz növbəsində yeni layihələrin meydana gətirilməsinə imkan yaradır. Artıq biz Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi üzərində çox ciddi şəkildə işləyirik. Gürcüstan, Türkiyə, Azərbaycan rəhbərliyi tərəfindən lazım olan razılaşmalar imzalanmışdır və əminəm ki, qısa müddət ərzində biz buna da nail olacağıq. Biz buna nəyin əsasında nail olacağıq?! Ona görə ki, artıq üç ölkə – Türkiyə, Azərbaycan və Gürcüstan iki enerji layihəsini uğurla icra edib, həyata keçiribdir. Regional əməkdaşlıq məsələlərində artıq bir-birini, necə deyərlər, çox yaxşı tanıyırlar. Biz bu dəhlizi açdıq. Bu, imkan verdi ki, bizdə çox böyük maliyyə resursları yaransın.

Bildiyiniz kimi, Bakı–Tbilisi–Qars layihəsinin qarşısını alan əsas səbəblərdən biri maliyyə çatışmazlığı idi və beynəlxalq maliyyə qurumlarına dəfələrlə müraciət edirdik, amma bizi qane edən cavab almırdıq. Ancaq Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində bizə gələn valyuta ehtiyatları artır və bu layihəni, dəmir yolu layihəsini öz hesabımıza icra edirik. Gələcəkdə də Azərbaycanda həm enerji, həm nəqliyyat, həm də infrastruktur sahəsində bütün böyük, nəhəng layihələr uğurla icra olunacaqdır. Mən buna şübhə etmirəm. Bu günə qədər görülən işlər deməyə əsas verir ki, biz gələcəkdə də qarşımıza qoyulan bütün məsələlərə nail olacağıq.

Bizim valyuta ehtiyatlarımız artır. İndi Azərbaycanın valyuta ehtiyatları 5 milyard dollar səviyyəsindədir. Dünya Bankının hesablamalarına görə, növbəti 20 ildə neftin qiymətindən asılı olaraq Azərbaycanın neft gəlirləri 150–200 milyard dollar təşkil edəcəkdir. Bizim bütün iqtisadi layihələrimiz çox asanlıqla icra olunacaq və Azərbaycan dövləti möhkəmlənəcəkdir.

Bu gün Azərbaycanın neft strategiyası iqtisadiyyatın bütün başqa sahələrinə də öz təsirini göstərir. Bizim dövlət

büdcəmiz son dörd ildə 4 dəfə artıbdır. Azərbaycanda son üç il ərzində 550 mindən çox yeni iş yerləri açılıbdır. Böyük infrastruktur, investisiya layihələri həyata keçirilir. 800-ə qədər məktəb tikilibdir, ən müasir xəstəxanalar tikilir, yoxsulluq içində yaşayanların sayı 3 il ərzində 49 faizdən 20 faizə düşübdür. Yəni, bütün bunlar reallıqdır, Azərbaycan reallıqlarıdır. Biz hasilat sahələrində şəffaflıq təşəbbüsünə də qoşulmuşuq. Azərbaycanda fəaliyyət göstərən Dövlət Neft Fondu dünya miqyasında ən şəffaf qurumdur və təsadüfi deyil ki, bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fondunu məhz şəffaflığın təmin olunmasına görə mükafatla təltif edibdir. Yəni bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir.

Bizim çox düşünülmüş siyasətimiz var. Azərbaycanın 1994-cü ildə ulu öndər tərəfindən bəyan edilmiş neft strategiyası var və o, bu günə qədər uğurla icra edilir. Praktik baxımdan bizim bütün layihələrimiz uğurla başa çatıbdır. İndi Azərbaycanın digər neft-qaz yataqlarına maraq daha da artır. Deyə bilərəm ki, vaxtilə «Abşeron» yatağında qazma işləri o qədər də böyük uğurla aparılmamışdı. Xarici şirkətlər o yatağı tərk etmişdi. Amma indi bu yatağa maraq daha da artır. Mən şübhə etmirəm ki, biz bütün bu gözəl imkanlardan səmərəli istifadə edib Azərbaycanın neft-qaz sənayesini daha sürətlə inkişaf etdirəcəyik və bunun nəticəsində ölkəmizi müasirləşdirib ən qüdrətli dövlətlər sırasına daxil edəcəyik.

Əziz dostlar, mən öz səmimi təbriklərimi bir daha sizə çatdırmaq istəyirəm, sizi salamlayıram. Çox şadam ki, sərgidə iştirak etmək üçün Azərbaycana gələn şirkətlərin sayı artıbdır. Əminəm ki, bu sərgidə çox gözəl imkan olacaq, burada həm şirkətlər bir-biri ilə təmas yaradacaqlar, həm də konfransda səslənən fikirlər çox dəyərli olacaqdır. Bütövlükdə, Azərbaycan artıq neft-qaz mərkəzinə çevrilir.

Mən sizi bir daha salamlayıram, konfransın və sərginin işinə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimindən sonra sərginin pavilyonları ilə tanış oldu. Dövlətimizin başçısı əvvəlcə ARDNŞ-in ekspozisiyasına baxdı. Burada 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanmasından başlayan çətin və uzun yolun region üçün həlledici əhəmiyyətə malik sonluğunu, Azərbaycanın neft-qaz hasilatını, ARDNŞ-in 2005–2010-cu illər üzrə qaz hasilatı proqramını, geofiziklərin nailiyyətlərini, ekologiya məsələlərini əks etdirən maraqlı ekspozisiya nümayiş etdirilir.*

*ARDNŞ-in birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə ölkə üzrə qaz hasilatının dinamikası və «Şahdəniz» layihəsi barədə məlumat verərək bildirdi ki, bu il Azərbaycan Dövlət Neft Şirkəti çox geniş qaz proqramının icrasına başlamışdır. Keçən ilə nisbətən şirkət tərəfindən hasil ediləcək qaz iki dəfə çox, təxminən 8 milyard kubmetr olacaqdır. «Şahdəniz» yatağından da 8 milyard kubmetrdən çox qaz hasilatı gözlənilir. Bir neçə yeni quyular da qazılır, təzə boru xətləri çəkilir, mədən-geofizika işləri görülür. Azərbaycan həm özünün tələbatını ödəyəcək, həm də qaz ixrac edən etibarlı ölkəyə çevriləcəkdir. Bibiheybətdə ekoloji problemlərin həlli ilə bağlı mühüm işlər görülür.*

*Prezident İlham Əliyev artıq ARDNŞ-in xarici ölkələrdə də fəaliyyət göstərmək imkanının olduğunu vurguladı, Heydər Əliyev adına Bakı Dərin özüllər zavodunun, Neft emalı zavodunun göstəriciləri, sosial məsələlərin həlli proqramı ilə tanış oldu.*

*Xatırladıldı ki, vaxtilə sovet dövründə 450 milyon dollar vəsait tələb edən Dərin özüllər zavodunu Bakıda tikdirmək asan iş deyildi. Bu, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına bir hədiyyəsidir. Ölkəmizdə neft şirkətinin xətti ilə yeni xəstəxanalar tikilir, bu sektor üzrə orta aylıq əməkhaqqı 2003-cü ildə 133,7 manat idi, indi isə 393 manat təşkil edir. Bu da inkişafın əsas göstəricilərindəndir.*

*Sərgidə iştirak edən Azərbaycan şirkətlərinin sayı ildən-ilə artır və təşkilatçılar bunun üçün xüsusi şərait yaradırlar. Dövlətimizin başçısı sərgidə ənənəvi olaraq təqdim edilən milli pavilyonlara, Rusiya, Gürcüstan, Almaniya və Polşa şirkətlərinin stendlərinə baxdı. Məlumat verildi ki, ənənəvi Xəzər neft-qaz sərgisi, həmişə olduğu kimi, yenə də dünyanın ən iri şirkətlərinin diqqətini cəlb edir. İlk dəfə təmsil edilən şirkətlər arasında dünyada məşhur olan Polşanın PKN ORLEN, Almaniyanın «Wintershall» şirkətləri və başqaları var. br, Casplan Geophysical, İnterpipe, İtoçu, İnpeks, LUKoyl, McDermott Caspian Constrastors, Tekfen/Azfen, Texnip, TRAO, «Siemens», ARDNŞ, Statoyl, Total və digərləri sərginin daimi iştirakçılarıdır.*

*Prezident İlham Əliyev Gürcüstan Neft-Qaz Korporasiyasının, İran Milli Qaz Şirkətinin və Hindistan Milli Neft və Təbii Qaz Şirkətinin pavilyonlarına da baxdı. Bildirildi ki, dörd gün davam edəcək sərgidə iştirak edən şirkətlər əsasən aşağıdakı məhsul və xidmətləri təqdim edirlər: neft və qaz yataqlarının işlənilməsi, geofizika və geologiya, quyuların qazılması və istismarı, platformalar və üzən qazma qurguları, qazçıxarma sənayesi üçün avadanlıqların layihələşdirilməsi, istehsalı və ona texniki qulluq, boru kəmərlərinin təhlükəsizlik sistemlərinin təminatı, neft-qaz emalı və neft kimyası məhsulları, karbohidrogenlərin nəqli, energetika sektorunda tikinti-quraşdırma işləri, neft və qaz saxlama sistemlərinin təminatı, xüsusi texnikanın istehsalı, texniki qulluq üçün ümumi istismar və ehtiyat elementlərinin, həmçinin ehtiyat hissələrinin istehsalı və sair.*

*Dövlətimizin başçısı McDermott, bp, Statoyl, İtoçu, Total, LUKoyl, «Wintershall» nəhəng şirkətlərin ekspozisiyalarına, təqdim olunan müxtəlif avadanlığa baxdı.*

*Almaniyanın «Wintershall» şirkətinin nümayəndəsi Azərbaycana böyük maraq göstərdiklərini bildirdi və dedi ki, artıq əməkdaşlıq protokolları imzalanmışdır və yaxın vaxtlarda konkret işə başlanacaqdır. 10 ölkədə fəaliyyət göstərən «Win-*

*tershall» Avropanın ən böyük qaz şirkəti kimi, Azərbaycanda müxtəlif layihələrdə iştirak edəcəkdir.*

*Amerika–Azərbaycan Ticarət Palatasının pavilyonunda ABŞ-ın ölkəmizdəki səfiri Ann Ders və digər qonaqlar dövlətimizin başçısı və xanımı ilə xatirə şəkli çəkdirdilər.*

*Sərgidə ölkəmizi təmsil edən Alkon LTD-nin, Milli Elmlər Akademiyasının, Dövlət Neft Akademiyasının, «Azərenerji», «Azərikimya» səhmdar cəmiyyətlərinin və digər qurumların ekspozisiyaları Azərbaycanın potensialı barədə təsəvvür yaradır. Burada 2020-ci ilə qədər Azərbaycanın energetika sisteminin perspektiv inkişaf xəritəsi barədə geniş məlumat verildi.*

*Sərgi ilə tanışlıq zamanı belə bir ümumi fikir səsləndi ki, Azərbaycan iqtisadiyyatının sürətli inkişafı bəhrəsini verir. İrimiqyaslı neft və qaz layihələrinin uğurla həyata keçirilməsi respublikanın iqtisadi imkanlarını möhkəmləndirir. Bakı–Tbilisi–Ceyhan boru kəmərinin işə salınması, «Şahdəniz» qazının Bakı–Tbilisi–Ərzurum boru kəməri vasitəsilə Avropaya nəqlinə başlaması və Azərbaycanın Nabukko layihəsinə qoşulmasına dair aparılan danışıqlar bir daha sübut edir ki, Azərbaycan beynəlxalq səviyyədə həyata keçirilən qlobal enerji layihələrinin təşəbbüskarı və bilavasitə iştirakçısıdır. Azərbaycan enerji təhlükəsizliyinin təminatı sahəsində əməkdaşlığa böyük əhəmiyyət verir. Bu baxımdan Xəzər neft və qaz sərgisi qlobal enerji sektorunun inkişafında mühüm rol oynayır və yeniliklərin beynəlxalq səviyyədə nümayişi üçün şərait yaradır.*

*Azərbaycan prezidenti İlham Əliyev Fəxri qonaqlar kitabını imzaladı, sərgi iştirakçılarına uğurlar arzuladı.*

## KÜVEYTİN XARİCİ NEFT-TƏDQİQAT ŞİRKƏTİNİN SƏDRİ VƏ İDARƏETMƏ ÜZRƏ DİREKTORU BƏDR ƏL-XAŞTİ VƏ ABŞ-ın GFİ NEFT VƏ QAZ ŞİRKƏTİNİN PREZİDENTİ RİÇARD MAKDUQAL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında Küveytin Xarici Neft-Tədqiqat şirkətinin sədri və idarəetmə üzrə direktoru Bədr əl-Xaştini və ABŞ-ın GFİ neft və qaz şirkətinin prezidenti Riçard MakDuqalı qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizin neft və qaz sektorunda böyük nailiyyətlər qazandığını və Azərbaycan iqtisadiyyatının çox böyük sürətlə artdığını vurğuladı. Ölkəmizin xarici şirkətlərlə fəal əməkdaşlıq etdiyini söyləyən prezident İlham Əliyev bu şirkətlərin fəaliyyəti üçün Azərbaycanda çox əlverişli şəraitin yaradıldığını bildirdi.*

*Bədr əl-Xaşti rəhbərlik etdiyi şirkətin ABŞ-ın GFİ neft və qaz şirkəti ilə birlikdə Azərbaycanın energetika sahəsinin inkişafında iştirak etməyə böyük maraq göstərdiyini bildirdi. O, dövlətimizin başçısına Küveytin Xarici Neft-Tədqiqat şirkətinin fəaliyyəti və ölkəmizlə əməkdaşlıq istəyinin perspektivləri ilə bağlı məlumat verdi.*

## GÜRCÜSTANIN ENERGETİKA NAZİRİ NİKA GİLAURİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında Gürcüstanın Energetika naziri Nika Gilaurini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Gürcüstan arasında energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, bunun gələcəkdə də inkişaf etdiriləcəyinə əminlik ifadə olundu.*

*Nika Gilauri Gürcüstanın qaz təchizatı ilə bağlı Azərbaycanın göstərdiyi köməyin ölkəsində yüksək qiymətləndirildiyini qeyd etdi və bununla bağlı minnətdarlığını bildirdi.*

## ABŞ-ın DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında ABŞ-ın Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzənin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–ABŞ ikitərəfli münasibətləri, enerji sahəsində əməkdaşlıq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MDB-nin İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ, İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri, icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir.*

*Görüşdə MDB çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ XANIM ANİTA UTSETİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında Norveçin Dövlət katibi, Neft Sənayesi və Energetika nazirinin müavini xanım Anita Utsetin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Norveç arasında energetika sahəsində qarşılıqlı surətdə faydalı əməkdaşlığın həyata keçirildiyi vurğulandı və bu əməkdaşlığın gələcəkdə də inkişaf etdiriləcəyinə əminlik ifadə olundu.*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Böyük Hersoqun təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Lüksemburq arasında yaranmış münasibətlərin inkişafı daim dostluq və əməkdaşlıq zəminində davam edəcəkdir.

Bu xoş məqamda Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Lüksemburq xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2007-ci il*

## LÜKSEMBURQ BÖYÜK HERSOQLUĞUNUN BAŞ NAZİRİ CƏNAB JAN-KLOD YUNKERƏ

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – Böyük Hersoqun təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı təbrik edirəm.

Ümidvaram ki, dost ölkələrimiz arasında əlaqələrin dərinləşməsi, əməkdaşlığımızın inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2007-ci il*

**CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSMAİL ÖMƏR QULLEHƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Cibuti arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə ən səmimi arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2007-ci il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STİPE MESİÇƏ**

Hörmətli cənab Prezident!

Xorvatiyanın milli bayramı – Dövlətin elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, dost ölkələrimiz arasında münasibətlərin, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın hərtərəfli inkişafı üçün birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2007-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANEZ DRNOVŞEKƏ**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının milli bayramı – Dövlətçilik günü münasibətilə Sizi və dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Sloveniya münasibətlərinin, dostluq və əməkdaşlığımızın möhkəmləndirilməsi və dərinləşdirilməsi sahəsində fəaliyyətimizlə daim xalqlarımızın rifahına töhfələr verəcəyik.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2007-ci il*

**MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ARMANDU EMİLİU GEBUZAYA**

Hörmətli cənab Prezident!

Mozambikin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mozambik arasında yaranmış münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2007-ci il*

## ƏFQANISTANIN DAXİLİ İŞLƏR NAZİRİ ZƏRAR ƏHMƏD MUQBİLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Prezident sarayında Əfqanıstanın Daxili İşlər naziri Zərar Əhməd Muqbilin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Əfqanıstan arasında ikitərəfli münasibətlərin yaxşı inkişaf etdiyini bildirdi. Əfqanıstan prezidentinin ölkəmizə səfərini xatırlayan prezident İlham Əliyev əlaqələrimizin daha da inkişaf etdirilməsi ilə bağlı Əfqanıstanın dövlət başçısı ilə müxtəlif beynəlxalq tədbirlərdə də səmərəli görüşlər keçirdiyini qeyd etdi.*

*Azərbaycan prezidenti bildirdi ki, qonağın ölkəmizə bu səfəri qarşılıqlı münasibətlərin, xüsusilə təhlükəsizlik sahəsində əlaqələrin müzakirəsi və gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparmaq üçün yaxşı imkanlar yaradır. Dövlətimizin başçısı bu baxımdan səfərin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini söylədi.*

*Nazir Zərar Əhməd Muqbil Əfqanıstan prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanda sabitlik və əmin-amanlığın bərqərar olduğunu vurğulayan qonaq ölkəmizin Əfqanıstanda sülhün və sabitliyin təmin olunması işinə töhfə verdiyinə – Azərbaycan sülhməramlı qüvvələrinin Əfqanıstanda anti-terror fəaliyyətində iştirakına görə prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.*

*Dövlətimizin başçısı Əfqanıstan prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Əfqanıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## «MİCROSOFT» ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ KREYQ MANDİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Prezident sarayında «Microsoft» şirkətinin Baş vitse-prezidenti Kreyq Mandinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı «Microsoft» şirkətinin prezidenti Bill Qeyts və Baş vitse-prezident Kreyq Mandi ilə İsveçrədə keçirdiyi görüşü xatırlatdı. Prezident İlham Əliyev səmərəli keçən bu görüş zamanı ölkəmizin «Microsoft» şirkəti ilə əməkdaşlığının konkret istiqamətlərinin müzakirə olunduğunu bildirdi. Dövlətimizin başçısı hazırda Azərbaycanda informasiya texnologiyaları sahəsinin inkişafına böyük diqqət verildiyini dedi və bu baxımdan «Microsoft» şirkəti ilə əlaqələrin genişləndirilməsinin faydalı olacağına əminliyini söylədi.*

*Kreyq Mandi «Microsoft» şirkətinin prezidenti Bill Qeytsin salamlarını prezident İlham Əliyevə çatdırdı. Azərbaycana ilk dəfə səfər etdiyini deyən qonaq səfər çərçivəsində səmərəli görüşlər keçirdiyini bildirdi. O dedi: «Sizinlə keçirdiyimiz ilk görüş məndə və «Microsoft» şirkətinin prezidenti Bill Qeytsdə çox yaxşı təəssürat yaratmışdır. Görüş zamanı hiss etdik ki, Siz qlobal baxışlara malik lidersiniz. Görüşdə bildirmişdiniz ki, Siz enerjinin inkişafına söykənən cəmiyyətdən biliyə arxalanan cəmiyyətə keçməyi fikirləşirsiniz. Bu, ölkənizin gələcəyi baxımından çox önəmlidir».*

*Dövlətimizin başçısı Bill Qeytsin salamlarına görə təşəkkürünü bildirdi və onun da salamlarını «Microsoft» şirkətinin prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşün sonunda Kreyq Mandi «Microsoft» şirkətinin Azərbaycan üzrə birinci məhsulu olan «Windows XP» proqramının Azərbaycan dilində versiyasının ilk diskini və Bill Qeytsin şəxsən dövlətimizin başçısına göndərdiyi kitabını prezident İlham Əliyevə təqdim etdi.*

## BÖYÜK BRİTANİYA PARLAMENTİ İCMALAR PALATASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Prezident sarayında Böyük Britaniya parlamenti İcmalar palatasının Xarici Əlaqələr Komitəsinin sədri Mayk Qeypsin rəhbərlik etdiyi parlament nümayəndə heyətini qəbul etmişdir.*

*Mayk Qeyps Azərbaycanda gedən inkişaf proseslərinin onlarda böyük maraq doğurduğunu qeyd etdi. O, Böyük Britaniya ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayaraq, ölkələrimizin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə yaxından əməkdaşlıq etdiklərini bildirdi. Qonaq Azərbaycanın təşəbbüsü ilə regionda həyata keçirilmiş qlobal enerji layihələrində Böyük Britaniyanın bp şirkətinin iştirakından məmnun olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya arasında müxtəlif səviyyələrdə intensiv dialoqun aparıldığını və bunun ikitərəfli münasibətlərin inkişafına dəyərli töhfə verdiyini bildirdi. O, Azərbaycanın neft strategiyasının həyata keçirilməyə başlandığı dövrdən Böyük Britaniyanın bp şirkətinin bu işdə çox fəal iştirak etdiyini vurğuladı. Prezident İlham Əliyev bu səfərin müxtəlif sahələrdə ikitərəfli əlaqələrin, o cümlədən parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi üçün faydalı olacağına əminliyini söylədi.*

## BƏHREYNİN XARİCİ İŞLƏR NAZİRİ XALİD BİN ƏHMƏD BİN ƏL-XƏLİFƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Prezident sarayında Bəhreyn Krallığının Xarici İşlər naziri Xalid bin Əhməd bin əl-Xəlifənin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Bəhreyn arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimizin daha da genişləndirilməsinin zəruriliyinə toxunan prezident İlham Əliyev iki ölkənin gələcək birgə əməkdaşlığı üçün yaxşı perspektivlərin olduğunu vurğuladı. Dövlətimizin başçısı bu səfərin ölkəmiz ilə Bəhreyn Krallığı arasında münasibətlərin bundan sonra da inkişaf etdirilməsinə töhfəsini verəcəyinə əminliyini söylədi.*

*Xalid bin Əhməd bin əl-Xəlifə Bəhreynin kralı, şahzadəsi və Baş nazirinin salamlarını prezident İlham Əliyevə çatdırdı. Azərbaycana ikinci dəfə səfər etdiyini bildirən qonaq ilk səfərindən ötən bir il ərzində ölkəmizdə böyük dəyişikliyin baş verməsinin şahidi olduğunu dedi. O, Bəhreyn Krallığı ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin genişləndiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Bəhreynin kralı, şahzadəsi və Baş nazirinin salamlarına görə təşəkkürünü bildirdi və özünün də salamlarını Bəhreyn Krallığının rəhbərliyinə çatdırmağı xahiş etdi.*

## KÜVEYT BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ŞEYX MƏHƏMMƏD ƏS-SALİM ƏS-SABAHIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Prezident sarayında Küveyt Dövləti Baş nazirinin müavini, Xarici İşlər naziri Şeyx Məhəmməd əs-Salim əs-Sabahın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Küveyt arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Hər iki ölkədə səfirliklərin fəaliyyət göstərdiyini qeyd edən prezident İlham Əliyev bunun ikitərəfli əlaqələrimizin mühüm elementi olduğunu vurğuladı. O, Küveyt ilə bütün sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da genişləndiriləcəyinə əminliyini söylədi.*

*Şeyx Məhəmməd əs-Salim əs-Sabah Küveyt Dövlətinin əmiri, şahzadəsi və Baş nazirinin salamlarını və Küveyt Dövlətinin əmirinin prezident İlham Əliyevi öz ölkəsində görmək istəyini dövlətimizin başçısına çatdırdı. O, Küveytin Azərbaycanda səfirliyinin açılmasının ölkəmizlə münasibətlərə verilən əhəmiyyətin mühüm göstəricisi olduğunu vurğuladı. Qonaq iki ölkə arasında fəal siyasi dialoqun və səmərəli əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Küveyt Dövlətinin əmiri, şahzadəsi və Baş nazirinin salamlarına görə təşəkkürünü bildirdi və onun da salamlarını Küveytin rəhbərliyinə çatdırmağı xahiş etdi.*

## QEYDLƏR

**1. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 5,72,112, 115,116.

**2. Ekmələddin İhsanoğlu** (d.1946) – Türkiyə diplomatı, tarix elmləri doktoru, professor. Ana Vətən Partiyasının üzvü. 2005-ci ildən İslam Konfransı Təşkilatının Baş katibidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 5.

**3. Koreya,** Koreya Respublikası – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min km$^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və mərkəzə tabeli 6 şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 5.

**4. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveyjridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 6.

5. **Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev

siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 7,17–18,53–54,62,64,152.

**6. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 7,48,107,177,219, 230,302.

**7. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 76,5 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 8,27,72,105, 177,199,207,208,216,240.

**8. Hikmət Çətin** (d.1937) – Türkiyənin siyasi və dövlət xadimi. Ayrı-ayrı illərdə Türkiyə Respublikasının Xarici İşlər naziri, Baş nazirin müavini vəzifələrində çalışmışdır. 1997–99-cu illərdə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur. – 8.

**9. Yeltsin Boris Nikolayeviç** (1931–2007) – 1991–2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. –9,14.

**10. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17.075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 9,13–15,16–25,50,72,177,179,180,181,194–195,214,221, 222,226,247,259,260.

**11. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 10,293–294.

**12. Mikloş Harasti** (d.1939) – macar yazıçısı, jurnalist və hüquq müdafiəçisi. 2004–2010-cu illərdə ATƏT-in Kütləvi İnformasiya Vasitələri azadlığı üzrə daimi nümayəndəsi olmuşdur. 2012-ci ildə BMT-nin Belarusda insan hüquqları üzrə daimi xüsusi məruzəçisi təyin edilmişdir. – 10.

**13. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 11,135–144,150,218,288–289.

**14. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşanın prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 11,138,139–140,141–142,288,289.

**15. Qalina Vişnevskaya** (1926–2012) – görkəmli rus müğənnisi, SSRİ Xalq artisti. M.Rostropoviçin həyat yoldaşı. 1952–74-cü illərdə Böyük Teatrın aparıcı solistlərindən biri olmuşdur. – 12,13–15.

**16. Rostropoviç** Mstislav Leopoldoviç (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının Fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 12,13–15.

**17. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. –13,15,18–19,29,117,135.

**18. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Res-

publikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 13,15,117,126,135.

**19. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 13,15,43,44,56,117,135.

**20**. **Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əhalisi 12 108 min nəfərdir. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 13–15,192.

**21. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illərdə Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. I çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 13.

**22. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün

xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci idə Bakıda keçirilən ilk Avropa oyunlarının təşkilat Komitəsinin sədri olmuş,oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 13–15,18,54,64, 84–117,127–134,164,165,249,262,263,265.

**23. «QKÇP»** – Fövqəladə Hallar üzrə Dövlət Komitəsi. –14.

**24. Berlin divarı** – Şərqi Berlindən Qərbi Berlinə külli miqdarda gedən əhalinin qarşısını almaq üçün 1961-ci ildə Almaniya Demokratik Respublikası hökuməti və Almaniya Vahid Sosialist Partiyasının rəhbərliyi ilə Qərbi Berlin ətrafında betondan, tikanlı məftillər və gözətçi postları ilə

tikilmiş divar. 1990-cı ildə divar söküldü və Berlin vahid Almaniyanın paytaxtı elan edildi. – 14.

**25. Artyom Borovik** (1960–2000) – Rusiya jurnalisti, «Sverşenno sekretno»»» nəşriyyatının prezidenti olmuşdur. – 15.

**26. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 2,120 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 16–25.

**27. Muxu Əliyev** (d.1940) – Rusiya dövlət xadimi. 1995–2006-cı illərdə Dağıstan Respublikası Milli Məclisinin sədri, 2006–2010-cu illərdə isə prezidenti olmuşdur. – 16–25.

**28. Yaqub Eyyubov,** Y a q u b A b d u l l a o ğ l u (d.1945) – inşaat mühəndisi, texnika elmləri doktoru, professor. 1999–2003-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetində Baş nazirin müavini, 2003-cü ildən Azərbaycan Respublikası Baş nazirinin birinci müavinidir. – 16,25.

**29. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən

Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara

layiq görülmüşdür. – 16,19,27,40,58,63,64,65,66,120,121–124, 125–126,127–134,145–152,192,221,230,234,249,251,259,261, 270,272,296,297,298,303.

**30. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadimi, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 16,22, 24,125,192,201.

**31. Zərifə xanım Əliyeva,** Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir.

O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 16,125,192.

**32. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda, Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 16,44.

**33. Baykal–Amur magistralı (BAM)** – Şərqi Sibirdə və Uzaq Şərqdə Rusiyanın Sakit okeana dəmir yolu ilə çıxışı. Ümumi uzunluğu 4300 km-dir. – 17.

**34. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 17,28,61,63,74,140,143,182,183, 240,297,298,301,305

**35. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə

yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 18,48,58,68,69,70, 72,73,99,107,111,115,169,174,175,176,177,226,235,294,308.

**36. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində iki mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdi. İçərişəhərin üç əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmiş, XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdi. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 19.

**37. Kamil Əliyev** (1921–2006) – təsviri sənət ustası. Azərbaycan Respublikasının Xalq rəssamı. 1990-cı ildən ömrünün sonuna kimi «Azərxalça» Birliyinin rəhbəri olmuşdur.

Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 19.

**38. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» Fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 19.

**39. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 19.

**40. İmadəddin Nəsimi,** əsl adı S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş,

«kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə öldürülmüşdür. – 19.

**41. Puşkin,** Aleksandr Sergeyeviç (1799–1837) – dahi rus şairi, yeni rus ədəbiyyatının banisi. Puşkin rus ədəbi dilini yeni yüksək zirvəyə qaldırmışdır. Rus poeziyasının «atası olan» (N.Q.Çernışevski) Puşkin novator şair kimi, yeni tipli realist şeirin, mənzum romanın, tarixi povestin, mənzum hekayə, nağıl və dramın gözəl nümunələrini yaratmışdır. Puşkinin Qafqaz həyatı onun yaradıcılığına müstəsna təsir göstərmiş, şairin bu mövzuda yazdığı əsərlər («Qafqaz əsiri», «Quldur qardaşlar», «Baxçasaray fontanı», «Qaraçılar», «Ərzuruma səyahət») rus ədəbiyyatında yeni səhifə açmışdır. Bakıda Puşkinə abidə qoyulmuşdur. – 19.

**42. Böyük Vətən müharibəsi,** bax: İkinci dünya müharibəsi.

**43. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon

adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 22,119–120.

**44. Vasili İstratov** (d.1954) – Rusiya diplomatı. 2006–2009-cu illərdə Rusiyanın Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 25.

**45. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 26,72,136,137,146–152,178,218,227,259,275,307.

**46. Zurab Adeişvili** (d.1972) – gürcü hüquqşünası və siyasi xadimi. 2004–2008-ci illərdə Gürcüstanın Baş prokuroru, 2008–2012-ci illərdə Ədliyyə naziri olmuşdur. 2014-cü ildən İnterpolun axtarışındadır. – 26.

**47. «Mərmərə» qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 27.

**48. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan keçir, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 28,74,182,240,298,305.

**49. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanmışdır. Yolun uzunluğu 826 km-dir. Gürcüstanın Axalkalaki stansiyasından Qars şəhərinə qədər olacaqdır. Yolun çəkilişi təxminən 2015-ci ilin ortalarında başa çatmalıdır. – 28,74,183,234,240,242,301.

**50. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox Avropa dövlətləri də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 28,140,142,175,176,177,186,187, 191,214,215,236,288.

**51. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 29–56.

**52. Aleksandr Lukaşenko** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 29–56.

**53. Xələf Xələfov,** Xələf Alı oğlu (d.1959) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. Moskvada ikiillik Ali Diplomatiya Akademiyasını bitirmişdir. 1997-ci ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 29,43,44,56.

**54. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmə-

ləri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 35,305.

**55. Mahmud Kərimov,** M a h m u d K ə r i m o ğ l u (1948–2013) – fizik, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik. 2001–2013-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. İlk dəfə olaraq yüksək molekullu sistemlərdə güclü elektrik və maqnit sahəsinin təsiri ilə baş verən elementar elektrik və molekulyar prosesləri, elektrik və fotoelektrik keçiricilərinin maqnit spin effektlərini tədqiq etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 35.

**56. Mərkəzi Bank (**Milli Bank**)**– Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının tədiyə-hesablama balansının tərtibinə rəhbərlik edir. – 35.

**57. Elman Rüstəmov,** E l m a n S i r a c o ğ l u (d.1952) – iqtisad elmləri namizədi. 1995-ci ildən Azərbaycan Milli Bankı İdarə Heyətinin sədridir. – 35.

**58. Pyotr Prokopoviç** (d.1942) – belarus dövlət xadimi, 1998–2011-ci illərdə Belarus Respublikası Milli Bankı İdarə Heyətinin sədri. 2012-ci ildə Belarus prezidentinin köməkçisi. 2013-cü ildən Belarus Nazirlər Soveti sədrinin müavinidir. – 35.

**59. Sergey Martınov** (d.1955) – Belarusun dövlət xadimi və diplomat, 2003–2012-ci illərdə Belarusun Xarici İşlər naziri olmuşdur. – 35,36.

**60. İsmət Abasov,** İ s m ə t D u r s u n o ğ l u (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2008–2013-cü illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. 2013-cü ildən Baş nazirin müavinidir. – 35,56.

**61. Eldar Mahmudov,** E l d a r Ə h m ə d o ğ l u (d.1956) – Azərbaycan dövlət xadimi, general-polkovnik. 2004-cü ildən Milli Təhlükəsizlik naziridir. – 36.

**62. Ramil Usubov,** R a m i l İ d r i s o ğ l u (d.1948) – Azərbaycanın Dövlət xadimi, general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 36,103.

**63. Vladimir Naumov** (d.1956) – Belarus dövlət və ictimai xadimi, milis general-leytenantı. 2000–2001-ci illərdə Belarusun Daxili İşlər naziri olmuşdur. – 36.

**64. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisi 324,7 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 38,268,274–277.

**65. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının

təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 39,286,309.

**66. Odessa–Brodi** – Odessa və Brodi şəhərləri arasında çəkilən və «Drujba» kəməri ilə birləşdirilən neft kəməri. Kəmərin uzunluğu 667 km-dir. 2001-ci ildə axıdılan neftin miqdarı 14,5 milyon ton olmuşdur. Bu kəmərlə Xəzər və Qazaxıstan neftinin Türkiyə boğazlarından ötürülməklə Şərqi, Mərkəzi və Şimali Avropaya çatdırılması nəzərdə tutulurdu. – 41.

**67. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 47,108,177,236

**68. SSRİ,** Sovet Sosialist Respublikaları İttifaqı – 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 49,53,127,169,189,221.

**69. Minsk avtomobil zavodu** (MAZ) – ağır yükdaşıyan avtomobillərinin, həmçinin avtobus, trolleybus və qoşma texnikasının ixtisaslaşmış Belarus avtomobilqayırma (MAZ)

kompaniyası. MAZ avtomobilləri dünyanın 45 ölkəsinə ixrac edilir. MAZ-ın nomenklaturasına 400-dən çox model, modifikasiya və komplektləşdirilmiş avadanlıq daxildir. – 55.

**70. Gəncə avtomobil zavodu** – 1986-cı ildə təməli qoyulan bu zavod 1989-cu ildə fəaliyyətə başlamalı idi. SSRİ-nin süqutu bu işi yarımçıq qoydu. Zavod ancaq 2004-cü ildə istismara buraxıldı. Zavod QAZ–11113 «OKA» ortatonnajlı maşınlar istehsal edir. Zavodun istehsal gücü layihəyə əsasən 30000 ədəd ortatonnajlı avtomobillərin istehsalı üçün hesablanmışdır. – 55,56.

**71. 9 may** – Faşizm Almaniyası üzərində Qələbə günü. –55, 119–120.

**72. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. Təşkilatın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 56,269.

**73. Əli Həsənov,** Əli Şamil oğlu (d.1948) – mühəndis-mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 57.

**74. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 km$^2$, əhalisi 188,4 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 58.

**75. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 58,71,73.

**76. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar;

1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 58,152.

**77. Xocavənd** (1930–91-ci illərdə Martuni rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. Kiçik Qafqazda Qarabağ silsiləsinin cənub-şərq hissəsində yerləşir. Sahəsi 1458 $km^2$, əhalisi 42,6 min nəfərdir. Mərkəzi Xocavənd şəhəridir. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 58.

**78. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 58,59,60,72.

**79. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarəetməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 58,61,65,184,185,219,302.

**80. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olun-

muşdur. Sahəsi 1386 km$^2$, əhalisi 123,3 min nəfərdir. – 60.

**81. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 60.

**82. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 66,297.

**83. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 70,72, 73,174,175,177,226.

**84. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 86,7 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 71.

**85. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nü-

mayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 72,177,179,180, 181,184,185,217,236,243,291–292,299,305,306,308,204.

**86. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 72,118, 174–190,196–197,226,242.

**87**. **Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 72,177,187,236.

**88. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan qurumu tərk etdi. – 72,136,178, 179,236.

**89. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,7 min km$^2$, əhalisi 46,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – RADA – 72,136,137,178,260.

**90. Moldova,** Moldova Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min $km^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 72,178.

**91. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 75,98,198,215,260,285.

**92. Lüqviqshafen** – Almaniyanın cənub-qərbində şəhər. Əhalisi 165 min nəfərdir. – 75.

**93. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 329,3 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhəri oldu. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 75.

**94. Kamerun,** Kamerun Respublikası – Mərkəzi Afrikada dövlət. Sahəsi 475,4 min $km^2$, əhalisi 13,6 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Yaundadır. – 78.

**95. Pol Biyya** (d.1933) – Kamerun siyasi və dövlət xadimi. 1982-ci ildən Kamerunun prezidenti. – 78.

**96. Yəmən,** Yəmən Respublikası – Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 532 min $km^2$,

əhalisi 16,6 milyon nəfərdir. İnzibati ərazisi 17 əyalətə (qubernatorluğa) bölünür. Dövlət başçısı Prezident Şurasıdır. Paytaxtı 1990-cı ildən Sənadır. Ədən iqtisadi şəhər statusuna malikdir. – 79.

**97. Əli Abdullah Saleh** (d.1932) – marşal, 1994-cü ildən Yəmən Respublikasının prezidenti. – 79.

**98. Norveç,** N o r v e ç  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min km$^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (stortinq laqtinq və odelstinq) parlamentdir. Paytaxtı Oslodur. – 82,83,310.

**99. V Harald** (d.1937) – 1991-ci ildən Norveçin kralı. V Kral Ulafin oğlu. – 82.

**100. Stoltenberq Yens** (d.1959) –Norveçin dövlət və siyasi xadimi. Əvvəllər Norveçin Energetika, Ticarət, Maliyyə nazirləri vəzifəsində çalışmışdır. 2000–2002-ci illər, 2005-ci ildən isə yenidən Norveçin Baş naziri olmuşdur. Onun hökuməti gender (10 kişi, 10 qadın nazir) bərabərliyində fəaliyyət göstərir. – 83.

**101. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 84–117.

**102. Hüsnü Mübarək,** S e y i d  M ə h ə m m ə d (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 84–117.

**103. Qahirə** – Misirin paytaxtı. Nil çayı sahilində yerləşir. Afrikada ən böyük şəhər. Əhalisi 9,9 milyon nəfərdir. Qahirənin əsasını 969-cu ildə Fatimilər sərkərdəsi Cövhər əl-Saqali qoy-

muşdur. Qahirə memarlıq və arxeoloji abidələrlə zəngindir. Şəhərdə qədim abidələr – ibn Tulun (IX əsr) və əl-Əzhar məscidləri (X əsr), Səba Bənat (XI əsr) və Umm Gülsüm (1122) məqbərələri, Səlahəddin qalası (1176–83), Sultan Qait bəy məqbərəsi və məscidi (1472–74) qorunub saxlanılır. – 84–117.

**104. əl-Əzhər** – müsəlman dini və dünyəvi təhsil müəssisələri kompleksi. X əsrdə Qahirədə əl-Əzhar məscidi nəzdində yaradılmışdır. Tərkibində əl-Əzhəriın Ali Elmi Şurası, İslamşünaslıq akademiyası, əl-Əzhər universiteti (universitetin şəriət, ilahiyyat, ərəb dili, mühəndislik, kənd təsərrüfatı, tibb fakültələri,qadın kolleci) var. – 93–94.

**105. Cizə,** əl-Cizə – Misirdə şəhər. İri ticarət və turizm mərkəzidir. Cizə yaxınlığında Qədim Misir fironları Xeops, Xefren və Mikerinin e.ə. 3-cü minilliyin 1-ci yarısında tikilmiş və ellinizm dövrü ədəbiyyatında dünyanın yeddi möcuzəsi sirasına daxil edilmiş əzəmətli ehram-sərdaba kompleksləri. Bunlardan ən böyüyü Xeops ehramıdır. Xefren ehramının yaxınlığındakı qayada möhtəşəm sfinks heykəli («Böyük sfinks», uzunluğu 57 metr, hündürlüyü 20 metr) çapılmışdır. Ehramların yerləşdiyi sahədə Qədim Misir əsilzadələrinin dəfn olunduğu 7 mindən artıq sərdabada qazıntı işləri aparılır. – 95.

**106. Xeops,** Xufu – e.ə. XXVII əsrin əvvəlində Misir fironu Xeopsun hakimiyyət dövrünə aid salnamələrdən hissələr və Xeopsun bədəvilər üzərində qələbəsini əks etdirən qayaüstü təsvirlər indiyədək qalmışdır. Xeopsun Cizədəki ehramı Misirin ən böyük ehramlarındandır. – 95.

**107. Xefren** – IV sülaləyə aid (e.ə. XXVII əsrin sonu – e.ə. XXVI əsrin əvvəllərində) Misir fironunun sərdabası. Böyüklüyünə görə Xefren (hündürlüyü 143,5m) Xeopsdan sonra ikinci yeri tutur. – 95.

**108. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi

Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 96,98,185,219,244,245,290,320.

**109. Ənvər Sədat** (1918–1981) – Misir dövlət və siyasi xadimi, 1970–81-ci illərdə Misir prezidenti, «Azad zabitlər» təşkilatının rəhbərlərindən biri, Camal Əbdül Nasir zamanında vitse-prezident. 1979-cu ildə İsrail ilə Kemp-Devid sülh sazişi imzalamış (1979); 1981-ci ildə hərbi parad zamanı qətlə yetirilmişdir. Nobel sülh mükafatı laureatı. – 96.

**110. Məhəmməd Əli paşa** (1769–1849) – 1805-ci ildən Misir hökmdarı, 1953-cü ilə qədər ölkəni idarə edən sülalənin banisi, orduda və administrasiya aparatında islahatlar etmiş, ölkədə kənd təsərrüfatının və fabrik, sənayenin inkişafına nail olmuşdur. Müharibə edərək demək olar ki, Misiri Türkiyədən ayırmışdır. – 96–97.

**111. Camal Əbdül Nasir** (1918–1974) – Misir dövlət, siyasi və hərbi xadimi. 1949-cu ildə «Azad zabitlər» təşkilatına başçılıq etmiş və 1952-ci ildə ölkədə dövlət çevrilişi etmişdir. 1953-cü ildə Baş nazirin müavini, 1954–56-cı illərdə Baş nazir, 1956-cı ildən prezidenti olmuşdur. 1963-cü ildən Ərəb Sosialist İttifaqının sədri idi. Camal Əbdül Nasir Süveyş kanalını milliləşdirmiş və Misirə qarşı İngiltərə–Fransa–İsrail təcavüzünə (1956) qarşı Misir xalqının mübarizəsinə başçılıq etmişdir. Misirin İsraillə müharibədə məğlubiyyətindən, Sinay yarımadasının İsrail tərəfindən işğal edilməsindən sonra prezidentlikdən istefaya getmək istəsə də istefası qəbul edilməmişdir. – 96.

**112. Əyyubilər** – Yaxın Şərqdə sülalə. Əsasını Misirdə Fatimilərin süqutundan sonra 1171-ci ildə Səlahəddin

qoymuşdur. Sülalə Səlahəddinin atası Əyyubi Şadinin adı ilə adlandırılmışdır. Əyyubilərin müxtəlif qolları XII–XIII əsrlərdə Misirdə, Suriyada, Mesopatamiyada, Cənubi Ərəbistanda hakimiyyətdə olmuşlar. Əyyubilərin əsas Misir qolu 1250-ci ildə məmlüklərin sui-qəsdi nəticəsində süqut etmişdir. – 97.

**113. Misir muzeyi** – Qədim Misir incəsənətinin şah əsərlərinin qorunub saxlandığı məbəd. Əsası 1858-ci ildə Qahirədə O.Marretom tərəfindən qoyulmuşdur. Bu dövrün incəsənəti texniki kamilliyini və dekorativ zərifliyini saxlamaqla yanaşı, akademik incəsənətin xüsusiyyətlərini də özündə əks etdirir. Firon Tutanxamonun sərdabasından tapılmış əşyalar – qızıl maska, tac, qablar, üzəri təsvirli mücrülər (e.ə.XIV əsrin 1-ci yarısı), Tutanxamonun sarkofaqını mühafizə edən ilahə Selketin fiquru (e.ə.XIV əsr), Misir incəsənətinin inciləri bu muzeydə qorunub saxlanılır. – 97–98.

**114. İstanbul (**1453-cü ilədək Konstantinopol) – Türkiyədə ən böyük şəhər. İstanbul ilinin inzibati mərkəzi. Sahəsi 285,4 $km^2$, əhalisi 16 milyon nəfərdir. Mərmərə dənizi yaxınlığında Bosfor boğazının hər iki sahilindədir. Şəhərin çox hissəsi Avropada, az hissəsi Asiyadadır. Əsası e.ə. 660-cı ildə Bizans kimi qoyulmuşdur. Eramızım 330-cu ilində Roma imperatoru Konstantinin şərəfinə Konstantinopol adlandırılmışdır. 395-ci ilə qədər Roma imperiyasının, 395–1453-cü illərdə fasilələrlə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə Osmanlv imperiyası Konstantinolu tutmuş və İstanbul adlandırılmışdır. 1453–1918-ci illərdə Osmanlı imperiyasının, 1923-cü ilə kimi Türkiyə Respublikasının paytaxtı olmuşdur. – 97.

**115. Ayasofiya,** Müqəddəs Sofiya məbədi – İstanbulda Bizans dövrünə aid görkəmli memarlıq abidəsi. İmperator Yustinianın dövründə Konstantinopolda Tralli Anfimi və Miletli İsidor tərəfindən tikilmişdir (532–537).

Türklər şəhəri fəth etdikdən (1453) sonra II Sultan Fateh Məhəmməd qələbənin rəmzi kimi, kilsəni cameyə çevirərək Ayasofiya adlandırmışdır. Üçnefti günbəzli bazilikadan ibarət olan Ayasofiyanın uzunluğu 77 m-dir. Paruslar üzərində qurulmuş, hündürlüyü 55,60 m, diametri 31,36 m olan günbəz mürəkkəb yarımgünbəzlər sisteminin köməyilə binanın bazilikalı hissəsinə birləşdirilmişdir. Bu, Ayasofiyanın daxilinə möhtəşəmlik və ahəngdarlıq verir. Yarımgünbəzlərin və parusların ritmik «uçuşu», günbəzin oturacağında açılmış 40 pəncərədən süzülən işıq nəhəng günbəzin səmada pərvaz etməsi effektini yaradır. Ayasofiya 1935-ci ildən muzeydir; 1991-ci ildən qismən came kimi də fəaliyyət göstərir. – 97.

**116. Fiva** – Qədim Misirin ən böyük şəhərlərindən və mədəniyyət mərkəzlərindən biri. E.ə. 3-cü minilliyin ortalarından məlumdur. XV sülalə (e.ə.XXII – XX əsrlər) dövründə Misirin paytaxtı olmuş, XXII–XXIII sülalələr (e.ə. X – e.ə. VIII əsrlər) zamanı siyasi mərkəz kimi əhəmiyyətini itirmiş, dini mərkəz olaraq qalmışdır. XIX əsrin 1-ci yarısından Fivada arxeoloji qazıntı və bərpa işləri aparılır.

Fiva ərazisində məbəd ansamblları, nekropollar və fironların dəfn məbədlərinin xarabalığı qalmışdır. Fiva yaxınlığındakı Deyr əl-Bəhridə yerləşən Qədim Misir memarlıq kompleksləri aşkar edilmişdir. – 98.

**117. Tutanxamon,** Y e n i p a d ş a h l ı q (XVIII sülalə) dövründə Misir fironu (e.ə.təqr. 1400–1392) 12 yaşında Tutanxaton adı ilə hakimiyyətə gəlmiş, ölkəni əslində vəzir Eye və b. idarə etmişdir. Tutanxamon dövründə Exnatonun (IV Amenhoten) dini islahatları ləğv edilmiş, Amon Allahına sitayiş bərpa edilmiş, fironun iqamətgahı Exnaton şəhərindən Fivaya köçürülmüşdü. 1922-ci ildə Tutanxamonun sərdabası aşkar edilmişdir. Bu, incəsənət nümunələri ilə zəngin olan yeganə talan edilməmiş sərdabadır. – 98.

**118. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,8 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 98.

**119. Azad Rəhimov,** A z a d  A r i f  o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. – 102.

**120. Fikrət Məmmədov,** F i k r ə t  F ə r r u x  o ğ l u (d.1955) – Azərbaycan Respublikasının Ədliyyə naziri, III dərəcə Dövlət ədliyyə müşaviridir. Məhkəmə–Hüquq Şurasının sədridir. – 102.

**121. Heydər Babayev,** H e y d ə r  A y d ı n  o ğ l u (d.1957) – iqtisadçı. 1999–2005-ci illərdə Azərbaycan Respublikası Prezidenti Yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, 2005-ci ilin oktyabrından 2008-ci ilə qədər Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri olmuşdur. – 102.

**122. AzərTAc** (*Azərbaycan Dövlət İnformasiya Agentliyi*) – Azərbaycanda informasiya orqanı. 1920-ci ildə yaradılmışdır. Əvvəllər Azərinform adlanırdı. 1992-ci ildən AzərTAc Dövlət İnformasiya, 2015-ci ildən Azərbaycan Dövlət İnformasiya Agentliyidir. Azərbaycan Respublikası mətbuatı, televiziya və radiosu üçün xarici və daxili informasiyanı yayır, respublikanın həyatı haqqında ölkədə və xaricdə yayımlanmaq üçün informasiya verir. – 102.

**123. Aslan Aslanov,** A s l a n  Ə h m ə d  o ğ l u (d.1951) – jurnalist. 2002-ci ildən Azərbaycan Dövlət İnformasiya Agentliyinin – 2015-ci ildən Baş direktordur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 102.

**124. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təş-

kilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 103,104.

**125. Azərbaycan Milli Kitabxanası,** (*M.F.Axundov adına*) – Azərbaycan Respublikasında ən böyük kitabxana; respublikada çap olunan əsərlərin böyük kitabsaxlayıcısı, kitabxanaşünaslıq və biblioqrafiya üzrə elmi-metodik mərkəz. 1923-cü ildə Bakıda yaradılmışdır. Kitabxana fondunda 4528752 nüsxə ədəbiyyat saxlanılır. 26 şöbə, 47 bölmə fəaliyyət göstərir. Kitabxananın nadir kitablar bölməsində tarixi və elmi əhəmiyyətə malik 3500-dən çox qiymətli əsər, o cümlədər Sankt–Peterburqda nəşr olunmuş ilk Azərbaycan çap kitabı (1720), Azərbaycan ədəbiyyatının Nizami, Xaqani, Nəsimi, Füzuli, Saib Təbrizi, A.Bakıxanov, görkəmli şərqşünas Mirzə Kazım bəy və başqa klassiklərinin əsərlərinin nadir nüsxələri saxlanılır. Milli Kitabxana Azərbaycan haqqında yazılmış əsərləri və Azərbaycan müəlliflərinin xarici ölkələrdə nəşr olunmuş əsərlərini, dünya əhəmiyyətli digər nəşrləri toplayıb mühafizə edən milli mədəniyyət mərkəzidir. – 103.

**126. İsgəndəriyyə kitabxanası** – qədim dövrün ən məşhur kitabxanası. E.ə. 3-cü əsrin əvvəllərində İsgəndəriyyə museyonu nəzdində yaradılmışdı. İsgəndəriyyə kitabxanasına görkəmli alimlər – Eratosfen, Zenodot, Kallimax və başqaları başçılıq etmişlər. Fondunda 100 mindən 700 minədək cild kitab olmuşdur. İsgəndəriyyə müharibəsi dövründə (e.ə.47-ci il) İsgəndəriyyə kitabxanası yanmış, sonradan yenə bərpa edilmişdir. Eramızın 391-ci ilində İsgəndəriyyə kitabxanasının bir hissəsini fanatik xristianlar dağıtmış, ərəblərin hakimiyyəti dövründə (VII–VIII əsr) kitabxana tamamilə məhv edilmişdir. – 103.

**127. Cahangir Əsgərov,** C a h a n g i r  C ə l a l  o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən

«Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədridir. – 103.

**128. Ərəb Dövlətləri Cəmiyyəti** (ƏDC) – müstəqil ərəb dövlətlərinin məhəlli təşkilatı, əsası 1945-ci ildə qoyulmuşdur. Fələstin Azadlıq Təşkilatı 1964-cü ildən cəmiyyətin işində iştirak edir. Cəmiyyətin nizamnaməsi iştirakçı dövlətlər arasında münasibətlərin möhkəmləndirilməsini, onların siyasi fəaliyyətinin əlaqələndirilməsini, istiqlaliyyət və suverenliyinin müdafiə olunmasını və s. nəzərdə tutur. Cəmiyyətin rəhbər orqanı Cəmiyyət Şurasıdır. Şuraya ərəb ölkələrinin dövlət və hökumət başçıları, yaxud onların müvəkkilləri daxildir. – 104,105–109,110,111,115.

**129. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 105,116,117,173,180,181, 225.

**130. Fələstin – İsrail–Ərəb münaqişəsi** – BMT Baş Məclisinin 1947-ci il qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri (İsrail və Fələstin) yaradılmalı idi. 1948–49 və 1967-ci ildə Fələstin Ərəb Dövləti üçün ayrılmış böyük bir ərazini İsrail işgal etdi. İsrail hökuməti Fələstin torpaqlarını bu günədək işğal altında saxlayır. Fələstin xalqının azadlıq və öz müqəddəratını təyin etmək hüququna zidd olaraq İsrail hakim dairələri ancaq İsrail dövləti daxilində Fələstin xalqına «muxtariyyət hüququ» verilməsi planını irəli sürürlər. Fələstin ərəb xalqının qanuni hüquqları uğrunda mübarizə aparan Fələstin Azadlıq Təşkilatı (FAT) isə bu planı qətiyyətlə rədd edir. FAT-nı 115 ölkə tanıyır, 82 ölkədə nümayəndəliyi var. 1973-cü ildən bəri FAT

Fələstin ərəb xalqının yeganə qanuni nümayəndəsi kimi tanınır. – 105,115,116.

**131. İraq,** İ r a q   R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 36 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 116,180,182,291.

**132. Beynəlxalq Atom Enerjisi Agentliyi** (BAEA) – BMT yanında 1957-ci ildə atom enerjisindən dinc məqsədlərlə istifadə sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmək üçün yaradılmışdır. 100-dən artıq ölkə bu agentliyin üzvüdür. İqamətgahı Vyanadadır. – 117.

**133. Nikola Sarkozi** (d.1955) –Fransa dövlət və siyasi xadimi. 2007–12-ci illərdə Fransa Respublikasının prezidenti olmuşdur. 1993–95, 2002–2004 və 2005–2007-ci illərdə Fransa hökumətində nazir vəzifəsində çalışmışdır. – 118.

**134. Həzi Aslanov,** H ə z i   Ə h ə d   o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanov Stalinqrad vuruşmasında, 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə H. Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H.Aslanov Mitağa şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 119, 120.

**135. Oqtay Əsədov,** O q t a y   S a b i r   o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. – 123,126.

**136. Toğrul Nərimanbəyov**, T o ğ r u l F ə r m a n o ğ l u (d.1930) – rəssam. Azərbaycan və SSRİ xalq rəssamı. Məişət, portret, mənzərə və natürmort janrlarında, monemental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı sahəsində fəaliyyət göstərir. Yaradıcılığında monumental boyakarlıq mühüm yer tutur. «Qobustan kölgələri» (F.Qarayev), «Yeddi gözəl» (Q.Qarayev), «Min bir gecə» (F.Əmirov) baletlərinə verdiyi bədii tərtibat Azərbaycan teatr rəssamlığının qiymətli nümunələrindəndir. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. – 124.

**137. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin və səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 125.

**138. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı –** XX əsrin 20-ci illərində yaranmış Azərbaycan teatrı. 1936-cı ildən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adlanır. Ötən müddət ərzində teatrda 513 yeni tamaşa hazırlanmış, 33505 tamaşa göstərilmişdir. – 132.

**139. Azərbaycan Dövlət Rus Dram Teatrı –** Bakıda Səməd Vurğun adına rus dilində fəaliyyət göstərən teatr. 1923-cü ildən Bakı İşçi Teatrı adı ilə fəaliyyət göstərmiş, 1937-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrı adlanır. Teatrın repertuarı «Don Karlos» (F.Şiller), «Romeo və Cülyetta» (V.Şekspir), «Canlı meyit» (L.Tolstoy)» və s.əsərlərlə zəngin olmuşdur. – 132,157,158–159.

**140. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı** – Azərbaycanın ən qədim dram teatrı. Tarixi 1873-cü ildə Bakıda səhnəyə qoyulmuş M.F.Axundovun «Lənkəran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşası ilə başlanır. Bu teatr 1880–90-cı illərdə C.Zeynalovun ev tamaşaları, H.Mahmudbəyovun və H.B.Zərdabinin teatr truppaları əsasında yaradılmışdır.

Azərbaycan SSR XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı və buraya bütün teatr truppaları daxil oldu. 1922-ci ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq müstəqil fəaliyyət göstərməyə başladı. – 132.

**141. Azərbaycan Dövlət Opera və Balet Teatrı –** Respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 132.

**142. Azərbaycan Tarixi Muzeyi** – 1920-ci ildə yaradılmışdır. Muzeyin müxtəlif fondlarında Vətən tarixini yaşadan 300 minədək maddi-mədəniyyət nümunəsi qorunur. Muzeyin kitabxanasında 80 mindən artıq XIX–XX əsrlərin əvvəllərində nəşr olunmuş nadir kitab, jurnal və qəzet toplanmışdır. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş materiallar qorunub saxlanılır. – 132.

**143. Azərbaycan Ədəbiyyatı Muzeyi,** Azərbaycan Respublikası MEA Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi – 1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi, Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan əbədiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazması, na-

dir kitab, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nümayiş etdirilir. Nizaminin «İsgəndərnamə» poemasının 1413-cü ildə, Füzulinin «Bəngü-Badə» əsərinin 1569-cu ildə köçürülmüş əlyazması nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, 1919–20-ci illər Azərbaycan ədəbiyyatı ekspozisiyaları və elmi fondlar, bədii tərtibat, elmi-kütləvi şöbələri var. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır. – 132.

**144. Respublika Muzey Mərkəzi** – 1960-cı ildə məşhur Azərbaycan memarı Həsən Məcidovun layihəsi əsasında V.İ.Leninin anadan olmasının 90 illiyi münasibətilə tikilmiş və 1961-ci ildə Moskvadakı Lenin muzeyinin filialı kimi fəaliyyətə başlamışdır.

1991-ci ildə SSRİ-nin süqutundan sonra Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə verilmiş və Muzey Mərkəzi adını almışdır. – 132.

**145. Muğam mərkəzi** – Bakıda, dənizkənarı Milli parkda açılmış mədəniyyət mərkəzi. Muğam mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. Ən müasir texnologiyadan istifadə edilməklə, tikilən bina üçün lazımi avadanlıq İtaliya, Avstriya, Fransa və Türkiyədən gətirilmişdir. İnşaat işləri zamanı 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə edilmişdir. – 133.

**146. Krakov** – Polşanın cənubunda, Visla çayının yuxarı axınında şəhər və liman. Krakov şəhər voyevodalığının inzibati mərkəzi. Əhalisi 713 min nəfər.

Şəhər VIII–X əsrlərdə salınmış, XI–XVI əsrlərdə Polşa dövlətinin paytaxtı olmuşdur. – 135–144.

**147. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 136,137,139–140.

**148. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illər Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. – 136,137,139–140,145–152,27.

**149. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 137,138,139,140,143,181.

**150. Vavel** – Krakovda qəsr. Köhnə şəhərin cənubunda XVI əsr Polşa knyaz və krallarının yaşadığı iqamətgah. Burada orta əsrlər abidələri və heykəlləri qorunub saxlanmışdır. – 137–138.

**151. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3,8 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 137, 139.

**152. Renessans,** İ n t i b a h – Qərbi və Mərkəzi Avropa ölkələrinin mədəniyyət tarixində orta əsr mədəniyyətindən yeni dövr mədəniyyətinə keçid dövrü (İtaliyada XIV–XVI əsrlər, digər ölkələrdə XV əsrin sonu – XVI əsr). Renessans mədəniyyətinin mühüm xüsusiyyətləri onun dünyəvi xarakter daşımasında, humanist dünyagörüşü, antik mədəni irsə müraciəti və onu sanki «dirçəltməsindədir». Renessans mədəniyyəti köhnə feodal münasibətlərinin dağıldığı, Avropanın iqtisadi cəhətdən ən çox inkişaf etmiş ölkə və regionlarında erkən kapitalist rüşeymlərinin yarandığı və burjuaziyanın ilk nümunələrinin formalaşdığı dövrdə meydana gəlmişdir. Bu, bəşəriyyətin o vaxta qədər gördüyü bütün çevrilişlər içərisində ən böyük mütərəqqi çevriliş idi. – 137.

**153. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004–2009-cu illərdə Litva Respublikasının prezidenti olmuşdur. – 139.

**154. Tbilisi** (1936-cı ilə qədər Tiflis) – Gürcüstan Respublikasının paytaxtı– Arxeoloji məlumatlara görə şəhərin ərazisi e.ə. 4–3-cü minilliklərdə məskunlaşmışdır. İlk dəfə səlnamədə şəhər-qala kimi, eramızın IV əsrində xatırlanır. VI əsrdə Kartli çarlığının paytaxtı idi. Şəhər XIV əsrdə Teymurun, XV–XVII əsrlərdə Osmanlı və Səfəvi, I Şah Abbasın hakimiyyəti altında olmuşdur. 1801-ci ildən isə Rusiyanın tərkibində olmuşdur. – 144,145–152.

**155. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min km$^2$, əhalisi 6,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 153.

**156. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniyanın kralıdır. II Abdullah kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 153.

**157. Argentina,** A r g e n t i n a R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-şərqində dövlət. Sahəsi 2780 min km$^2$, əhalisi 34,9 milyon nəfərdir. Argentina federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos-Ayresdir. – 154.

**158. Nestor Kirçner** (d.1950) – 2003–2008-ci illərdə Argentina Respublikasıın prezidenti olmuşdur. – 154.

**159. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 155.

**160. «Hess Corporation»** – Amerikada inteqrasiya edilmiş neft-qaz şirkəti. Şirkət 1919-cu ildə yaradılmışdır. Mənzil-qərargahı Nyu-Yorkdadır. 2010-cu ildə orta illik karbohidrogen hasilatı 418 min barrel olmuşdur. Bu yüksək hasilat Şimali Dakota və Meksika körfəzinin hesabına olmuşdur. – 156.

**161. Ziya Məmmədov,** Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 160,172.

**162. Xınalıq** – Azərbaycan Respublikasının Quba rayonunda kənd. Baş Qafqaz və Yan silsilələri arasında, çökəklikdədir. Əhalisi 2070 nəfərdir. Xınalıq kəndinin erkən orta əsrlərdə salındığı ehtimal edilir.

Xınalıq əsasən dağ kəndləri üçün səciyyəvi üslubda planlaşdırılmışdır; bir evin damı o birisi üçün həyət kimi istifadə olunur. Kəndin əhalisi Xınalıq dilində danışır. Qafqazın ən yüksək dağ kəndlərindəndir. – 162.

**163. Mir Mövsüm Ağa,** A ğ a S e y i d Ə l i M i r M ö v s ü m z a d ə (Ətağa) (1883–1950) – Azərbaycanda və onun sərhədlərindən kənarda tanınan kəramət və möcüzə sahibi. – 167.

**164. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmaga, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 176,191,288.

**165. Joze Manuel Barrozu** (d.1959) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə

Portuqaliyanın Baş naziri olmuşdur. 2004-cü ilin noyabrından J.M.Barrozu Avropa Parlamenti tərəfindən Avropa Komissiyasının sədri seçilmişdir. – 176.

**166. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 488,1 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 178,179,259.

**167. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məslisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 179.

**168. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 25,5 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 180,291,317.

**169**. **Kosovo problemi** – 80-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan son-

ra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 1999-cu ildən sonra Serbiya Hökuməti Kosovo ərazisinə de-fakto nəzarətini itirdi. 2008-ci ildə Kosovo özünü birtərəfli şəkildə müstəqil dövlət elan etdi. Hazırda BMT üzv-ölkələrinin 99-u, o cümlədən NATO ölkələri Kosovonun müstəqilliyini tanıyır. – 180,291.

**170. «Şahdəniz»** –Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 182,234, 298,303.

**171. Azərbaycan Dövlət İnvestisiya Şirkəti** (AİŞ) – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-nin məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. – 184.

**172. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 185.

**173. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azər-

baycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 186.

**174. Ümumdünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə. 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 187.

**175. «Əl-Qaidə»** – Vəhhabilərin ən böyük və tanınmış beynəlxalq terrorçu təşkilatı. 1980-ci ilin ortalarında Əfqanıstanda yerləşdirilmiş sovet ordusuna qarşı vuruşmaq üçün Pakistanda yaradılmışdı. Sovet ordusu Əfqanıstandan çıxdıqdan sonra «əl-Qaidə» «Böyük islam xilafəti» yaratmaq üçün ABŞ-a, «Qərb dünyası»na və onların tərəfdaşları islam ölkələrinə qarşı mübarizəyə başladı.

Beynəlxalq aləmdə təsdiqlənmişdir ki, «əl-Qaidə»nin agentləri Mərkəzi Kəşfiyyat İdarəsində (MKİ) hərbi təlimlər keçmiş və MKİ-nin keçmiş işçiləri isə «əl-Qaidə»nin mağarlarında «konsultant ekspert» işləmişlər. «Əl-Qaidə»nin rəhbəri Usama bin Laden olmuşdur. –187.

**176. «Qaz de Franse»** (GDF) – fransız qaz kompaniyası. Bu kompaniya Avropada ikincidir. Əsası 1946-cı ildə qoyulan kompaniya 2007-ci ildə «Gaz de Franse» və «Suez»lə birləşərək GDF Cvez kimi fəaliyyət göstərir. 12,3 milyon (onlardan 10,9 milyonu Fransada) sifarişçiyə xidmət edir. 2005-ci ilin yarımilliyində mədaxil 11,08 milyard avro, təmiz mənfəət isə 1,2 milyard avro olmuşdur. – 189.

**177. «Vinci» –** fransız tikinti şirkəti. Əsası 1899-cu ildə qoyulmuşdur. Şirkət avadanlıq tədavülünə görə tikinti şirkətləri arasında birinci yeri tutur. Şirkətin gəliri 2009-cu ildə 31,93 milyard avro olmuşdur. – 189.

**178. «BHP Paribas»** – Dünyanın 6 ən güclü bankından biri. Dünya bank bazarında və pulla təmin edilməsi xidmətlərinə görə Avropada liderdir. Əsası 1848-ci ildə qoyulmuşdur. Bank 85 ölkədə fəaliyyət göstərir. Əməkdaşlarının ümumi sayı 173 min nəfərdir. Təmiz gəliri – 3,021 milyard avrodur. 2006-cı ildə Paribas BHP İtaliyanın ən böyük bankı BNL-i iflasa uğratdı. Paribas dünya bank sektorunda 5-ci, bank xidməti sahəsində Avro zonada 1-ci yeri tutur. Paribas Fransada 1 nömrəli bankdır. – 189.

**179. «Societe Generale»** – Avropada ən böyük fransız maliyyə holdinqi. Mənzil-qərargahı Parisdədir. Əsası 1864-cü ildə qoyulmuşdur. Bankın kapitalı 49,07 milyard avrodur. Bank həmçinin aktivlər, investisiya bankinqləri, maliyyə xidməti ilə məşğul olur. Bankın aktivləri 2007-ci ildə 1,26 trilyon, kapitalı isə 29,41 milyard təşkil edirdi. – 189.

**180. Macarıstan,** Macarıstan Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 191.

**181. Mirməmməd Cavadzadə,** Mirməmməd Cavad oğlu (1927–2008) – cərrah-uroloq, tibb elmləri doktoru, professor; SSRİ TA-nın müxbir üzvü, AMEA-nın akademiki. SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Cavadzadə böyrək polikistozunun orijinal operasiya üsulunu təklif etmiş, böyrək və sidik axarında daş olması hallarında az travma ilə cərrahi əməliyyat aparmışdır. Azərbaycan Ali Sovetinin (9-11-ci çağırış) deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 192–193.

**182. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən isə Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 194–193.

**183. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 194,195,222,247.

**184. Düpo Ambruaz** (d.1937) – Fransa siyasi xadimi və Senatın üzvü. – 196–197.

**185. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 196,197.

**186. «Wintershall»** – Almaniyada çox böyük qaz və neft şirkəti. Əsası 1894-cü ildə Kasseldə (Almaniya) qoyulmuşdur. Şirkət 75 ildir ki, qaz və neft kəşfiyyatı ilə məşğuldur. «WINTERSHALL» Almaniyada karbohidrogen hasil edir. «WINTERSHALL» çox böyük qaz nəqli infrastruktur layihələrində – «Şimal axını» (15,5%) və «Cənub axını» (15%) – iştirak edir. Dünyanın 40 ölkəsində fəaliyyət göstərir. – 198.

**187. Azərbaycan Dövlət İncəsənət Muzeyi –** (R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi nəzərdə tutulur.) 1936-cı ildə Azərbaycan Dövlət Muzeyinin incəsənət şöbəsi əsasında yaradılmış və 1937-ci ildə açılmışdır. Muzeyin fondunda on minə qədər incəsənət əsəri qorunub saxlanılır. Ekspozisiyasında Azərbaycan, rus sənətkarlarının, Qərbi Avropa və Şərq ölkələrinin boyakarlıq, qrafika, heykəltəraşlıq və s. əsərləri nümayiş etdirilir. – 200–203.

**188. Azərbaycan Dövlət Filarmoniyası** – respublikanın ən böyük musiqi təşkilatı. Azərbaycanda Filarmoniya 1936-cı ildə təşkil olunmuşdur (həmin ildən də M.Maqomayevin

adını daşıyır). Filarmoniyanın nəzdində Simfonik orkestr, Mahnı və rəqs ansamblı, Rəqs ansamblı, Xor kapellası, Simli kvartet fəaliyyət göstərir. – 202–203.

**189. Müslüm (Əbdülmüslüm) Maqomayev (**1885–1937) – görkəmli Azərbaycan bəstəkarı. 1912-ci ildən ömrünün axırınadək opera tamaşalarına dirijorluq etmişdir. M.Maqomayevin «Şah İsmayıl» operası Azərbaycan opera sənətinin inkişafı tarixində əhəmiyyətli yer tutur. – 202,203.

**190. Frenk Mermud** – 2000–2003-cü illərdə ABŞ-ın prezident administrasiyasında iqtisadi məsələlər üzrə Baş müşavir olmuşdur. – 204.

**191. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə Cümhuriyyətinin prezidenti olmuşdur. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmış, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 207.

**192. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Respublikasının prezidenti seçildi. – 208.

**193. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 209,210.

**194. Corcio Neapolitano** (d.1925) – İtaliya siyasi xadimi 2006–2008-ci ildə İtaliya Respublikasının prezidenti olmuşdur və 2013-cü ildə yenidən İtaliya Respublikasının prezidenti seçilmişdir. – 209.

**195. Romano Prodi** (d.1939) –İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas. 70-ci illərin axırlarında Sənaye naziri, 80-ci illərin sonunda isə Sənaye Yenidənqurma İnstitutunun prezidenti seçilmişdir. 1995-ci ildən sol mərkəzçilər koalisiyasına başçılıq edir. Romano Prodi müxtəlif yüksək dövlət vəzifələrində işləmiş və Baş nazir olmuşdur. – 210.

**196. İsveç,** İ s v e ç  K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 450 min km$^2$, əhalisi 8,9 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholmdur. – 211,212.

**197. Fredrik Paynfeldt** (d.1965) – İsveçin dövlət və siyasi xadimi, 2006–2014-cü illərdə İsveçin Baş naziri. –211.

**198.** XVI **Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveç kralı. O həmçinin «Ümumdünya təbiət» fondunun prezidentidir. – 212.

**199. Vladislav İnozemtsev** (d.1968) – Rusiya iqtisadçısı, sosioloqu və siyasi xadim, 2011-ci ildən Rusiya Sovetinin Beynəlxalq Məsələlər üzrə Elmi Şurasının və Rəyasət Heyətinin üzvüdür. 2012-ci ildən «Vətəndaş həmrəyliyi» («Qrajdanskaya sila») Partiyası Ali Şurasının sədridir. – 213,220.

**200. «Svobodnaya mısl XXI veka» –** beynəlxalq ictimai jurnal. Jurnalda tanınmış rus və xarici alimlərin siyasi, tarixi və mədəni problemlərə aid yazıları nəşr edilir. Jurnal 1924-cü ildən dərc edilir və ildə 12 dəfə rus dilində çıxır.

«Svobodnaya mısl» çalışır ki, dünya siyasətinin, iqtisadiyyatının tendensiyası Rusiyada dərk edilsin. Jurnalın məq-

sədi oxucuları mədəniyyət, incəsənət, təhsil, sosiologiya, demokratiya, psixologiya müasir təfəkkürə yönəltməkdir. Müəlliflərin içərisində akademiklərin, elmi institut direktorlarının, gənc alimlərin, parlamentarilərin, siyasi analitiklərin, teatr, incəsənət və dini xadimlərinin yazıları dərc edilir. – 214.

**201. Bertelsmann Fondu,** b e y n ə l x a l q f o n d – mənzil-qərargahı Gyutersloda (Almaniya). Əsası 1977-ci ildə Mon Peynhard tərəfindən qoyulmuşdur. Fondun 300 əməkdaşı var. Fond kuratorların nəzarətindədir. Bertelsman fondu əsasnaməsinə uyğun operativ və himayəçilik etmədən işləyir. Bu o deməkdir ki, fond stipendiya vermir və xarici layihələri maliyyələşdirmir. Vəsaiti ancaq strateji məqsədi müəyyənləşdirilmiş şəxsi layihələrə verilir. –215.

**202. Ankara Universiteti** – 1946-cı ildə Ankarada yaradılan ali dövlət təhsil müəssisəsi. İlk Türkiyə universitetlərindən biridir. 1842-ci ildə yaradılan veterinar, 1859-cu ildən fəaliyyət göstərən siyasi bilgilər fakültələri əsasında yaradılmışdır. Universitetdə kənd təsərrüfatı, veterinar, ilahiyyat, siyasi bilgilər, əczaçılıq, stomotologiya – beynəlxalq münasibətlər, mətbuat-yayım fakültələri var. – 216.

**203. Con Horkins Universiteti** – ABŞ-ın Baltimor şəhərində (Merilend ştatı) əsası Con Horkins tərəfindən qoyulmuş özəl tədqiqat universiteti. Nankində (Çin), Boloniyada (İtaliya) filialları var. Universitetin əsası 1876-cı ildə qoyulmuşdur və yaradılmasından 130 il keçməsinə baxmayaraq, dünyada ən qabaqcıl yerlərdən birini tutur. Universitetin elmi-tədqiqat işlərinə görə 34 Nobel mükafatçısı var. Universitetdə 150 dövlətdən –71 millətin nümayəndəsi olan 4400 tələbə təhsil alır. Burada görkəmli professor-müəllim heyəti tələbələrə incəsənət və musiqinin, humanitar, ictimai və təbiət elmlərinin, beynəlxalq tədqiqatların, təhsilin, biznesin və tibbin öyrənilməsində kömək edirlər. – 217.

**204. Varşava Universiteti** – Polşada ən böyük universitetlərdən biri. Əsası 1816-cı ildə qoyulmuşdur. Universitetdə tətbiqi dilçilik, Şərqi Slavyan filologiyası, sosial elmlər, biologiya, kimya, iqtisadiyyat, pedaqogika, geologiya, politologiya, hüquq və s. fakültələri var. – 218.

**205. Moskva Dövlət Universiteti**, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti – dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 rəsədxana, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana, nəşriyyat var. Universitetdə 28 mindən çox tələbə təhsil alır. 2009-cu ildə Bakıda filialı açılmışdır. – 221.

**206. Sadovniçi Viktor Antonoviç** (d.1939) – informatika sahəsində alim. Rusiya Elmlər Akademiyasının akademiki. Dövlət mükafatı laureatı. 1992-ci ildən Moskva Dövlət Universitetinin rektoru. – 221.

**207. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 226.

**208. 28 may** – Respublika günü, bax: Azərbaycan Xalq Cümhuriyyəti.

**209. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fər-

manı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 228–238,239–241.

**210. «Azəri», «Çıraq», «Günəşli» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənir. – 234,298,299,300.

**211. ABŞ Dövlət Departamenti** – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi. Dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 236.

**212. Yaqub Mahmudov,** Yaqub Mikayıl oğlu (d.1939) – tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü. Müxtəlif illərdə Azərbaycan Sovet Ensiklopediyasında, Bakı Dövlət Universitetində, Ali Attestasiya Komissiyasında və s. məsul vəzifələrdə çalışmışdır. 2004-cü ildən Azərbaycan MEA Tarix İnstitutunun direktorudur. Tədqiqatları Azərbaycanın orta əsrlər tarixinə (Ağqoyunlu və Səfəvi dövlətlərinə), diplomatiya tarixinə və ümumdünya tarixinə aiddir. 2000-ci ildən Azərbaycan Respub-

likası Milli Məclisinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif olunmuşdur. – 241.

**213. Luvr muzeyi** – Parisdə memarlıq abidəsi. Adı vaxtilə burada Fransa krallarının ovçu qəsrinin yerləşdiyi «Canavar» meşəsinin adından götürülmüşdür. Əvvəllər kral sarayı olmuş, sonradan dünyanın ən böyük bədii muzeylərindən birinə çevrilmişdir. 1791-ci ildə inqilabi Konventin dekreti ilə Luvr milli bədii muzeyə çevrilmiş və 1793-cü ildə kütləvi baxış üçün açılmışdır. Ekspozisiyasının əsasını keçmiş kral kolleksiyası, həmçinin bir sıra monastır, kilsə və kübar ailələrinin milliləşdirilmiş kolleksiyaları təşkil etmişdir. Kolleksiyası Napoleon yürüşlərinin qənimətləri, müxtəlif ölkələrdən satınalınma, eləcə də hədiyyələr hesabına daim artmışdır. Luvrda 20 mindən artıq boyakarlıq və heykəltəraşlıq əsəri var. Muzey 6 şöbədən ibarətdir: Qədim Şərq, Qədim Misir, Qədim Yunanıstan və Qədim Roma, heykəltəraşlıq, boyakarlıq və rəsm, dekorativ-tətbiqi sənət. Qədim Şərq şöbəsində nadir incəsənət nümunələri, o cümlədən Azərbaycanın zərgərlik (Ziviyədən tapılmış qızıl əşyalar, e.ə. VIII əsr) və metal məmulatları (bürünc dolça, 1190, müəllifi Osman ibn Salman Naxçıvani) saxlanılır. Luvrda Fransa incəsənəti daha geniş təmsil olunmuşdur. Burada dünya şöhrəti qazanmış bir sıra əsər («Şamofrakiyalı Nike», e.ə. IV əsrin sonu; «Miloslu Afrodita», e.ə. II əsr; Mikelancelo, Leonardo da Vinçi, Rafael, Rembrandt və b.-nın tabloları) mühafizə edilir. – 242.

**214. Toni Bleyr,** E n t o n i Ç a r l z L i n t o n (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentə deputat, 1994-cü ildən Leyboristlər Partiyasının sədri seçilmişdir. 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail – Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 244.

**215. II E l i z a b e t** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georgin ölümündən sonra taxt-taca sahib olmuşdur. – 245.

**216. Portuqaliya,** P o r t u q a l i y a  R e s p u b l i k a s ı – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 9,9 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 246.

**217. Anibal Kavaku Silva** (d.1939) – Portuqaliya siyasi xadimi. 2006-cı ildən Portuqaliya prezidentidir. 1985–95-ci illərdə Portuqaliyanın Baş naziri olmuşdur. – 246.

**218. Filippin,** F i l i p p i n  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 71,8 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Maniladır. – 248.

**219. Qloriya Makappaqal Arroyo** (d.1947) – 2001-ci ildən indiyə qədər Filippin prezidenti. Ölkə tarixində ilk prezident qadın. Keçmiş prezident Diosalado Makapaqalın qızı. İqtisad elmləri doktoru. – 248.

**220. Qazax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2202 km$^2$, əhalisi 92,7 min nəfərdir. – 249–263,266,268.

**221. Mingəçevir** – Azərbaycanda şəhər. «Mingəçevir» sözünün etimologiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Minkiçəvr əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış

məntəqəsi barədə məlumat verir. Mingəçevir II dünya müharibəsindən sonrakı illərdə yaradılmış iri sənaye mərkəzlərindəndir. İndiki Mingəçevir hidrotexniki kompleksin tikintisi ilə əlaqədar salınmışdır. Əhalisi 123,5 min nəfərdir. – 253.

**222. İsmayıl Şıxlı,** İsmayıl Qəhrəman oğlu (1919–1995) – istedadlı Azərbaycan yazıçısı, ictimai xadim. Azərbaycanın Xalq yazıçısı. İsmayıl Şıxlı məşhur «Dəli Kür» romanında psixoloji baxımdan dərin xarakterlər yaratmışdır. O, Azərbaycan Yazıçılar İttifaqının Birinci katibi, Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 261–262.

**223. Səməd Vurğun,** Səməd Yusif oğlu Vəkilov (1906–1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul kAtibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 262.

**224. Vaqif,** Molla Pənah Vaqif (1717–1797) – görkəmli Azərbaycan şairi, dövlət xadimi. Vaqif qəzəl, müxəmməs, müstəzad və s. formalarda şeirlər yazmışdır. Gözəllərin vəsfi Vaqif lirikasının əsas qayəsidir. Vaqif şeirindəki realizmə meyil Azərbaycan poeziyasının inkişafına güclü təsir göstərmişdir. Qarabağ hakimi İbrahim xanın (1769-cu il) Baş vəziri olmuşdur. – 262.

**225. Vidadi, Molla Vəli** (təqr.1709–1809) – Azərbaycan şairi. Ədəbi irsinin az qismi məlumdur. Feodal zülmündən, xanlıqlar dövrünün hərc-mərcliyindən doğan kədər və ümidsizlik, mənəvi tənhalıqdan şikayət Vidadi yaradıcılığının əsas

motivləridir. Vidadi lirikası yüksək bədii sənətkarlıq nümunəsidir. – 262.

**226. Mehdi Hüseyn,** M e h d i Ə l i o ğ l u (1909–1965) – tanınmış Azərbaycan yazıçısı, tənqidçi və ictimai xadim. Azərbaycanın Xalq yazıçısı. Azərbaycan Yazıçılar İttifaqının katibi və Birinci katibi, SSRİ Yazıçılar İttifaqının katibi, SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı olmuşdur. SSRİ Dövlət mükafatı laureatıdır. – 262.

**227. Mirvarid Dilbazi,** M i r v a r i d P a ş a q ı z ı (1912–2001) – Azərbaycanın Xalq şairi. Şeirlərində müasirlərimizin mənəvi zənginliyi, vətənpərvərlik tərənnüm edilir. Azərbaycan Respublikasının «İstiqlal» opdeni ilə təltif olunmuşdur. – 262.

**228. Osman Sarıvəlli,** O s m a n A b d u l l a o ğ l u Q u r b a n o v (1905–1990) – Azərbaycan Xalq şairi. Əsasən lirik şeirlər yazmışdır. Yaradıcılığında Cənubi Azərbaycana həsr etdiyi lirik şeirlər xüsusi yer tutur. – 262.

**229. Qayıbov Fərrux ağa,** F ə r r u x a ğ a K ə r i m o ğ l u (1889–1916) – ilk azərbaycanlı hərbi təyyarəçi. Birinci dünya müharibəsi (1914–18) zamanı Qayıbovun daxil olduğu «İlya Muromets № 16» təyyarəsinin 4 nəfərlik heyəti ilk döyüş uçuşunda Neman çayındakı strateji əhəmiyyətli körpünü dağıtmışdır. Qayıbovun təyyarəsi 1916-cı ildə Vilnodakı vuruşmada almanların üç təyyarəsi vurulmuş, «İlya Muromets № 16 da yandırılmış, Qayıbov döyüş yoldaşları ilə birlikdə həlak olmuşdur. Qayıbov ölümündən sonra «4-cü dərəcəli müqəddəs Georgi» ordeni ilə təltif olunmuşdur. –262.

**230. Əlağa Şıxlinski,** Ə l a ğ a İ s m a y ı l A ğ a o ğ l u (1865–1943) – hərbi xadim, artilleriya general-leytenantı. Peterburqda artilleriya məktəbini bitirmişdir. Rusiya–Yaponiya müharibəsində (1904–1905) Port-Arturun müdafiəsində göstərdiyi igidliyə görə «Qızıl qılınc»la mükafatlandırılmış-

dır. 1908-ci ildə polkovnik, 1912-ci ildə isə general-mayor rütbəsi almışdır. Birinci dünya müharibəsində (1914–18) Petroqradın artilleriya müdafiəsi Şıxlinskiyə tapşırılmışdı. Şıxlinski rus ordusunda «artilleriyanın allahı» adını qazanmışdır. 1920-ci ildə Azərbaycan SSR Xalq Hərbi və Dəniz İşləri Komissarının müavini işləmişdir. 1929-cu ildə istefaya çıxmışdır. – 262.

**231. İbrahim ağa Vəkilov,** İbrahim ağa Paşa ağa oğlu (1853–1934) – general, ilk azərbaycanlı hərbi topoqraf. İbrahim ağa 1879-cu ildən hərbi topoqrafiya sahəsində – Dağıstanda, Rus–İran komissiyası tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədin dəqiqləşdirilməsində iştirak etmişdir. Beş il Qafqaz Hərbi Dairəsinin Topoqrafiya Şöbəsinə rəhbərlik etmişdir. 1901-ci ildə Bosforun, 1912–13-cü illərdə Rus–İran hökumətinin danışıqlarına əsasən Təbriz, Urmiyə və Xoy şəhərlərinin topoqrafik çəkilişlərinə başçılıq etmişdir. Onun xidmətləri Stanislav, Anna və dördüncü dərəcəli Vladimir ordenlərinə layiq görülmüşdür. – 262.

**232. Tahir İsayev,** Tahir İsrafil oğlu (1922–2001) – İkinci dünya müharibəsi iştirakçısı, İtaliya Xalq Müqavimət Hərəkatının iştirakçısı, İtaliya Milli qəhrəmanı. Mozdok ətrafındakı döyüşlərdə yaralanaraq əsir düşmüş (1942), Avstriyadakı əsir düşərgəsindən çətinliklə xilas olaraq İtaliya – Berqamo şəhərinə keçərək partizan dəstəsinə daxil olmuşdu. O, İtaliyada «Fiamma Verdi» beynəlmiləl briqadasında vuruşmuşdur. Həmyerlimiz leytenant Serafino adı ilə (1945-ci il) Milan şəhərinin faşistlərdən azad edilməsində qəhrəmanlıq göstərmiş «Qaribaldi ulduzu», «Antonio Qramşi» ordenləri ilə təltif edilmişdir. Tahir İsayev 1945-ci ildən Milan şəhərinin Fəxri vətəndaşıdır. – 262.

**233. Teymur Bünyadov,** Teymur Əmiraslan oğlu (d.1928) – tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikası Milli Məclisinin I ça-

ğırış deputatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. –262.

**234. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 263.

**235. Tovuz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilərək sahəsi Qazax rayonuna verilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1942 km$^2$, əhalisi 166,3 min nəfərdir. – 263,264–273,274.

**236. Pərvanə Qurbanova**, Pərvanə Vaqif qızı (d.1965) – aktrisa. 1981-ci ildən Gəncə Dövlət Dram Teatrında fəaliyyət göstərir. «Qızıl Dərviş» mükafatı laureatı, Azərbaycan Respublikasının Xalq artistidir. – 274.

**237. «Transparensu İnternational» –** korrupsiya və dünyada korrupsiya səviyyəsinin araşdıran beynəlxalq qeyri-dövlət təşkilatı. Beynəlxalq «Transparensu» hərəkatının əsası 1993-cü ildə Berlində Dünya Bankının sabiq direktoru Peter Ayqen tərəfindən qoyulmuşdur. Hal-hazırda təşkilatın şöbələri dünyanın 100-dən çox ölkəsində var. – 278–279,282.

**238. Suriya,** Suriya Ərəb Respublikası – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 14,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazaya (qubernatorluğa) və Dəməşq bələdiyyəsinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. – 280.

**239. Bəşşar əl-Əsəd** (d.1965) – 2000-ci ildən Suriyanın prezidentidir. – 280.

**240. Nigeriya,** N i g e r i y a  F e d e r a t i v  R e s p u b - l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 140,4 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. – 281.

**241. Umaru Yaradua** (1951–2010) – dövlət xadimi 2007–2010-cu illərdə Nigeriya prezidenti olmuşdur. – 281.

**242. «Siemens» –** alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda nümayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elektrik avadanlıqlarının hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 284.

**243. Rudi Lamprext** (d.1948) – «Siemens»in mərkəzi idarəetmə aparatının üzvü və vitse-prezidenti, «Siemens mobilin» prezidenti və Direktorlar Şurasının üzvü. – 284.

**244. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 287.

**245. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Litva Respublikasının prezidenti olmuşdur. Peşəsi həkim travmotoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. – 287.

**246. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 39,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatalı parlament). Mərakeş sahilindəki Seuta və Melilya şəhər rayonları İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 293–294.

**247. I Xuan Karlos** (d.1938) – İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 293,294.

**248. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 297,298,299,303.

**249. *bp*,** «Britiş Petroleum» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 299,304,320.

**250. Xoşbəxt Yusifzadə,** Xoşbəxt Bağı oğlu (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 303.

**251. Bakı Dərin Dəniz Özülləri zavodu** – 1978-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə yaradılmışdır. Respublikada neft sənayesinin inkişafında böyük rolu vardır. – 303.

**252. «İtoçu»** – Yaponiyanın «İtoçu» korporasiyası. 1958-ci ildə yaradılmışdır. Dünyanın 176 ölkəsində şirkətləri və firmaları var. «İtoçu» 1996-cı ilin avqustundan Bakıda fəaliyyət göstərir. – 304.

**253. «İnpeks»** – Yaponiya neft korporasiyası. 1966-cı ildə yaradılmışdır. – 304.

**254. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası Hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 304.

**255. Mc Dermott** – Amerika, Yaxın Şərq, Xəzər dənizi və Sakit okean regionunda mühəndislik, təchizat, tikinti və quraşdırma işləri ilə məşğul olan beynəlxalq korporasiya. 1923-cü ildən fəaliyyət göstərir. – 304.

**256. TRAO**, Türkiyə petrolları– 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. TRAO hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 304.

**257. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 304.

**258. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 304.

**259. Azərbaycan Dövlət Neft Akademiyası** – 1920-ci ildə yaradılmışdır. Azərbaycan Dövlət Neft Akademiyası neft-qaz və kimya texnologiyası sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında qabaqcıl yer tutur. Azərbaycan Dövlət Neft Akademiyasının 8 fakültəsində 7000, o cümlədən, xaricdən gələn tələbələr təhsil alır. Akademiyada doktorantura və aspirantura, 2 elmi-tədqiqat institutu fəaliyyət

göstərir. Azərbaycan Dövlət Neft Akademiyası ABŞ, Fransa, İtaliya, Almaniya institutları ilə əməkdaşlıq edir. – 305.

**260. Mətyu Brayza** – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi olmuşdur. Sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–12-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 308.

**261. Vladimir Ruşaylo** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildə Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildə nazir, 2001-ci ildə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 309.

**262. Lüksemburq,** B ö y ü k L ü k s e m b u r q H e r s o q l u ğ u – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 415 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar Palatasıdır. Paytaxtı Lüksemburqdur. – 311,312.

**263. Anri** (d.1955) – 1998-ci ildən Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 311.

**264. Jan - Klod Yunker** (d.1954) – 1995-ci ildən Lüksemburqun Baş naziri, 1989–2009-cu illərdə Maliyyə naziri və Avropa qrupunun başçısıdır. – 312.

**265. Cibuti,** C i b u t i R e s p u b l i k a s ı – Şimal-Şərqi Afrikada dövlət. Sahəsi 22 min km$^2$, əhalisi 603,6 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət və hökumət başçısı

prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Cibutidir. – 313.

**266. İsmail Qulleh** (d.1947) – 1999-cu ildən Cibuti prezidenti. – 313.

**267. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,8 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqrebdir. – 314.

**268. Mesiç Stipe** (d.1934) – hüquqşünas. 2000–2008-ci illərdə Xorvatiya Respublikasının prezidenti olmuşdur. – 314.

**269. Sloveniya,** Sloveniya Respublikası – Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 1,96 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyanadır. – 315.

**270. Yanez Drnovşek** (1950–2008) – Yuqoslaviya və Sloveniya siyasətçisi. 1992–2000, 2000–2002-ci illərdə Baş nazir, 1989–90-cı illərdə Yuqoslaviya Ali Məclisinin sədri, 2002–2007-ci illərdə Sloveniya prezidenti olmuşdur. –315.

**271. Mozambik,** Mozambik Respublikası – Cənub-Şərqi Afrikada dövlət. Sahəsi 802 min km$^2$, əhalisi 17,9 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Respublika Assambleyasıdır. Paytaxtı Marutidir. – 316.

**272. Gebuza Armandu** (d.1943) – 2005-ci ildən Mozambik prezidenti. 2002-ci ildən FRELİMO Partiyasının Baş katibi. – 316.

**273. Mikrosoft** – müxtəlif hesablama texnikası – şəxsi kompyuterlər, oyun konsolları, KPK, mobil telefonlar, dünyada daha çox yayılmış platforma proqramları, indovs əməliyyat sistemləri istehsal edən ən böyük transmilli kompaniya. Şirkətin bölmələri ailəvi xbok oyun konsolları, həmçinin şəxsi kompyuterlər üçün aksessuarlar (klaviatlar, mışlar və s.) buraxır. Mikrosoftun texnikası 80-dən çox ölkəyə ixrac, proqramları isə 45 dilə tərcümə edilmişdir. Mənzil-qərargahı Pedmond (ABŞ) şəhərindədir. – 318–319.

**274. İcmalar Palatası** – Böyük Britaniya və Kanadada parlamentin aşağı palatasının adı. 5 il müddətinə seçilir. Palatanın spikeri Baş nazirdən sonra dövlətdə birinci dərəcəli vəzifəli şəxsdir. İcmalar Palatası hökumətin fəaliyyətinə nəzarət edir, ona etimad göstərir, qanun layihələrini müzakirə və qəbul edir. – 320.

**275. Bəhreyn,** B ə h r e y n d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 0,69 min km$^2$, əhalisi 598 min nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manamadır. – 321.

## Şəxsi adlar göstəricisi


| | |
|---|---|
| **Abasov İsmət** | – 36,56 |
| **II Abdullah** | – 153 |
| **Abdullayev Natiq** | – 166–167 |
| **Abutalıbov Hacıbala** | – 13,15,43,44,56,117,135 |
| **Adamkus Valdas** | – 139 |
| **Adeişvili Zurab** | – 26 |
| **Ağayev Nadir** | – 165–166 |
| **Allahverdiyeva Məleykə** | – 164–165 |
| **Ambruaz Düpo** | – 196–197 |
| **Anri** | – 311 |
| **Areşidze Manuka** | – 213-220 |
| **Arroya Qloriya** | – 248 |
| **Aslanov Aslan** | – 103 |
| **Aslanov Həzi** | – 119, 120 |
| **Atatürk Mustafa Kamal** | – 19 |
| **Babayev Heydər** | – 102 |
| **Bağırov Faiq** | – 103, 104 |
| **Baranski Marek** | – 213–220 |
| **Barrozu Joze** | – 176 |
| **Beutel Jens** | – 285 |
| **Biyya Pol** | – 78 |
| **Bleyr Toni** | – 244 |
| **BorovikArtyom** | – 15 |
| **Brayzə Mətyu** | – 308 |
| **Bristoun Lorens** | – 290 |
| **Bünyadov Teymur** | – 262 |
| **Camal Əbdül Nasir** | – 96 |
| **Cavadi Yaez** | – 225 |
| **Cavadzadə Mirməmməd** | – 192–193 |
| **Cəfərov Tacir** | – 58–62 |
| **Cəfərova Tünzalə** | – 58-62 |

**Çətin Hikmət** – 8
**Ders Ann** – 305
**Drnovşek Yanez** – 315
**Dü Safo Bernar** – 196
**Düpo Ambruoz** – 196–197
**Elçin Şıxlı** – 261
**II Elizabet** – 245
**EyyubovYaqub** – 16, 25
**Əbülnaqə Faizə** – 102, 113
**Əl-Xasti Bədr** – 306
**Əl-Xəlifə Xalid** – 321
**Əl-Əsəd Bəşşar** – 280
**Əl-Ədli Həbib** – 103
**Əl-Tüveyjri Əbdüləziz** – 6
**Əs-Sabah Şeyx Məhəmməd** – 322
**Əliyev Əziz** – 16, 22, 24, 192
**Əliyev Heydər** – 16,19,27,40,58,63,64,65,66, 120, 121–124, 125–126,127, 134,145–152,192,221,230,234, 249, 251,259,261,270,272,296, 297,298,303
**Əliyev Kamil** – 19
**Əliyev Muxu** – 16-25
**Əliyev Natiq** – 145
**Əliyev Tamerlan** – 125
**Əliyeva Mehriban** – 13,15,18,54,64,84–117,127–134,165,249,262,263, 265
**Əliyeva Zərifə** –16, 125, 192
**Ərdoğan Rəcəb Tayyib** – 208
**Əsədov Oqtay** – 125,126
**Əsgərov Cahangir** – 103
**Fasye Bernar** – 226
**Fəhmi Samih** – 84,103
**Fəthi Əhməd** – 99–100
**Füzuli Məhəmməd** – 19
**Gebuza Armandu** – 316

**Gilauri Nika** – 307
**Gönts Kinqa** – 191
**GöyüşovMehman** –123
**V Harald** – 82
**Haraşti Mikloş** – 10
**Hess Con** – 156
**Həsən Abdulla** – 103, 114–117
**Həsənov Əli** – 57
**Həsənov Kərəm** – 35
**Həsənov Ramiz** – 36
**Hüseyn Ədli** – 103
**Hüsnü Mübarək** – 84–117
**Xələfov Xələf** – 29, 43, 44, 56
**I Xuan Karlos** – 293, 294
**İhsanoğlu Ekmələddin** – 5
**İmanov Kamran** – 19
**İnozemtsev Vladislav** – 213–220
**İsayev Tahir** – 262
**İsmayıl Şıxlı** – 261–262
**İstratov Vasili** – 25
**Kaçinski Lex** – 11,138,139–140,141–142, 288,289
**Kaçmarex Yanuş** – 288–289
**Kamal Tariq** – 102, 103
**XVI Karl Qustav** – 212
**Kərimov Mahmud** – 35
**Kiinov Lyəzzət** – 137
**Kirçner Nestor** – 154
**Kornel Svante** – 213–220
**Kuyaube Miqel** – 293–294
**Qaranahi Züheyr** – 103
**Qayıbov Əlövsət** – 161
**Qayıbov Fərrux ağa** – 262
**Qayıbova Qəmfilə** – 171
**Qeyps Maykl** – 320
**Qeyts Bill** – 318, 319

**Qulleh İsmail** – 313
**Qurbanov Cavid** – 160
**Qurbanov Məhəmməd** –16, 25
**Qurbanova Pərvanə** – 274
**Qutyerres Karios** – 291
**Label Hüget** – 282
**Lamprext Rudi** – 284
**Lavrov Sergey** – 194–195
**Levayev Lev** – 286
**Louze Yeva** – 75
**Luaret Anri** – 242
**Lukaşenko Aleksandr** – 29–56
**Luqabon Anbeyi** – 7
**Mahmudov Eldar** – 36
**Mahmudov Yaqub** – 241
**Mak Duqal Riçard** – 306
**Maqomayev Müslüm** – 202,203
**Mandi Kreyq** – 318–319
**Martınov Sergey** – 35, 36
**Mehdi Hüseyn** – 262
**Mehdiyev Ramiz** – 13,15,117,126,135
**Mermud Frenk** – 204
**Merzlyakov Yuri** – 226
**Mesiç Stipe** – 314
**Məhəmməd Əli Paşa** – 96-97
**Məmmədov Fikrət** – 102
**Məmmədov Gündüz** – 35
**Məmmədov Ziya** – 160
**Məmmədova Brilyant** – 170
**Məmmədyarov Elmar** – 103, 104
**Mirmövsüm ağa** – 167
**Mirvarid Dilbazi** – 262
**Musa Əmr** – 104,105–109,110–112
**Muqbil Zərar** – 317
**Mittal Promod** – 283
**Mübarək Hüsnü** – 84–117

| | |
|---|---|
| **Naumov Vladimir** | – 36 |
| **Nazif Əhməd** | – 88,89–90,101,102–103 |
| **Neapolitano Ciorcio** | – 209 |
| **Nərimanbəyov Toğrul** | – 124 |
| **Nəsibov Ədalət** | – 262 |
| **Nəsimi İmadəddin** | – 19 |
| **Nizami Gəncəvi** | – 19 |
| **Ofman Karneleus** | – 213–220 |
| **Osman Sarıvəlli** | – 262 |
| **Osmanoğlu İbrahim** | – 276 |
| **Özbudun Ergün** | – 213–220 |
| **Özkan Cəlal** | – 123 |
| **Petkanov Georgi** | – 155 |
| **Polad Bülbüloğlu** | – 13 |
| **Prodi Romano** | – 210 |
| **Prokopoviç Pyotr** | – 35 |
| **Puşkin Aleksandr** | – 19 |
| **Putin Vladimir** | – 194,195,222,247 |
| **Rasizadə Artur** | – 13,15,18–19,29,117,126, 135 |
| **Raynfeldt Fredrik** | – 211 |
| **Rəhimov Azad** | – 102 |
| **Rostrapoviç Mstislav** | – 12,13–15 |
| **Rusak Leonid** | – 36 |
| **Ruşaylo Vladimir** | – 309 |
| **Rüstəmov Elman** | – 35 |
| **Saakaşvili Miexil** | –136,137,139–140,145–152, 227 |
| **Sadovniçi Viktor** | – 221 |
| **Sakr Həsən** | – 102 |
| **Saqiq İhəb** | – 103 |
| **Saleh Əli** | – 79 |
| **Samarança** | – 76 |
| **Sampson David** | – 291–292 |
| **Santonxan Rafael** | – 76 |
| **Sarkozi Nikola** | – 118 |

**Seyidov Əhməd** – 262
**Sezər Əhməd Necdət** – 207
**Sədat Ənvər** – 96
**Səməd Vurğun** – 262
**Silva Anibal** – 246
**Siracəddin İsmayıl** – 103
**Stoltenberq Yens** – 83
**Svitserlot Rayner** – 198
**Svorob Nikolay** – 36
**Şarovski Aleksandr** – 159
**Şirak Jak** – 196,197
**Şıxlinski Əlağa** – 262
**Tantavi Məhəmməd** – 93–94
**Teymurlu Rəfael** – 62–64
**Tutanxamon** – 98
**Tülü Yusuf** – 199
**Türker Ayhan** – 123
**Usubov Ramil** – 26,103
**Utset Anita** – 310
**Vaqif Molla Pənah** – 262
**Vəkilov İbrahim ağa** – 262
**Vəliyev Hacı Mustafa** – 162–164
**Vidadi Molla Vəli** – 262
**Vişnevskaya Qalina** – 12,13–15
**Vud Cozef** – 243
**Yaradua Umaru** – 181
**Yeltsin Boris** – 9,14
**Yeltsina Naina** – 15
**Yunker Jan-Klod** – 312
**Yusif Səmədoğlu** – 262
**Yusifzadə Xoşbəxt** – 303
**Yuşşenko Viktor** – 136,137,139–140
**Zatlers Valdis** – 287

## Coğrafi adlar göstəricisi

**Abşeron** – 166,167
**Afina** – 254
**Ağdam** – 58
**Ağstafa çayı** – 249
**Almaniya** – 75,98,198,215,260,285
**Amerika Birləşmiş Ştatları** – 72,177,179,180,181,184,185, 217,236,243,291–292,299, 305,306,308
**Aralıq dənizi** – 143
**Ankara** – 207, 208, 216
**Argentina** – 154
Asiya – 27,28,182,183,240
**Aşağı Ayıblı** – 273
**Avrasiya** – 27–28
**Avropa** – 27, 28,41,72,138,139,143, 176,178,183,217,240,279, 282,299,305
**Bakı** – 5,8, 11,12,15,25,28,29,38, 45, 78,79,80,82,83,117,118, 127,136,153,154,163,164, 167,168,207,208,209,210, 211,212,213,218,222,224, 225,227,244,245,246,247, 248,254,277,280,281,285, 287,311,312,313,314,315, 316
**Baltik dənizi** – 139, 140, 141
**Belarus** – 29–56
**Belçika** – 98
**Bəhreyn** – 321
**Binəqədi** – 160, 161, 162–165

**Bolqarıstan** – 155
**Böyük Britaniya** – 96,98,185,219,244,245,290, 320
**Brüssel** – 176,217
**Cənubi Qafqaz** – 40,177,178
**Cibuti** – 313
**Çin** – 182, 183
**Dağıstan** – 16–25
**Dağlıq Qarabağ** – 18,48,58,68,69,70,72,73,99, 107,111,115,169,174,175,176, 177,226,235,294,308
**Daş Salahlı** – 259
**Əfqanıstan** – 180, 291, 317
**Fələstin** – 115
**Filippin** – 248
**Fiva** – 98
**Fransa** – 72,118,174–190,196–197, 226,242
**Füzuli** – 60
**Gəncə** – 38,268, 274–277
**Gürcüstan** – 26,72,136,137,145–152,178, 218,227,259,275,307
**Hindistan** – 182
**Xəzər dənizi** – 27,139,140,141,142,144,179, 182,183,223,225,295–305
**Xınalıq** – 162
**Xırdalan** – 160,161,167
**Xocalı** – 58,152
**Xocavənd** – 58
**Xorvatiya** – 314
**İqdır** – 241
**İraq** – 116,180,182,291
**İran** – 105,116,117,173,180,181,225
**İordaniya** – 153
**İsrail** – 105,115
**İspaniya** – 293–294

**İstanbul** – 97
**İsveç** – 211, 212
**İtaliya** – 209, 210
**Kamerun** – 78
**Kemerovo** – 222
**Kəlbəcər** – 71
**Kiyev** – 178
**Koreya Respublikası** – 5
**Kosovo** – 180,291
**Krakov** – 135–144
**Küveyt** – 306, 322
**Qahirə** – 84–117
**Qafqaz** – 17,22,178,217
**Qara dəniz** – 27,139,140,141,143,182
**Qazax** – 249–263,266,268
**Qazaxıstan** – 137,138,139,140,143,181
**Qərbi Avropa** – 28
**Quşçular** (*kənd)* – 62
**Laçın** – 58,71,73
**Latviya** – 287
**Litva** – 137,139
**Lüksemburq** – 311,312
**Lüdviqshafen** – 75
**Macarıstan** – 191
**Malıbəyli** – 58,62,63
**Masallı** – 254
**Maştağa** – 161
**Mayns** – 285
**Mehdiabad** – 160,161,165,170,171
**Mərdəkan** – 161
**Mərkəzi Asiya** – 217,279,282
**Mingəçevir** – 253
**Minsk** – 37,38,45
**Misir** – 84–117
**Moldova** – 72,178
**Moskva** – 13–15, 192

| | |
|---|---|
| **Mozambik** | – 316 |
| **Naxçıvan** | – 241, 277 |
| **Nigeriya** | – 281 |
| **Norveç** | – 82, 83,310 |
| **Nyu-York** | – 217 |
| **Paris** | – 196 |
| **Pirşağı** | – 161 |
| **Polşa** | – 12,135–144, 150, 218, 288–289 |
| **Portuqaliya** | – 246 |
| **Romana** | – 57 |
| **Rusiya** | – 9,13–15,16–25, 50,72,177, 179,180,181,194–195,214,222, 226,247,259,260 |
| **Sabunçu** | – 57, 161 |
| **Sidney** | – 254 |
| **Sloveniya** | – 315 |
| **Sumqayıt** | – 75 |
| **Suriya** | – 280 |
| **Şərqi Anadolu** | – 241 |
| **Şuşa** | – 58,59,60,72 |
| **Tbilisi** | – 144, 145-152 |
| **Tovuz** | – 263, 264-273,274 |
| **Türkmənistan** | – 178,179,259 |
| **Türkiyə** | – 8,27,28,72,173,177,199,207, 208,216,240 |
| **Ukrayna** | – 72,136,137,178,260 |
| **Uzaq Şərq** | – 28 |
| **Varşava** | – 218 |
| **Vilnüs** | – 142 |
| **Yaxın Şərq** | – 105,110 |
| **Yəmən** | – 79 |
| **Zabrat** | – 160,161 |

## MÜNDƏRİCAT

İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*26 aprel 2007-ci il*.......................................................................................... *5*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYJRİ İLƏ GÖRÜŞ

*26 aprel 2007-ci il*.......................................................................................... *6*

BMT-nin FİKİR VƏ SÖZ AZADLIĞI HÜQUQUNUN TƏŞVİQİ VƏ QORUNMASI ÜZRƏ XÜSUSİ MƏRUZƏÇİSİ AMBEYİ LİQABON İLƏ GÖRÜŞ

*26 aprel 2007-ci il*.......................................................................................... *7*

TÜRKİYƏ PARLAMENTİNİN KEÇMİŞ SƏDRİ HİKMƏT ÇƏTİN İLƏ GÖRÜŞ

*26 aprel 2007-ci il*.......................................................................................... *8*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ

*26 aprel 2007-ci il*.......................................................................................... *9*

ATƏT-in MƏTBUAT AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ MİKLOŞ HARAŞTİ İLƏ GÖRÜŞ

*26 aprel 2007-ci il*.......................................................................................... *10*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEX KAÇİNSKİYƏ

*26 aprel 2007-ci il*.......................................................................................... *11*

XANIM QALİNA VİŞNEVSKAYAYA

*27 aprel 2007-ci il*.......................................................................................... *12*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DÜNYA ŞÖHRƏTLİ MUSİQİÇİ VƏ DİRİJOR

MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA SƏFƏRİ

*28 aprel 2007-ci il........................................................................................ 13*

RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MUXU ƏLİYEVİN AZƏRBAYCANA SƏFƏRİ

*30 aprel 2007-ci il........................................................................................ 16*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MUXU ƏLİYEV İLƏ GÖRÜŞ

*30 aprel 2007-ci il........................................................................................ 20*

DAĞISTAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 aprel 2007-ci il........................................................................................ 21*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MUXU ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*30 aprel 2007-ci il........................................................................................ 23*

GÜRCÜSTANIN BAŞ PROKURORU ZURAB ADEİŞVİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 may 2007-ci il........................................................................................ 26*

AVRASİYA ÖLKƏLƏRİ X İQTİSADİ ZİRVƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

*1 may 2007-ci il........................................................................................ 27*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*1 may 2007-ci il........................................................................................ 29*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ GÖRÜŞ

*2 may 2007-ci il........................................................................................ 31*

AZƏRBAYCAN VƏ BELARUS RESPUBLİKASININ PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*2 may 2007-ci il........................................................................................ 32*

AZƏRBAYCAN VƏ BELARUS PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLA ÇIXIŞLARI

*2 may 2007-ci il........................................................................................ 37*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*2 may 2007-ci il........................................................................................ 45*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO HEYDƏR ƏLİYEV FONDUNDA

*3 may 2007-ci il........................................................................................ 53*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO AZƏRBAYCANDA BELARUS MİLLİ SƏRGİSİNİN AÇILIŞINDA

*3 may 2007-ci il........................................................................................ 55*

BAKININ SABUNÇU RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN TİKİLMİŞ YENİ QƏSƏBƏNİN AÇILIŞ MƏRASİMİNDƏ

*4 may 2007-ci il........................................................................................ 57*

BAKININ SABUNÇU RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN TİKİLMİŞ YENİ QƏSƏBƏNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*4 may 2007-ci il........................................................................................ 65*

ALMANİYANIN LÜDVİQSHAFEN ŞƏHƏRİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 may 2007-ci il........................................................................................ 75*

BEYNƏLXALQ BODİBİLDİNQ VƏ FİTNES FEDERASİYASININ PREZİDENTİ RAFAEL SANTONXAN İLƏ GÖRÜŞ

*4 may 2007-ci il........................................................................................ 76*

KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYYAYA

*4 may 2007-ci il*............................................................................................ *78*

YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏLİ ABDULLAH SALEHƏ

*4 may 2007-ci il*............................................................................................ *79*

YAŞIL TEATRDA BAŞA ÇATMIŞ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*4 may 2007-ci il*............................................................................................ *80*

NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA

*4 may 2007-ci il* ........................................................................................... *82*

NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YENS STOLTENBERQƏ

*4 may 2007-ci il.*........................................................................................... *83*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRƏ RƏSMİ SƏFƏRİ

*6 may 2007-ci il*............................................................................................ *84*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİR PREZİDENTİ HÜSNÜ MÜBARƏKLƏ TƏK-BƏTƏK GÖRÜŞÜ

*6 may 2007-ci il*............................................................................................ *86*

AZƏRBAYCAN VƏ MİSİR PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*6 may 2007-ci il*............................................................................................ *87*

QAHİRƏDƏ AZƏRBAYCAN SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*6 may 2007-ci il*............................................................................................ *88*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN «ƏZHƏRİ ŞƏRİF» UNİVERSİTETİNİN REKTORU İLƏ GÖRÜŞÜ

*6 may 2007-ci il*............................................................................................ *93*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRƏ RƏSMİ SƏFƏRİ DAVAM EDİR

*6 may 2007-ci il.......................................................................................... 95*

MİSİR XALQ MƏCLİSİNİN SƏDRİ ƏHMƏD FƏTHİ SÜRUR İLƏ GÖRÜŞ

*7 may 2007-ci il* ........................................................................................ 99

MİSİRİN BAŞ NAZİRİ ƏHMƏD NAZİF İLƏ GÖRÜŞ

*7 may 2007-ci il ........................................................................................ 101*

AZƏRBAYCAN–MİSİR SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ

*7 may 2007-ci il.......................................................................................... 102*

ƏRƏB DÖVLƏTLƏRİ CƏMİYYƏTİNİN BAŞ KATİBİ ƏMR MUSA İLƏ GÖRÜŞ

*7 may 2007-ci il.......................................................................................... 104*

ƏRƏB DÖVLƏTLƏRİ CƏMİYYƏTİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*7 may 2007-ci il.......................................................................................... 105*

YERLİ VƏ XARİCİ KİV-in NÜMAYƏNDƏLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI

*7 may 2007-ci il.......................................................................................... 110*

MİSİRİN BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ XANIM FAİZƏ ƏBÜLNƏQA İLƏ GÖRÜŞ

*7 may 2007-ci il.......................................................................................... 113*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MENA AGENTLİYİNƏ MÜSAHİBƏSİ

*7 may 2007-ci il.......................................................................................... 114*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ

*7 may 2007-ci il.......................................................................................... 118*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV 9 MAY QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

*9 may 2007-ci il*........................................................................................ *119*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ MƏCLİSDƏ «HEYDƏR ƏLİYEV XATİRƏ ZALI»NIN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*9 may 2007-ci il* ...................................................................................... *121*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

*10 may 2007-ci il*...................................................................................... *125*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNDƏ YAŞIL TEATRIN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*10 may2007-ci il*....................................................................................... *127*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ

*11 may 2007-ci il*...................................................................................... *135*

AZƏRBAYCAN, UKRAYNA VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*11 may 2007-ci il*...................................................................................... *136*

VAVEL QƏSRİNDƏ QARŞILANMA MƏRASİMİ VƏ ENERJİ SAMMİTİNİN AÇILIŞI

*11 may 2007-ci il*...................................................................................... *137*

ENERJİ SAMMİTİNİN YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSI

*11 may 2007-ci il*...................................................................................... *139*

ENERJİ SAMMİTİNİN YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSINDA NİTQ

*11 may 2007-ci il*...................................................................................... *141*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ

*12 may 2007-ci il*...................................................................................... *145*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN TBİLİSİDƏ HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQLƏRİ

*12 may 2007-ci il* .......................................................................................... *146*

İORDANİYANIN KRALI ƏLAHƏZRƏT II ABDULLAHA

*14 may 2007-ci il* .......................................................................................... *153*

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NESTOR KİRÇNERƏ

*14 may 2007-ci il* .......................................................................................... *154*

BOLQARISTANIN ƏDLİYYƏ NAZİRİ GEORGİ PETKANOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 may 2007-ci il* .......................................................................................... *155*

«HESS KORPORATİON»un İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI RƏHBƏRİ CON HESSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 may 2007-ci il* .......................................................................................... *156*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT KUKLA TEATRINDA, HEYDƏR ƏLİYEV ADINA SARAYDA VƏ DÖVLƏT RUS DRAM TEATRINDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*16 may 2007-ci il* .......................................................................................... *157*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DAİRƏVİ AVTOMOBİL YOLUNUN VƏ YERALTI PİYADA KEÇİDİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*17 may 2007-ci il* .......................................................................................... *160*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN «LA LETTRE DİPLOMATİGUE» JURNALINA MÜSAHİBƏSİ

*17 may 2007-ci il* .......................................................................................... *174*

MACARISTANIN XARİCİ İŞLƏR NAZİRİ KİNQA GÖNTSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 may 2007-ci il* .......................................................................................... *191*

AKADEMİK MİRMƏMMƏD CAVADZADƏYƏ «İSTİQLAL» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*18 may 2007-ci il* .................................................................................... *192*

RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*21 may 2007-ci il* .................................................................................... *194*

FRANSA–QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDRİ, SENATOR AMBRUAZ DÜPONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 may 2007-ci il* .................................................................................... *196*

ALMANİYANIN «WINTERSHALL» SƏHMDAR CƏMİYYƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ RAYNER SVİTSERLOTUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 may 2007-ci il* .................................................................................... *198*

TÜRKİYƏNİN SARIYER BƏLƏDİYYƏSİNİN SƏDRİ YUSUF TÜLÜNÜN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 may 2007-ci il* .................................................................................... *199*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT İNCƏSƏNƏT MUZEYİNİN YAXINLIĞINDAKI PARKDA BAŞA ÇATMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*22 may 2007-ci il* .................................................................................... *200*

ABŞ DÖVLƏT KATİBİNİN İQTİSADİ VƏ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FRENK MERMUDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 may 2007-ci il* .................................................................................... *204*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA «XƏTAİ» TİCARƏT VƏ İSTİRAHƏT MƏRKƏZİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*23 may 2007-ci il* .................................................................................... *205*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

*23 may 2007-ci il* .................................................................................... *207*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*23 may 2007-ci il* ........................................................................................ *208*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NEOPOLİTANOYA

*23 may 2007-ci il*........................................................................................ *209*

İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB ROMANO PRODİYƏ

*23 may 2007-ci il*........................................................................................ *210*

İSVEÇ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB FREDRİK RAYNFELDTƏ

*23 may 2007-ci il*........................................................................................ *211*

İSVEÇİN KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*23 may 2007-ci il*........................................................................................ *212*

BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN İŞTİRAKÇILARININ BİR QRUPU İLƏ GÖRÜŞ

*23 may 2007-ci il* ........................................................................................ *213*

MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU VİKTOR SADOVNİÇİ İLƏ GÖRÜŞ

*24 may 2007-ci il* ........................................................................................ *221*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*24 may 2007-ci il*........................................................................................ *222*

XƏZƏRİN DƏNİZ MÜHİTİNİN MÜHAFİZƏSİNƏ HƏSR OLUNMUŞ BİRİNCİ BAKI KONFRANSININ İŞTİRAKÇILARINA

*24 may 2007-ci il*........................................................................................ *223*

İRANIN EKOLOGİYA KOMİTƏSİNİN SƏDRİ, İRAN PREZİDENTİNİN EKOLOGİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DOKTOR VAEZ CAVADİ İLƏ GÖRÜŞ

*25 may 2007-ci il*........................................................................................ *225*

ATƏT-in MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNAR FASYE VƏ RUSİYALI HƏMSƏDRİ YURİ MERZLYAKOV İLƏ GÖRÜŞ

*25 may 2007-ci il* ........ *226*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ

*25 may 2007-ci il* ........ *227*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA NİTQ

*25 may 2007-ci il* ........ *228*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İSTİQLALİYYƏT KÜÇƏSİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*25 may 2007-ci il* ........ *239*

LUVR MUZEYİNİN DİREKTORU ANRİ LUARET İLƏ GÖRÜŞ

*29 may 2007-ci il* ........ *242*

ABŞ VİTSE-PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ COZEF VUD İLƏ GÖRÜŞ

*29 may 2007-ci il* ........ *243*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ

*29 may 2007-ci il* ........ *244*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*29 may 2007-ci il* ........ *245*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*29 may 2007-ci il* ........ *246*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*29 may 2007-ci il* ........ *247*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM QLORİYA MAKAPAQAL ARROYAYA

*29 may 2007-ci il* ........................................................................................ *248*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAX RAYONUNA SƏFƏRİ

*30 may 2007-ci il*......................................................................................... *249*

QAZAXDA OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞI

*30 may 2007-ci il*......................................................................................... *250*

QAZAX OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*30 may 2007-ci il*......................................................................................... *252*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TOVUZ RAYONUNA SƏFƏRİ

*30 may 2007-ci il*......................................................................................... *264*

TOVUZ OLİMPİYA KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ NİTQ

*30 may 2007-ci il*......................................................................................... *266*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏRİ

*30 may 2007-ci il*......................................................................................... *274*

«TRANSPARENCY İNTERNATİONAL» TƏŞKİLATININ AVROPA VƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ ÜZRƏ REGİONAL GÖRÜŞÜNÜN VƏ «KORRUPSİYAYA QARŞI MÜBARİZƏ VƏ KEÇİD DÖVRÜ ÖLKƏLƏRİNDƏ İSLAHATLAR» MÖVZUSUNA HƏSR OLUNMUŞ KONFRANSININ İŞTİRAKÇILARINA

*30 may 2007-ci il*......................................................................................... *278*

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ

*31 may 2007-ci il*......................................................................................... *280*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UMARU YARADUAYA

*31 may 2007-ci il* ........................................................................................ 281

«TRANSPARENCY İNTERNATİONAL» TƏŞKİLATININ SƏDRİ HÜGET LABEL İLƏ GÖRÜŞ

*31 may 2007-ci il* ........................................................................................ 282

«GLOBAL STEEL» ŞİRKƏTİNİN PREZİDENTİ PROMOD MİTTAL İLƏ GÖRÜŞ

*31 may 2007-ci il* ........................................................................................ 283

«SİEMENS» SƏHMDAR CƏMİYYƏTİNİN MƏRKƏZİ İDARƏ HEYƏTİNİN ÜZVÜ RUDİ LAMPREXT İLƏ GÖRÜŞ

*31 may 2007-ci il* ........................................................................................ 284

ALMANİYANIN MAYNS ŞƏHƏR BƏLƏDİYYƏSİNİN BAŞÇISI JENS BEUTELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 may 2007-ci il* ........................................................................................ 285

YƏHUDİ İCMALARI FEDERASİYASININ PREZİDENTİ LEV LEVAYEV İLƏ GÖRÜŞ

*31 may 2007-ci il* ........................................................................................ 286

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VALDİS ZATLERSƏ

*1 iyun 2007-ci il* ........................................................................................ 287

POLŞANIN DAXİLİ İŞLƏR VƏ ADMİNİSTRASİYA NAZİRİ YANUŞ KAÇMAREKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2007-ci il* ........................................................................................ 288

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ LORENS BRİSTOUNU DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

*1 iyun 2007-ci il* ........................................................................................ 290

ABŞ-ın TİCARƏT NAZİRİNİN MÜAVİNİ DAVİD SAMPSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 iyun 2007-ci il........................................................................................ 291*

ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, İSPANİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİGEL ANGEL MORATİNOS KUYAUBENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 iyun 2007-ci il........................................................................................ 293*

BAKIDA «XƏZƏR NEFT-QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI-–2007» XIV BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*5 iyun 2007-ci il ....................................................................................... 295*

KÜVEYTİN XARİCİ NEFT-TƏDQİQAT ŞİRKƏTİNİN SƏDRİ VƏ İDARƏETMƏ ÜZRƏ DİREKTORU BƏDR ƏL-XAŞTİ VƏ ABŞ-ın GFİ NEFT VƏ QAZ ŞİRKƏTİNİN PREZİDENTİ RİÇARD MAKDUQAL İLƏ GÖRÜŞ

*5 iyun 2007-ci il........................................................................................ 306*

GÜRCÜSTANIN ENERGETİKA NAZİRİ NİKA GİLAUR İLƏ GÖRÜŞ

*5 iyun 2007-ci il........................................................................................ 307*

ABŞ-ın DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2007-ci il........................................................................................ 308*

MDB-nin İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ, İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ

*5 iyun 2007-ci il........................................................................................ 309*

NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ XANIM ANİTA UTSETİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2007-ci il........................................................................................ 310*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*6 iyun 2007-ci il........................................................................................ 311*

LÜKSEMBURQ BÖYÜK HERSOQLUĞUNUN BAŞ NAZİRİ CƏNAB JAN-KLOD YUNKERƏ

*6 iyun 2007-ci il* ........................................................................................ *312*

CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSMAİL ÖMƏR QULLEHƏ

*6 iyun 2007-ci il* ........................................................................................ *313*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STİPE MESİÇƏ

*6 iyun 2007-ci il* ........................................................................................ *314*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANEZ DRNOVŞEKƏ

*6 iyun 2007-ci il* ........................................................................................ *315*

MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARMANDU EMİLİU GEBUZAYA

*6 iyun 2007-ci il* ........................................................................................ *316*

ƏFQANISTANIN DAXİLİ İŞLƏR NAZİRİ ZƏRAR ƏHMƏD MUQBİLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 iyun 2007-ci il* ........................................................................................ *317*

«MİCROSOFT» ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ KREYQ MANDİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 iyun 2007-ci il* ........................................................................................ *318*

BÖYÜK BRİTANİYA PARLAMENTİ İCMALAR PALATASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 iyun 2007-ci il* ........................................................................................ *320*

BƏHREYNİN XARİCİ İŞLƏR NAZİRİ XALİD BİN ƏHMƏD BİN ƏL-XƏLİFƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 iyun 2007-ci il* ........................................................................................ *321*

KÜVEYT BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ŞEYX MƏHƏMMƏD ƏS-SALİM ƏS-SABAHIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 iyun 2007-ci il* ........ *322*

*Q E Y D L Ə R* ........ *323*

*Şəxsi adlar göstəricisi* ........ *384*

*Coğrafi adlar göstəricisi* ........ *390*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,5. Uçot vərəqi 26,0. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.